İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ ON YEDDİNCİ KİTAB

## YANVAR 2022 - FEVRAL 2022

AZƏRNƏŞR
BAKI - 2022

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2022

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2022, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyasına rəsmi səfəri, səfər zamanı «Rusiya–Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə», həmçinin «Rossiya-24» kanalına və Azərbaycan Dövlət İnformasiya Agentliyinə müsahibələri yer almışdır.

Kitabda dövlət başçısının Ağdam və Gəncə şəhərlərinə səfərləri, Gəncədə erməni terroru nəticəsində həlak olmuş dinc sakinlərin xatirəsinə həsr olunan Gəncə Memorial Kompleksinin təməlqoyma mərasimində, o cümlədən Azərbaycan Gəncləri Gününün 25 illiyi münasibətilə keçirilən Gənclər Forumunda iştirakına dair materiallar verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2022}}$ **BBK - 32**

© Azərnəşr, 2022

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Sizi və qardaş Türkiyə xalqını Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

14 yanvar 1992-ci ildə qardaş Türkiyə ilə diplomatik əlaqələrin yaradılması Azərbaycan Respublikasının tarixində əlamətdar hadisə olmuşdur. XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuş Azərbaycanın ilk olaraq Türkiyə tərəfindən tanınması və sonra da diplomatik münasibətlərin qurulması əsl qardaşlıq və həmrəylik nümunəsi kimi xalqımızın milli yaddaşına əbədi həkk olunmuşdur.

Böyük fərəh hissi ilə qeyd etmək istəyirəm ki, ötən dövr ərzində Azərbaycan–Türkiyə münasibətləri möhtəşəm inkişaf yolu keçibdir. Ölkələrimiz tarixi sınaqlardan şərəflə və başıuca çıxaraq, «Bir millət – iki dövlət» şüarının ruhuna sadiqliyini təsdiq edib, onu yaşadıbdır.

Xalqlarımızın əsrlərdən əsrlərə keçən birliyi, qardaşlığı və dostluğu kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz bu gün

özünün ən yüksək səviyyəsindədir. Qardaş ölkələrimizin istər siyasi, iqtisadi, ticari, mədəni, enerji, hərbi, texnoloji və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı, istərsə də beynəlxalq təsisatlar çərçivəsində uğurlu işbirliyi bizi sevindirir. Gerçəkləşdirdiyimiz nəhəng enerji, nəqliyyat, infrastruktur layihələri ortaq təşəbbüslərimizin və birgə səylərimizin real təntənəsidir. İkitərəfli əməkdaşlıq zəminində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əmin-amanlığın və sabitliyin bərqərar olmasına töhfə verir.

Keçən ilin iyununda bütün Türk Dünyasının qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması sarsılmaz birliyimizi bir daha təsdiq edən mühüm tarixi addım idi. Bu sənəd Azərbaycan–Türkiyə əlaqələrinin inkişafının konseptual istiqamətlərini müəyyən edərək, gələcək müştərək müvəffəqiyyətlərimizə yol açan yeni mərhələnin əsasını qoymuşdur.

Əziz qardaşım!

Dünyada bərabəri olmayan, dostluq və qardaşlığın ən gözəl nümunəsi olan Azərbaycan–Türkiyə münasibətlərinin, müttəfiqliyinin inkişafı və möhkəmləndirilməsində Sizin xidmətləriniz əvəzsizdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı hər zaman ortaya qoyduğunuz qəti və birmənalı mövqe, haqq işimizə verdiyiniz tərəddüdsüz dəstək bizi daim ruhlandırır və əlavə güc verirdi. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsinin ilk saatlarından son dəqiqələrinə qədər şəxsən Sizin, Türkiyə Respublikasının, qardaş xalqınızın nü-

mayiş etdirdiyi mənəvi dəstəyi, həmrəyliyi heç zaman unutmayacaq. Bu gün də işğaldan azad edilmiş torpaqların əsaslı yenidən qurulması və bərpası işlərində Türkiyə ilə çiyin-çiyinə bir yerdə irəliləməyimiz böyük məmnunluq doğurur. Biz də öz növbəmizdə, hər zaman bütün məsələlərdə qardaş Türkiyənin yanında olmağa davam edəcəyik.

Əminəm ki, bu günün reallığı və xalqlarımızın qürur mənbəyi olan nümunəvi Azərbaycan–Türkiyə birliyi və qardaşlığı gələcək nəsillərə strateji «Yol xəritəsi», əbədi və sarsılmaz miras olaraq qalacaqdır.

Sizi bu əlamətdar tarixi ildönümü münasibətilə bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 yanvar 2022-ci il*

**İSRAİL DÖVLƏTİNİN
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB İSXAK HERSOQA**

Hörmətli cənab Prezident!

Ananız – Aura Hersoqun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 yanvar 2022-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ENERGETİKA NAZİRİ ŞAHZADƏ ƏBDÜL ƏZİZ BİN SALMAN AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının Energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev**: Cənab nazir, bir daha xoş gəlmisiniz! Mən çox məmnunam ki, siz bizim ölkəmiz, tərəfdaşlığımız, qardaşlıq münasibətlərimiz üçün mühüm olan bu tədbirdə iştirak etməyə vaxt tapmısınız. Bir daha sizdən əlahəzrət Krala və əlahəzrət vəliəhd şahzadəyə salamlarımı çatdırmağı xahiş etmək istərdim.

Mən sizin ölkə rəhbərləri ilə görüşlərimi və qardaş Səudiyyə Ərəbistanına çoxsaylı səfərlərim zamanı mənə göstərilən böyük qonaqpərvərliyi xatırlayıram. Çıxışımda qeyd etdiyim kimi, işğal illərində Səudiyyə Ərəbistanının Azərbaycana göstərdiyi davamlı dəstəyə görə minnətdarlığımı bildirmək istərdim. Biz bunu həqiqətən də yüksək qiymətləndiririk və əsl qardaşlıq, həmrəylik və həqiqi

dəstək göstəricisi hesab edirik. Bizim beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında torpaqlarımızın işğalı ilə bağlı ədalətin bərpasına yönəlmiş birgə səylərimiz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Torpaqlarımızın işğaldan azad olunması indi ölkə üçün yeni imkan, regionda nəhəng geosiyasi dəyişiklikdir. Bizim İkinci Qarabağ müharibəsindəki Qələbəmiz regional əməkdaşlıq, o cümlədən elektrik enerjisi istehsalı, xüsusilə bərpa olunan enerji sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır. Mən artıq planlarımız, potensial barədə danışdım. Hesab edirəm ki, biz bu mühüm infrastruktur layihəsinin icrası zamanı gələcəyə baxaraq, nəhəng potensialımızdan istifadə edərək, maksimal dərəcədə səylərimizin necə əlaqələndirilməsini nəzərdən keçirə bilərik. Çox şadam ki, bizim nazirlə sizin yaxın münasibətləriniz var. O mənə OPEC+ formatında və ikitərəfli əlaqələr sahəsində sizin təmaslarınız haqqında müntəzəm olaraq məlumat verir.

Mən investorları cəlb etmək məqsədimizə nail olduğumuzu yüksək qiymətləndirirəm və bu investorun bu sahədə dünyada ən aparıcı şirkətlərdən biri və qardaş ölkədən olması məni şəxsən sevindirir. Bu bizim üçün və gələcək əməkdaşlığımız üçün çox önəmlidir. Əminəm ki, sizin bizi ziyarət etmək üçün daha çox vaxtınız olacaq. Qeyd etdiyiniz kimi, bu sizin Azərbaycana ilk səfərinizdir. Ümidvaram ki, biz sizi daha da çox görəcəyik. Bir daha xoş gəlmisiniz!

*Səudiyyə Ərəbistanı Krallığının Energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Al Səud ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini söylədi. Qonaq özünün və rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda fəal çalışdıqlarını vurğulayaraq, qarşılıqlı əməkdaşlığın daha da genişlənəcəyini bildirdi. Əbdül Əziz bin Salman Al Səud yaxın vaxtlarda daha geniş əlaqələri əks etdirən əməkdaşlıq müqaviləsi layihəsinin təqdim olunacağına ümidvarlığını ifadə etdi.*

*Səudiyyə Ərəbistanı Krallığının Energetika naziri əlaqalərimizin uğurla inkişaf etdiyini bildirərək, «Xızı–Abşeron» Külək Elektrik Stansiyasının təməlqoyma mərasiminin əhəmiyyətini vurğuladı, səmərəlilik, bərpa olunan enerji mənbələri və digər aspektlər üzrə baxışlarımızın üst-üstə düşdüyünü məmnunluqla bildirdi.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ «ACWA POWER» ŞİRKƏTİNİN ÖLKƏMİZDƏ İNŞA EDƏCƏYİ «XIZI–ABŞERON» KÜLƏK ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*13 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının «ACWA Power» şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə «Xızı–Abşeron» Külək Elektrik Stansiyasının Gülüstan sarayında keçirilmiş təməlqoyma mərasimi ilə bağlı tədbirdə iştirak etmişdir.*

*Dövlət başçısı tədbirdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Azərbaycanda inşa ediləcək yeni külək elektrik stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha göstərir ki, bərpa olunan enerji növlərinin

istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının «ACWA Power» şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq, stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq, bu gün artıq bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya enerji sektorunda Azərbaycanda bərpa olunan ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda, çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaqdır. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaqdır. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır.

Şadam ki, bizim bərpa olunan bu böyük enerji layihəsinin icraçısı və investoru qardaş Səudiyyə Ərəbistanının şirkətidir. Bildiyiniz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında çox sıx dostluq və qardaşlıq münasibətləri vardır. Biz müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsində fəal çalışmışıq. Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızdakı dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, bütün Azərbaycan xalqı Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərə-

bistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla, ümumiyyətlə, diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstək və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir. Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Eyni zamanda, iqtisadiyyatın müxtəlif sahələrində fəal əməkdaşlıq edirik. Pandemiyaya qədər Səudiyyə Ərəbistanından gələn turistlərin sayı ildən-ilə artırdı. Ümid edirəm ki, pandemiya başa çatandan sonra biz yenə də Səudiyyə Ərəbistanının vətəndaşlarını, öz qardaşlarımızı Azərbaycanda görəcəyik.

İqtisadi sahədə çox böyük perspektivlər vardır. Təbii ki, biz birlikdə energetika sahəsində OPEC+ formatında fəal çalışırıq. Deyə bilərəm ki, OPEC+ formatı yaradılandan bu günə qədər Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əməkdaşlığında xüsusi rol oynayır. Bu formatda iştirak edən digər ölkələrlə bərabər, biz neftin qiymətinin sabitləşməsinə nail ola bilmişik. Bu stansiyanın investoru tanınmış və bu sahədə böyük təcrübəsi olan «Akvopao» şirkətidir. Şirkət haqqında çox danışmaq olar, təkcə onu qeyd etməliyəm ki, bu, enerji sahəsində dünyanın ən böyük şirkətidir. Mənə verilən məlumata görə, şirkət tərəfindən inşa edilmiş stansiyaların enerji istehsalı gücü 42 min meqavatdan çoxdur. Təsəvvür etmək o qədər də çətin deyil. Şadam ki, bu şirkət Azərbaycana da maraq göstərir.

Əlbəttə, burada bizim ikitərəfli dövlətlərarası əlaqələrimizin rolu çox böyükdür, eyni zamanda,

son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, gözəl investisiya iqlimi, ölkəmizin uğurlu inkişafı, ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, təhlükəsizlik – bütün bu amillər təbii ki, hər bir investor üçün önəmli rol oynayır. Bir də ki, Azərbaycanda xarici investisiyaların qorunması da ən yüksək səviyyədədir. Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətli və dəyərlidir. Bu möhtəşəm Gülüstan sarayında 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» artıq uzun illərdir icra edilir və o müqavilədə bir söz, hətta bir vergül belə, dəyişdirilməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə Azərbaycana on milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu sərmayə qoyuluşu davam edir. Xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda, pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalmasına baxmayaraq – bütün bunlar mənfi amillərdir – qardaş ölkənin şirkəti Azərbaycana böyük həcmdə investisiya qoyuluşuna qərar verib və bu gün biz Xızı rayonunda inşa ediləcək 240 meqavat gücündə külək elektrik stansiyasının təməlini qoyuruq. Onu da bildirməliyəm ki, Azərbaycan müstəqillik dövründə uzun illər ərzində öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, həm neft məhsulları, həm də elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu dörd məhsulu dünya

bazarlarına da ixrac edir. Beləliklə, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir. Ancaq onu da bilməliyik ki, ölkə sürətlə inkişaf edir. Keçən ilin yekunlarına görə bizim neft və qazla bağlı olmayan, yəni qeyri-neft sənayemiz təxminən 20 faiz artıbdır. Ölkə əhalisi artır, tələbat da artır. Ona görə təbii ki, biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq. Bərpa olunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir. Onu da bildirməliyəm ki, işğaldan azad edilmiş ərazilərdə – Cəbrayıl rayonunda hazırda böyük Günəş elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaqdır. Deyə bilərəm, aparılmış dəqiq təhlil nəticəsində bəlli oldu ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpa olunan külək və Günəş elektrik enerjisinin istehsalı mümkündür. Əlbəttə, biz çox istərdik ki, dost ölkələrin investorları, şirkətləri bu imkanları da araşdırsınlar və bizimlə bərabər bu böyük layihələrə start versinlər. Onu da bildirməliyəm ki, Azərbaycan həm daxili tələbatı tam ödəyir, həm də bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Bu imkanı bizə qonşu ölkələrlə bizi birləşdirən yüksəkgərginlikli enerji xətləri yaradır, lazım olarsa, yeni xətlər də çəkilər. Çünki həm region ölkələrində, həm də Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr

nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, eləcə də kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Dünyanın, demək olar ki, gündəliyinin ön sıralarında olan «Yaşıl gündəlik» də təsdiq edilib və biz öz növbəmizdə, işğaldan azad edilmiş əraziləri – 10 min kvadratkilometr ərazini «yaşıl enerji» zonası elan etmişik. Artıq bir neçə su-elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız vardır.

Bir sözlə, bu külək elektrik stansiyasının yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, gözəl göstəricidir. Digər potensial investorlar üçün də bir siqnaldır ki, onlar da vaxt itirmədən müəyyən addımlar atsınlar. Onu da bildirməliyəm ki, Azərbaycanın bərpa olunan enerji potensialına dünyanın nəhəng şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir. Ölkəmizdə həm sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yəni həqiqəti əks etdirən fikirlər, həm siyasətimizin proqnozlaşdırılması, həm də güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı vardır. Yəni bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir.

Mən tam əminəm ki, hazırda ölkəmizdə inşa ediləcək bu ən böyük bərpa olunan enerji stansiyası-

nın açılışından sonra və bəlkə də açılışına qədər biz digər investisiya layihələrini icra etməyə başlayacağıq. O ki qaldı bu stansiyanın açılışına, ümid edirəm ki, çox vaxt keçmədən biz bu böyük enerji layihəsinin açılışını birlikdə qeyd edəcəyik.

Bir daha sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, dediyim kimi, yaxın gələcəkdə bu stansiyanın açılışını birlikdə qeyd edək. Sağ olun.

**Şahzadə Əbdül Əziz bin Salman Al Səudun çıxışı**

Cənab Prezident, icazə verin, çıxışıma onunla başlayım ki, Sizə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralı əlahəzrət Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını çatdırım. Onlar Azərbaycan Respublikasına davamlı uğur diləyir, Azərbaycanla münasibətlərin daha da möhkəmlənməsində Səudiyyə Ərəbistanı Krallığının maraqlı olduğunu bir daha vurğulayırlar. Bu gün burada təməlqoyma mərasimində Sizinlə olmaqdan çox məmnunam. Zati-aliləri cənab Prezident, gözəl Bakı şəhərində bizi bu qədər səmimi qəbula görə icazə verin, Sizə səmimi təşəkkürümü bildirim.

*Səudiyyə Ərəbistanı Krallığının Energetika naziri, şahzadə Əbdüləziz bin Salman Al Səud Prezident İlham Əliyevin rəhbərlik keyfiyyətləri sayəsində OPEC+ çərçivəsində əldə edilmiş uğurların əhəmiyyətini vurğuladı. O, son bir neçə il ərzində dünya neft sənayesində və OPEC+ formatında ölkələrimiz ara-*

*sında güclü müttəfiqlik, tərəfdaşlıq və dostluq əlaqələrinin qurulduğunu qeyd etdi. Nazir azərbaycanlı həmkarı ilə də bu sahədə fəal iş apardıqlarını bildirdi:*

– Azərbaycan və Səudiyyə Ərəbistanı arasında uzun müddət ərzində güclü diplomatik və iqtisadi münasibətlər olub. Krallıq 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Bu münasibətlər müasir Azərbaycan dövlətinin banisi, zati-aliləri mərhum Prezident Heydər Əliyevin 1994-cü ildə Ər-Riyada səfəri ilə daha da gücləndirilib. Allah ona rəhmət eləsin.

Ölkələrimiz arasında bir çox oxşarlıqlar vardır. Hər iki ölkə dinamik və qabaqcıl ölkə olaraq, iqtisadiyyat və cəmiyyətimizin müasirləşdirilməsi və transformasiyası yoluna qədəm qoyub. Odlar yurdu Azərbaycan birmənalı şəkildə müasir karbohidrogen sənayesinin beşiyi olduğunu iddia edə bilər, çünki hələ XIX əsrdə burada quyulardan neft hasil edilirdi. Hazırda biz bu gün bütün dünya ilə birgə iqlim dəyişikliyinə qarşı mübarizənin aparılmasında və qlobal istiləşmənin fəsadlarının qarşısının alınmasında bir araya gələrək, ortaq və mühüm marağa sahibik.

«ACWA Power» 2030-cu ilə qədər Səudiyyə Ərəbistanında elektrik enerjisinə olan daxili tələbatın 50 faizini məhz bərpa olunan enerji mənbələri sayəsində təmin etmək üçün külək və Günəş enerjisi potensialını artıraraq, Krallığımızın bərpa olunan enerji sahəsində təşəbbüslərinin önündə olub. Bu gün qeyd etdiyimiz kimi, Azərbaycana yatırılan 300 milyon dollara yaxın sərmayə «ACWA Power» şirkətinin Səu-

diyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. Bildiyiniz kimi, bu enerji stansiyasının gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Eyni zamanda, 220 milyon kubmetr qaza qənaət olunacaq və biz il ərzində 400 min ton karbon qazının atmosferə atılmasını azaldacağıq. Bununla biz Azərbaycanın 2030-cu ilə qədər bərpa olunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə vermiş olacağıq.

«ACWA Power» şirkəti Azərbaycanda dənizdə külək enerjisi stansiyasının tikilməsi layihəsi ilə əlaqədar da Anlaşma Memorandumu imzalayacaq ki, onun ümumi gücü təxminən 500 meqavat olacaqdır. İlkin mərhələdə külək enerjisindən istifadə potensialı araşdırılaraq, yaşıl karbohidrogenlərin hasil edilməsindəki mümkün tətbiqi öyrəniləcək.

Cənab Prezident, bu gün böyük fərəh hissi ilə qeyd edirəm ki, biz iki nazirlik olaraq, birgə çalışırıq. Bu rübün sonuna qədər iki nazirlik arasında bir çox aspektlər üzrə əməkdaşlığımızın irəli aparılması yolları ilə əlaqədar neft-qaz sahəsi, neft-kimya məhsulları, bərpa olunan enerji, səmərəlilik, karbon tullantılarının atmosferə atılmasının azaldılması üzərində qurulmuş iqtisadiyyat üzrə memorandumun hazırlanmasına ümid edirik. Əməkdaşlıq üçün ümumi istəyin olacağı təqdirdə, biz hər bir aspekt üzrə işbirliyi qurmalıyıq. Bu, ölkə və onun xalqı üçün, bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu ölkənin rəhbərliyi ilə əməkdaşlıq bizim üçün

mühüm əhəmiyyətə malikdir. İki müsəlman ölkəsi arasında uzun məsafənin olmasına baxmayaraq, bir-birinə bu qədər yaxın olmasını görməkdən yaxşı nə ola bilər?! Bu, ölkələrimizi ayıran məsafədən asılı olmayaraq, məhz onların rəhbərliyinin uzaqgörənliyi və iradəsi ilə izah olunur. Bununla belə, ölkələrimizi birləşdirən amil öz xalqlarının rifahını yaxşılaşdırmaq kimi məsələlərdən ibarət ümumi gündəlikdir. Sağ olun, cənab Prezident.

* * *

*Mərasimdə Azərbaycanda bərpa olunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirildi.*

*Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və şahzadə Əbdül Əziz bin Salman Al Səud inşa ediləcək 240 MVt gücündə «Xızı–Abşeron» Külək Elektrik Stansiyasının təməlini qoydular.*

## UKRAYNAYA İŞGÜZAR SƏFƏR

*14 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Kiyevin Borispol Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçımızı Ukrayna Xarici İşlər nazirinin birinci müavini Emine Caparova və digər rəsmi şəxslər qarşıladılar.*

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Kiyev*

*14 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 14-də Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək görüşü olmuşdur.*

*Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*Azərbaycan nümayəndə heyəti Ukrayna Prezidenti Volodimir Zelenskiyə, Ukrayna nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edildi.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Kiyev*

*14 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Volodimir Zelenskinin yanvarın 14-də geniş tərkibdə görüşü keçirilmişdir.*

**Volodimir Zelenski:** Bu gün Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə gözəl, çox məzmunlu söhbətimiz oldu. Mən onu və komandasını, xüsusən indiki vaxtda, COVID-ə baxmayaraq, Ukraynada görməyimə çox şadam. COVID həqiqətən, ölkələrimiz üçün böyük təhdiddir. Lakin biz başa düşürük ki, COVID-lə mübarizə aparmalıyıq, görüşməliyik ki, gələcəkdə ölkələrimiz arasında gözəl münasibətləri inkişaf etdirək. Ukraynanı, bizim suverenliyimizi, dövlətlərimiz arasında mövcud olan birgə layihələri dəstəklədiyinizə görə Sizə təşəkkür edirəm. Əminəm ki, həmin layihələr gələcəkdə bizim münasibətlərimizi inkişaf etdirəcək.

Bu gün biz bir neçə məsələni qaldırdıq: enerji xarakterli, infrastruktur, nəqliyyat məsələləri, hərbi-texniki əməkdaşlıq və sair – çoxlu məsələlər. Düşünürəm ki, aqrosənaye kompleksi məsələsi ən vacib məsələdir, ona görə ki, bu gün ərzaq təhlükəsizliyi

təbabətdə təhlükəsizlik, dünyada prioritet olan enerji təhlükəsizliyi və müstəqillik ilə müqayisədə heç də az aktual deyil. Fikrimcə, bu birgə layihələrin başlanğıcı kimi, mühüm sənədləri biz hökmən imzalayacağıq və bu layihələrin nazirliklər səviyyəsində tamamlanmasını davam etdirəcəyik.

Azərbaycan Prezidentinə bir daha təşəkkür etmək istəyirəm ki, belə mürəkkəb bir zamanda Ukraynaya səfər üçün vaxt tapıb. Bu, birinci səfər deyil və düşünürəm ki, sonuncu səfər də deyil.

**İ l h a m Ə l i y e v**: Təşəkkür edirəm, cənab Prezident, məni Ukraynaya dəvət etdiyiniz üçün Sizə minnətdaram. Şadam ki, yenidən gözəl ölkənizə səfər edirəm. Qeyd etdiyiniz kimi, bu gün keçirdiyimiz təkbətək görüş çox məhsuldar oldu. Ukrayna və Azərbaycan uzun illər ərzində bir-biri ilə uğurla əməkdaşlıq edir, biz beynəlxalq platformalarda da bir-birimizin maraqlarını müdafiə edirik. İki ölkənin bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəklənməsi, müdafiə edilməsi əməkdaşlığımızın səviyyəsindən xəbər verir. Bu gün siyasi dialoqla bərabər, çox geniş iqtisadi gündəliyimiz vardır. Bu gün biz Sizinlə bu gündəliyi geniş, bir-bir müzakirə etdik və qeyd etdiyiniz kimi, çox gözəl perspektivlər vardır.

Şadam ki, artıq iqtisadi sahədə canlanma var, baxmayaraq ki, pandemiya hələ davam edir. Amma ticarət dövriyyəmizin qalxmasına nəzər salsaq görərik ki, müsbət meyillər mövcuddur. Bu gün müzakirə etdiyimiz və əminəm ki, həyata keçiriləcək məsələlər və layihələr bizim iqtisadi əməkdaşlığımı-

zı dərinləşdirəcək. Ənənəvi olaraq, energetika sektorunda bizim əməkdaşlığımız var, Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR uzun illərdir Ukraynada fəaliyyət göstərir və bu fəaliyyəti genişləndirmək istəyir. Nəqliyyat, kənd təsərrüfatı, turizm sektorlarının da böyük perspektivləri vardır. Əsas odur ki, hökumətlərarası birgə Komissiya bütün bu məsələləri geniş təhlil edib konkret qərarların hazırlanması ilə bağlı bundan sonra da fəal məşğul olsun. Mən Komissiyanın fəaliyyətini müsbət qiymətləndirirəm və eyni zamanda, müxtəlif dövlət qurumları arasındakı təmaslar da son vaxtlar daha intensiv xarakter alır. Həm qarşılıqlı səfərlər, həm telefon vasitəsilə təmaslar bir çox məsələlərin həllinə xidmət göstərir.

Ukrayna ilə Azərbaycan arasında uzun illər qarşılıqlı surətdə faydalı əlaqələr davam edir. Əminəm ki, bu səfərdən sonra biz əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsini görəcəyik. Bir daha dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm.

* * *

*Görüşdə iqtisadi sahədə, o cümlədən kənd təsərrüfatı, nəqliyyat, enerji, qida təhlükəsizliyi sahələrində əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Kiyev*

*14 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Volodimir Zelenskinin iştirakı ilə yanvarın 14-də Kiyevdə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsini imzaladılar.*

*Azərbaycan Respublikasının Energetika naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Pərviz Şahbazov və Ukraynanın Baş Nazir müavini, hökumətlərarası birgə Komissiyanın həmsədri İrina Vereşçuk Ukrayna Nazirlər Kabineti ilə Azərbaycan Respublikası Hökuməti arasında «Qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

*Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov və Ukraynanın Baş Nazir müavini, hökumətlərarası birgə Komissiyanın həmsədri İrina Vereşçuk Ukraynanın İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi*

*arasında «İkitərəfli ticarətdə təcili əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov və Ukraynanın Aqrar Siyasət və Ərzaq naziri Roman Leşçenko Ukrayna Aqrar Siyasət və Ərzaq Nazirliyi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında «Aqrar sahədə əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycan Respublikasının İqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və «Neft-qaz Ukraini Milli Səhmdar Şirkəti» Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Yuri Vitrenko «Neft-qaz Ukrainı Milli Səhmdar Şirkəti» Səhmdar Cəmiyyəti ilə Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR arasında «Energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov və Ukraynanın Geodeziya, Kartoqrafiya və Kadastr üzrə Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Sergiy Zavadski Ukraynanın Geodeziya, Kartoqrafiya və Kadastr üzrə Dövlət Xidməti ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında «Torpaq münasibətləri, dövlət torpaqlarının idarə edilməsi və dövlət torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Kiyev*

*14 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski yanvarın 14-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Ukrayna Prezidenti Volodimir Zelenskinin bəyanatı

Sabahınız xeyir, hörmətli jurnalistlər, hörmətli qonaqlar!

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Bu gün mən məmnuniyyətlə Kiyev şəhərində bizim etibarlı tərəfdaşımız, mənim dostum Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərini salamlayıram. Bu səfər böyük rəmzi xarakter daşıyır – bizim ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edir.

Bu gün biz siyasət, iqtisadiyyat və təhlükəsizlik sahəsində fikir mübadiləsi apardıq. Ukrayna və Azərbaycan prezidentləri Bəyannamə imzaladılar. Bunun sayəsində suverenlik və ərazi bütövlüyü məsələlərində ölkələrimiz arasında dəstək verəcəyik, bizim beynəlxalq səviyyədə müəyyən edilmiş sərhədlərin qorunması üçün çalışacağıq. O cümlədən biz Xəzər və Qara dəniz hövzələrində təhlükəsizlik məsələləri ilə məşğul olacaq, terrorçuluğa qarşı birgə mübarizə aparacaq, bütün çətinlikləri birgə nəzərdən keçirərək, istər regional, istər qlobal çətinlikləri birgə araşdıraraq, cavab həllərini hazırlayacağıq.

Biz həmçinin münasibətlərimizin gücləndirilməsinə də xüsusi diqqət yetirəcəyik. Kənd təsərrüfatı, nəqliyyat, energetika, ticarət sahələrinə aid olan ikitərəfli 6 sənəd imzalandı. Bunlar çox vacibdir. Qarşımızda planlarımız çoxdur və bu gün biz cənab Azərbaycan Prezidenti ilə geniş müzakirə apardıq. Bizim məhz qida təhlükəsizliyi sahəsində razılaşmamız, o cümlədən ticarət sahəsində aparılan müzakirələr geniş imkanlar yaradır.

Əlbəttə, biz bilirik ki, pandemiya qlobal səviyyədə hələ davam edir. Lakin COVID-19-a baxmayaraq, əslində 7 il ərzində ilk dəfə olaraq bizim ikitərəfli ticarətimizin dövriyyəsi təxminən 1 milyard dollara çatıb. Bu bizim qarşımızda daha mühüm məqsədlər qoymağa imkan yaradır. 2024-cü ilə qədər bizim ticarət dövriyyəmizin bundan sonra da artırılması ilə bağlı dəqiq planımız vardır. Biz həmçinin bir sıra birgə genişmiqyaslı layihələr əsasında

sərmayələrin qoyulması, Azərbaycanda bərpa işlərinin aparılmasında iştirak etmək fikrindəyik. Mən infrastruktur layihələrini nəzərdə tuturam. Ukrayna şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə iştirak edə bilər. İndicə Azərbaycan Prezidenti bizi dəvət etdi. Təbii ki, Azərbaycan şirkətləri də Ukraynada fəaliyyət göstərir. Biz eyni zamanda, avtomatlaşdırma və bu kimi sahələrdə şirkətlərimiz arasında əməkdaşlığın genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu əməkdaşlıq qarşılıqlı şəkildə faydalı ola bilər.

Biz bu ilin birinci yarısında hökumətlərarası birgə Komissiyanın növbəti iclasının keçirilməsi ilə bağlı razılığa gəldik. Azərbaycan və Ukrayna prezidentləri bu məsələyə də öz dəstəklərini verdilər. Biz həmçinin tranzit potensialını nəzərdən keçirdik və belə bir nəticəyə gəldik ki, müxtəlif dövlət qurumları və agentlikləri arasında bu təmasları daha da genişləndirərək, bu sahədə təcrübəni artırmalıyıq. Daha sonra aviasiya sahəsində istərdik ki, əməkdaşlığımız genişlənsin. Bir sıra təşəbbüsləri irəli sürmüşük. Tutaq ki, nəqliyyat dəhlizlərinin GUAM çərçivəsində daha da genişləndirilməsində iştirak etməliyik. Burada Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna var, bu əlaqələr genişlənməlidir. Kənd təsərrüfatı sahəsinə gəldikdə, biz əməkdaşlıq üzrə razılığa gəldik. Daha sonra titanın istehsalı sahəsində müzakirələr apardıq.

Yekun olaraq, icazə verin, cənab Prezident İlham Əliyevə və onun rəhbərlik etdiyi nümayəndə heyətinə təşəkkürümü bildirim. Onlar mənim Azər-

baycana səfərimi xatırlatdılar. Bizə göstərilmiş qonaqpərvərlik hələ də yadımdadır. Hesab edirəm ki, məhz bu gündən etibarən bizim strateji tərəfdaşlığımız sahəsində yeni səhifə açılacaqdır.

Mən bunu tarixi bir səfər adlandırıram. Bizim çox əhatəli əməkdaşlığımız vardır.

Bir daha, cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Diqqətinizə görə minnətdaram.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Xoş sözlərə görə, cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Məni Ukraynaya səfərə dəvət etdiyiniz üçün də Sizə minnətdaram. Şadam ki, Ukrayna–Azərbaycan əlaqələrində çox ciddi irəliləyiş vardır. Bizim aramızda yüksək səviyyəli siyasi dialoq aparılır. Biz Prezident Zelenski ilə keçən ay, düz bir ay bundan əvvəl Brüsseldə görüşmüşdük. Prezident Zelenski 2019-cu ilin sonunda Azərbaycana səfər etmişdir. Yəni biz təmasları möhkəmləndiririk və müzakirələr əsnasında iki ölkə arasındakı gələcək inkişaf perspektivlərini həm müzakirə edirik, həm də vacib qərarlar qəbul edirik. O cümlədən bu gün keçirdiyimiz çox geniş fikir mübadiləsi nəticəsində əminəm ki, yaxın gələcəkdə biz yeni, gözəl hadisələrin şahidi olacağıq.

Prezident qeyd etdiyi kimi, yaxın gələcəkdə – fevralın 6-da biz diplomatik münasibətlərimizin 30 illiyini qeyd edəcəyik. Bildirməliyəm ki, müstəqillik

dövründə Ukrayna və Azərbaycan hər zaman bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini dəstəkləyib və bu dəstək bu gün imzaladığımız Birgə Bəyannamədə də öz əksini tapıbdır.

Xalqlarımızı dostluq əlaqələri birləşdirir və bildiyiniz kimi, Azərbaycanda Ukrayna xalqının mədəniyyətinə çox böyük maraq və böyük hörmət vardır. Bu hörmət əlamətini Bakı şəhərində də görmək olar. Bakının mərkəzi yerlərinin birində Ukraynanın dahi oğlu Taras Şevçenkonun abidəsi bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə ucaldılmışdır və onun adına olan parkda həm Bakı sakinləri, həm də şəhərimizin qonaqları istirahət edirlər. Eyni zamanda, Bakının ən böyük meydanlarının biri Ukrayna adını daşıyır. Yəni bu faktlar özlüyündə onu göstərir ki, xalqlarımız arasında əlaqələrin böyük tarixi var və biz bu əlaqələri qoruyuruq.

Bu gün geniş müzakirə etdiyimiz məsələlər haqqında Prezident artıq öz çıxışında bildirdi. Əlavə etmək istəyirəm ki, müzakirə etdiyimiz bütün istiqamətlər üzrə konkret fəaliyyət proqramının işlənməsi ilə bağlı bu gün müvafiq göstərişlər verildi – həm hökumətlərarası birgə Komissiyanın rəhbərliyinə, həm də aidiyyəti qurumların rəhbərlərinə. Əminəm ki, iki aydan sonra Komissiyanın Bakıda keçiriləcək növbəti iclasında artıq konkret qərarların verilməsinin də şahidi olacağıq.

Ənənəvi əməkdaşlıq sahəsi olan energetika sahəsində yeni planlarımız vardır. Əminəm ki, bu planlar həyatda öz əksini tapacaqdır. Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR Ukraynada öz fəaliyyəti-

ni genişləndirmək əzmindədir və şadam ki, Ukrayna tərəfi də bunu dəstəkləyir. Hazırda SOCAR-ın Ukraynada geniş yanacaqdoldurma stansiyalarından ibarət şəbəkəsi var, neft və neft məhsullarının ixracı və emalı ilə bağlı yeni addımların atılması bizim əməkdaşlığımızı daha da dərinləşdirəcək. Enerjinin digər növləri üzrə əməkdaşlıqla bağlı fikir ayrılığı yoxdur.

Şadam ki, pandemiyaya baxmayaraq, ticarət dövriyyəmiz keçən il 20 faizdən çox artıb və ümid edirəm ki, yaxın gələcəkdə 1 milyard dollar səviyyəsinə çatacaq, bəlkə də ondan çox. Çünki bizim bu gün imzaladığımız sənədlərin və müzakirə olunan digər məsələlərin həyatda öz əksini tapması, əlbəttə ki, iki ölkə arasındakı ticarət dövriyyəsinin artırılmasına da mütləq xidmət edəcəkdir.

Hesab edirəm ki, ərzaq təhlükəsizliyi ilə bağlı bu gün əldə edilmiş razılaşmalar Azərbaycana imkan verəcək ki, öz ərzaq təhlükəsizliyini daha geniş həcmdə təmin etsin. Eyni zamanda, bu gün birgə müəssisələrin yaradılması, kənd təsərrüfatı məhsullarının emalı və ixracı ilə bağlı birgə fəaliyyət üçün zəmin yaradılmışdır. Bu, bir yenilikdir və bizim əlaqələrimizdə bu sahə ilə bağlı, hesab edirəm ki, atılan ən mühüm addımlardan biridir. Bütün başqa sahələrdə də biz əməkdaşlığa açığıq.

Bir daha demək istəyirəm ki, bizim əməkdaşlığımızın təməlində dostluq əlaqələri dayanır və ümid edirəm ki, bu gün – ilin əvvəlində həyata keçirilən bu səfər həm bu ili ikitərəfli müstəvidə yaxşı

nəticələrlə başa vurmağa xidmət göstərəcək, həm də gələcək illər üçün  gözəl zəmin olacaqdır.

Bir daha, hörmətli cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək, Sizi yenidən Bakıya səfərə dəvət edirəm. Sağ olun.

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİNİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ LANÇDA İŞTİRAK

*Kiyev*

*14 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə yanvarın 14-də Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenskinin adından lanç verilmişdir.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfəri yanvarın 14-də başa çatdı.*

## AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü vurğulandı. Ölkəmizdə bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının bir ailə kimi mehribanlıq və əmin-amanlıq şəraitində yaşaması, dövlət qayğısı ilə əhatə olunması, onlar üçün dövlət səviyyəsində hərtərəfli şəraitin yaradılması yüksək qiymətləndirildi, bunun dünyada nümunəvi xarakter daşıdığı qeyd edildi. Devid Harrisin və onun rəhbərlik etdiyi Amerika Yəhudi Komitəsinin ölkəmizlə əməkdaşlığından məmnunluq ifadə olundu.*

*Söhbət zamanı hazırda regionda yaranmış yeni geosiyasi vəziyyət, Azərbaycanın dünyada və regionda artan nüfuzu, həmçinin qarşılıqlı maraq doğuran bir sıra regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Devid Harris səfər çərçivəsində Bakıda keçirdiyi məhsuldar görüşlər, o cümlədən yəhudi icması ilə keçirdiyi görüşlər barədə dövlət başçısına məlumat verdi.*

## MONTENEQRO PARLAMENTİNİN SƏDRİ ALEKSA BEÇİÇ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*17 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Monteneqro parlamentinin Sədri Aleksa Beçiç ilə videoformatda görüşmüşdür.*

*Prezident İlham Əliyev Azərbaycanla Monteneqro arasında dostluq münasibətlərinin olduğunu qeyd edərək, ölkələrimiz arasında, o cümlədən dövlət başçıları səviyyəsində mövcud yüksək səviyyəli dialoqu vurğuladı, parlamentlərarası əlaqələrin inkişafından məmnunluğunu bildirdi. Dövlət başçımız müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, enerji, nəqliyyat sahələrində əməkdaşlığın inkişafı üçün yaxşı zəminin olduğunu qeyd etdi və bu baxımdan hökumətlərarası birgə Komissiyanın fəaliyyətinin önəmini vurğuladı.*

*Monteneqro parlamentinin Sədri Aleksa Beçiç də öz növbəsində, ölkələrimiz arasında fəal siyasi dialoqun olduğunu məmnunluqla qeyd etdi.*

*Aleksa Beçiç Monteneqronun Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğuladı. Monteneqronun Azərbaycanın dostu olduğunu deyərək, ölkəmizin əldə etdiyi nailiyyətlər münasibətilə xalqımızı təbrik etdi. Monteneqro parlamen-*

*tinin Sədri ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, bu sahədə müvafiq sənədin imzalanmasının vacibliyini vurğuladı.*

*Görüşdə beynəlxalq təşkilatlar, o cümlədən parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyi və maraq doğuran digər məsələlər də müzakirə olundu.*

## XEYRİYYƏÇİ HACI ZEYNALABDİN TAĞIYEVİN BAKIDA UCALDILMIŞ ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*18 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılmış abidəsinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı metronun «İçərişəhər» stansiyasının qarşısındakı meydanda ucaldılmış abidənin üzərindəki örtüyü götürdü.*

*Prezident İlham Əliyevin sərəncamı ilə ucaldılmış abidə bürüncdəndir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti 2019-cu ildə heykəlin hazırlanması üzrə açıq müsabiqə elan etmişdi. Müsabiqəyə təqdim olunmuş layihələr arasından Xalq rəssamı Xanlar Əhmədovun layihəsi qalib seçilmişdi. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanmış müvafiq məlumat lövhəsi quraşdırılıb. Eyni zamanda, Heydər Əliyev Fondu görmə qabiliyyətini itirmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə lövhədə əks olunmuş məlumatları Brayl əlifbası ilə də təqdim edibdir.*

*Prezident İlham Əliyev Xalq rəssamı Xanlar Əhmədovla görüşdü.*

**İlham Əliyev**: Çox gözəl abidədir.

**Xanlar Əhmədov:** Çox sağ olun.

**İlham Əliyev:** Bir çox təkliflər var idi.

**Xanlar Əhmədov:** Bildiyiniz kimi, müsabiqə elan olunmuşdu.

**İlham Əliyev:** Bilirəm, əlbəttə.

**Xanlar Əhmədov:** Bacardığımı etmişəm.

**İlham Əliyev:** Çox gözəldir, həm onun əzəmətini əks etdirir, həm də memarlıq baxımından çox gözəldir, oxşatmısınız.

**Xanlar Əhmədov:** Çalışmışam, üstündə çox işləmişəm. Yeri də yaxşıdır, tarixi yerdir. Tarixi İstiqlaliyyət küçəsidir.

**İlham Əliyev**: Bəli, tarixi yerdir. Tarixi qala divarları. Bakının ən gözəl yerlərindən biridir. Yadımdadır, o vaxt bir neçə yer təklif edilmişdi. Mən buranı seçdim ki, onun abidəsi məhz burada olmalıdır.

**Xanlar Əhmədov**: Möhtəşəm bir yerdir. Çox şadam ki, mənim Qarabağdakı «Güllələnmiş heykəllər» əsərimi də ikinci dəfə Siz açdınız.

**İlham Əliyev:** Bəli, çox gözəl qeyd etdik. Belə işiniz çox olacaq. İndi bizim tarixi şəxsiyyətlərimizin heykəllərinin ucaldılması prosesi davam edir.

**Xanlar Əhmədov:** Biz işləmək üçün həmişə hazırıq.

**İlham Əliyev:** Sizi bir daha təbrik edirəm.

**Xanlar Əhmədov:** Çox sağ olun, minnətdaram.

**İlham Əliyev:** Açıq müsabiqədə qalib gəlmisiniz. Bu abidə burada əbədi duracaq. Müəllifin adı burada var?

**Anar Ələkbərov** (*Prezidentin köməkçisi*): Əlbəttə ki, var. Həm Azərbaycan dilində, həm də ingilis dilində qeyd etmişik. Müsabiqədə 26 işdən məhz Xanlar müəllimin əsəri seçilib.

**İlham Əliyev:** Bəli, bilirəm. Çox sağ olun, sizə yeni uğurlar arzulayıram.

**Xanlar Əhmədov:** Çox sağ olun.

*Sonra dövlət başçısı çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bir neçə dəqiqə bundan əvvəl Zeynalabdin Tağıyevin abidəsinin açılışını qeyd etdik. Abidə metronun girişinə yaxın olduğuna görə insanlara problem yaratmamaq üçün mən əziz xalqımı bu münasibətlə buradan təbrik edirəm.

Bu abidənin açılması çox əlamətdar hadisədir. 2020-ci ildə mənim tərəfimdən Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması ilə bağlı müvafiq sərəncam imzalandı. Açıq müsabiqə elan edildi və Xalq rəssamı, məşhur heykəltaraş Xanlar Əhmədovun işi müsabiqədə qalib gəldi. Ondan sonra mənə abidənin ucaldılması üçün bir neçə yer təklif edildi və mən məhz bu yeri seçdim. Çünki Zeynalabdin Tağıyevin adına layiq olan bir yerdir, Bakının tarixi yerlərindən biridir, şəhər sakinlərinin ən sevimli yerlərindən biridir, tarixi qala divarının önündədir. Tağıyevin abidəsinin məhz burada yerləşməsinin böyük rəmzi mənası vardır. Çünki Zeynalabdin Tağıyev ömürboyu Bakının inkişafına, abadlaşma-

sına, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük töhfələr vermişdir.

Çox zəngin adam idi, amma hər kəs bilir ki, çox kasıb ailədə böyümüşdü və sərvətini öz zəhməti hesabına qazanmışdı. Ancaq tarixdə o, zəngin adam kimi yox, məhz xeyriyyəçi kimi qalmışdır. Əgər onun xeyriyyəçilik fəaliyyəti olmasaydı, yəqin ki, o, Azərbaycan xalqının yaddaşında qalmazdı. Onun təşəbbüsü ilə Azərbaycanda bir çox önəmli layihələr həyata keçirilmişdi. Onların sırasında Bakıya təmiz içməli suyun gətirilməsi layihəsini xüsusilə qeyd etməliyəm. Şollar su kəməri bu günə qədər fəaliyyətdədir, bu günə qədər Bakını, Sumqayıtı təmiz içməli su ilə təmin edir. Bu kəmərin tikintisi üçün Zeynalabdin Tağıyev öz vəsaitindən istifadə etmişdi. Məhz onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası inşa edilmişdi, bir çox sənaye müəssisəsi inşa edilmişdi, azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açılmışdı. Deyə bilərəm ki, müsəlman aləmində ilk dünyəvi məktəb məhz Bakıda azərbaycanlı qızlar üçün Tağıyevin vəsaiti və təşəbbüsü ilə yaradılmışdı. Bakıda tramvay xətlərinin çəkilməsi də Tağıyevin adı ilə bağlıdır. Bu gün Bakıya əlavə gözəllik verən, Bakının memarlığına töhfə verən bir çox gözəl binaların müəllifi, yəni ki, təşəbbüskarı məhz Tağıyev olmuşdur. Biz Bakının müxtəlif yerlərində onun memarlıq əsərlərini görə bilərik. Baxmayaraq ki, o, kasıb ailədə doğulmuş və o dövrün mühitində böyümüşdü, amma Bakının gözəlliyini təmin etmək üçün xaricdən memarlar dəvət etməsi onun mütərəqqi fikirdə olmasından xəbər verir. Qızlar üçün məktə-

bin açılması gələcəyə yönəlmiş bir addım idi. Hər kəs bilir ki, o, yüzlərlə tələbəni Rusiyaya və Avropaya göndərərək, onların təhsil xərcini öz üzərinə götürmüşdü və bu da gələcəyə yönəlmiş bir addım idi, gələcəyi düşünürdü. Mən artıq bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, o tələbələrin arasında mənim babam Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdu. O da Tağıyev kimi, kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu, təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan marağını nəzərə alaraq, ona pul göndərmişdi və Əziz Əliyev bu pulun hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdu. Hesab edirəm ki, bu hadisə onun gələcək taleyində həlledici rol oynamışdı. Çünki o həm gözəl həkim, həm də böyük dövlət xadimi olmuşdur. İkinci dünya müharibəsində onu Bakıdan Dağıstana ezam etmişlər. Bir neçə il Dağıstanın rəhbəri vəzifəsində işləmişdir və dağıstanlıları sürgündən xilas etmişdir. Çünki o vaxt başqa Qafqaz xalqları ilə bərabər, dağıstanlıları da Qazaxıstana sürgün etmək istəyirdilər, sovet hökumətinin belə planları var idi. Məhz Əziz Əliyevin qətiyyətli mövqeyinə görə bu, baş vermədi. Dağıstanlılar bunu yaxşı bilirlər, yaxşı xatırlayırlar və təsadüfi deyil ki, Mahaçqalada dağıstanlıların təşəbbüsü ilə Əziz Əliyevin abidəsi ucaldılıbdır.

Zeynalabdin Tağıyev Quranı Azərbaycan dilinə tərcümə etdirmiş və eyni zamanda, bu sahədə də tə-

şəbbüskar olmuşdur. İlk dəfə olaraq Quran Azərbaycan dilinə tərcümə edilmişdir. Onun təşəbbüsü və maliyyə vəsaiti hesabına Azərbaycanda bir çox dini abidə inşa edilmiş və təmir olunmuşdur. Onun təhsillə bağlı təşəbbüsləri təkcə Bakı ilə məhdudlaşmırdı. Eyni zamanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Gürcüstanda azərbaycanlıların yaşadıqları bölgələrdə onun pulu hesabına məktəblər açılmışdı.

Yəni onun haqqında çox danışmaq olar. O, böyük şəxsiyyət idi, xalqa bağlı olan, xalqı qəlbən sevən, xalqın gələcəyini düşünən bir insan idi. Onu da bildirməliyəm ki, XIX əsrdə xeyriyyəçilik ənənələrini məhz Zeynalabdin Tağıyev qoymuşdu. Bu ənənələr sovet dövründə təbii ki, davam etmədi. Onu da bildirməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra sovet hakimiyyəti onu bütün imkanlardan məhrum etmişdi, onun bütün əmlakı əlindən alınmışdı, tək bir bağ qalmışdı, orada da o, ömrünün sonuna qədər yaşamışdı. O, uzun və dolğun ömür yaşadı. Ancaq əfsuslar olsun ki, ömrünün sonunda belə ədalətsizliklə üz-üzə qaldı və həyatdan çox narahat getdi.

Bu gün isə müstəqil Azərbaycanda xeyriyyəçilik ənənələri, onun qoyduğu xeyriyyəçilik ənənələri davam edir, geniş vüsət alıbdır. Bildirməliyəm ki, bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, hətta bütün Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılıb və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiy-

yə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, fond digər layihələrdə də fəal iştirak edəcəkdir. Bildiyiniz kimi, məcburi köçkünlər üçün yeni evlərin yaradılması da Heydər Əliyev Fondunun təşəbbüsü ilə geniş vüsət alıbdır və mənim iştirakımla Qobu qəsə-

bəsində bir neçə böyük, çoxmərtəbəli evlərin inşası təmin edilibdir.

Yəni bu ənənələr var, davam edir, cəmiyyətdə çox yüksək qiymətləndirilir. Müharibədən sonra mənim təşəbbüsümlə Qarabağ Dirçəliş Fondu, YAŞAT Fondu yaradılıb. Azərbaycan vətəndaşları, eyni zamanda, şirkətlər könüllü olaraq həm Qarabağ Dirçəliş Fonduna, həm YAŞAT Fonduna vəsait təqdim edirlər və bu vəsait hesabına bu gün yüzlərlə qazi həm Azərbaycanda, həm də xüsusilə xaricdə müalicə alır, həyata qayıdır, öz sağlamlığını bərpa edir. Bu bir daha onu göstərir ki, xeyriyyəçilik hər zaman Azərbaycan xalqına xas olubdur. Sadəcə olaraq, buna şərait yaradılmalı idi, dövlət tərəfindən bu siyasət dəstəklənməli idi və bu gün biz bunu görürük.

Mən Zeynalabdin Tağıyevin şəxsiyyətinə həmişə böyük hörmətlə yanaşmışam. Hələ 2000-ci illərin əvvəllərində – mən hələ Prezident deyildim – onun qəbrinin yerləşdiyi Pirhəsən ziyarətgahı mənim təşəbbüsümlə abadlaşdırıldı və qəbrin ətrafında olan ərazi yeni görkəm aldı. Prezident seçiləndən sonra dərhal mənim təşəbbüsümlə onun evi, hazırda Tarix Muzeyinin binası əsaslı təmir edildi. Onun yaşadığı evin bir hissəsi muzey kimi qaldı, eyni zamanda, Tarix Muzeyində bizim tariximizin müxtəlif dövrlərini əhatə edən eksponatlar nümayiş etdirilir.

Bu gün mən çox şadam ki, Zeynalabdin Tağıyevin abidəsi Bakıda ucaldılıb. O buna layiq idi. Azərbaycan xalqı qarşısında, tarix qarşısında, millət qar-

şısında xidməti olan hər bir insanı Azərbaycan xalqı öz qəlbində yaşadır.

Bir daha əziz xalqımı bu münasibətlə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*18 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə yanvarın 18-də telefonla zəng etmişdir.*

*Telefon söhbəti zamanı Azərbaycan–Rusiya əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu, strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə edildi.*

*Dövlət başçıları son vaxtlar Rusiya–ABŞ arasında təmaslar, Qazaxıstanda vəziyyətin sabitləşməsi ilə bağlı məmnunluq ifadə etdilər. Eləcə də Ukrayna ətrafında gedən proseslər müzakirə olundu.*

*Azərbaycan və Rusiya prezidentləri regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN PREZİDENTİNİN RƏSMİ «FACEBOOK» SƏHİFƏSİNDƏN

*19 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi «Facebook» səhifəsində 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar paylaşım etmişdir.*

*«Əbədi məşəl» abidəsinin və Dövlət bayrağımızın görüntülərinin əks olunduğu paylaşımda «20 Yanvar – Allah bütün şəhidlərimizə rəhmət eləsin» sözləri yer alıbdır.*

## ÜMUMXALQ HÜZN GÜNÜNDƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2022-ci il*

*Qanlı 20 Yanvar faciəsindən 32 il ötür. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 32-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət etmişlər.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsini ehtiramla yad etdilər.*

*Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin həm faciəli, həm kədərli, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Ulu öndər Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirirdi. Ümummilli lider böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik. Ancaq bir şey hə-*

*qiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub.*

*Həmin faciəli günlərdən artıq 32 il keçir. Ulu öndərimizin dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.*

*Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin ertəsi günü – yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və ozamankı respublika rəhbərlərinin xəyanəti üzündən yol verilmiş kobud siyasi səhv olduğunu bəyan etdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib başda Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilmiş tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş siyasi əks-səda doğurdu. Azərbaycan xalqının qəlbində ümid çırağı yandı. 1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan*

*ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul olunmuş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda, Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar ulu öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.*

*Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: «Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər».*

*Ulu öndər Heydər Əliyevin «20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında» 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin gü-*

*nahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Şəhidlərin xatirəsi əbədiləşdirildi, Şəhidlər xiyabanında «Əbədi məşəl» abidə-kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.*

*Bu siyasəti davam etdirən Prezident İlham Əliyev 20 Yanvar əlilləri və şəhid ailələrinə daim diqqət və qayğı göstərir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin ediliblər.*

*Bu gün ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoyaraq, torpaqlarımızı erməni işğalından azad edərək, bölgədə yeni reallıq yaratdı. İndi həmin ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir.*

## FRANSA PREZİDENTİ KABİNETİNİN KONTİNENTAL AVROPA VƏ TÜRKİYƏ ÜZRƏ MÜŞAVİRİ İZABEL DÜMON VƏ AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAAR İLƏ GÖRÜŞ

*20 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.*

*Prezident İlham Əliyev Fransanın Avropa İttifaqının sədrliyi funksiyasını qəbul etməsi münasibətilə təbriklərini çatdırdı və Fransanın Avropa İttifaqına sədrliyinin uğurla həyata keçiriləcəyinə və səmərəli olacağına ümidvar olduğunu bildirdi. Dövlət başçısı ötən il dekabrın 15-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Fransa Prezidenti Emmanuel Makronla keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Fransa və Avropa İttifaqı nümayəndələrinin iştirakı ilə bu formatda baş tutan görüşü yüksək qiymətləndirərək, bunun Brüsseldə müzakirə olunan sülh gündəliyinin*

*inkişaf etdirilməsi üçün müsbət imkanlar yaratdığını vurğuladı.*

*Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümon Azərbaycan xalqı üçün 20 Yanvar Hüzn Günündə nümayəndə heyətini qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O, Avropa İttifaqının sədri qismində Fransadan və Avropa İttifaqından olan nümayəndələrlə birlikdə bu səfəri həyata keçirdiklərini qeyd etdi. İzabel Dümon bu səfərin dekabrın 15-də Brüsseldə keçirilmiş müsbət görüşlərin davamı olaraq müzakirələrin aparılması məqsədi daşıdığını vurğuladı.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Brüsseldə Avropa İttifaqı «Şərq Tərəfdaşlığı»nın VI Sammiti çərçivəsində keçirilmiş görüşlərin əhəmiyyətini vurğuladı, regiona səfərin vacib məsələlərin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirdi.*

*Görüşdə regionda davamlı sülhün və sabitliyin təmin olunması, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**AZƏRBAYCAN RESPUBLİKASI MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI QÜVVƏLƏR VETERANLARI TƏŞKİLATININ SƏDRİ, İKİNCİ DÜNYA MÜHARİBƏSİ VETERANI FATMA SƏTTAROVAYA**

Hörmətli Fatma xanım!

Əlamətdar yubileyiniz – anadan olmağınızın 100 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz şərəfli ömür yolu keçərək, bütün həyat və fəaliyyətinizi doğma Vətəninizə xidmətə həsr etmiş, İkinci dünya müharibəsi illərində yenilməz iradə və qətiyyət nümayiş etdirmisiniz.

Cəbhəyə könüllü yollanaraq, Leninqrad şəhərinin mühasirəsi zamanı və Moskva ətrafında gedən döyüşlərdə fəal iştirakınız fədakarlıq və şücaətin bariz nümunəsi idi. Xalqımızın məhz Sizin kimi yüz minlərlə mərd övladlarının cəsarəti, igidliyi, əzmkarlığı sayəsində Azərbaycanın adı faşizmə qarşı mübarizənin ön cərgəsində yer almış dövlətlər sırasındadır.

Sonrakı dövrlərdə Siz ölkəmizin ictimai həyatında yaxından iştirak etmiş, gənclərin vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə, layiqli vətəndaşlar kimi yetişməsinə töhfə vermisiniz. 44 günlük Vətən müharibəsi zamanı təmsil etdiyiniz Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı dövlətimizin, ordumu-

zun yanında olmuş, qazilərimizə, şəhid ailələrimizə mənəvi dəstək vermiş, diqqət və qayğı göstərmişdir.

Hörmətli Fatma xanım, Sizin həyat və mübarizə yolunuz Vətənə, xalqa sədaqət və ləyaqətlə xidmət nümunəsi, gənclərə və gələcək nəsillərə örnəkdir.

Belə bir xoş gündə Sizə bir daha ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2022-ci il*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

Hörmətli cənab Sədr!

Sizi və Sizin simanızda dost Çin xalqını Yeni ilin gəlişini simvolizə edən Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Dərin tarixi kökləri olan və xalqınızın zəngin milli-mənəvi irsini özündə bariz şəkildə ifadə edən bu bayramın ölkənizə və xalqınıza əmin-amanlıq, firavanlıq, bol ruzi-bərəkət bəxş etməsini diləyirəm.

Azərbaycan ilə Çin arasında dostluq münasibətlərinin bugünkü səviyyəsi və dinamikası böyük məmnunluq doğurur. Əminəm ki, ölkələrimiz arasında siyasi, iqtisadi-ticari, enerji, sənaye və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq birgə səylərimizlə bundan sonra da uğurla inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Pekin Qış Olimpiya oyunlarının keçirilməsində ölkənizə uğurlar arzulayır, bu yarışların möhtəşəm idman bayramına çevriləcəyinə inamımı ifadə edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, dost Çin xalqına daim rifah diləyirəm.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2022-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ ŞƏHƏRSALMA NAZİRİ RÜSTƏM QASİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*25 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının Yol və Şəhərsalma naziri, Azərbaycan–İran hökumətlərarası birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul etmişdir.*

**İlham Əliyev**: Hörmətli cənab nazir, hörmətli İran nümayəndə heyətinin üzvləri, Azərbaycana xoş gəlmisiniz! Mən çox şadam ki, sizin Azərbaycana səfəriniz azad edilmiş torpaqlardan başlandı. Siz dünən İrandan birbaşa Füzuliyə, Füzuli Beynəlxalq Hava Limanına təyyarə ilə gəlmisiniz, həm Füzulidə, həm Zəngilanda olmusunuz və biz bunu çox yüksək qiymətləndiririk.

Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranıb. Müharibədən sonra İran–Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət alıbdır. Regional əməkdaşlığın yaradılması üçün hazırda çox ümidverici «3+3» əməkdaşlıq platforması yaradılıbdır. Artıq birinci görüş

keçirildi. Əminəm ki, bu görüşlər müntəzəm olaraq keçiriləcək və region ölkələrin maraqlarını təmin edəcəkdir. Eyni zamanda, əminəm ki, yaxın gələcəkdə İran şirkətləri azad edilmiş torpaqlarda fəal işə başlayacaqdır. İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər verildi, İran tərəfi ilə ilkin danışıqlar aparıldı və indi konkret nəticələr gözləyirik. Siz azad edilmiş torpaqlarda olan dağıntıları dünən öz gözlərinizlə görmüsünüz. Ermənistan işğal dövründə bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə yeksan edib. Ona görə bu böyük ərazidə – 10 min kvadratkilometrdən böyük olan ərazidə indi quruculuq işlərinə start verilib, amma gördüyünüz kimi, bu çox genişmiqyaslı bir işdir. Yüzlərlə şəhər və kənd, demək olar ki, yer üzündən silinib. Bərpa işlərinə start verilib və dediyim kimi, ümid edirəm ki, İran şirkətləri bu işlərdə fəal iştirak edəcəkdir.

Siz dünən eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması üçün aparılan işlərlə də tanış olmusunuz. Həm avtomobil yolu, həm dəmir yolu artıq uğurla inşa edilir. Ermənistandan da müsbət xəbərlər alırıq. Ermənistan da öz tərəfində bu işlərə start verməyi planlaşdırır.

Bir sözlə, ümid edirəm ki, müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq. Əlbəttə, İran İslam Respublikasının da bu işlərə töhfəsi çox önəmlidir. Digər məsələlərə gəldikdə, Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması, Xudafərin Su-Elektrik stansiyalarının, Astaraçay üzərində körpünün inşa edilməsi – bütün bu və digər məsələlər dünən Şahin Mustafayevlə müzakirə olu-

nub və hökumətlərarası birgə Komissiyanın işində, əlbəttə ki, prioritetlər sırasında olacaqdır.

Onu da bildirməliyəm ki, noyabrın sonlarında İran İslam Respublikasının Prezidenti cənab Rəisi ilə keçirdiyim görüş çox uğurlu, əhəmiyyətli idi və İran–Azərbaycan əlaqələri üçün yeni imkanlar açır. Bu, dostluq və qardaşlıq əlaqələrimizin yeni səhifəsinin açılması deməkdir.

Bir daha xoş gəlmisiniz!

**Rüstəm Qasimi**: Allahın adı ilə. Cənab Prezident, mən Sizi salamlayıram və Sizə, Azərbaycan xalqına cansağlığı, Azərbaycan dövlətinə uğurlar arzu edirəm. İran İslam Respublikasının Prezidenti cənab doktor Rəisinin səmimi salamlarını Sizə çatdırıram. İran dövləti və İran xalqı adından şəxsən Sizi, Azərbaycan dövlətini, Azərbaycan xalqını ərazilərin geri qaytarılmasında əldə etdiyiniz uğurlar və bu müharibədə qazandığınız Qələbə münasibətilə təbrik edirəm. Qeyd etdiyiniz kimi, Sizinlə cənab Prezident Rəisi arasında keçirilmiş görüş iki ölkə münasibətlərində yeni səhifə yaradacaqdır. Biz dünən azad edilmiş əraziləri gördük, orada aparılan quruculuq və yenidən qurulma işləri ilə yerində tanış olduq. Ümid edirəm ki, bu gün cənab Şahin Mustafayevlə və eləcə də Azərbaycan Respublikasının digər nazirləri ilə keçirəcəyim görüşlərdə iki ölkə arasındakı əlaqələr və müştərək layihələr barədə bir daha fikir mübadiləsi aparacağıq.

13-cü hökumət, yəni cənab İbrahim Rəisinin prezidentliyi dövründə dövlətimiz bütün qonşu ölkələrlə, xüsusilə də mədəni, tarixi və ictimai bağları

daha çox olan Azərbaycan Respublikası dövləti və xalqı ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir.

* * *

*Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı ikitərəfli əlaqələrə dair müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*25 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Ukrayna Prezidenti Volodimir Zelenskiyə zəng etmişdir.*

*Dövlət başçımız Ukrayna Prezidentini ad günü münasibətilə təbrik edərək, fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Təbrikə və xoş sözlərə görə dövlət başçımıza minnətdarlığını bildirən Volodimir Zelenski Prezident İlham Əliyevin bu yaxınlarda ölkəsinə səfərini məmnunluqla xatırladığını qeyd etdi. Azərbaycan Prezidenti səfər çərçivəsində göstərilmiş qonaqpərvərliyə görə Ukraynanın dövlət başçısına təşəkkür etdi.*

*Telefon söhbəti zamanı gələcək ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı.*

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN İŞTİRAKÇISI, AZƏRBAYCAN RESPUBLİKASI MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI QÜVVƏLƏR VETERANLARI TƏŞKİLATININ SƏDRİ FATMA SƏTTAROVA İLƏ GÖRÜŞ

*25 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İkinci dünya müharibəsinin iştirakçısı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovanın 100 illiyi münasibətilə ona Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə «İstiqlal» ordenini təqdim etmişdir.*

**Fatma Səttarova**: Azərbaycanımın, Azərbaycan Ordusunun qəhrəman oğlu, Ali Baş Komandan, 44 günün içində o boyda dağlıq yerləri, Qarabağı aldınız. Böyük qəhrəmanlıqdır. Azərbaycan xalqı Sizinlə fəxr edir, Allah qorusun. Siz camaata ruh verdiniz, Siz camaata inam verdiniz, Siz camaata ölkə qaytardınız, Siz Vətən qaytardınız, torpağımızı qaytardınız.

**İlham Əliyev:** Bu bizim hamımızın Qələbəsidir, Azərbaycan xalqının Qələbəsidir.

**Fatma Səttarova:** Bəli, hamımızın, Azərbaycan xalqının Qələbəsidir. Amma o Qələbəni qazanmaqdan ötrü rəhbər lazımdır.

**İlham Əliyev:** Bu Qələbədə veteranların da payı çox olub. Siz hamımız üçün nümunəsiniz. Siz İkinci dünya müharibəsində qəhrəmanlıq göstərmisiniz, böyük fədakarlıq göstərmisiniz. Ondan sonra da həmişə fəal olmusunuz. Sizi yüksək ordenlə təltif etmişəm.

**Fatma Səttarova:** Çox sağ olun, Allah razı olsun.

**İlham Əliyev:** Bu, Azərbaycan dövlətinin ən ali ordenlərindən biridir, «İstiqlal» ordenidir. Siz buna layiqsiniz. Çünki siz öz həyatınızla istiqlal ideallarımızı tərənnüm etmisiniz və müstəqillik dövründə sizin fəallığınız, sizin sözünüz, qətiyyətli addımlarınız, dövlətçiliklə bağlı gördüyünüz işlər bizim üçün çox əziz və nümunədir.

Hər zaman sizinlə və digər veteranlarla 9 Mayda görüşəndə biz Qarabağ haqqında danışırdıq.

**Fatma Səttarova:** Bəli, ancaq.

**İlham Əliyev:** Qarabağ haqqında danışırdıq və mən deyirdim ki, gün gələcək biz torpaqları azad edəcəyik. Bax, gün gəldi.

*Sonra Prezident İlham Əliyev Fatma Səttarovaya «İstiqlal» ordenini təqdim etdi və ona möhkəm cansağlığı arzuladı.*

## XƏZƏR RAYONUNUN BİNƏ QƏSƏBƏSİNDƏ YENİ İNŞA EDİLMİŞ TƏDRİS VƏ XİDMƏT KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*27 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 27-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni Tədris və Xidmət Kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Binə qəsəbəsinin Atçılıq və Təmənis yaşayış massivlərində indiyədək təhsil ocaqları olmadığından şagirdlər yaxın ərazilərdəki tədris müəssisələrində oxumaq məcburiyyətində idilər. Sakinlər bu ərazidə məktəb və uşaq bağçasının inşası ilə əlaqədar Heydər Əliyev Fonduna müraciətlər etmişdilər. Müraciətlər araşdırılıb, bu massivlərdə uşaqların və məktəblilərin təhsil ala biləcəyi məktəb və məktəbəqədər müəssisələrin olmadığı müəyyən edilib. Bu səbəbdən 2020–2021-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Binə qəsəbəsində Tədris və Xidmət Kompleksi inşa olunubdur.*

*Kompleksin ərazisində orta məktəb, körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Ərazi abadlaşdırılaraq, müxtəlif növ ağaclar əkilib, həmçinin istirahət parkı salınıbdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılmış şəraitlə tanış oldular.*

*Bildirildi ki, 1400 şagird-yerlik məktəbin dördmərtəbəli binasında sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı vardır. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin həyətində Günəş, külək və mexaniki elektrik enerjisi qurğularının modelləri quraşdırılıbdır.*

*Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilibdir.*

*Bağça ilə tanış olan dövlət başçısına və xanımına məlumat verildi ki, burada qrup, yataq, oyun və yaradıcılıq otaqları, müəllimlər üçün metodiki otaqlar, idman və akt zalları, yeməkxana və mətbəx yaradılıb. Uşaq bağçası zəruri mebel və avadanlıqlarla təchiz edilib. Həyətyanı ərazidə oyun və idman meydançası da salınıbdır.*

*Tədris və Xidmət Kompleksinin ərazisində gündəlik 100 pasiyentə xidmət göstərmək imkanı olan tibb məntəqəsi və 150-yə qədər vətəndaşa xidmət göstərə biləcək poçt məntəqəsi inşa edilibdir.*

*Elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır. Fondun uğurla icra olunan layihələrindən biri «Yeniləşən Azərbaycana – yeni məktəb» proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab*

*verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.*

*Binə qəsəbəsində yeni inşa edilmiş Tədris və Xidmət Kompleksi kimi layihələrin icrası ilə Heydər Əliyev Fondu Prezident İlham Əliyevin konseptual təhsil strategiyasının həyata keçirilməsinə əsaslı töhfə verir.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ

Hörmətli Kasım-Jomart Kemeleviç!

«Nur Otan» Partiyasının sədri seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bizim dost ölkələrimiz arasında münasibətlər bu gün uğurla inkişaf edir, birgə layihələr fəal surətdə həyata keçirilir. Biz Azərbaycan ilə Qazaxıstan arasında qarşılıqlı maraq doğuran bütün istiqamətlər üzrə əməkdaşlığı bundan sonra da dərinləşdirmək əzmindəyik.

Azərbaycanın və Qazaxıstanın hakim partiyaları – Yeni Azərbaycan Partiyası və «Nur Otan» Partiyası arasında əməkdaşlığın müsbət dinamikasını və fəal dialoqu məmnuniyyətlə qeyd etmək istərdim. Partiyalararası əlaqələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin mühüm tərkib hissəsidir.

Əminəm ki, rəhbərlik etdiyimiz partiyalar arasında sıx qarşılıqlı fəaliyyət xalqlarımızın mənafeyi, ölkələrimizin firavanlığı naminə bundan sonra da dinamik inkişaf edəcək və dərinləşəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni uğurlar, Qazaxıstanın qardaş xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 yanvar 2022-ci il*

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*28 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı videoformatda qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlığı və təşkilatın ölkəmizə göstərdiyi dəstəyi qeyd edərək, Kunio Mikuriya ilə əvvəllər keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırlatdı. Dövlət başçısı Ümumdünya Gömrük Təşkilatının baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini, təşkilatın dəyərli tövsiyə və məsləhətlərinin ölkəmizdə bu sektorun inkişafına töhfə verdiyini diqqətə çatdırdı.*

*Baş katib Kunio Mikuriya Azərbaycanda gömrük xidmətinin yaradılmasının 30 illiyi ərəfəsində Bakıda olmasından məmnunluğunu ifadə etdi, ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və*

*nəqliyyat qovşağı mərkəzinə çevrildiyini bildirdi. Kunio Mikuriya Cənubi Qafqaz regionunda yaranmış sabitliyin regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd etdi.*

*Prezident İlham Əliyev ölkəmizin əlverişli coğrafi mövqeyi, infrastruktura yatırılmış investisiyalar, qonşu dövlətlərlə qurulmuş əlaqələr sayəsində Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrildiyini bildirdi və regional bağlantıların əməkdaşlıq üçün əlverişli mühit yaratdığını diqqətə çatdırdı. Dövlət başçısı regional əməkdaşlıq məsələlərinə toxunaraq, COVID-19 pandemiyasının yaratdığı qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycanın keçən il əsas tərəfdaş dövlətlərlə ticarət dövriyyəsinin artmasının ölkə iqtisadiyyatının bərpasının və inkişafının göstəricisi olduğunu bildirdi. Azərbaycan Prezidenti keçən il iqtisadiyyatın 5 faizdən çox, qeyri-neft sektorunun 7 faiz, qeyri-neft sənaye sektorunun isə 20 faiz artmasının aparılmış islahatların nəticəsi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin bitməsindən sonra regionda əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## «ROSSİYA-24» KANALINA MÜSAHİBƏ

*30 yanvar 2022-ci il*

*Yanvarın 30-da «Rossiya-24» televiziya kanalında TASS informasiya agentliyi baş direktorunun birinci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş «Hakimiyyət formulu» verilişi yayımlanmışdır.*

**M ü ə l l i f:** Azərbaycan Cənubi Qafqazın şərqində, Xəzər dənizinin sahilində yerləşir. Ölkənin ümumi sahəsi 86,6 min kvadratkilometrdir. Şimalda Rusiya Federasiyası, şimal-qərbdə Gürcüstan, qərbdə Ermənistan, cənub-qərbdə Türkiyə, cənubda isə İran ilə həmsərhəddir. Quru sərhədlərinin uzunluğu 2647 kilometr, dəniz sərhədlərinin uzunluğu isə 816 kilometrdir. Əhalisi 10 milyon 383 min 704 nəfər, paytaxtı Bakı şəhəridir. Bir neçə ay bundan əvvəl Azərbaycan dövlət müstəqilliyinin bərpasının 30 illiyini qeyd edib.

**M i x a i l  Q u s m a n: «Hakimiyyət formulu» verilişində Azərbaycan Prezidenti İlham Əliyev ilə dəfələrlə görüşmüşük. Hər dəfə də bizim görüşlərimiz çox maraqlı, məzmunlu, dərin xarakter daşıyıb. Bu gün mən filmimizə 10 il bundan əvvəl olmuş bir epizoddan başlamaq istərdim: «İlham Heydər oğlu, is-**

**tər-istəməz artıq 50 yaşın astanasındasınız. Çox iş görülüb. Şəxsən Siz öz qarşınızda növbəti yarım əsr üçün hansı vəzifələri qoyursunuz?»**

**İ l h a m Ə l i y e v:** Açığını deyim ki, mən həyatda qabaqcadan qarşıma heç bir vəzifə qoymuram. Amma Prezident kimi, bunu özümə rəva görə bilmərəm, çünki gələcəyi düşünməsək, bu günün problemlərini həll etmək çox çətin olacaqdır. Lakin mən məhz sizin dediyiniz kimi, yarım əsr irəliyə baxıram. Energetika sahəsində bu müddət 100 ildir. Yəni Azərbaycan ən azı 100 il beynəlxalq enerji bazarında əvəzedilməz və çox mühüm aktora çevrilir. Biz nəqliyyat sahəsində elə infrastruktur yaradırıq ki, o, əsrlərboyu ölkəmizin rifahı naminə işləyəcək. Təhsil – o da bir neçə onillik irəlini nəzərdə tutmalıdır.

**M i x a i l Q u s m a n: Bunlar gələcəyə investisiyalardır?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, kadrların, informasiya texnologiyalarının hazırlanması. Dünya irəliyə doğru hərəkət edir, biz də geri qalmamalıyıq. Əgər istək, siyasi iradə və yaxşı təşəbbüskarlıq varsa, çox iş görmək olar.

**M i x a i l Q u s m a n:** O vaxtdan 10 il keçib. Bir neçə ay bundan əvvəl Azərbaycan dövlət müstəqilliyinin bərpasının 30 illiyini, bir ay bundan əvvəl isə Azərbaycan Prezidenti İlham Əliyev 60 illik yubileyini qeyd edib. Ölkə yetkinləşir, təcrübə toplayır, dünyada daha mühüm yer tutur və bunu BMT Baş Assambleyasının tribunasından bəyan edir.

**İlham Əliyev:** BMT-nin Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan 2030-cu ilin gündəliyinin icrası barədə üçüncü Könüllü Milli Hesabat təqdim etmiş 12 ölkədən biri və öz regionunda birinci dövlətdir.

**Müəllif:** Son onilliklərdə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Azərbaycan gəlir səviyyəsi ortadan yuxarı olan dövlətlər qrupuna daxil olub. Ölkədə davamlı demoqrafik artım müşahidə olunur. Neft hasilatı artır. Bu gün Azərbaycan dünyada enerji təhlükəsizliyinə nail olmaqda liderlər sırasındadır. 2017-ci il sentyabrın 14-də Bakıda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərin sulu hissəsinin birgə işlənməsi barədə yeni saziş imzalanıb. Bu layihəyə 36 milyard dollardan çox sərmayə qoyulub. 500 milyon ton neft çıxarılıb. 2018-ci il mayın 29-da «Cənub Qaz Dəhlizi»nin mühüm hissəsi olan Trans-Anadolu qaz kəməri – TANAP-ın rəsmi açılışı olub. Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə, proqnozlaşdırılan ehtiyatlar təqribən 3 trilyon kubmetrə bərabərdir.

**Mixail Qusman:** Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər, Siz artıq neçə illərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır.

**İlham Əliyev:** Siz tamamilə haqlısınız. Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Ona görə də qeyri-neft sektoruna istiqamətlənmə əsas prioritet olub və yenə belədir.

**M ü ə l l i f:** Azərbaycan əlavə regional layihələr həyata keçirir. Şərq–Qərb, Şimal–Cənub və Şimal–Qərb nəqliyyat dəhlizləri sayəsində bu ölkə Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsi yekun mərhələyə qədəm qoyub. Bu dəhliz Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək.

**İ l h a m Ə l i y e v:** Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq, başa çatdırılıb. Nəqliyyat-logistika infrastrukturunun yaradılması tamamlanıb. Bu gün biz daşımanı çoxaltmaq və Azərbaycanın tranzit imkanlarını artırmaq üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik.

**M ü ə l l i f:** 2017-ci il oktyabrın 30-da Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə verilib, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsi təmin edilibdir. Mahiyyət etibarilə qədim İpək yolu bərpa olunub. 2018-ci il mayın 14-də Bakının Qaradağ rayonundakı Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi təntənəli şəkildə açılıb. Bu kompleksin yükaşırma qabiliyyəti 15 milyon tondur. Bu həcm 25 milyon tona qədər artırıla bilər. Prezident İlham Əliyevin tapşırığına əsasən, Ələt qəsəbəsində yaradılmış azad ticarət zonası 130 milyon nəfəri əhatə edən regional miqyaslı bazara xidmət edəcək. Azərbaycan iqtisadiyyatın müxtəlif sahələrinə böyük investisiyalar cəlb etmək üçün bank islahatı aparır.

**İ l h a m Ə l i y e v:** İnformasiya-kommunikasiya texnologiyaları sektorunda da təməl pis deyil. Artıq 3 peykə malik olan Azərbaycan kosmik klubun üzvüdür. İKT sahəsi çox fəal inkişaf edir və bu sahədə mühüm artım vardır. Başqa sahələrə gəldikdə isə, mən ilk növbədə, kənd təsərrüfatını qeyd edərdim. Burada çox böyük potensial var, çox böyük sərmayə qoyulub və yetərincə ciddi artım vardır. Biz turizmə böyük diqqət yetirmişik və yenə yetiririk, müasir turizm infrastrukturu yaradılıb. Lakin pandemiya bu sektora çox güclü zərbə vurdu. Hazırda biz daxili turizmin stimullaşdırılması barədə düşünürük.

**M i x a i l Q u s m a n:** Bütün dünyanı faciəli şəkildə cənginə almış koronavirus pandemiyası, əlbəttə, Azərbaycanda da həyata təsir göstərməyə bilməzdi. Azərbaycan rəhbərliyi koronavirusun ölkəyə nüfuz etməsinə, onun inkişafına mane olmaq üçün nə mümkündürsə edib. Qeyd etmək lazımdır ki, Azərbaycanın hakimiyyət orqanlarının fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilib.

**M ü ə l l i f:** 2021-ci ilin yanvar ayı. Azərbaycanda vaksinasiya kampaniyasının başlanğıcı. Hər 100 nəfər üçün istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən çoxdur. Əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün 2 milyard 700 milyon dollar həcmində sosial-iqtisadi paket təqdim olunub. Ümumdünya Səhiyyə Təşkilatının proqramlarına Bakının könüllü maliyyə yardımı 10 milyon dollar olub. 30-dan çox ölkəyə humanitar və maliyyə yar-

dımı göstərilib. 4 ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərilib.

**İlham Əliyev:** Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın baş direktorunun mənə ünvanladığı məktubda Azərbaycan rəhbərliyinin fəaliyyəti yüksək qiymətləndirilib, habelə Azərbaycan nümunəvi ölkə, yəni bu bəla ilə mübarizədə nümunəvi ölkə adlandırılıb.

**Müəllif:** 2020-ci ilin may ayı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda «Qoşulmama Hərəkatı»nın Təmas qrupu ölkələrinin Zirvə görüşü keçirilib. Bu görüş COVID-19-a qarşı mübarizəyə həsr edilib. «Qoşulmama Hərəkatı» üçün yubiley ili olan 2021-ci ildə təşkilatın 120 üzvünün qərarı ilə Azərbaycanın sədrlik müddəti 2023-cü ilə qədər uzadılıb.

**İlham Əliyev:** Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir. Bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında münasibətlər, yumşaq desək, gərgindir. Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib.

**Müəllif:** 2020-ci ilin dekabr ayı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusa qarşı mübarizəyə həsr edilmiş xüsusi sessiyası keçirilib. İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışında yeni təşəbbüs irəli sürüb.

**İlham Əliyev:** Biz COVID-19-dan sonra ümumi bərpa üzrə BMT-nin yüksək səviyyəli panelinin yaradılmasını təklif edirik. O, postpandemiya dövründə qlobal tədbirlər barədə tövsiyələr hazırlayacaq.

**Mixail Qusman:** Azərbaycan əksər beynəlxalq təşkilatların özünəinamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü də olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi sistemində, ATƏT-də və digər qurumlarda fəal işləyir.

**İlham Əliyev:** Azərbaycana gəldikdə, biz iştirak etdiyimiz bütün təşkilatlarda məhz həmin təşkilatı gücləndirmək, habelə bu təşkilatın fəaliyyəti çərçivəsində öz milli mənafelərimizi maksimum təmin etmək üçün iştirak edirik. Hər bir beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortabablardan, bir də hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə də burada bütün ölkələrin mənafelərinin nəzərə alınması vacibdir. Bu səbəbdən beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörməti mühüm prioritetlərdən biri hesab edirəm. Azərbaycan qanunun aliliyini və beynəlxalq hüququn aliliyini həmişə üstün tutur.

**Mixail Qusman:** Azərbaycanda ən qədim dövrlərdən müxtəlif dini və etnik qrupların nümayəndələri, müxtəlif xalqlar sülh və mehriban qonşuluq şəraitində yaşayırlar. Mən bunu başqalarından eşitdiyimə görə demirəm. Tam inamla deyə bilərəm ki, multikulturalizm azərbaycanlıların qanındadır.

**Müəllif:** 2018-ci il mayın 2-də Bakıda Mədəniyyətlərarası Dialoq üzrə V Ümumdünya Foru-

mu keçirildi. BMT bu forumu mədəniyyətlərarası dialoqun təşviq edilməsi üçün mühüm qlobal platforma kimi qiymətləndirir.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, gənc nəslə müraciət edərək demək istərdim ki, onlar öz əcdadlarından nümunə götürərək, fədakarlıqla, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, öz Vətənini qoruyarkən canını belə, əsirgəmədən qəhrəmanlıq göstərsinlər.

**M i x a i l Q u s m a n: 10 il bundan əvvəl Azərbaycan Prezidenti ilə söhbət zamanı biz onunla çox ağrılı bir məsələni – Dağlıq Qarabağ ətrafında vəziyyəti müzakirə etdik.**

**Dəhşətli dərəcədə çətin düyünə düşmüş siyasi problemlər öz həllini tələb edir. Sizin fikrinizcə, bu düyünü əmələ gətirən sapları bir-birinin ardınca dartmaqla açmaq mümkündür, yoxsa bu, «Qordi düyünü»dür, onu yalnız kəsmək olar?**

**İ l h a m Ə l i y e v:** Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri vardır. Bu sənədlərin hamısında tələb eynidir – Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bu bizim suveren hüququmuzdur.

**M ü ə l l i f:** 2020-ci ilin sentyabr ayı. Dağlıq Qarabağda hərbi münaqişənin yeni mərhələsi. 44 gündən sonra, noyabrın 9-dan 10-na keçən gecə atəşkəs barədə üçtərəfli Saziş Rusiyanın vasitəçiliyi, Prezident Putinin şəxsən iştirakı ilə imzalandı. Qarabağda Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi barədə qərar qəbul edildi.

**V l a d i m i r P u t i n:** Rusiyanın həlledici töhfəsi sayəsində Dağlıq Qarabağda münaqişə dayandırılıb. Rusiya sülhməramlıları regionda sülhə və təhlükəsizliyə etibarlı təminat verirlər.

**İ l h a m Ə l i y e v:** Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yolla nizamladı, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı.

**M ü ə l l i f:** Prezident Əliyevin qərarı ilə Qarabağ «yaşıl enerji» zonası elan edilib. Yaxın 4 ildə orada 240 meqavat gücündə yeni Günəş elektrik stansiyası tikiləcək. 2030-cu ilədək bütün ölkə ərazisində daha 10 belə layihənin həyata keçirilməsi planlaşdırılır. 2016-cı il. Azərbaycan iqlimə dair Paris Sazişini ratifikasiya edir. 2030-cu ilədək istixana effekti yaradan qazların səviyyəsini 35 faiz azaltmaq barədə könüllü öhdəlik götürür. Bu gün ölkədə ümumi enerji istehsalında bərpa olunan enerjinin payı 17 faiz təşkil edir. Ən yaxın hədəf 10 ildən sonra bu rəqəmi ikiqat artırmaqdır.

**M i x a i l Q u s m a n: Son illərdə Azərbaycan çoxlu sayda böyük idman, mədəni, siyasi, iqtisadi tədbirlər, müxtəlif forumlar keçirib. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq.**

**İ l h a m Ə l i y e v:** Dünya artıq başqalaşıb, biz tədricən işin yeni formatına, həyatın yeni formatına, özünütəcrid rejiminə öyrəşirik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Beynəlxalq forumlara gəldikdə isə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, artıq Azərbaycan humanitar əməkdaşlıq üçün

mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və təşəkkülündə sizin, Mixail Solomonoviç, şəxsən çox böyük rolunuz olan Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirəsalınmış başqa tədbirlər də suallar doğurur: biz onları necə keçirəcəyik? Fikrimcə, əsas məsələ, hər halda, o cümlədən beynəlxalq praktika məsələlərində əməkdaşlığın məzmununu, bu sahədə müsbət təcrübəni qoruyub saxlamaqdır.

**Mixail Qusman:** 25 il bundan əvvəl, 1997-ci ildə Rusiya və Azərbaycan «Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Təhlükəsizlik haqqında Müqavilə» imzalayıbdır. 2008-ci ildə bu müqavilə «Dostluq və Strateji Tərəfdaşlıq haqqında Bəyannamə» ilə möhkəmlənib. Şübhə yoxdur ki, ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsasını hüquq bərabərliyi və mehriban qonşuluq prinsipləri təşkil edir. Əslində bu prinsiplər Rusiya və Azərbaycan xalqları arasında əsrlərboyu yaranmış dostluq, qarşılıqlı hörmət ənənələrinin davamıdır.

Mən Rusiya Prezidenti Vladimir Putin ilə Sizin münasibətlərinizə toxunmaq istərdim. Bilirəm ki, Sizin aranızda yetərincə sıx yoldaşlıq münasibətləri, necə deyərlər, «personal chemistry», şəxsi münasibətlər yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, Prezident Putin Azərbaycanda olub.

**İlham Əliyev:** Sizin qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Buna görə bizim ünsiyyətimiz və görüşlərimiz

qarşılıqlı fəaliyyətimizin inkişafına çox müsbət təkan verir, qarşılıqlı siyasi fəaliyyət də çox yüksək səviyyədədir.

**Mixail Qusman:** Keçən il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev 60-cı doğum gününü qeyd etdi. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin bu yubiley münasibətilə İlham Əliyevi səmimi təbrik etdi.

**Vladimir Putin:** İlk növbədə, onun ölkəsinə əmin-amanlıq, firavanlıq arzu edirəm. Mən onu neçə illərdir tanıyıram. Yüksək vəzifə tutan hər hansı abırlı insan kimi, onun da həyatının əsas məqsədi ondan ibarətdir ki, ölkəsi üçün yaxşı olsun, insanlar üçün, Azərbaycan xalqı üçün yaxşı olsun. Mən İlham Heydər oğluna, ilk növbədə, həyati məqsədlərinin, niyyətlərinin reallaşmasında uğurlar diləyirəm. Əlbəttə, ona firavanlıq, cansağlığı arzu edirəm. Nəyisə dolaşıq salacağımdan qorxuram, məncə Azərbaycan folklorunda belə bir atalar sözü var: «Həqiqi dost yüz ildən sonra da dostdur». O bilməlidir ki, onun dostları var, o cümlədən Rusiyada da. Ümidvarıq ki, O da bizə, Rusiyaya eyni hisslər bəsləyir. Ona ən xoş arzularımı bildirirəm və yubileyi münasibətilə təbrik edirəm.

**Müəllif:** 2024-cü ilə qədər olan dövrdə Rusiya – Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə fəaliyyət planı 5 «Yol xəritəsi»ndə əks olunub. Bu xəritələr çərçivəsində ticarətdə maneələrin aradan qaldırılması; nəqliyyat infrastrukturunun inkişafı; elm tutumlu birgə istehsalatların yaradılması; qar-

şılıqlı turist mübadilələrinin artırılması nəzərdə tutulur.

**İlham Əliyev:** Əlbəttə, humanitar sahədə əməkdaşlığı hökmən qeyd etmək lazımdır və Rusiya Prezidenti ilə biz həmişə belə edirik. Fikrimcə, bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Azərbaycanda təhsilin rus dilində olduğu 330-dan çox məktəbin, Rusiyanın aparıcı ali məktəblərinin filiallarının mövcud olması və yetərincə zəngin mədəni proqramın olması Rusiyada çox yüksək qiymətləndirilir. Biz daim əlaqə saxlayırıq, yaxın dostlar və tərəfdaşlar kimi işləyirik.

**Mixail Qusman:** Bu gün Azərbaycan gələcəyə istiqamətlənib. İqtisadi islahatlar uğurla inkişaf edir, kənd təsərrüfatı və sənaye yüksək səmərəlilik nümayiş etdirir. Biznes üçün gözəl şərait yaradılıb. Azərbaycan xalqı quruculuqla məşğuldur. Əlbəttə, çox iş görülüb, lakin ölkənin daha da firavanlaşması üçün Prezident Əliyev qarşıya daha yüksək məqsədlər və genişmiqyaslı vəzifələr qoyur.

**Azərbaycan vətəndaşları:**

– Azərbaycan mənim Vətənim, şərəfim, ləyaqətim və vicdanımdır. Biz əsrlərboyu bu torpağı Vətən adlandırmaq hüququnu insanların həyatı bahasına qazanmışıq.

– Mənim doğmalarım və yaxınlarım, mənim işim buradadır.

– Azərbaycanın dünyada öz mövqeyi və öz səsi var.

– Azərbaycan mənim üçün hər şeydir – mənim Vətənim, torpağım, ata yurdumdur, mən burada do-

ğulmuşam, boya-başa çatmışam və xoşbəxt yaşayıram.

– Bu diyarın çöllərindən başlamış uca dağlarına qədər sərhəd bilməyən nadir təbiəti var.

– Öz Vətəninə xidmət etmək hər bir vətəndaşın borcudur.

– Mən öz Vətənimin firavanlığı üçün hər şeyi edirəm və edəcəyəm.

– Azərbaycanın qarşısında çox vəzifələr var. Biz öz Vətənimiz uğrunda canımızdan keçməyə hazırıq.

# GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*30 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərində səfərdə olmuşdur.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

## Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışı mərasimində iştirak etmişdir.*

*Gəncə Dövlət Dram Teatrı 1921-ci ildə Bakıda yaradılıb. 1925-ci ilədək «Tənqid-təbliğ» teatrı, 1932-ci ilədək «Bakı-işçi-kəndli» teatrı adlandırılıb. 1932-ci ilin dekabr ayında teatr bütün heyəti ilə birlikdə Gəncəyə köçürülüb və fəaliyyətini burada davam etdirib. Görkəmli teatr xadimləri İsmayıl Talıblı, Ələsgər Ələkbərov, Ağasadıq Gəraybəyli, Ağahüseyn Cavadov, Mehdi Məmmədov, Kazım Ziya, Fatma Qədri, Əmir Dadaşlı, Rəmziyyə Veysəlova kimi şəxsiyyətlərin sənət yolu məhz buradan keçib.*

*Dövlət başçısına Gəncə Dövlət Dram Teatrının yeni binasında görülmüş işlərlə bağlı məlumat verildi.*

*Gəncə Dövlət Dram Teatrının 2014-cü ildə təməli qoyulmuş yeni binasında 478 yerlik böyük tamaşaçı zalı, 22 tamaşaçı-yerlik lojalar və 120 yerlik kiçik tamaşaçı zalı vardır. Yeddimərtəbəli binada, həmçinin iki zaldan, 135 eksponat və rəsm əsərlərindən ibarət Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb. Bir sözlə teatrın yeni binasında tamaşaların nümayişi üçün müasir texniki şərait təmin edilib, yaradıcı heyətin məşqləri ilə bağlı bütün məqamlar nəzərə alınıbdır.*

## Gəncə regional «ASAN xidmət» Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da 2 saylı Gəncə regional «ASAN xidmət» Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Bu mərkəz ölkə üzrə sayca 22-dir. Vətəndaş əhatəsinə nəzər salsaq görərik ki, Gəncə şəhəri, Şəmkir, Gədəbəy, Göygöl, Goranboy, Samux, Naftalan, Kəlbəcər və Xocalı rayonlarını əhatə edən bu bölgədə qeydiyyatda olan ümumilikdə 1 milyona yaxın insan vardır. Lakin mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcəkdir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlət baş-*

*çısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, mərkəzdə vətəndaşlara müxtəlif dövlət qurumları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət göstəriləcək. Mərkəzdə əməkdaşların sayı 208, könüllülərin sayı 85 nəfər nəzərdə tutulur. «ASAN xidmət» Mərkəzinin işçilərinin sayı 40 nəfərdir ki, onlar da əsasən şəhid ailələrinin üzvləri, qazilər və ASAN könüllülərindən təşkil olunublar.*

*Prezident İlham Əliyev 2 saylı Gəncə regional «ASAN xidmət» Mərkəzini işə saldı.*

*«ASAN xidmət» konsepsiyasının mühüm tərkib hissələrindən biri könüllülərdir. İndiyədək prosesə 28 mindən çox könüllü gənc qoşulub. Onlar tərəfindən 3000-dən çox təlim, 700-dən çox layihə həyata keçirilib. 2700-dən çox könüllü isə «ASAN kadr» portalı vasitəsilə işlə təmin olunubdur.*

*Yarandığı ilk gündən ASAN vətəndaş məmnunluğu əmsalına görə fərqlənib. İndiyədək mərkəzlərə 7 milyon 710 mindən çox vətəndaşın 50 milyona yaxın müraciəti daxil olub. Vətəndaşların məmnunluq əmsalı isə 99,5 faizə bərabərdir.*

**Ülvi Mehdiyev:** Cənab Prezident, Sizə innovasiyalarla bağlı yerli bir məhsul da təqdim etmək istəyirəm. Həyətdə quraşdırılıb, strateji obyektlər, dövlət sərhədi üçün lazım olan mühafizə skaneridir. Özünü elektrik enerjisi ilə Günəş paneli vasitəsilə qidalandırır, kamera və işığı var.

**İlham Əliyev:** Deməli, yaxınlaşdı, toxundu, dərhal...

**Ülvi Mehdiyev:** Dərhal həyəcan siqnalı çalınır və bu hansı blokda baş verdiyini göstərir.

**İlham Əliyev:** Orada sensorlar var?

**Ülvi Mehdiyev:** Bəli, sensorlar var. Bunu kəsə bilər, aralaya bilər, bloku zədələyə bilər. Dərhal siqnal verir. Hətta özü xarab olursa, sistemin özünə müdaxilə olursa, onda da özü çağırış verir ki, buraya müdaxilə olundu.

Növbəti innovativ yenilik – «ASAN kömək» vasitəsilə xarici ölkələrə səfər edən vətəndaşlarınköməyə ehtiyacı olarkən, eyni zamanda, təcili və təxliyə hallarında faydalana biləcəkləri mobil proqramdır.

«Smeta-Normativ və Qiymətqoyma» informasiya sistemi vasitəsilə isə müxtəlif istiqamətlər üzrə məlumatların toplanılması, təhlil edilməsi, digər əlaqəli dövlət informasiya sistemlərinə ötürülməsi və aidiyyəti qurumlar üçün hesabatlılığın təmin edilməsi mümkün olacaqdır.

Cənab Prezident, bu rəqəmsal icra hakimiyyəti sistemi ilə biz həm fiziki olaraq icra hakimiyyətlərinin ASAN standartına uyğunluğunu təmin edirik, həm də bu sistem vasitəsilə icra qurumlarının bütün xidmətlərini elektronlaşdırmışıq. Noyabr ayında istifadəyə vermişik, artıq 2437-dən çox istifadəçi yararlanıbdır.

**İlham Əliyev:** Burada var? Quraşdırılır?

**Niyazi Bayramov** (*Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı*): Bizim işçilər burada oturacaqlar, cənab Prezident. İcra hakimiyyətinin, Nizami, Kəpəz rayonlarının nümayəndələri burada olacaqlar.

**Ü l v i  M e h d i y e v:** Pilot olaraq Gəncə, Quba və Masallıdan başlamışıq.

**İ l h a m  Ə l i y e v:** Səmərəliliyi var?

**N i y a z i  B a y r a m o v:** Olacaq, bəli.

*Azərbaycanın intellektual brendi olan ASAN konsepsiyası həm də ixrac səbətində yer alır, Agentliyin ekspertləri tərəfindən müxtəlif ölkələrdə təlimlər keçirilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilir.*

## Gəncə İdman sarayında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə İdman sarayında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*İkimərtəbəli Gəncə İdman sarayında böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq turnirlərin keçirilməsi üçün məkan, şahmat, güləş, boks və idmanın digər növləri üzrə məktəblər fəaliyyət göstərəcək.*

*Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının uğurlu icrasını təmin edən əsas məsələlərdən biri Prezidentin infrastruktur layihələrinin tikintisinin gedişi ilə yerində tanış olmasıdır.*

*Dövlət başçısı 2020-ci il iyunun 24-də bu idman qurğusunda inşaat işlərinin gedişi ilə tanış olmuş, müvafiq tapşırıqlarını vermişdi. Bundan sonra obyektdə tikinti işlərinin sürəti daha da artmışdır.*

## «Azərbaycan Dəmir Yolları» QSC-nin lokomotiv deposunun istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncədə «Azərbaycan Dəmir Yolları» QSC-nin lokomotiv deposunun istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Dördüncü regional inkişaf proqramı çərçivəsində icra olunan növbəti layihə Gəncə lokomotiv deposudur. Yeni depoda dəyişən cərəyanla işləyən elektrovozların texniki xidməti və təmiri işləri həyata keçiriləcək. 2021-ci ilin noyabrında açılışı olan Biləcəri lokomotiv deposu ilə bərabər, Gəncə deposu Azərbaycan hökuməti ilə Fransa İnkişaf Agentliyinin birgə maliyyəsi hesabına inşa edilibdir.*

*Dövlət başçısı deponu işə saldı.*

*Bildirildi ki, əsas təmir zonasında eyni vaxtda 6 lokomotivə xidmət etməyə imkan verən ikimərtəbəli platforma mövcuddur. Yeni depo sifariş edilmiş bütün dəyişən cərəyanlı lokomotivlərə fasiləsiz olaraq texniki xidmət göstərmək qabiliyyətindədir.*

*Gəncə lokomotiv deposu ABŞ, Almaniya, İngiltərə, Hollandiya, İtaliya, Türkiyə, Koreya Respublikası, Çin, Rusiya və bir sıra digər ölkələrin istehsalı olan müasir avadanlıq və cihazlarla təchiz olunub. Həmçinin depo ərazisində 350 ədəd Günəş paneli quraşdırılıb ki, bu da enerjiyə olan tələbatın bir hissəsini qarşılamaq imkanı yaradır.*

*Yeni depoda 75 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Gəncə lokomotiv deposunun istismarı enerji resurslarına qənaətə, xərclərin azalmasına,*

*təmir və texniki xidmətin optimallaşdırılmasına, istismarın etibarlılığının artırılmasına və fasiləsiz daşımaların təmin olunmasına imkan yaradacaqdır.*

**Gəncə Memorial Kompleksinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə Memorial Kompleksinin təməlini qoymuşdur.*

*Dövlət başçısı kompleksin yaradılacağı ərazi ilə tanış oldu. Prezident İlham Əliyevə kompleks barədə məlumat verildi.*

*Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı «Toçka-U», «Smerç», SKAD və digər raket qurğularından endirilən zərbələrə məruz qalmışdır. Nəticədə 6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olmuş, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri almışlar.*

*Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olmuş dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoydu.*

*Münaqişə bölgəsindən kilometrlərlə kənar ərazilərin qadağan olunmuş kaset bombalarla hədəfə alınması nə beynəlxalq hüquqa, o cümlədən Ermənistanın 1993-cü ildə ratifikasiya etdiyi Cenevrə konvensiyalarına və onların əlavə protokollarına, nə müharibənin əxlaq kodeksinə, nə də, ümumiyyətlə, heç bir mənəvi müstəviyə uyğun deyildi. Bu ifadənin dəqiq*

*definisiyası «alçaqcasına hücum»dur. Azərbaycan isə müharibənin ilk günündən heç bir halda mülki əhaliyə atəş açmır, yalnız legitim hərbi hədəfləri zərərsizləşdirir, qisasımızı döyüş meydanında alırdı.*

*Ermənistanın raket hücumları nəticəsində həlak olmuş dinc sakinlərin xatirəsi isə bu ərazini ziyarətə gələn hər kəs tərəfindən ehtiramla anılır.*

*Prezident İlham Əliyev Gəncə Memorial Kompleksinin təməlini qoydu.*

## AZƏRBAYCAN DÖVLƏT İNFORMASİYA AGENTLİYİNƏ – AZƏRTAC-a MÜSAHİBƏ

*30 yanvar 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərində Azərbaycan Dövlət İnformasiya Agentliyinə – AZƏRTAC-a müsahibə vermişdir.*

**M ü x b i r:** Cənab Prezident, dəfələrlə Gəncədə olmusunuz, şəhərdə xeyli işlər görülüb. Bu işlər barədə fikirlərinizi bilmək istərdik.

**İlham Əliyev:** Bu mənim Gəncəyə Prezident kimi, 18-ci səfərimdir. Belə çıxır ki, orta hesabla hər il Gəncədə səfərdə oluram. Elə illər olub ki, iki dəfə olmuşam. Həm ona görə ki, Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub. İkincisi, ona görə ki, bir çox layihələr Gəncə şəhərində icra edilib və bu layihələrin icrası davam edir. Gəncə şəhərinin kompleks inkişaf planı həm təsdiqlənib, həm də uğurla icra edilir. 18 ildir ki, mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam.

Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışmışıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapıb. Elektrik enerjisi ilə təchizat tam öz həllini tapıbdır. Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir

edilibdir. Onların enerji istehsalı gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda, şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınacaqdır.

Qazlaşdırılma layihəsi tam icra edilibdir. İçməli su layihəsi hələ ki, icra edilir. Əfsuslar olsun ki, bu layihə bir qədər uzandı. Düzdür, çox genişmiqyaslı layihədir, həm də maliyyə tutumlu layihədir, təqribən 800 milyon manat dəyərində olan bir layihədir. Bu layihənin icrası nəticəsində Gəncə şəhərinin içməli su və kanalizasiya problemləri birdəfəlik həll olunacaq. Mənə verilən son məlumata görə, hazırda bu layihənin icrası 42 faiz səviyyəsindədir. Əlbəttə, əlavə tapşırıqlar veriləcək ki, bu layihənin icrası sürətləndirilsin, Gəncə şəhərinin bu problemi də öz həllini tapsın.

Avtomobil yollarının çəkilişi ilə bağlı deyə bilərəm ki, indi bütün ölkədə olduğu kimi, Gəncəyə gedən yollar tam müasirləşdirilib. Həm Bakı–Gəncə avtomobil yolunun, həm də Gəncə–Qazax–Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb. İndi biz bu yolu iki zolaqdan dörd zolağa genişləndiririk. Eyni zamanda, Gəncədən digər şəhərlərə – Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılıbdır.

Bildiyiniz kimi, Gəncəyə Bakıdan dəmir yolu xətti də tam modernləşdirilib. Bu əslində Şərq–Qərb nəqliyyat dəhlizinin bir parçasıdır. İndi xəttə sürətli qatarlar da buraxılıb. Dünyanın aparıcı İsveçrə şirkəti tərəfindən istehsal edilmiş bu qatarlar həm vaxt baxımından çox əlverişlidir, həm də ki, kom-

fortludur. Hazırda Bakıdan Gəncəyə və Gəncədən Bakıya yüksəksürətli qatarlar işləyir. Bu, əlbəttə ki, insanların rahatlığı üçün də çox önəmli bir məsələdir. Həm avtomobil yolu ilə rahat gəlmək olur, həm də hava məkanı qonaqlar üçün, Azərbaycan vətəndaşları üçün indi tam müasir səviyyəyə uyğundur. Gəncə Beynəlxalq Hava Limanı uzun illər bundan əvvəl mənim təşəbbüsümlə yenidən qurulubdur.

Yəni bunlar əsas infrastruktur layihələridir. Bunlar həll olunmadan şəhərin inkişafından söhbət gedə bilməzdi. Bununla paralel olaraq, əlbəttə ki, həm səhiyyə, həm təhsil sahəsində bütün sosial infrastruktur yenilənib. Baxın, indi Gəncədə 245 çarpayılıq şəhər xəstəxanası, demək olar ki, yenidən tikilib və əlavə 200 çarpayılıq modul tipli xəstəxana quraşdırılıbdır. Təhsillə bağlı deyə bilərəm ki, şəhərdə 30-dan çox məktəb tikilib və təmir edilibdir. Bu problemin böyük hissəsi öz həllini tapıb. Dövlət Aqrar Universitetinin iki yataqxanası istifadəyə verilib. Mən hər ikisinin açılışında iştirak etmişəm. Tədris korpusu yenidən qurulub. Nəzərə alsaq ki, hazırda ölkə iqtisadiyyatı üçün kənd təsərrüfatı xüsusi önəm daşıyır, bu təhsil mərkəzinin müasirləşdirilməsi, əlbəttə, çox böyük əhəmiyyətə malikdir.

Eyni zamanda, Gəncənin mədəni həyatı çox zəngindir. Həm Dövlət Filarmoniyasının yeni binası tikilib, həm də Dram Teatrının. Yəni Gəncənin hərtərəfli inkişafı ilə bağlı işlər görülür, o cümlədən parklar, xiyabanlar, istirahət və əyləncə zonaları yenidən qurulur. Görülən bütün bu işlər düzgün müəyyən edilmiş siyasətin nəticəsidir.

Bir də ki, İkinci Qarabağ müharibəsindən sonra Gəncə eyni zamanda, Kəlbəcər rayonunun inkişafı ilə bağlı öz sözünü deyir və deməlidir. Çünki hazırda bizim Kəlbəcərə yeganə, yəni rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir. Rahat deyəndə, biz ancaq yaz-yay mövsümlərində o yoldan rahat istifadə edə bilərik. Çünki qış aylarında yol həm bəzi yerlərdə keçilməz, həm də çox təhlükəli olur. Bu yol faktiki olaraq, sovet vaxtında olmayıb, bir cığır idi. Biz qısa müddət ərzində o cığırı genişləndirdik və mən özüm də keçən il o yolla Kəlbəcərə getmişdim, Murov aşırımından keçərək. Hazırda Murov dağının altından böyük – uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcəkdir. Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim sərhəd boyunca yerləşən hərbi postlarımıza da əsas təchizat buradan gedir. Ona görə Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır.

Şəhərin əhalisi artır. Əhalinin bu artımına və müasir tələblərə uyğunlaşmaq üçün biz, əlbəttə ki, əlavə addımlar atırıq və atacağıq. Eyni zamanda, hazırda Daşkəsən rayonunda dağ-mədən sənayesinin uğurla inkişafı da böyük dərəcədə Gəncədəki infrastrukturla bağlı olacaq. Çünki orada həm qızıl

yataqları, həm də dəmir filizi yataqları mövcuddur. Bu işlərin sürətləndirilməsi üçün əlavə göstərişlər verilib. Dəmir filizi yataqlarından səmərəli istifadə etmək üçün zəncirvarı sənaye klasteri yaradılmalıdır. Əlbəttə, Gəncənin də burada xüsusi rolu olacaqdır. Bir sözlə, Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının icrası nəticəsində Gəncə şəhəri həmişə xüsusi yerə malik olubdur. Bu gün də belədir, sabah da belə olacaqdır.

**S u a l: Cənab Prezident, bu gün də bir neçə mühüm obyektin açılışını etdiniz. Bu açılışlar nəyi göstərir? Bu açılışlar barədə nələri deyə bilərsiniz?**

**C a v a b:** Əslində bu açılışlar onu göstərir ki, Gəncənin inkişafı və şəhərin problemlərinin həlli daim diqqət mərkəzindədir. Baxmayaraq ki, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara – Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız da daim diqqətlə əhatə olunur. Əgər mənim bugünkü proqramıma nəzər salsaq, görərik ki, bir çox önəmli obyektin açılışı oldu, təməlqoyma mərasimi oldu. Onların içində, əlbəttə ki, «ASAN xidmət» Mərkəzinin açılışını xüsusilə qeyd etmək istəyirəm. Bir neçə il bundan əvvəl Gəncədə «ASAN xidmət» Mərkəzi açılmışdır. Ancaq tələbat o qədər böyükdür ki, növbələr yaranır. «ASAN xidmət»in xüsusiyyətlərindən biri həm şəffaflıqdır, müasir xidmətlərin göstərilməsidir, həm də rahatlıqdır. Ona görə biz xidmətin adını ASAN qoymuşuq. Əgər növbə yaranırsa və insanlar saatlarla növbədə dayanırlarsa, bu, artıq «ASAN xidmət» olmadı. Ona görə mənim göstərişimlə ikinci

«ASAN xidmət» Mərkəzi yaradıldı, birincidən daha böyük. Bu xidmət bu gün rəsmən açıldı və bir neçə gündən sonra öz qapılarını vətəndaşların üzünə açacaq. Beləliklə, növbələr artıq aradan götürüləcək.

Eyni zamanda, bu gün Gəncə Dram Teatrının açılışı oldu. Təəssüf edirəm ki, pandemiyaya görə teatrın truppası ilə görüşə bilmədim. Ancaq yadımdadır ki, mən bir neçə il bundan əvvəl Gəncədə olarkən teatrın truppasının nümayəndələri şəhərdə Dram Teatrının tikilməsi ilə bağlı mənə müraciət etmişdilər. Mən də onlara söz vermişdim ki, bu müraciəti nəzərə alacağam. Həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl, möhtəşəm Dram Teatrı açıldı. Yenə də deyirəm, ölkə qarşısında bir çox problemlər var və bu problemlər təxirəsalınmaz həllini gözləyir. Amma buna baxmayaraq, mədəniyyətə, Gəncənin mədəni həyatına töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir. Necə ki, bir neçə il bundan əvvəl Gəncə Filarmoniyası açıldı. Baxın, bu filarmoniyanın açılması Gəncə şəhərinin mədəni həyatına nə qədər töhfə verib, eyni zamanda, şəhərin ümumi görünüşünə gözəl töhfə olubdur. Çünki memarlıq baxımından çox gözəl bir binadır. Dram Teatrı da çox möhtəşəm binadır və orada artistlər, truppa üzvləri və tamaşaçılar üçün gözəl şərait yaradılıbdır.

Bu gün Gəncə İdman sarayının tikintisi ilə tanış oldum. Bu sarayı da mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu böyüklükdə idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki,

Bakı şəhərində bir çox idman sarayları var – ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur. Burada isə həm döyüş idman növləri, güləş, boks, həm məktəblər – güləş məktəbi, boks məktəbi, həmçinin əl oyunları üçün xüsusi zal – basketbol, voleybol, həndbol, 50 metrlik üzgüçülük hovuzu, yardımçı otaqlar və zallar, hotel. Yəni bir daha demək istəyirəm ki, bu, ölkəmizin ən böyük idman sarayıdır. Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir. Onu da bildirməliyəm ki, hələ mən Prezident olmadığım dövrdə, Milli Olimpiya Komitəsinin prezidenti kimi, Gəncədə Olimpiya Mərkəzinin yaradılması ilə bağlı təşəbbüslə çıxış etmişdim və o idman qurğusu o vaxt inşa olunub. Ancaq illər keçdikcə, əlbəttə ki, bu idman obyekti həm fiziki, həm mənəvi cəhətdən köhnəlib və orada normal məşq etmək üçün şərait o qədər də uyğun deyildi. Amma bu idman sarayı əminəm ki, gələn ilin sonuna qədər istifadəyə veriləcək, həm idmançılar, həm də şəhər sakinləri üçün çox faydalı olacaqdır. Hesab edirəm ki, hər bir insan idmanla məşğul olmalıdır. Yəni bu obyektlərin açılması və təməlinin qoyulması, əlbəttə ki, şəhərə olan qayğının təzahürüdür.

Gəncədə lokomotiv deposunun yaradılması artıq başa çatıb. Buna da çox böyük ehtiyac vardır. Çünki qeyd etdiyim kimi, Gəncədən Şərq–Qərb nəqliyyat dəhlizi keçir. Bakıda bu yaxınlarda lokomotiv deposu açılıb, ikinci depo isə Gəncədə açıldı. Görün bugünkü proqramın nə qədər böyük əhatə dairəsi vardır. Bütün bu açılışlar və təməlqoyma mərasimləri göstərir ki, ölkəmizin hər bir yerində inkişaf davam

etməlidir, biz əldə olunmuş nailiyyətlərlə kifayətlənməməliyik, yalnız irəliyə getməliyik və bütün gücümüzü səfərbər edib insanlar üçün daha yaxşı həyat şəraiti yaratmalıyıq.

**M ü x b i r:** Cənab Prezident, bu gün Siz eyni zamanda, Vətən müharibəsi ərzində erməni faşist ordusu tərəfindən dağıdılmış ərazidə Memorial Kompleksin təməlini qoydunuz. Bununla bağlı fikirlərinizi bilmək istərdik.

**C a v a b:** Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq, əfsuslar olsun ki, insanların həyatına son qoyub, 5 raket isə partlamayıb. Bu da öz növbəsində, onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idilər. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak olub. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak olub, erməni faşizminin qurbanı olub. Gəncə şəhəri həm «Toçka-U», həm SKAD raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə, Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri

Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevriliblər. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub. Yəni bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır. Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz düşmənə döyüş meydanında cavab vermişik. Gəncə və digər şəhərlər – Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq, heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir.

Ermənistan isə döyüş meydanında məğlub olaraq, 10 min fərari verərək, tamamilə biabır olaraq, görün hansı çirkin əməllərə əl atıb bizi dayandırmaq istəyirdi. Amma Azərbaycan xalqı, hətta bu dağıntılar altından çıxan insanlar, qanın içində olan, əzizlərini, yaxınlarını itirmiş insanlar da deyirdilər ki, biz ancaq qabağa getməliyik. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Biz bu günahsız insanların, şəhidlərimizin

qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik.

Bu gün burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək. Bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq. Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın.

**S u a l: Cənab Prezident, bildiyimiz kimi, bu günlərdə Rusiyada erməni faşist Qaregin Njde haqqında filmin yayımı dayandırıldı, aradan qaldırıldı. Bu məsələni Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətin nəticəsi kimi dəyərləndirmək olarmı? Bu barədə də fikirlərinizi bilmək istərdik.**

**C a v a b:** Mən hesab edirəm ki, ilk növbədə, Rusiya ictimaiyyəti bundan xəbərdar oldu və Rusiya ictimaiyyətinin təkidi nəticəsində bu biabırçı aksiya baş tutmadı. Ancaq o da həqiqətdir ki, ilk dəfə olaraq, bu məsələni siyasi müstəviyə gətirən mən ol-

muşam. Mən əvvəlki illərdə də dəfələrlə bu erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışam. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışam ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan vermək olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında – İrəvanda qoyulmuş abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub, cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib. Bu Njde faşistdir və bunu hər kəs bilməlidir. Ancaq Ermənistanda onun qəhrəmanlaşdırılması gedir. Əgər bu, təkcə əvvəlki faşist hakimiyyətlə bağlı olsaydı, dərd yarı idi. Əfsuslar olsun ki, indiki Ermənistan hakimiyyəti faşistləri təbliğ edir, onları müdafiə edir. Moskvada ermənilərin diaspora təşkilatının xətti ilə bu dözülməz aksiyanın keçirilməsi heç bir çərçivəyə sığmır. Çünki Rusiya özü faşizmin qəhrəmanlaşdırılmasına qarşı gedən mübarizədə ön sıralardadır, Azərbaycan kimi. Bu məsələ ilə bağlı Rusiya tərəfi ilə dəfələrlə fikir mübadiləsi olub. Prezidentlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində, ictimai təşkilatlar səviyyəsində biz həmfikirik. Faşizmin baş qaldırmasına yol vermək olmaz. İkinci dünya müharibəsinin tarixi ilə bağlı təhrifetmə cəhdlərinə son qoyulmalıdır. Bu siyasət dünyanı uçuruma aparacaq. Faşizmi qəhrəmanlaşdırmaq olmaz. Amma bir tərəfdən, Ermənistan rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq,

Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır. Bu günə qədər Ermənistanda, İrəvanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var, ona böyük – altımetrlik abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib.

Bu nəyi göstərir? Onu göstərir ki, erməni faşizmi yaşayır. Bəli, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsində biz erməni faşizmini məğlub etmişik. Deyə bilərəm ki, erməni faşistlər indi əvvəlki illərdəki qədər fəal deyillər. Ancaq biz görürük ki, faşizm baş qaldırır, Ermənistanda baş qaldırır. Ermənistanın keçmiş faşist rəhbərləri, uşaq qatilləri Sarkisyan, Köçəryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar. Biz onları məğlub etmişik. Onlar bizim qabağımızda diz çöküblər. Onlar tarixdə fərari kimi qalacaqlar. O cümlədən erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Köçəryan fərarilər kimi qalacaqlar. Çünki Azərbaycan Ordusu Şuşaya yaxınlaşdıqca onlar Xankəndidən qorxaqcasına, dovşan kimi qaçmışdılar. Amma indi Ermənistanda baş qaldırırlar, Rusiyada baş qaldırırlar. Rusiyanın paytaxtında erməni diaspora təşkilatının xətti ilə belə biabırçı aksiyanın təşkili dediyim sözlərin sübutudur. Biz erməni faşizmini məğlub etdik, ancaq o, məhv edilməyib. Biz bundan sonra da çalışacağıq ki, erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır. Ancaq gərək digər ölkələr də, beynəlxalq ictimaiyyət də bu məsələdə həmrəy olsun. Erməni faşizminin XXI əsrdə törətdiyi bu dağıntılar hamı üçün gərək bir nümunə olsun ki, faşizmin yaxşısı, pisi yoxdur. Er-

məni havadarları, Ermənistanın arxasında dayanan dairələr də bunu bilməli, dərk etməli və bizim tarixi missiyamızı qiymətləndirməlidirlər ki, biz hansı bəlanı məhv etdik. Biz təkcə öz torpağımızı azad etmədik, biz regionu, Cənubi Qafqazı bu vəhşi xislətli qüvvələrdən təmizlədik. Yenə də deyirəm, indi onlar artıq boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir.

**M ü x b i r:** Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınız üçün Sizə təşəkkür edirik, minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Azərbaycan–İtaliya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığımız daim inkişaf edir. Azərbaycanın əsas ticarət tərəfdaşı olan İtaliya şirkətləri işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərinə də yaxından cəlb olunublar.

İnanıram ki, Azərbaycan ilə İtaliya arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə bundan sonra da uğurla davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqının rifahı naminə məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 yanvar 2022-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏLƏRDƏKİ HESABINDAN

*2 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım etmişdir.*

*Paylaşımda deyilir:* «Azərbaycan gəncləri fəal, vətənpərvər, bilikli, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm».

## AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNÜN 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ GƏNCLƏR FORUMUNDA İŞTİRAK

*2 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Bakıda keçirilmiş Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak etmişdir.*

*Müstəqil Azərbaycanın gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Həmin illər sosial-iqtisadi çağırışlar, müharibə şəraiti, müxtəlif istiqamətlərdən daxil olan ideoloji dəyərlərin gəncləri təsir altına salma cəhdləri ilə müşayiət olunurdu. Ümummilli lider aydın strategiya ilə müstəqilliyimizin ilk illərində gənclərin enerji və imkanlarını milli maraqlarımızın müdafiəsinə səfərbər etdi, onların vətənpərvər ruhda formalaşmasına zəmin yaratdı. 1996-cı il fevralın 2-də keçirilmiş Azərbaycan Gənclərinin Birinci Forumunda ümummilli lider gənclər qarşısında mühüm tarixi vəzifələr müəyyənləşdirdi.*

*2003-cü ildən sonrakı dövrdə isə Prezident İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramları qəbul edildi, 2007-ci il «Gənclər ili» elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ölkədə ilk*

*dəfə «Gənclər üçün Prezident Mükafatı» təsis olundu, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.*

*Gülüstan sarayında təşkil olunmuş Gənclər Forumunda gənc sahibkarlar, dövlət proqramlarının iştirakçıları, keçmiş məcburi köçkün, şəhid ailələrinin gənc üzvləri, Vətən müharibəsi iştirakçıları, təhsildə və sosial inklüziv fəaliyyətdə fərqlənənlər iştirak etdilər.*

*Dövlət başçısı forumda çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün Azərbaycanda Gənclər Günü qeyd edilir. Bu münasibətlə sizi və bütün Azərbaycan gənclərini ürəkdən təbrik etmək istəyirəm.

İyirmi beş il əvvəl ulu öndər Heydər Əliyevin sərəncamı ilə Azərbaycanda Gənclər Günü təsis edildi və o gündən bu günə qədər fevralın 2-də biz bu günü qeyd edirik. Ondan bir il əvvəl isə Heydər Əliyevin təşkilatçılığı və təşəbbüsü ilə Azərbaycanda Birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər gənclər siyasəti daim dövlətin prioritetləri sırasındadır. O gündən bu günə qədər bir nəsil dəyişdi və bu gün bu salonda oturan gənclər o vaxt ya hələ dünyaya gəlməmişdi, ya da balaca uşaqlar idi. Bir nəsil dəyişdi və Azərbaycan dəyişdi.

Əgər ovaxtkı Azərbaycan reallıqlarına nəzər salsaq görərik ki, o vaxt vəziyyət çox ağır idi. Müstəqilliyimizin cəmi 6 yaşı var idi, Azərbaycan müstəqil həyata təzə-təzə başlayırdı. Ölkə qarşısında çox böyük, ciddi, fundamental problemlər dayanmışdı. Birinci Qarabağ müharibəsindən cəmi üç il keçmişdi və böyük ümidlər var idi ki, beynəlxalq aləm, vasitəçilər tezliklə Qarabağ məsələsini həll edəcək, ədaləti bərpa edəcəklər. Belə ümidlər var idi və bütün digər sahələrdə vəziyyət çox ağır idi. Siz gənclər təbii ki, o illəri görməmisiniz. Ancaq bu bizim tariximizdir və bizdən sonra gələn nəsillər bu tarixi bilməlidir, unutmamalıdır. Çünki məhz düzgün təhlil aparарkən, tarixdən ibrət götürərkən biz inamla irəliyə gedə bilərik.

O vaxt Azərbaycan özünü dünya arenasında hələ tam təsdiq etməmişdi. Azərbaycan reallıqları, demək olar ki, dünya ictimaiyyətinə bəlli deyildi. Bizə qarşı artıq o vaxt və bu günə qədər fəaliyyət göstərən erməni lobbi təşkilatları Azərbaycan haqqında yalan, təhrif edilmiş məlumatlar ötürürdülər. Əlbəttə ki, o vaxt beynəlxalq aləmdə layiqli yer tutmaq öndə duran məsələlərdən biri idi.

İqtisadi vəziyyətə gəldikdə isə deyə bilərəm ki, o vaxt iqtisadiyyat anlayışı, ümumiyyətlə, yox idi. Çünki Sovet İttifaqı dağılandan sonra Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam bərqərar olmamışdı, özəl sahibkarlıq çox aşağı səviyyədə idi. Dövlət qurumları isə hələ yeni idarəetmə üsuluna yiyələnə bilməmişdilər. İqtisadi tənəzzül hər yerdə özünü büruzə verirdi və iqtisadi gələcəyimiz də prin-

sipcə sual altında idi. Neft-qaz kontraktları təzəcə imzalanmışdı. 1994-cü ildə bu salonda, bax, bu yerdə «Əsrin müqaviləsi» imzalanmışdı və hamımıza böyük ümidlər vermişdi. Ancaq o vaxt bu layihənin icrasını proqnozlaşdırmaq, əlbəttə ki, mümkün deyildi. Ümidlər var idi, amma əminlik yox idi. 1996-cı ildə «Şahdəniz» qaz yatağı üzrə kontraktın imzalanması da əlavə ümidlər verdi, amma Gənclər Günü təsis ediləndə – 25 il bundan əvvəl, əlbəttə, bu layihələrin ölkəmizə nə dərəcədə xeyir verəcəyini heç kim proqnozlaşdıra bilməzdi.

Yüz minlərlə məcburi köçkün ağır vəziyyətdə yaşayırdı, öz doğma torpaqlarından qovulmuş insanlar çadırlarda, vaqonların altında, uyğunsuz binalarda yaşayırdı. Yəni bu idi ovaxtkı mənzərə. Üstəgəl, nizami ordu yaradılmamışdı və nizami ordunun olmaması Birinci Qarabağ müharibəsindəki məğlubiyyətə gətirib çıxardı. Bütün digər xarici amillərlə yanaşı, Ermənistana göstərilən böyük xarici maliyyə və hərbi dəstəklə yanaşı, onu da deməliyik ki, o vaxt Azərbaycanda nizami ordu yox idi. Bax, belə bir vəziyyətdə Heydər Əliyev Gənclər Gününü təsis edir və xatırlayıram, o vaxt bəziləri – yəni hakimiyyətdə olanları nəzərdə tuturam – deyirdilər ki, indi bu, əsas məsələ deyil, ölkə qarşısında digər vacib məsələlər var, onlar həll olunmalıdır. Ancaq ulu öndər həmişə olduğu kimi, uzaqgörənlik göstərərək, məhz gənclərə üz tutdu, onları dəvət etdi, onlara öz tövsiyələrini verdi və gəncləri gələcək inkişaf üçün təşkilatlandırmaq və hazırlamaq üçün əməli-praktik addımlar atıldı. Əgər biz kiçik bir tarixi ekskursa nəzər sal-

saq görərik ki, Heydər Əliyev nə qədər haqlı idi. Çünki bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayırlar. Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir və yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri sırasında önəmli yer tutur.

Bu gün Azərbaycan təbii ki, inamla irəliyə baxır, ölkə qarşısındakı əsas vəzifələr öz həllini tapıbdır. Mən Qarabağ məsələsini nəzərdə tuturam. Digər sahələrdə inamla addımlayırıq. Mən son illərin əsas hadisələrini sadalamağa başlasam, bir neçə saat vaxt lazım olacaq. Demək istəyirəm ki, indiki gənclər üçün imkanlar təbii ki, daha genişdir və gənclər bu imkanlardan istifadə etməlidirlər. Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün, həm də dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözlərlə Azərbaycan gənclərinə həm ürək sözlərimi, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olub və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik.

Əziz dostlar, sizi bu hadisə, bu tarix münasibətilə bir daha təbrik edirəm və giriş sözümü burada yekunlaşdırmaq istəyirəm. Çünki bilirəm, sizi maraqlandıran məsələlər çoxdur, suallar çoxdur və təklif edirəm ki, artıq müzakirələrə başlayaq.

**J a l ə  H ə s ə n l i** (*tədbirin aparıcısı*): Çıxışınız üçün təşəkkür edirik, cənab Prezident. Bu gün zalda əyləşən gənclərimizin Sizə çoxsaylı sualları vardır. İcazənizlə, ilk sualımızdan başlayaq. Buyurun, zəhmət olmasa, özünüzü təqdim edin.

**Ə f s a n ə  S u r x a y l ı** (*Bakı Dövlət Universitetinin doktorantı və əməkdaşı*): **Əvvəla, Gənclər Günündə bizimlə olduğunuz və bizə vaxt ayırdığınız üçün bütün Azərbaycan gəncləri adından Sizə təşəkkürümü bildirirəm. Çox şadam və qürur hissi duyuram ki, bu gün buradayam. Sizin çıxışlarınızı televiziyadan canlı izləyəndə bir məqamı müşahidə etmişəm ki, gənclərimizin milli-mənəvi dəyərlərini xüsusi qiymətləndirirsiniz, hər dəfə xüsusi vurğulayırsınız. Düşünürəm ki, milli-mənəvi dəyərlər bizi digər ölkələrin gənclərindən fərqləndirən əsas üstün cəhətlərimizdən biridir. Sualım ondan ibarətdir ki, milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsi üçün müasir Azərbaycan gəncinin fəaliyyətini necə qiymətləndirirsiniz?**

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı sualdır, təşəkkür edirəm. Milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir və mən dəfələrlə demişəm ki, müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq.

Biz tariximizi yaxşı bilirik və bilirik ki, uzun illər, əsrlərboyu Azərbaycan müstəqil olmayıb, başqa ölkələrin tərkibində yaşayıb. Ancaq buna baxmayaraq, öz milli xüsusiyyətlərini itirməyib, milli xüsusiyyətlərini qoruyub. Nəyə görə? Məhz ona gö-

rə ki, biz həmişə öz milli dəyərlərimizə, ənənələrə sadiq olmuşuq, onları qorumuşuq. Məsələn, əgər sovet dövrünü nəzərə alsaq, o vaxt marksizm-leninizm ideologiyası hökm sürürdü. Ancaq buna baxmayaraq, qapalı bir cəmiyyətdə yaşamağımıza baxmayaraq, hər bir azərbaycanlı ailəsində bizim milli bayramlarımız qeyd edilirdi. Biz nəsildən-nəslə əsrlərboyu bu milli ideologiyamızı, milli xüsusiyyətlərimizi ötürürdük və beləliklə, özümüzü assimilyasiyadan, kənar təsirdən qoruyurduq. Azərbaycanlılar həmişə dünyaya açıq olublar, amma öz mənəvi kodeksini həmişə hər şeydən üstün tutublar. Əgər biz azad olmadığımız dövrdə, əsrlərboyu həm müstəmləkə, həm başqa ölkələrin tərkibində yaşadığımız dövrdə bu dəyərləri qoruyub saxlamışıqsa, indi də bu dəyərləri qoruyub saxlamalıyıq.

İndi Azərbaycan müstəqildir və müstəqil siyasət aparır. Heç bir kənar qüvvə bizim işimizə qarışa bilməz. Düzdür, belə cəhdlər olub və ola bilər ki, yenə olacaq. Ancaq bu cəhdlər heç bir nəticə verməyib və verməyəcək. Biz gənclərimizi bundan sonra da mütləq vətənpərvərlik ruhunda tərbiyə etməliyik. Vətənə bağlılıq, Vətənə sevgi, Vətən maraqlarını, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur.

Yeni çağırışlara gəldikdə isə, bu, qloballaşma ilə bağlıdır. Düzdür, qloballaşma termin olaraq indi dünya leksikonundan çıxarılır. Çünki bu cərəyana qarşı dünyada çox geniş müqavimət göstərilir, ancaq ideya olaraq qalır. Yəni qloballaşma bu gün başqa ad altında kök salır. Bu meyilin əsas məqsədi

müxtəlif ölkələrin daxili işlərinə qarışmaq, bərabərlik, qloballaşma, yaxud da insanları, xüsusilə gəncləri vahid «dəyərlər» ətrafında birləşdirmək, kosmopolit gənclər yetişdirmək və təbii ki, ondan sonra o ölkələri idarə etməkdir. Yəni məqsəd dəyişmir və dəyişməyəcək. Bunu biz tarixboyu görürük. Hətta uzaq tarixə nəzər salsaq görərik ki, məqsəd və məram dəyişmir, forma dəyişir, mübarizə üsulları dəyişir. Hansısa məsələni həll etmək üçün bu məsələnin pərdələnməsi, yaxud da, əgər belə demək mümkündürsə, qablaşdırılması dəyişir, amma mahiyyət dəyişmir. Yəni hegemonluq uğrunda mübarizə, xüsusilə böyük önəm daşıyan ölkələr, zəngin təbii resurslarla özünü təmin etmiş ölkələr və çox strateji coğrafi yerləşməyə malik olan ölkələr xüsusi diqqət cəlb edir. Azərbaycan da bütün bu amilləri özündə ehtiva etdiyi üçün biz bunu hər zaman, müstəqillik illərində dəfələrlə görmüşük. Bax, bu niyyətlə üzləşirik, buna müqavimət göstəririk və deyə bilərəm ki, bu təhlükələri dəf edə bilmişik. Bu gün Azərbaycan cəmiyyəti və Azərbaycan iqtidarı birmənalı şəkildə milli maraqların keşiyində dayanır. Mən Prezident kimi, sona qədər milli dəyərləri müdafiə edəcəyəm, dövlət müstəqilliyimizi müdafiə edəcəyəm. Yəni müstəqillik deyəndə mən atributları nəzərdə tutmuram – real müstəqillik. Sən real müstəqil siyasət apara bilirsən, yoxsa yox? Yoxsa kiminsə sözü ilə oturub-durursan, kiminsə qarşısında baş əyirsən. Azərbaycan heç vaxt bütün bu cəhdlərə əməl etmir, əksinə, biz bütün meydanlarda vuruşmuşuq və qalib gəlmişik.

Ancaq gənclər daha tələbkar olur, onlar həyata yeni başlayır. Açıq deməliyəm, gəncləri əyri yola gətirmək, yaxud da yoldan çıxarmaq daha asan olur. Ona görə də bu qlobalistlərin – mən onları şərti olaraq belə adlandırıram – sorosçuların məqsədi məhz gənclərdir. Fondlar yaradılır, o fondların xətti ilə ianələr verilir, müxtəlif yaxşı, gözəl məna daşıyan proqramlar altında məhz bu dağıdıcı missiya həyata keçirilir ki, gəncləri öz dövlətinə qarşı, ilk növbədə, öz əcdadlarına, öz tarixinə qarşı, öz dəyərlərinə qarşı qaldırsınlar və sonra onlardan zombi kimi istifadə etsinlər. Bizim gənclərimiz bunu bilir və mən dəfələrlə müxtəlif forumlarda, həm gənclərlə təmaslar əsnasında, həm müxtəlif çıxışlarda bu məsələyə toxunmuşam. Çünki bu, aktual məsələdir və bu məsələ aktuallığını heç vaxt itirməyəcək. Bu siyasətin mənbələri dəyişə bilər, bu, dünyada geosiyasi vəziyyətə bağlıdır, bəzi güc mərkəzləri güclənir, bəzilər zəifləyir. Ancaq sözün düzü, mən onların arasında niyyət nöqteyi-nəzərindən böyük fərq görmürəm və mənim iş təcrübəm bunu deməyə əsas verir. Ona görə milli dəyərlər təkcə əcdadlar qarşısında bizim mənəvi borcumuz deyil, eyni zamanda, ölkəmizi daim müstəqil saxlamaq, ölkəmizi daim kənar təsirdən qorumaq və nəsillər arasındakı o mənəvi ipləri qırmamaq üçün bu, mütləq lazımdır. Çünki bizim çox zəngin mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız, ana dilimiz var. Ana dilimiz də bu milli dəyərlərin tərkib hissəsidir. Biz azad olmadığımız dövrdə onu qorumuşuq. Ancaq bu gün də ana dilimizi qorumaq lazımdır və biz bunu görürük. Həm televiziya məkanında, həm mətbuatda

görürük ki, kənar sözlər müdaxilə edilir – ya təbii olaraq, ya qəsdən. Hər bir dil inkişaf etməlidir, amma milli köklər üzərində. Bizim dilimiz o qədər zəngindir ki, kənar sözlərə ehtiyac yoxdur.

Bütün bu amillər, o cümlədən bayramlarımız, adət-ənənələrimiz hər birimiz üçün əsas dəyər olmalıdır. Belə olsa, Azərbaycan həmişə müstəqil olacaq və həmişə uğur qazanacaq.

**A p a r ı c ı:** Təşəkkür edirəm. Cənab Prezident, Sizin başçılığınız ilə və qəhrəman oğullarımızın sayəsində biz cəmi 44 gün ərzində uzun sürən bir həsrətə son qoyduq və torpaqlarımızı işğaldan azad etdik. Bu gün bütün dünya Azərbaycan oğullarının, Sizin qəhrəmanlığınızdan danışır. Aramızda müharibə iştirakçıları var. Mən istərdim onların da suallarını eşidək.

**O r u c ə l i A b b a s z a d ə** (*Vətən müharibəsi iştirakçısı*): **Mən Vətən müharibəsi iştirakçısı, gənclər üçün Prezident mükafatçısı, Heydər Əliyev Fondunun layihə koordinatoru və Sizin iştirakınızla açılmış Hərbi Qənimətlər Parkının meneceriyəm.**

**Cənab Prezident, mənim 24 yaşım var və mən Sizin Ali Baş Komandan olduğunuz dövrdə yetişən gənclərdənəm. Siz Şuşaya səfəriniz zamanı Cıdır düzündə Azərbaycan gəncləri haqqında danışdınız. Milli ruhda böyüyən bu gənclərin, xüsusən də Sizin prezidentlik dövrünüzdə yetişən gənclərin Vətən müharibəsindəki rolunu vurğuladınız. Sualım belədir: milli ruhda yetişən bu gənclər bundan sonrakı dövrdə hansı addımlar atmalıdır ki, mənfur düşmənin Azərbaycan xalqının başına gətirdiyi bu bəlalar bir də təkrarlanmasın və**

**müasir Azərbaycan gənci nələr etməlidir ki, ölkəmizin inkişafı üçün daha çox töhfə vermiş olsun? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Sağ ol. Həqiqətən, bu belədir. Azərbaycanda 29 yaşına qədər insanlar gənc sayılır. Əgər belə demək mümkündürsə, bu gün ən yaşlı gəncin mən Prezident vəzifəsinə birinci dəfə seçiləndə 11 yaşı var idi. Yəni bu reallıqdır. Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər. Şəhid oldular, qazi oldular və müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi.

Əlbəttə, müharibədə əldə edilmiş Qələbənin bir çox səbəbləri var: ölkədaxili səbəblər, bizim xarici müstəvidəki fəaliyyətimiz, güclü iqtisadiyyatımız, ordumuzun müasirləşdirilməsi. Ancaq əsas amil vətənpərvərlikdir. Bunu xoş söz üçün demirəm. Ali Baş Komandan kimi, müharibə dövründə hər an, necə deyərlər, bütün əməliyyatlara rəhbərlik edən şəxs kimi deyirəm və görürəm ki, bəzi hallarda, hətta çətin anlarda bizim hərbçilərimiz mümkün olmayanı da reallığa çevirmişlər. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla

heç kim mübarizə apara bilməz. Bilirsiniz, müharibənin bir çox dərsləri var – həm bizim üçün, həm bütün dünya üçün, region üçün. Onlardan biri də odur ki, azərbaycanlılarla mübarizə aparmaq, müharibə aparmaq çox baha başa gələ bilər.

Əlbəttə, bu nəslin yetişdirilməsi üçün biz sadəcə olaraq, hansısa proqramları tərtib edib, müşavirə keçirib, məruzə dinləyib öz işimizi məhdudlaşdıra bilməzdik. Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Ancaq hər bir insan, xüsusilə gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir. Müstəqilliyimizin 30 illiyini keçən il qeyd etmiş ölkə kimi, bu gün biz deyə bilərik: elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər. Çünki istənilən sahəyə baxdıqda görürük ki, doğrudan da böyük tarixi nailiyyətlərə imza atmışıq. Əlbəttə, problemlər də var, çatışmazlıqlar da var. Bu çatışmazlıqlarla mübarizə aparırıq və aparacağıq. Amma, ümumiyyətlə, bu tarix kəsiyində bu dövrü təhlil etsək görərik ki, biz tarixi nailiyyətlərə imza atmışıq. Dediyim kimi, müharibədə sinəsini qabağa verənlər arasında gənclər əksəriyyət təşkil edir. Əlbəttə, Vətən müharibəsi ona görə Vətən müharibəsi adlandırılır ki, bütün xalq bu müharibədə Qələbə əldə etmək üçün çalışırdı. Mən əvvəlki çıxışlarımda dəfələrlə demişdim ki, hər birimiz hər gün müqəddəs Qələbə gününü yaxınlaşdırmalıyıq. Mənim bütün sahələr üzrə fəaliyyətimin məqsədi məhz Qarabağ məsələsinin həlli idi: bu və ya digər addım bizi Qələbəyə nə dərəcədə yaxınlaşdıracaq. Yaşlı nəsil, təcrübəli insanlar, ko-

mandirlər, gənclər, xalqımız bir orqanizm kimi, bir yumruq kimi birləşdi və tarixi ədaləti bərpa etdi. Gənclərin isə, yenə də deyirəm, bu sahədə rolu böyükdür. Bu gün bizim qəhrəman gənclərimiz – dövlət tərəfindən yüksək orden, medallarla təltif edilmiş gənclərimiz gənc yaşlarında uşaqlar üçün nümunədirlər, 18, 20, 25, 30, 35 yaşında nümunə olublar. Onlar bu məsuliyyəti dərk edirlər və həyatda özlərini elə aparmalıdırlar ki, bu yüksək məsuliyyət daim onların üzərində olsun, uşaqlar, yeniyetmələr onlara baxıb, onlar kimi olmaq istəsinlər. Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar.

**A p a r ı c ı:** Təşəkkür edirik. Növbəti sualı kim səsləndirmək istəyir? Buyurun.

**T o ğ r u l  B a b a z a d ə** (*Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi*): **Cənab Prezident, ilk öncə biz gənclərə verdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə təşəkkür edirəm. Mən şuşalı olsam da, Şuşanı nə görmüşdüm, nə havasını duymuşdum. Lakin ailəmdə uşaqlıqdan həmişə Şuşa haqqında danışılardı. Valideynlərim Şuşa xatirələrindən danışdıqca mənim qəlbimdə Şuşaya qarşı olan məhəbbət daim artırdı. Amma bir inam da var idi ki, biz bir gün mütləq Qarabağa qayıdacağıq, bir gün mütləq Şuşaya qayıdacağıq və belə də oldu. Sizin uğurlu siyasətiniz nəticəsində, qəhrəman gənclərimizinin sayəsində, heç vaxt unutmayacağımız şəhidlərimizin sayəsində artıq biz Qarabağa qayıtmışıq. Mən Şuşaya qayıtmışam,**

**Şuşanın havasını duymuşam. Şuşada olduğum müddətdə o gözəllikləri gördükcə, o mənzərələri seyr etdikcə qəlbimdə bir narahatlıq hissi də duyurdum ki, «görəsən, görmədən ötüb-keçdiyim yer oldumu?».**

**Cənab Prezident, Siz Şuşa şəhərinin işğaldan azad olunmasını xalqa müraciətinizdə bildirdikdə Sizi televiziya qarşısından izləyən Azərbaycan xalqı, eləcə də biz şuşalılar çıxışınızın hər saniyəsində fərqli-fərqli hisslər keçirdik. Həm sevindik, həm kədərləndik, həm də qürurlandıq. Mənim sualım belədir ki, Siz bütün bu hərbi əməliyyatlara rəhbərlik edən şəxs olaraq, Müzəffər Ali Baş Komandan olaraq, Şuşa şəhərinin işğaldan azad olunması xəbəri Sizə məruzə edildikdə hansı hissləri keçirdiniz? Təşəkkür edirəm.**

**İlham Əliyev:** Şuşa hamımız üçün əziz, doğma şəhərdir. Şuşada olmayanlar, əlbəttə ki, mütləq Şuşada olacaqlar. İndi, bilirsiniz, avtobus turları təşkil edilir, hər bir Azərbaycan vətəndaşı Şuşaya gedə bilər. İndi oraya getmək üçün gözəl imkanlar yaranıb.

Mən Şuşada, yəni müharibəyə qədər 1982-ci ildə olmuşam – iki dəfə, atamla birlikdə. O vaxt – 1982-ci ildə həm yay, həm qış aylarında tədbirlər keçirilmişdi, qışda o şaxtalı, qarlı havada Molla Pənah Vaqifin məqbərəsi açılmışdı. Yay aylarında – avqust ayında Vaqif Poeziya Günləri keçirilmişdi. O xatirələrimi mən daim yaddaşımda saxlayırdım. Şuşa işğal olunanda, hamımız hesab edirdik ki, bu müvəqqətidir, bir azdan sonra Şuşa qayıdacaq. O vaxt hakimiyyətdə olan adamlar Şuşanı azad etmək əvəzinə boş-boş vədlər verirdilər ki, bu gün-sabah Şuşa alınacaq, Şuşa bizdədir və sair. Ancaq faktiki olaraq,

Şuşanın düşmənə təhvil verilməsində onların birbaşa əli olub. Bu, bir xəyanət idi, satqınlıq idi. Bu gün Şuşada olan hər bir insan görür ki, o şəhəri götürmək, demək olar, mümkün deyildi. Biz o Şuşanı necə götürmüşüksə, bu, ayrı dastandır, qəhrəmanlığın zirvəsidir, mənəvi və fiziki gücün sintezidir. Bu, fədakarlığın zirvəsidir. Ancaq Şuşa düşmənə təhvil veriləndə bu, bir xəyanət aktı idi və bu xəyanəti törədənlər Allah tərəfindən cəzalandırılıblar.

Şuşanın azad edilməsi müharibənin ilk günlərindən bizim əsas vəzifələrimizdən biri idi. Sadəcə olaraq, mən bunu dilə gətirə bilmirdim. Çoxsaylı müsahibələrimdə çalışırdım ki, bu sualdan yayınım. Amma bir neçə dəfə artıq birbaşa sual verildiyi üçün demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olar. Hər halda, maksimum deyə biləcəyim o idi.

Şuşasız bizim işimiz nəinki yarımçıq ola bilərdi, natamam ola bilərdi. Bizim məqsədimiz mədəniyyət incimizi qaytarmaq idi və Şuşa əməliyyatı elə keçirildi ki, şəhərə ziyan vurulmadı. Ermənilər isə artıq biz Şuşanı azad edəndən sonra Şuşanı «İsgəndər-M» raketləri ilə bombaladılar. Düzdür, sonra bunu inkar etdilər, hansısa gülməli sözlər dedilər, guya ki, bu «İsgəndər» 10 faiz partladı, yəni bu, uşaq söhbətidir. «İsgəndər-M» raketi qar əriyəndən sonra orada tapıldı və bu gün buradan o qədər də uzaqda olmayan Hərbi Qənimətlər Parkında nümayiş etdirilir.

Şuşa ermənilər üçün yad şəhər idi. İkinci Qarabağ müharibəsindən sonra Ermənistan rəhbəri də bunu demişdi, mənim sözlərimi təkrarlamışdı. Əgər

bu, erməni şəhəri idisə, nə üçün belə bərbad vəziyyətdədir? Nə üçün bu şəhərə baxmamısınız? Nə üçün bütün bulaqları qurutmusunuz? Bütün tarixi abidələri sökmüsünüz? Yaxşı, bu tarixi abidələr Azərbaycan xalqına məxsusdur. Erməni faşist xislətini nəzərə alaraq, bu bizim üçün sürpriz deyil. Saraylar, məscidlər erməni vəhşiləri tərəfindən dağıdılıb. Amma bulaqları niyə dağıtmısınız? Yəni bu onlar üçün yad şəhərdir. Biz Şuşanı azad edəndə orada cəmi 1500 adam məskunlaşmışdı. Düzdür, biz artıq Şuşaya yaxınlaşanda onlar oradan çıxdılar. Amma orada yaşayanların da 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Yaxşı, Şuşa erməni şəhəridirsə, niyə burada yaşamırdınız? Niyə belə bərbad vəziyyətdədir? Niyə şəhəri məhv edirdiniz bu illər boyu?

Bizim üçün isə Şuşa bir müqəddəs rəmzdir. Bizim bir çox şəhərlərimiz, demək olar ki, ölkəmizin hər yeri xüsusi tarixi əhəmiyyətə malikdir. Mənim üçün, sözün düzü, şəhərlər, bölgələr arasında heç bir fərq yoxdur. Hər qarış torpaq mənim doğma torpağımdır və hər bir bölgənin özünəməxsus olan gözəlliyi vardır. Şuşanın da, təbii ki, gözəlliyi var: landşaftı, relyefi, qaya üstündə yerləşməsi, havası. Amma Şuşanın Azərbaycan xalqı üçün əhəmiyyəti təkcə bu coğrafi mənzərə ilə məhdudlaşmırdı. Şuşanın çox böyük rəmzi mənası var idi və onu da deməliyəm ki, xüsusilə işğal dövründə.

İşğala qədər, yəni sovet dövründə Şuşanın Azərbaycan xalqı üçün, mən belə hesab edirəm, əhəmiyyəti onda idi ki, bu, qədim, tarixi Azərbaycan şəhəridir və əsassız olaraq sovet hakimiyyəti tərəfindən

süni şəkildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə salınmışdı. Yəni bəli, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın tərkibində idi. Amma onun tərkibində Şuşa şəhəri var idi. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbərliyi arasında, Büro üzvləri arasında o vaxt bir azərbaycanlı var idi. Doqquz, ya on büro üzvü var idi, onlardan biri azərbaycanlı idi – Şuşa şəhərinin rəhbəri, o vaxt birinci katib deyirdilər. Hesab edirəm, Şuşanın bütün təbii gözəlliklərindən başqa, Azərbaycan xalqının ürəyindəki yeri məhz onunla bağlı idi ki,  o, Azərbaycanın tərkibindədir, süni yaradılmış qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində idi və elə bil ki, Şuşanın bütün idarəetmə işlərinə ermənilər – Dağlıq Qarabağın mərkəzində oturan ermənilər cavabdehlik daşıyırdılar. Məhz ona görə Heydər Əliyev Şuşaya xüsusi diqqət göstərirdi. O vaxt orada bir çox müəssisələr yaradıldı və xanın vəzirinin məqbərəsini sovet vaxtında ucaltmaq o qədər də asan məsələ deyildi.

İşğal dövründə isə Şuşaya xüsusi münasibət məhz bu ədalətsizliklə bağlı idi. Çünki mənim üçün Ağdamın da, Zəngilanın da, Qubadlının, Kəlbəcərin, Laçının, Füzulinin, Cəbrayılın da işğalı Şuşanın işğalı qədər ağrılı idi. Ancaq Şuşa ilə bağlı edilmiş ədalətsizlik Azərbaycan xalqında Şuşaya xüsusi bir məhəbbət oyatdı. Biz bunu bilməliyik. Müharibə zamanı Şuşanın azad edilməsi təkcə strateji əhəmiyyət daşımırdı. Halbuki Şuşa azad olunandan sonra artıq Ermənistan ordusunun beli tam qırıldı. Məhz bizim milli rəmzimizi qaytarmaq, orada

bayraq ucaltmaq bizim vəzifə borcumuz idi və müharibənin ilk günündən biz Şuşaya doğru gedirdik. İndi müharibənin gedişatı təhlil edilir, mən bəzi məlumatları artıq ictimailəşdirmişəm, hamısını yox. Bizim apardığımız bütün əməliyyatların fövqündə Şuşanın azad edilməsi dayanmışdı və biz Şuşanı elə azad etdik ki, artıq düşmən öz müqavimətini dayandırdı.

Şuşanın azad edilməsi, dediyim kimi, əməliyyat planı əsasında baş vermişdi. Hadrutdan sonra bizim aslanlarımız, qəhrəmanlarımız Şuşaya doğru meşələr, cığırlar aşaraq getmişdilər. İndi Zəfər yolu adlandırdığımız yol yox idi. Biz hamımız yaxşı bilirdik ki, Şuşanın götürülməsi çox çətin məsələdir. Orada böyük istehkamlar qurulmuşdu, biz isə artilleriyanı, zirehli texnikanı apara bilmədik. Yəni yüngül silahlarla, kim öz üzərində nəyi apara bilmişdi, orada maksimum qumbaraatanlar var idi. Ermənilərin isə tankları, topları – orada güclü istehkamlar qurmuşdular.

Əlbəttə, Şuşadan əvvəl Daşaltı götürülməli idi. İndi Şuşaya gedən hər kəs görür ki, əgər Şuşada sən nə dərəcədə hakim mövqeyə sahibsənsə, Daşaltı da o qədər zərbə altındadır. Daşaltı götürüləndə əminlik daha da artdı. Şuşa uğrunda döyüşlər bir neçə gün davam etdi. Mən əmin idim ki, bizim əsgər və zabitlərimiz Şuşanı azad edəcəklər. Böyük fədakarlıq, qəhrəmanlıq göstərərək, biz buna nail olduq. Şuşanın tam azad edilməsi noyabrın 8-də baş verdi. Çünki artıq noyabrın 8-də ermənilərin bütün müqavimәti tamamilə məhv edilmişdi. Ancaq ondan bir-

iki gün qabaq biz artıq Şuşada idik, orada şəhər döyüşləri gedirdi.

Bu xəbəri alanda mən qürur hissi keçirdim ki, biz tarix qarşısında öz vəzifə borcumuzu yerinə yetirdik. Təəssüf hissi keçirdim ki, bizim böyüklərimiz bu günü görmədilər. On minlərlə, bəlkə də yüz minlərlə azərbaycanlı həyatdan narahat gedib – Şuşanı görmədən, azadlığı görmədən. Eyni zamanda, əminlik hissi var idi, çünki müharibə hələ bitməmişdi. Düzdür, mən bilirdim ki, artıq müharibənin taleyi həll olundu. Ancaq müharibə hələ bitməmişdi. Ertəsi gün Şuşa, dediyim kimi, «İsgəndər-M» raketləri ilə bombalandı. Xoşbəxtlikdən orada heç bir xəsarət alan olmadı. Əmin idik ki, biz Ermənistanı axıra qədər məğlub edəcəyik. Eyni zamanda, həmin gün mən artıq fikirləşməyə başladım ki, biz müharibədən sonra Cənubi Qafqazdakı yeni reallıqları dünyaya qəbul etdirməliyik.

Ertəsi gün Ermənistan təslim oldu və biz, necə deyərlər, bu bayramı heç bir gün də qeyd etmədən fəal işə başladıq ki, orada möhkəmlənək, bütün mövqelərdə möhkəmlənək və artıq siyasi-diplomatik səylərimizi gücləndirək ki, dünya, aparıcı ölkələr bu reallığı qəbul etsin. Bu, bir qədər vaxt apardı. Amma buna da nail olduq.

**A p a r ı c ı:** Təşəkkür edirik, növbəti sualı kim səsləndirmək istəyir?

**Şəhla Talıbzadə** (*Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin əməkdaşı*): **Cənab Prezident, mən Sizin təşəbbüsünüzlə Şuşada Topxana meşəsinin bərpası layihəsində iştirak etmişəm.**

**Həmin gün mənim həyatımda qürurverici anlarla yadda qalıb. Biz orda Sizin rəhbərliyinizlə həyata keçirilən genişmiqyaslı abadlıq, quruculuq işləri ilə tanış olduq. Biz gənclər işğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi, yenidən qurulması və bərpası işlərində iştirak etməyə hər zaman hazırıq. Cənab Prezident, sualım da elə bununla bağlıdır. Bütün bu abadlıq, quruculuq, yenidən qurulma işlərində növbəti addımlarda biz gənclərin üzərinə hansı vəzifələr düşür və bununla bağlı bizi hansı təşəbbüslər, hansı layihələr gözləyir?**

**İ l h a m Ə l i y e v:** Bərpa işləri geniş vüsət alıb. Keçən il gördüyümüz işlər haqqında kifayət qədər məlumat verilib. Həm mən məlumat vermişəm, həm aidiyyəti qurumların nümayəndələri, həm də media vasitəsilə geniş işıqlandırılıb, təkrar etmək istəmirəm. Bu il isə həm ənənəvi işlər, yəni infrastruktur işləri, həm də məcburi köçkünlər üçün nəzərdə tutulmuş yaşayış binalarının inşası da artıq başlanacaq.

İnfrastruktur işlərinə gəldikdə, biz keçən il bütün enerji şəbəkəmizi qurmuşuq. Ancaq bildiyiniz kimi, ermənilər Kəlbəcər və Laçın rayonlarını tərk edəndə, onlara vaxt verilmişdi. Əfsuslar olsun ki, onlar bu müddət ərzində bizim meşələrimizi qırmışlar, evləri yandırmışlar, eyni zamanda, orada mövcud olan su-elektrik stansiyalarını da söküb dağıtmışlar. Ona görə keçən il biz bu işlərə başladıq. Azad edilmiş torpaqlarda bu il 5 su-elektrik stansiyası inşa ediləcək. Bu həm ümumi enerji potensialımızı gücləndirəcək, həm də hər yeni yaradılan infrastruktur obyekti iş yerlərinin yaranmasına gətirib çıxaracaq.

Məsələn, Şuşa şəhərində hoteldə və digər yerlərdə işləyənlərin bir çoxu şuşalıların uşaqlarıdır, şuşalılardır. Düzdür, onlar uşaq olublar, onlar sizin kimi gəncdirlər. Amma onlar orada artıq fəaliyyət göstərirlər. Bütün şəhərlərimiz dirçəldikcə bu iş yerlərində ilk növbədə, müasir biliklərə malik olan gənclər, azad edilmiş rayonlardan olan gənclər işləməlidirlər.

Bu il nəzərdə tutulan layihələr arasında mən Ağalı kəndinin inşasının artıq tamamlanmasını qeyd etməliyəm. Bu, pilot layihədir, bunun böyük rəmzi mənası vardır. Çünki artıq bu il ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar və Ağalı kəndi elə bil bizim istədiyimizin təcəssümüdür. Biz bu torpaqlarda hansı səviyyəni görmək istəyirik, insanlar üçün yaradılacaq hansı rahatlığı görmək istəyirik, bu layihədə öz əksini tapıb. Amma bu, pilot layihədir. Bu layihə ilə bağlı gedən işlərə ondan sonra qiymət veriləcək, təhlil aparılacaq və növbəti layihələr əminəm ki, bütün bu təhlili nəzərə alacaq. Amma bu çox böyük rəmzi xarakter daşıyır. Çünki belə çıxır ki, müharibədən heç iki il keçməmiş biz haradasa, yaz-yay aylarında Ağalı kəndinin sakinlərini artıq orada yerləşdirmək istəyirik. İki il keçmədən artıq qayıdış başlanır. Bunun çox böyük rəmzi mənası vardır.

Zəngilan Hava Limanı bu il açılacaq. Orada da kifayət qədər iş yerləri açılacaq, o cümlədən gənclər üçün. İnfrastruktur layihələri, Zəngəzur dəhlizi... Biz 2023-cü ildə dəmir yolunu mütləq Ermənistan sərhədinə gətirəcəyik, avtomobil yolunun da tikintisi gedir. Yəni bütün bu işlərdə gənclər fəal iştirak edirlər. Orada müxtəlif sahələrdə minlərlə insan ça-

lışır. Nəzərə alsaq ki, azad edilmiş torpaqlar «ağıllı şəhər», «ağıllı kənd» modeli əsasında qurulacaq, «yaşıl enerji» zonası olacaq – bütün bu yeni sahələr, yeni peşələr, əlbəttə, gənclərin sərəncamında olacaq. Çünki dördüncü sənaye inqilabı ilə bağlı olan yeniliklər ilk növbədə, Azərbaycanda gənclər tərəfindən mənimsənilir və gənclər xətti ilə biz bu siyasəti icra edəcəyik. İndi azad edilmiş ərazilərdə müxtəlif kənd təsərrüfatı layihələri icra edilir. Deyə bilərəm ki, bu il 40–50 min hektarda əkin işləri nəzərdə tutulur. Bu bizim ərzaq təhlükəsizliyimizi təmin edəcək. Orada da işləyənlərin əksəriyyəti gənclərdir. Ona görə gənclər bu işlərdə qabaqcıl rol oynayacaq, onlar öz təşəbbüslərini də gərək ortaya qoysunlar. Gənclərin dünyagörüşü fərqlidir, dünyada gedən bütün müasir proseslərə onlar daha çox bələddirlər. Ona görə bu torpaqlarda elə işlər görülməlidir ki, oraya qayıdacaq insanlar – 30 il həsrət içində yaşamış insanlar çox gözəl şəraitlə təmin edilsinlər.

Mənim bölgələrə səfərlərim əsnasında o bölgələrdən olan nümayəndələrlə də görüşlərim olub. Onlara da bizim planlarımız təqdim edilib və birlikdə müzakirə etmişik. Onlar öz şəhərlərini, kəndlərini necə görmək istəyirlər? Bu, mütləq nəzərə alınmalıdır. Eyni zamanda, müasir tələblər nəzərə alınmalıdır, memarlıq nəzərə alınmalıdır. Biz, əlbəttə ki, memarlıq baxımından gözəl şəhərlər yaratmalıyıq. Burada gənclərin yaradıcı missiyası çox qəbul olunandır. Əminəm ki, gənclər həm real layihələrin icrasında, eyni zamanda, yeni layihələrin təqdim edilməsində fəal olacaqlar.

**A p a r ı c ı:** Cənab Prezident, aramızda fiziki məhdudiyyətli olan insanlar da var. Sizin bu istiqamətdə atdığınız doğru addımların nəticəsidir ki, biz bu gün həmin şəxsləri də cəmiyyətdə aramızda görürük. İstərdim ki, elə həmin xanımın özündən eşidək.

**C ə m i l ə M ə m m ə d l i** (*yazıçı*): **Salam, cənab Prezident. Mən yazıçı və aktrisayam. Düşünürəm ki, artıq «Cəmiyyətimizdə əlilliyi olan gənclər nə bacarır?» sual olunmaqdan çıxır. Bunun bir çox isbatlarını görürük. Lakin təəssüf ki, Vətən müharibəsindən sonra əlilliyi olan gənclərin sayı artıb. Artıq əlilliyi olan gənclərin özlərini inkişaf etdirə biləcəkləri, bacarıqlarını nümayiş etdirə biləcəkləri, aparıcı rollarda ola biləcəkləri inklüziv platformalara ehtiyac vardır. Əlbəttə, biz bu istiqamətdə inkişafı görürük, lakin əlavə olaraq hansı tədbirlər nəzərdə tutulur? Bunları bilmək istərdim.**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, bu işlər görülür və əlilliyi olan şəxslər, o cümlədən Vətən müharibəsində iştirak etmiş gənclər dövlət tərəfindən qayğı ilə əhatə olunur. Bütövlükdə deyə bilərəm ki, son vaxtlar bu sahədə çox ciddi irəliləyiş var və mən özüm dəfələrlə yeni obyektlərin açılışında iştirak etmişəm. Əlilliyi olan insanlar indi fəal işə cəlb olunurlar. Həm onların əl işləri nümayiş etdirilir, həm istedadı olan, incəsənətə meyilli olan gənclər artıq tamaşalar qoyur və bunun üçün gözəl şərait vardır. Bir neçə ay bundan əvvəl Bakıda yeni bir mərkəzin açılışında olmuşam və mən bunu çox qiymətləndirirəm, təqdir edirəm. Çünki Azərbaycan cəmiyyəti – indi belə bir söz var leksikonda – inklüziv olma-

lıdır. Bu söz yeni olsa da, mənası çox yaxşıdır və əslində həmişə belə olub. Çünki bu, xalqımızın xarakterində var, köməyə ehtiyacı olana həmişə kömək göstərmək xalqımızın çox gözəl keyfiyyətidir. Dövlət üzərinə düşən vəzifəni icra etməlidir və əlilliyi olan bütün şəxslərə diqqət göstərməlidir və göstərəcək. Tapşırıqlar verilib və bu istiqamətdə əlavə addımlar atılacaqdır.

Şəhid ailələri, müharibə əlilləri üçün də genişmiqyaslı proqram icra edilir. Mən Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəmirəm, amma o da həqiqətdir ki, şəxsən mən bilmirəm hansı ölkələrdə buna oxşar proqram icra edilir. Çünki əfsuslar olsun ki, dünyada müharibələrdən, qanlı toqquşmalardan, münaqişələrdən çıxmış bir çox ölkələr var, amma bu ölkələrdə buna oxşar proqram yoxdur. Mən Ermənistanı demirəm, orada, ümumiyyətlə, əlilliyi olan şəxslər cəmiyyətdən kənarlaşdırılıb və müharibədə əlil olan şəxslər də heç bir qayğı ilə əhatə olunmur. Mən bütövlükdə deyirəm. Bilmirəm, bu sahədə Azərbaycan qədər bu işləri görən ikinci ölkə var, yoxsa yox. Amma yenə də müqayisə üçün demirəm, sadəcə olaraq, bizim siyasətimiz bundan ibarətdir. Bax, bu günə qədər 10 mindən çox şəhid ailəsi və müharibə əlili evlərlə, mənzillərlə təmin edilib. Bu çox böyük rəqəmdir. 7000-dən çox minik avtomaşını verilib. Bilirəm ki, heç bir başqa ölkədə belə proqram yoxdur. Təkcə keçən il 1600 Birinci və İkinci Qarabağ müharibələri əlili və şəhid ailələrinə mənzillər verilib – 850 Birinci, 750 İkinci Qarabağ müharibələri iştirakçılarına. Onu da deməliyəm ki, Birinci Qarabağ

müharibəsi iştirakçıları və şəhid ailələri arasında elələri var ki, hələ də mənzil almayıblar. Ona görə burada növbəlilik olmalıdır. Ancaq İkinci Qarabağ müharibəsində iştirak edənlər də yenə daim diqqət mərkəzindədirlər. Bu il bu kateqoriyadan olan minimum 1600 insana dövlət tərəfindən mənzillər veriləcək. Bildiyiniz kimi, bu mənzillər də çox keyfiyyətlidir və demək olar ki, əksər açılışlarda özüm iştirak etmişəm.

Əlini, qolunu, ayağını itirmiş hərbçilərə protezlər quraşdırılır. Mənə verilən son məlumata görə, haradasa, protezə ehtiyacı olan 200-ə qədər Vətən müharibəsi iştirakçısı var ki, onların 95 faizi artıq protezlərlə təmin edilib. Bu protezlər son texnologiyalı protezlərdir və normal həyata qayıtmaq üçün bütün imkanlar vardır.

Onu da bildirməliyəm ki, mənim göstərişimlə biz mənzil proqramına Vətən Müharibəsi qəhrəmanlarını da daxil etdik. Onların bir qismi ölümündən sonra bu yüksək ada layiq görülüb, şəhid kimi onların ailələrinə dəstək veriləcək. Digər Vətən Müharibəsi qəhrəmanlarına dövlət tərəfindən keyfiyyətli, geniş mənzillərin verilməsi də artıq başlanmışdır. 90-na yaxın Vətən Müharibəsi Qəhrəmanımız var, onların 95-97 faizinə mənzillər verilib. Yəni dövlət imkan daxilində bu işləri görəcək və biz buna daha geniş prizmadan yanaşırıq. Təkcə müharibə əlilləri yox, bütövlükdə əlilliyi olan şəxslər dövlət tərəfindən daha böyük qayğı ilə əhatə olunmalıdırlar. Onları fəal işə, həyata cəlb etmək üçün, onların intellektual potensialından istifadə etmək üçün şərait olmalıdır.

Bu çox böyük əhəmiyyət daşıyır və yenə də deyirəm, bu siyasətin aparılması üçün bizdə gözəl milli ənənələr vardır. İndi dövlətin də imkanları genişlənir və bu məqsədlər üçün ayrılan dövlət büdcəsi də ildən-ilə artır, o cümlədən bu il. Bu, mütləq daim diqqət mərkəzində olacaqdır.

**A p a r ı c ı:** Bəli, elə o diqqətin nəticəsidir ki, bu gün bizim cəmiyyətdə artıq fiziki qüsurlu sözü yoxdur. Fiziki məhdudiyyət var və biz həmin gəncləri cəmiyyətdə gördükdə o məhdudiyyətin xarici görünüşlə bitmədiyinin şahidi oluruq. Növbəti sualı kim vermək istəyir? Buyurun, xanım.

**Ü l v i y y ə A x u n d o v a: Cənab Prezident, mən Vətəndaş Cəmiyyətində Debat İctimai Birliyini və Gənclər Təşkilatları Milli Şurasını təmsil edirəm. Hazırda sosial şəbəkələr əsas məlumat mənbəyinə və reallığa çevrilib. Sizin bütün fəaliyyətlərinizi yaxından izləyirik. Həmçinin Vətən müharibəsində həyəcanla bütün paylaşımları izləyirdik. Bu bizə həm sosial şəbəkələrin əhəmiyyətini göstərdi, həm də məlumatları dəqiq, operativ və birbaşa mənbədən almağımıza şərait yaratdı. Biz gənclərin də bu istiqamətdə müəyyən fəaliyyətlərimiz var. Bizim üçün maraqlıdır ki, sosial şəbəkələrdə fəaliyyətimizi necə dəyərləndirirsiniz və bizimlə bağlı bundan sonrakı gözləntiləriniz nədir? Çox sağ olun.**

**İ l h a m Ə l i y e v:** Vətən müharibəsi dövründə bizim gənclərimiz sosial şəbəkələrdə çox fəal oldular və deyə bilərəm ki, bütövlükdə müharibə zamanı gedən informasiya müharibəsində də biz qalib gəldik – həm ənənəvi informasiya resurslarından istifadə edə-

rək, həm də  sosial şəbəkələrdən istifadə edərək. Biz bir daha gördük ki, gənclər arasında Vətənə nə qədər böyük sevgi var. Onu da bildirməliyəm ki, təkcə Azərbaycan vətəndaşları yox, dünya azərbaycanlıları da bu işlərə qoşuldular – könüllü olaraq, öz təşəbbüsləri ilə. Heç kim onlara, necə deyərlər, nə göstəriş vermişdi, nə təlimat vermişdi, onlar özləri bu informasiya meydançasında bir əsgərə çevrildilər və Azərbaycan həqiqətlərini dünyaya çatdırdılar. Bu, təkcə bizim fikrimiz deyil, beynəlxalq təhlilçilər də təəccüblə qeyd edir ki, Azərbaycan informasiya məkanında üstünlük əldə etdi. Nə üçün təəccüblə? Çünki belə bir oturuşmuş fikir var idi ki, erməni lobbisi, erməni təşkilatları hər yerdə fəaldırlar, indi dünyanın aparıcı ölkələrindəki bir çox aparıcı media qurumlarına onlar rəhbərlik edirlər və bu imkandan istifadə edib Azərbaycana qarşı şər-böhtan kampaniyası aparırlar. Yəni hər kəs gözləyirdi ki, informasiya məkanında Ermənistan,  necə deyərlər, erməni tezisləri üstünlük təşkil edəcək. Görəndə ki, biz Ermənistanı burada da üstələdik, təəccüb etdilər. Bu nəyi göstərir? Onu göstərir ki, ilk növbədə tərbiyə, ikinci növbədə bilik, üçüncü növbədə isə müasir texnologiyalara çıxışımız oldu. Sosial şəbəkələrdə üstünlüyü əldə etmək üçün, əlbəttə ki, orada paylaşılan məlumat da təsirli olmalıdır, həqiqəti əks etdirməlidir, bütün normal qaydalara uyğun olmalıdır. Ermənistan çalışırdı ki, sosial şəbəkələrdə bizimlə mübarizə aparsın, amma onların mübarizəsi müharibədəki mübarizəyə bənzəyirdi – çox alçaqcasına, çox namərdcəsinə. Onların mübarizə üsulu böhtan, yalan və təhqir idi.

Bizimki isə həqiqət və ümumi davranış qaydalarına riayət etmək əsasında atılan addımlar idi.

Biz həqiqəti deyirdik. Hər gün həm mən öz müraciətlərimdə, həm digər orqanlar həqiqəti deyirdik. Ermənilər isə yalan danışırdılar və bu gün də erməni hərbçiləri və orduda mediaya cavabdehlik daşıyan insanlar orada lağa qoyulurlar. Onların adları yalan rəmzinə çevrilib. Adam nə qədər yalan danışa bilər?! Özü də bu, mənasız bir yalan idi. Çünki gec-tez bu yalanın üstü açılacaqdı. Həm Füzulinin, həm Hadrutun, həm də Şuşanın azad edilməsi ilə bağlı erməni rəsmi təbliğatı öz işini yalan üzərində qurmuşdu. Bu da dünya ictimaiyyəti və şəbəkələrdə fəaliyyət göstərən müxtəlif ölkələrdən olan insanlara hər şeyi göstərdi və bizə olan hörmət daha da artdı. Ona görə sosial şəbəkələrdəki fəaliyyət, hesab edirəm ki, müharibə dövründə çox uğurlu olub və bütövlükdə indi də Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün sosial şəbəkələrin çox böyük rolu vardır. Bu bir yenilikdir və biz hər bir yeniliyə hazır olmalıyıq. Biz o məkanda öz mövqelərimizi əldən verə bilmərik, əksinə, orada daha da güclənməliyik və əlbəttə, Azərbaycan haqqında həqiqətləri çatdırmağa hələ ki, ehtiyac vardır. Birinci ona görə ki, tam dəqiq məlumat hələ də yoxdur, ikinci, Azərbaycan haqqında, Qarabağ məsələsi ilə bağlı bu gün də qəsdən təhrif edilmiş məlumat ötürülür. 30 il keçib, ancaq bu günə qədər dünyanın bəzi aparıcı ölkələrində informasiya məkanında erməni nağılları üstünlük təşkil edir. Ona görə yox ki, onlar o nağıllara inanırlar. Ona görə ki, o ölkələrin siyasi

maraqlarına cavab verir, yaxud da erməni lobbisinin seçkilərdəki səslərinə ehtiyac vardır. Ona görə Azərbaycan dünyada bəlkə nadir ölkələrdəndir ki, müntəzəm olaraq informasiya hücumuna, şər-böhtan hücumuna məruz qalır. Təkcə şəbəkələrdə yox, Avropanın, Amerikanın bir çox mətbu orqanlarında Azərbaycan haqqında yayılan yalanların arxasında biz erməni lobbisinin, necə deyərlər, uzun erməni qulaqlarını görürük. Yəni yazıların 90 faizi ermənilər tərəfindən təşkil edilib. Onlar başqa adlar altında gizlənirlər, pərdələnirlər, amma biz bilirik bu hansı mənbədən qaynaqlanır və biz buna hazır olmalıyıq. Müharibə başa çatıb, mən demişəm ki, biz üçüncü müharibə istəmirik. Əgər özümüz üçün təhdid görməsək, biz hər hansı bir addım atmaq fikrində deyilik, ancaq informasiya müharibəsi davam edir və bu müharibənin sonu olmayacaq. Bu bizim seçimimiz deyil, amma sənə kimsə hücum edirsə, sən gərək özünü müdafiə edəsən və elə müdafiə edəsən ki, daim qalib gələsən. Bütün ilkin şərtlər bizim xeyrimizə işləyir, çünki həqiqət, beynəlxalq hüquq bizim tərəfimizdədir. Müharibədəki Qələbə ölkəmizə, xalqımıza olan hörməti daha da artırdı. Sadəcə olaraq, fəallıq, düzgün informasiya kanallarının müəyyən edilməsi, müxtəlif istifadəçilərin kateqoriyalarına uyğun olan informasiya həcminin ötürülməsi – bütün bunlar, əlbəttə ki, böyük səriştə, məharət tələb edir. Dövlət orqanları da bu sahədə fəal olmalıdır və bizim bir çox dövlət qurumlarımız artıq bu imkanlardan istifadə edir. Bu, kütləvi xarakter daşımalıdır ki, biz

bu yeni informativ məkanda daim öz həqiqətlərimizi çatdıra bilək.

**A p a r ı c ı:** Təşəkkür edirik. Növbəti sual. Buyurun, xanım.

**G ü l l ü  H ü s e y n l i** (*tələbə*): **Cənab Prezident, mən də öz növbəmdə, biz gənclərə diqqət ayırdığınız və bizə belə bir fürsət verdiyiniz üçün Sizə təşəkkür edirəm. Mən Bakı Ali Neft Məktəbində kimya mühəndisliyi ixtisasının sonuncu kurs tələbəsiyəm, həm də startapçıyam, gənc sahibkar olmaq istəyirəm. Elə sualım da bununla bağlı olacaq. Biz artıq dördüncü sənaye inqilabı dövrünü yaşayırıq və yeni texnologiyalara, metodlara, innovasiyalara tələbat artır. Siz bu inqilab dövrünün çağırışları haqqında nə düşünürsünüz və mənim kimi, gənc sahibkar olmaq istəyən şəxslərə nə məsləhətlər verə bilərsiniz? Öncədən təşəkkür edirəm.**

**İ l h a m  Ə l i y e v:** Siz tamamilə haqlısınız, dördüncü sənaye inqilabı artıq reallıqdır və biz geridə qalmamaq üçün bu istiqamətdə öz addımlarımızı atırıq. Məncə artıq iki il oldu ki, Davos Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında dördüncü sənaye inqilabının üstünlüklərini daha da açmaq, Azərbaycanda tətbiq etmək üçün və regionda bu işlərə koordinasiyanı öz üzərinə götürmək üçün müvafiq sənəd imzalanıb. O da təsadüfi deyil ki, nə üçün məhz Davos Dünya İqtisadi Forumu – bu, bildiyiniz kimi, dünya miqyasında ən mötəbər, ən nüfuzlu Forumdur və bu Forumda dünyanın aparıcı ölkələrinin dövlət, hökumət başçıları iştirak edirlər. Davos səviyyəsində ikinci forum yoxdur –

istər iqtisadi olsun, istər siyasi və bütün region üçün məhz Azərbaycan seçildi. Təkcə bir ölkə kimi yox, Cənubi Qafqaz və ətraf ölkələr üçün. Nə üçün? Birincisi, bizə inam var. İkincisi, Azərbaycan sabit ölkədir və Davos Forumunun hesabatlarında – onlar hər il dərc edilir – Azərbaycan bir çox parametrlər üzrə həmişə qabaqcıl yerlərdədir. O cümlədən hökumətin islahatlara meyilliliyi indeksinə görə biz birinci onluqdayıq. Təsəvvür edin, dünya miqyasında bu parametrə görə birinci onluqda olmaq doğrudan da bir çox şeylərə aydınlıq gətirir. Artıq bu işlərə start verilib və bizim istəyimiz nədir? Əlbəttə, biz dünyada gedən bütün müsbət meyillərə açıq olmalıyıq, texnologiyaları Azərbaycana gətirməliyik, bütün sahələrdə ən müasir metodları, üsulları Azərbaycanda tətbiq etməliyik – müasirləşmə bu deməkdir. Bayaq qeyd etdiyim kimi, biz milli dəyərlər üzərində qurulmuş güclü dövlət, dünyaya açıq, özünə qapanmayan və ən mütərəqqi texnologiyaları və innovasiyaları gətirən və burada tətbiq edən ölkəyik. Yəni biz buna çalışırıq, siyasətimiz budur.

Dördüncü sənaye inqilabının mərkəzinin Azərbaycanda yaradılması bizə geniş informasiya məkanına çıxış əldə etmək üçün köməklik göstərəcək. Çünki dünya dəyişir və 25 il bundan əvvəlki dünya indiki dünya ilə böyük fərq təşkil edir. Biz onu da bilməliyik ki, ənənəvi peşələrin bir neçəsi, bəlkə də bir çoxu bir neçə ildən sonra olmayacaq, yəni bu peşələrə ehtiyac qalmayacaq. Ancaq Azərbaycan bir çox ölkələrdən fərqli olaraq, əhalisi artan ölkədir. Avropa məkanında ölkələrdə ya əhali sabitdir,

ya da ki, azalır, bizdə isə artır. Müstəqillik dövründə 7 milyondan 10 milyonadək artıbdır. Bütün bunlar yeni iş yerləri deməkdir. Amma dördüncü sənaye inqilabı iş yerlərinin ləğvinə gətirəcəksə – bu, artıq danılmaz faktdır – onda biz dördüncü sənaye inqilabı nəticəsində yarana biləcək yeni peşələrə hazır olmalıyıq. Hazır olmasaq, o işlər itiriləcək, işsizlərin sayı artacaq, biz yeni işlərə hazır olmayacağıq. Bu, təkcə işsizliyin normal səviyyədə saxlanılması deyil, bu, inkişaf deməkdir. Bu inkişafdan geri qalsaq, onda bizim aqibətimiz nə olacaq? Biz, əlbəttə, o ölkə deyilik ki, özümüz hansısa texnoloji yeniliklər icad edək. Halbuki o da mümkündür və o da vardır. İstedadlı azərbaycanlı gənclər indi startapları böyük firmalara satırlar, Amerikada, Avropada bizneslərini qurublar. İntellektual potensial Azərbaycanda çox yüksəkdir, bu da birbaşa təhsillə bağlıdır. Amma prinsip etibarilə biz özümüzü texnologiyaları tətbiq edən ölkə kimi görürük və bir addım arxada olmalıyıq, texnologiyaları icad edənlərdən bir addım geridə. Ən müasir texnologiyalar buraya gəlməlidir, biz gətirməliyik – həm dövlət, həm özəl sektor və beləliklə, inkişafı təmin etməliyik. Artıq yeni yaradıla biləcək peşələr yaranmaqdadır. Burada mərkəzin olması bizə, yenə də deyirəm, imkan verəcək ki, biz öz iqtisadi siyasətimizi planlaşdıraq, dövlət tərəfindən yeni işlərin yaradılmasına stimul verək, təkan verək, insanların peşə profilini dəyişdirək. Bu da çox böyük zəhmət və bilik tələb edən sahədir. Yəni biz dördüncü sənaye inqilabına uyğunlaşmalıyıq, uyğun-

laşmasaq, geridə qalacağıq. Biz bunu özümüzə rəva görə bilmərik. Çünki biz müharibə şəraitindəyik, biz daim inkişafda olmalıyıq və daim güclü olmalıyıq. Güc isə tərəqqi ilə bağlıdır. Ona görə burada, yenə də deyirəm, dövlət qurumları tərəfindən çox ciddi iş aparılmalıdır. İlk növbədə, Təhsil Nazirliyi, nazir buradadır, onlar bunun üzərində işləyirlər. İqtisadiyyat Nazirliyi, çünki İqtisadiyyat Nazirliyinin əlində olan alətlərlə biz müxtəlif sahələri inkişaf etdirə bilərik, stimullaşdıra bilərik. Bu elə bir genişmiqyaslı işdir ki, hökumət bütövlükdə, bütün hökumət üzvləri burada fəal olmalıdırlar ki, biz geridə qalmayaq.

**A p a r ı c ı:** Təşəkkür edirik. Buyurun, sualınızı eşidək.

**Orduxan Qəhrəmanzadə** (*tələbə*): **Cənab Prezident, ümummilli liderin bizə miras qoyduğu bu gündə bizi qəbul etdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Mən ADA Universitetinin Beynəlxalq münasibətlər ixtisasının sonuncu kurs tələbəsiyəm. Eyni zamanda, «Qoşulmama Hərəkatı»nın Sizin təşəbbüsünüzlə təsis olunmuş Gənclər Şəbəkəsinin rəhbəri vəzifəsini icra edirəm. Həm Azərbaycanda, həm də xaricdə beynəlxalq təhsil mübadiləsi proqramları çərçivəsində təhsil aldığım müddətdə könüllülük hərəkatının bir parçası olmağa, aktiv iştirakçısı olmağa çalışmışam. Ölkəmizdə Sizin dəstəyinizlə son illərdə könüllülük hərəkatı geniş vüsət alıbdır. Xüsusilə də 2020-ci ilin «Könüllülər ili» elan olunmasının bu prosesdə müstəsna rolunu xüsusi olaraq vurğulamaq istəyirəm. Sualım da elə könüllüklə bağlıdır.**

**Mən bilmək istəyirəm ki, Sizin Azərbaycanda könüllülük hərəkatının inkişafı üçün, könüllülüyün təbliği üçün bizimlə, gənclərlə bağlı düşüncələriniz nələrdir və bizə tövsiyələriniz nədir? Sağ olun.**

**İ l h a m Ə l i y e v:** Könüllülər hərəkatı Azərbaycanda artıq genişlənir və bildiyiniz kimi, bu hərəkat bizdə «ASAN xidmət» mərkəzlərində başlamışdır, ASAN könüllüləri ilk könüllülərimiz olmuşlar. Ancaq onu da deməliyəm ki, bizim adət-ənənələrimizə qayıtsaq, Azərbaycan xalqı ehtiyacı olanlara həmişə kömək edibdir. Bizim milli xüsusiyyətimiz bundan ibarətdir. Ona görə könüllülük bizim elə bil qanımızdadır. Sadəcə olaraq, bunu hərəkat çərçivələrinə gətirmək üçün təşkilati addımlar olmalı idi, bunlar da atıldı. İndi «ASAN xidmət»dən sonra bir neçə digər dövlət qurumunda könüllülər qrupları var, mən bunu alqışlayıram. Bu həm gənclər üçün, həm də ölkə üçün çox önəmlidir. Çünki gənclər geniş təcrübə toplayırlar. «ASAN xidmət» mərkəzlərinin sayı 22-yə çatıb. Bu günlərdə 22-cisi Gəncədə açılıb və artıq orada da 80-dən çox könüllü işə cəlb olunub. Bütövlükdə «ASAN xidmət» yarandıqdan bu günə qədər bəlkə də on minlərlə könüllü bu mərkəzlərdə çalışıb və sonradan onların bir çoxu həyatda özünü təsdiqləyib. Orada əldə edilən iş təcrübəsi, mədəni davranış, insanlara aşılanan xeyirxahlıq, əlbəttə ki, hər bir gəncin keyfiyyətlərini daha da artırır. Beləliklə, könüllülər hərəkatı Azərbaycanda indi, yenə də deyirəm, genişlənib, geniş vüsət alıbdır.

Mən göstəriş vermişdim ki, dövlət qurumlarında könüllülərdən ibarət qruplar yaradılsın. Hesab edirəm ki, özəl şirkətlər də bu işə cəlb edilməlidir. Əslində bu çox nəcib bir işdir, təmənnasız kiməsə kömək etmək doğrudan da çox nəcib bir işdir. Yenə də bu ictimai xidmətlərə qayıdarkən demək istəyirəm ki, adətən, ictimai xidmətlər sektoru ən ağrılı, problemli, korrupsiyalaşmış və kobud davranış ənənəyə çevrilmiş bir sektor idi. Ona görə yeni yanaşma bu cəmiyyəti sağlamlaşdırır. Bu, təkcə korrupsiyadan, rüşvətxorluqdan azad etmək yox, eyni zamanda, cəmiyyətin elə bil ki, saflığını artırır. Çünki Azərbaycan xalqı həmişə mədəni xalq olub. Bizdə, cəmiyyətdə davranış qaydaları da özünəməxsusdur. Azərbaycana gələn xaricilər həm Bakıya aşiq olurlar, eyni zamanda, mən bir çoxlarından eşitmişəm ki, onları ən çox təsirləndirən insanların münasibətidir. Yəni bu reallıqdır, bizim böyük sərvətimizdir. Biz bunu qorumalıyıq. Bu da haradan gəlir? Birincisi, ənənələrdən, ikincisi, dövlət siyasətindən. Çünki siyasətimiz də ənənələrə bağlıdır. İndi biz bəzi yerlərdə eşidirik, görürük ki, məsələn, xaricdən gələnlərə münasibət fərqlidir, yəni o qədər də xoş deyil, əksinə, hansısa ziddiyyətlər, qarşıdurmalar yaranır. Bizdə bu, ümumiyyətlə, ola bilməz. Könüllülük də digər ənənəvi davranış qaydalarının yeni bir təzahürüdür. Mən bu hərəkata çox müsbət baxıram, gənclərin təşkilatlanması, bir amal uğrunda birləşməsi, cəmiyyətin saflaşması və kadr potensialının hazırlanması nöqteyi-nəzərindən. Əminəm

ki, Azərbaycanda bu hərəkatın çox gözəl gələcəyi vardır.

**A p a r ı c ı:** Təşəkkür edirik. Növbəti sual? Buyurun.

**Aybəniz Həşimova** (*tələbə*): Salam, cənab Prezident. Mən Azərbaycan Tibb Universitetinin birinci kurs tələbəsiyəm, Milli Qəhrəman Polad Həşimovun qızıyam. Bir az həyəcanlıyam, üzr istəyirəm. Mən fürsətdən istifadə edərək, şəhid ailələrinə göstərdiyiniz diqqət və qayğı üçün Sizə təşəkkür etmək istəyirəm. Sualım yoxdur, çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ ol, sənə uğurlar arzulayıram. Milli Qəhrəmanımız Polad Həşimov öz canını Vətən uğrunda fəda etmiş, qəhrəmancasına həlak olmuşdur. Müharibədən əvvəl Qəbələ şəhərində olarkən yoldan keçirdim, bir çox tədbirlər var idi. Gördüm bir binanın üstündə onun portreti asılıb. Mən maşını dayandırdım, gəldim, onun portreti önündə Azərbaycan xalqına həm onun haqqında, həm, ümumiyyətlə, gələcək haqqında öz sözlərimi dedim. Onun qanı yerdə qalmamalı idi və qalmadı. Biz onun qisasını döyüş meydanında aldıq. Polad Həşimov kimi qəhrəmanlar daim Azərbaycan xalqının qəlbində yaşayacaqlar. Mən onun bir hərbçi kimi fəaliyyətini çox yüksək qiymətləndirirdim, onu yüksək mükafatlarla təltif edirdim. Sevinirdim ki, Azərbaycan Ordusunda belə peşəkar, vətənpərvər, yeni nəslin nümayəndələri yetişir.

Deyə bilərəm ki, onun həlak olması hamımızı sarsıtdı və eyni zamanda, onun həlak olması hamımızı bir daha mətin olmağa çağırdı. Hamımıza gös-

tərdi ki, nəyin bahasına olursa olsun, biz torpaqlarımızı azad etməliyik. Onsuz da biz bunu bilirdik və mən artıq bunu demişəm. Sirr deyil, uzun illər boyu görürdüm ki, danışıqlar yolu ilə, mənasız, boş-boş danışıqlar yolu ilə bu məsələ həll olunmayacaq. Danışıqlardan nə üçün çıxmırdıq, onu da deməliyəm. Əgər biz danışıqlardan çıxsaydıq, başlayacaqdılar bizi ittiham etməyə. Onsuz da bu məsələ ilə məşğul olanlar fürsət axtarırdılar ki, bütün o yükü yıxsınlar bizim üzərimizə. Onsuz da 1993-cü ildə qəbul edilmiş 4 qətnaməni elə bil ki, kənara qoymaq istəyi var idi. Halbuki orada açıq-aydın göstərilir ki, erməni qüvvələri dərhal və qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxmalıdır. Ona nəinki əməl edilmədi, eyni zamanda, biz onu unutdurmaq istəyi ilə də üz-üzə gəldik. Ona görə mən çoxdan bilirdim ki, müharibə qaçılmazdır. Ordumuzun gücləndirilməsi və bütün digər tədbirlər bu məqsədi güdürdü. Lakin Polad Həşimovun və onunla bərabər digər qəhrəmanlarımızın həlak olması bir daha bütün xalqı sarsıtdı və hərəkətə gətirdi. Müharibəni aparmaq üçün bütün amillər olmalıdır – güc, iradə, cəsarət, vətənpərvərlik, xalqın birliyi və xalqın hazır olması. Baxın, bizdə müharibə dövründə bir nəfər də fərari olmamışdır. Amma Birinci Qarabağ müharibəsində olmuşdu. Nə üçün? Çünki o vaxt inam yox idi. O vaxt müharibə gedə-gedə ovaxtkı iqtidar Gəncəni bombalayırdı. Təsəvvür edirsiniz? Orda torpaqlar əldən gedirdi, burada, Bakıda oturan iqtidar Gəncəni bombalayırdı və Azərbaycan əsgərlərini əsir götürmüşdü. Belə iqtidarla müharibəni udmaqmı olardı? Əlbəttə ki, yox. İnam

yox idi. Milli Məclisin qabağında mitinqlər təşkil edirdilər, biri-birini ittiham edirdilər, boş-boş sözlər deyirdilər, vədlər verirdilər. Hamısı da boş idi. Ona görə xalq da hazır olmalı idi. Polad Həşimov öz şəhadəti ilə, deyə bilərəm ki, xalqın müharibəyə hazırlanmasında da çox böyük rol oynadı. Əgər bu olmasaydı, müharibəni belə aparmaq çətin olardı.

Mən bu yaxınlarda Gəncədə ermənilər tərəfindən dağıdılmış evlərin önündə dedim ki, hətta o dağıntılardan çıxanlar, öz yaxınlarını itirənlər deyirdilər ki, ancaq irəli getməliyik. Mən müharibə zamanı bir çox müsahibələr vermişdim. Bir sual bu günə qədər yadımdadır. Bir jurnalist ya Bərdədə, ya Tərtərdə dəfn mərasimində olmuşdu. Müsahibədən sonra söhbət əsnasında dedi ki, təəccüb etdim, gördüm ki, Sizə qarşı, iqtidara qarşı heç bir narazılıq yoxdur. Mən gözləyirdim ki, orada Sizi ittiham edəcəklər, deyəcəklər, nə üçün İlham Əliyev bu müharibəni başlayıb ki, biz yaxınlarımızı itirmişik. Dedi ki, mən bir çox döyüş yerlərində olmuşam, belə ruh yüksəkliyi görməmişəm. Hamı deyirdi ki, Prezidentin arxasındayıq, hamı deyirdi ki, ancaq dayanmasın. Bilirsən, xalq budur. Xalq buna hazır olmalı idi və hazır oldu. Poladın itirilməsi bizim üçün böyük itkidir, böyük dərddir. İlk növbədə, sənin üçün, sənin yaxınların üçün. Amma sən fəxr edə bilərsən ki, Polad kimi atan olub, var və xalqımızın qəlbində əbədi yaşayacaqdır.

**Aparıcı:** Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Davam edirik suallarla. Buyurun, özünüzü təqdim edin.

**R a m t i q  A l ı z a d ə: Mən Sizin 2019-cu il 1 oktyabr tarixli Sərəncamınızla fəaliyyətə başlayan Gənclərin İnkişaf və Karyera Mərkəzinin rəhbəri, eyni zamanda, «Yüksəliş» müsabiqəsinin qaliblərindən biriyəm. Həm təmsil etdiyim qurumun fəaliyyəti çərçivəsində, həm də «Yüksəliş» müsabiqəsinin gedişatı dövründə ölkəmizdə kifayət qədər potensiallı, təcrübəli gənclərin, gənc kadrların olduğunun şahidi olmuşam. Həmçinin Sizin bildirdiyiniz kimi, gənclər üçün həm ölkə daxilində, həm ölkə xaricində müxtəlif imkanlar yaradılmaqdadır. Mən xüsusilə gənclər üçün yaradılmış xaricdə təhsil imkanları ilə bağlı fikirlərimi bildirmək istəyirəm. Bildiyiniz kimi, bir çox gənclər dövlət proqramları vasitəsilə xaricdə təhsil aldıqdan sonra ölkəyə qayıdıb burada səmərəli fəaliyyət göstərirlər. Lakin bir qisim gənclər isə təhsil aldıqları həmin ölkədə qalırlar. Sözsüz ki, bu, cəmiyyətdə də müəyyən müzakirələrə səbəb olur. Bir qrup düşünür ki, bu, ölkədən kapital və beyin axınıdır, digər bir qrup isə hesab edir ki, bu bizim xaricdə qeyri-formal təmsil olunmağımız, lobbiçilik fəaliyyətimiz üçün yeni imkanlar yaradır. Bilmək istərdim ki, Siz bu barədə nə düşünürsünüz, dövlətin bu prosesi tənzimləməklə bağlı hər hansı bir planları varmı?**

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, hər iki tərəf haqlıdır. Həm beyin axınıdır, eyni zamanda, xaricdə qalan azərbaycanlılar, onların böyük əksəriyyəti Azərbaycana bağlı olurlar, onların ürəkləri Azərbaycanla bir döyünür və öz fəaliyyəti ilə bizə yaşadıqları ölkələrdə xeyir gətirirlər. Xaricdə təhsil alan gənclərlə bağlı proqramı biz 2007-ci ildə başla-

mışıq. 2006-cı ildə qərar verildi, sərəncam imzalandı və artıq 2007–2015-ci illəri əhatə edən genişmiqyaslı proqram icra edilməyə başlandı. Onu da deməliyəm ki, burada da bir yenilik yox idi, çünki sovet vaxtında Heydər Əliyevin göstərişi ilə Azərbaycan gəncləri, yüzlərlə azərbaycanlı gənc Sovet İttifaqının aparıcı ali məktəblərinə ezam edilirdi, özü də güzəştli şərtlərlə. Onlar o ali məktəblərə daxil olurdular. İmtahanlar Bakıda verilirdi və elə bil ki, onlar müsabiqədənkənar bir formatda oxuyurdular. Hər il bu proqram icra edilirdi, heç bir başqa sovet respublikasında buna oxşar proqram yox idi və məqsəd gəncləri yetişdirmək və yaxşı biliklər vermək idi. Çünki sirr deyil ki, o vaxt Sovet İttifaqının, xüsusilə Rusiya Federasiyasının ali məktəblərindəki təhsilin səviyyəsi Azərbaycan ali məktəblərindəkindən çox fərqlənirdi və beləliklə, hər il haradasa, 800-ə qədər gənc ezam edilirdi. Onların arasında indi bir çox tanınmış adamlar da var və onların böyük hissəsi Azərbaycana qayıdıb. Düzdür, o vaxt biz vahid ölkədə yaşayırdıq, amma yenə də atam istəyirdi ki, daha çox qayıtsınlar bura və burada çox güclü bir mütəxəssislər sinfi yaradılsın. Bu təcrübəni əsas götürüb mən də bu təşəbbüslə çıxış etdim. Yadımdadır, o vaxt müxtəlif fikirlər var idi. Bəziləri deyirdilər ki, biz mütləq şərt qoymalıyıq. Bir halda ki, dövlət onları oxudur, şərt qoymalıyıq ki, onlar qayıtsınlar və Vətənə xeyir versinlər. Mən isə buna razılaşmadım. Mənim arqumentlərim o idi ki, birincisi, biz bunu nə üçün edirik? Ona görə edirik ki, azərbaycanlı gəncləri ye-

tişdirək, onlar gözəl peşə sahibləri, mütəxəssis olsunlar. Əsas məqsəd budur – xalqımızın intellektual potensialının möhkəmləndirilməsi. Deməliyəm ki, biz gəncləri 30-dan çox ölkəyə, müxtəlif ölkələrin 300-dən çox ali məktəbinə ezam edirdik. Bu məqsədlər üçün 200 milyon manat vəsait xərcləndi.

Onu da deməliyəm ki, bu xərclər Neft Fondundan təşkil edilirdi. Bununla da biz bu proqramın əhəmiyyətini bir daha qeyd edirdik. Çünki bildiyiniz kimi, Neft Fondundan vəsait əsasən məcburi köçkünlər üçün evlərin tikintisinə istiqamətləndirilirdi. O vaxt mən demişdim ki, yox, biz belə bir şərt qoymamalıyıq. Birincisi, belə bir şərt qoysaq, nahaq iş görərik. İkincisi və ən önəmlisi, biz Azərbaycanda elə şərait yaratmalıyıq ki, onlar özləri gəlsinlər, zorla yox. 2006-cı ildə biz bu proqrama başlayanda, Azərbaycanda vəziyyət elə idi ki, bir çoxları bəlkə də orada, xaricdə qalmağı seçə bilərdilər. Ancaq buna baxmayaraq, dövlət xətti ilə oxuyanların böyük hissəsi Azərbaycana qayıdıb. 3500 təqaüd verilmişdi və onlar qayıdıb. Ondan sonra biz bu proqramı dayandırdıq, çünki təhlil aparmaq lazım idi: qayıdanların neçə faizi işlə təmin edilib, neçə faizi dövlət, neçə faizi özəl strukturlarda işlə təmin edilib, onların karyerası necə inkişaf edir. Bütün bu məlumat Təhsil Nazirliyində var, bütün bu təhlil aparılıb. Yəni çox uğurlu proqram idi. Ona görə yeni proqram artıq işlənilib və müvafiq sərəncam keçən il verilib. Yəqin ki, bu ildən başlayaraq, biz bu proqramı yeni formada bərpa edəcəyik. Yəni birinci proqramın çatışmazlıqlarını nəzərə almaq şərtilə, təxminən ildə 400-ə qədər

gənc dünyanın aparıcı ali məktəblərinə göndəriləcəkdir.

İndiki şəraitdə isə mənim tövsiyəm odur ki, onlar qayıtsınlar. Çünki indi Azərbaycan ovaxtkı Azərbaycan deyil, Bakı indi dünyanın ən gözəl şəhərlərindən biridir. Azərbaycanda olan infrastruktur bir çox ölkələr üçün nümunə ola bilər. Ölkəmizin mədəni həyatı çox zəngindir və insanlar burada özlərini çox rahat hiss edirlər. Heç bir təhlükə yoxdur – sabitlik, əmin-amanlıq, xoş ab-hava.

İndi əfsuslar olsun ki, dünyanın bir çox yerlərində o günlərdən bu günə qədər vəziyyət dəyişib. 2006-cı ildə neçə ölkə alov içində idi və bu gün alov içində olan ölkələrin sayı nə qədər artıb. Eyni zamanda, 2006-cı ildə biz bu proqrama start vermişik, əgər biz bu günlə müqayisə etsək, görərik ki, Qərbdə islamofobiya nə qədər artıb. Yəni bu həqiqətdir və bu həqiqət artıq bir çox ölkələri sarsıdır. Bir tərəfdən, demoqrafik problemlər, insan resurslarının çatışmazlığı, digər tərəfdən, miqrantlara – onların da böyük əksəriyyəti müsəlmanlardır – mənfi münasibəti, onlara qarşı təhqiredici addımları, onları qəfəsdə saxlama görüntülərini biz hamımız görmüşük. Yəni mən bunu sadəcə olaraq, reallıq kimi deyirəm. Biz real həyatda yaşayırıq, virtual həyatda yaşamırıq. Ona görə, o vaxtdan bu günə qədər bir çox dəyərlər də o istiqamətdə dəyişib və mən onlara heç dəyər deməzdim. Amma orada qalacaq azərbaycanlı uşağı necə böyüdəcək, hansı mühitdə böyüdəcək, onun uşağına kim dərs verəcək, nəyi öyrədəcək ona? Bunu düşünmək lazımdır və bütün

bu amilləri nəzərə alaraq, mən çox tövsiyə edərdim ki, qayıtsınlar öz Vətəninə, Vətənə xidmət etsinlər. Bizim iqtisadiyyatımız indi dünya iqtisadiyyatının bir parçasıdır, əmək resurslarımız da həmçinin. İndi bir çox azərbaycanlılar var ki, xaricdə işləyirlər, yaşayırlar. Mən bunu ancaq alqışlayıram. Nə qədər çox olsa, necə deyərlər, bizim adımızı ucaldırlar. Amma eyni zamanda, Azərbaycanda və xüsusilə Bakıda açılan yeni böyük müəssisələrdə və xidmət sektorundakı müəssisələrdə menecerlər, top-menecerlər xaricilərdir. Bu belədir. Mən demirəm ki, bu yaxşıdır, ya pisdir. Yenə deyirəm, Azərbaycan çox qonaqpərvər ölkədir, hər kəs üçün burada yer var və bunu alqışlayıram, onlar gəlirlər təcrübəni bölüşürlər. Amma nə üçün xaricilərdir? Çünki yerli kadrlar hələ ki, tam uyğun deyillər. Ona görə xaricdə aparıcı ali məktəblərdə təhsil alanlar gəlib burada həmin bu vakansiyalarda işləsinlər və Vətənə burada xeyir gətirsinlər.

**Aparıcı:** Təşəkkür edirik. Növbəti sual. Buyurun.

**Rolan Yusupov** (*Dağ yəhudi icmasının nümayəndəsi*): **Salam, cənab Prezident. Mən Dağ yəhudi icmasının nümayəndəsiyəm və hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dördüncü kurs tələbəsiyəm. Sizi gördüyüm üçün çox xoşbəxtəm. Dörd gün əvvəl biz icma ilə birlikdə Qubada yerləşən dünyanın ilk Dağ Yəhudi Muzeyini ziyarət etdik. Bu mənim üçün çox möhtəşəmdir. Mən onunla fəxr edirəm. Çünki Azərbaycan bu muzeyə malik olan ilk və yeganə ölkədir. Bu da Azərbaycanın tolerantlığını və multikulturalizmini bir daha vurğulayır. Qeyd etmək istərdim ki, bir çox xarici ölkələrdə yaşayan yəhudi-**

**lər ksenofobiya və rasizmə məruz qalırlar. Onun nümayişi Ermənistan ölkəsidir. Ermənistan monoetnik ölkədir və antisemitizmin ən yüksək səviyyəsi məhz oradadır. Mənim sualım ondan ibarətdir ki, cənab Prezident, bu tolerantlığı və sərvətimizi qorumaq üçün nə etməliyik, bizim gənclərimiz nə etməlidir?**

**İ l h a m Ə l i y e v:** Bəli, dediyin kimi, Ermənistan monoetnik dövlətdir və Ermənistan adlandırılan indiki ərazi heç vaxt monoərazi olmayıb. Çünki orada yaşamış, əzəli torpağında olan azərbaycanlılar tədricən oradan qovulublar və digər millətlər də qovulublar. Mənə verilən məlumata görə, Ermənistanda hansısa qondarma, yalançı bir yəhudi icması yaradıblar, amma onun rəhbəri ermənidir. Təsəvvür edin, Ermənistanda ksenofobiya, antisemitizm və irqçilik nə dərəcədə geniş vüsət alıb. Ermənistan adlandırılan ərazidə azərbaycanlılarla yanaşı, digər xalqlar da yaşayıb və onlar tədricən oradan qovulub və təbii ki, ən böyük ədalətsizlik xalqımıza qarşı edilib. Çünki azərbaycanlılar öz doğma torpaqlarından bir neçə mərhələ ilə qovulublar. Əlbəttə, biz 1918-ci ili heç vaxt yaddan çıxarmamalıyıq. O vaxt Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı – qədim Azərbaycan şəhərini Ermənistana faktiki olaraq, heç bir səbəb olmadan bağışladı. Göstərilən səbəblər də, necə deyərlər, keçərsizdir, yəni onları səbəb kimi adlandırmaq olmaz və bu cinayəti heç vaxt bağışlamaq və əsaslandırmaq olmaz. Halbuki o vaxt İrəvandan olan nümayəndələr buna qəti etiraz edirdilər. Amma onların sözünə baxmadılar. 1920-ci ildə isə, artıq sovetləşmədən sonra noyabr ayında sovet hakimiy-

yəti Zəngəzuru bizim əlimizdən alıb Ermənistana birləşdirdi. Bu da böyük ədalətsizlik idi. Onu da deməliyəm ki, o vaxt Zəngəzuru bizdən alanda indiki Ermənistan ərazisində yerləşən Zəngəzur indiki sərhədlərdə olmayıb, daha az ərazini əhatə edib. Ondan sonra illər keçdikdə müxtəlif bəhanələr altında yavaş-yavaş bizim kəndlərimizi Ermənistana birləşdirdilər. Bu proses ancaq 1969-cu ildə dayandı. 1969-cu ilə qədər bu proses gedirdi. Heydər Əliyev Azərbaycanda rəhbərlik etməyə başlayandan artıq bir qarış torpaq da Ermənistana verilmədi. Ondan sonra, ötən əsrin 40–50-ci illərində azərbaycanlılar deportasiyaya məruz qaldılar və yüz minlərlə azərbaycanlı öz doğma torpağından Kür–Araz ovalığına köçürüldü. Onlar, dağ yerlərində yaşamağa öyrəşmiş insanlar Aran zonasına köçürüldülər, özü də o vaxt orada heç kim yaşamırdı – nə su var idi, nə yaşamaq üçün şərait var idi – bir çoxları da orada həlak oldular. Bunun da bəhanəsi o idi ki, guya xaricdə, Avropada yaşayan ermənilər qayıdacaq. Amma birincisi, onların bir çoxu heç qayıtmadı, ikincisi, əsas məqsəd yenə də azərbaycanlıları öz doğma torpaqlarından didərgin salmaq idi.

Nəhayət, axırıncı etnik təmizləmə artıq keçən əsrin 80-ci illərinin sonlarında baş verdi və Ermənistan ərazisindən azərbaycanlılar tamamilə çıxarıldılar, ondan sonra da Qarabağ münaqişəsi baş verdi. Yəni bu, xalqımıza qarşı sovet hakimiyyəti tərəfindən törədilmiş cinayətdir və ədalətsizlikdir. O xalqa ki, İkinci dünya müharibəsində həlledici rol oynayıb. Əgər bizim neftimiz olmasaydı, faşist

Almaniyası Sovet İttifaqını məğlub edəcəkdi. Bunu hər kəs bilməlidir. Azərbaycan nefti faktiki olaraq, sovet ordusunun İkinci dünya müharibəsindəki qələbəsini böyük dərəcədə şərtləndirib. Ancaq müharibədən üç-dörd il sonra bizə qarşı belə ədalətsizliyin edilməsi nə dərəcədə əsaslı idi?! Bu, vicdansızlıq idi, xalqımıza qarşı cinayət idi. Ondan sonra erməni separatçıları baş qaldıranda onu elə yerində də dayandırmaq olardı. İstəmədilər, əksinə, separatizm meyillərinə rəvac verdilər və öz ölkələrini də məhv etdilər. Sovet İttifaqının dağılması ermənilərin separatizmindən başlandı. Yəni bu, real tarixdir. Biz heç vaxt bunu unutmamalıyıq və bilməliyik. Bizə gəldikdə isə Azərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı diyar olub və bu da bizim ənənəmizdir. Əsrlərboyu müxtəlif xalqlar burada yaşamış, yaratmış, qardaş olmuşlar, bu gün də belədir. Multikulturalizm termin kimi yenidir, amma anlayış kimi bu həmişə olub və həmişə olmalıdır. Mənim də sizə sözüm odur ki, siz bu dəyəri daim qoruyun. Çünki bizim gücümüz birliyimizdə və müxtəlifliyimizdədir. Azərbaycan çoxkonfessiyalı, bir çox etnik qrupların birgə yaşadığı unikal bir məkandır. Bu, böyük sərvətimizdir. Mən bunu yenə də deyirəm, sadəcə, xoş söz demək naminə demirəm. Mən daxilən 100 faiz buna əminəm ki, ancaq birlikdə, bütün xalqların birgə yaşaması bizi uğura, qələbəyə gətirəcək və gətirib. İkinci Qarabağ müharibəsində bütün xalqların nümayəndələri bir əsgər kimi vuruşdular, qan tökdülər, şəhid oldular. Vətən uğrunda, Qarabağ uğrunda, Azərbaycan uğrunda vuruş-

dular. Bu Qələbə və bu müharibə Azərbaycanda yaşayan bütün xalqları daha da birləşdirdi. «Dəmir yumruq» sadəcə, güc deyil, bu birlikdir. Bizdə bu gün olan birlik, hesab edirəm ki, hər bir ölkə üçün, multikonfessional və çoxmillətli ölkə üçün nümunə ola bilər. Siz gənclər bu ideyaları qorumalısınız. Çünki bu siyasətin uğurlu olması təkcə dövlətdən asılı deyil, hər bir vətəndaşdan asılıdır. Hər bir vətəndaş öz davranışı ilə bu ideyaları tərənnüm etməlidir. Belə olan halda, Azərbaycanda yaşayan bütün xalqlar, Azərbaycan vətəndaşları daim sülh şəraitində, əmin-amanlıq, qardaşlıq şəraitində yaşayacaqlar. Əminəm ki, bu belə olacaq.

İndi Ermənistana baxın. Onlar bütün xalqları Ermənistandan qovublar, ilk növbədə, azərbaycanlıları. Heç bir başqa millət orada yaşamır. Amma bu onlara kömək etdimi? Yox. Bu monodövlət böyük problemlərə gətirib çıxaran amillərdən biridir. Onlar hesab edirdilər ki, bu onların üstünlüyüdür. Hətta onların rəhbərləri və ictimai fəalları İkinci Qarabağ müharibəsindən əvvəl deyirdilər ki, Ermənistanın bir üstünlüyü var ki, burada ancaq ermənilər yaşayır, Azərbaycanda isə müxtəlif xalqlar yaşayır. Onların çirkin təbliğatı ona yönəlmişdi ki, əgər müharibə başlayarsa, burada qatma-qarışıq olacaq, xalqlar bir-birinin üzünə duracaq. Amma nə oldu? Yaşayan bütün xalqlar bir adam kimi durdular ayağa, sinələrini qabağa verdilər, düşməni təpiklə qovdular bizim torpağımızdan. Bir daha göstərdik ki, bax, bu yetişən nəsil və ənənələr nə deməkdir. Ermənistanın gələcəyi isə indiki rəzil du-

rumdakı kimi olacaqdır. Ermənistanda ermənilərdən başqa heç kim yaşamır, amma onlar bir-birilərini hər gün didirlər, bir-birilərini satqınlıqda, xəyanətdə ittiham edirlər. Bütün o daxili aqressiyanı bir-birilərinə yönəldiblər. Əvvəlki iqtidar indiki iqtidara qarşı, indiki iqtidar əvvəlki iqtidara qarşı bir-birilərini ittiham edirlər, kim Qarabağı əldən verdi, kim bu məğlubiyyətdə günahkardır. Onların hər biri günahkardır, hər biri, Ermənistanın başında duranlar, hamısı. Çünki öz zəhərli ideologiyaları ilə erməni xalqının beynini zəhərlədilər, bizə qarşı qaldırdılar, özləri haqqında olmayan mifləri uydurdular, özləri də o miflərə inanmağa başladılar. Bizim yumruğumuz onların başını əzəndə təəccüb edirdilər ki, necə oldu. Ona görə ki, monodövlətdir və monodövlətlərin axırı, bax, belə də olacaqdır.

Bir daha demək istəyirəm ki, hər birimiz bu dəyəri qorumalıyıq və Azərbaycan siyasəti bundan sonra da bu istiqamətdə aparılmalıdır və aparılacaqdır.

**A p a r ı c ı:** Təşəkkür edirik. Növbəti sual. Buyurun.

**R u s l a n Q a s ı m o v: Çox hörmətli Ali Baş Komandan, cənab Prezidentimiz. Mən Yeni Azərbaycan Partiyasının üzvüyəm, həm də Sizin dediyiniz kimi, dövlət dəstəyi ilə xaricdə beynəlxalq münasibətlər və diplomatiya üzrə təhsil alan bir gəncəm. Bilirsiniz ki, müasir qlobal dünyamızda müəyyən siyasi toqquşmalar, dini etiqadlar uğrunda mübarizələr gedir. Məhz belə halda, Siz bayaq çıxışınızda da vurğuladınız ki, gəncliyi ələ almaq asandır. Belə hal olduğu təqdirdə, bütün hədəflər gəncliyə yönəlir.**

**Bu gün müasir Azərbaycan gəncliyi, əlbəttə ki, bu mövzuda Sizdən çox gözəl ilham, böyük güc, qüvvət alaraq, düzgün hədəflərə doğru irəliləyir. Amma ətrafda əfsuslar olsun ki, bəzi kənar qüvvələrin müdaxiləsinə tuş gəlmiş gənclər də var. Mən ilk öncə bilmək istəyirəm, Siz bu gənclərə nə tövsiyə edərdiniz ki, belə kənar hədəflərə tuş gəlməsinlər.**

**İlham Əliyev:** Kənar təsir məsələsinə gəldikdə, ilk növbədə, gənclər bilməlidirlər ki, bu təsirin məqsədi nədir. Əgər bu məqsəd xoş niyyətlidirsə, bu, bir məsələ. Ancaq əfsuslar olsun, bizim üzləşdiyimiz mənzərə odur ki, bu məqsədin arxasında konkret planlar var və yenə də gənclər ən məqbul kateqoriya hesab olunur. Çünki gəncdirlər, onlar daha fəaldırlar. Hər bir cəmiyyətdə qüsurlar var, hər bir cəmiyyətdə çatışmazlıqlar var, bu qaçılmazdır. Biz görürük ki, bir çox yerlərdə, o cümlədən postsovet məkanında və digər yerlərdə, Yaxın Şərqdə bu dağıdıcı hərəkətlərin aparıcı qüvvəsi gənclər olur. Bunu biz «rəngli inqilab»larda görmüşük, Yaxın Şərqdəki toqquşmalarda görmüşük. Ancaq pərdənin arxasında gizlənən o, necə deyərlər, manipulyator səhnədə deyildir. Yəni gənclər qabağa verilir, qurban verilir, bunun nəticəsində ölkələr idarəolunmaz vəziyyətə gətirilir və ondan sonra ölkələr de-fakto bölünür. Yaxın Şərq ölkələrinə baxın. Faktiki olaraq, artıq bu böhranla üzləşmiş ölkələr öz sərhədlərini formal olaraq saxlasalar da, de-fakto o sərhədlərə nəzarət etmirlər. Yəni belə çıxır ki, Yaxın Şərqdə yeni de-fakto sərhədlərin müəyyən edilməsi prosesi davam edir. Hələ bu ərəb inqilablarından əvvəl

belə fikirlər dolaşırdı ki, vaxtilə sərhədlər düzgün müəyyən edilməyib. Biz yaxşı bilirik ki, o sərhədləri kim müəyyən edib. Bir neçə ölkənin nümayəndəsi karandaşla yeni sərhədlər cızıblar və hesab ediblər ki, buna onların haqqı çatır. Sonra gördülər ki, artıq o ölkələr böyüyür, əhali böyüyür, bəzi ölkələr zənginləşir və sözə baxmır. Ona görə qərara gəldilər ki, yeni bölgü aparılsın və de-fakto bu bölgü aparıldı. Mən xırdalamaq istəmirəm, hər kəs başa düşür mən nəyi nəzərdə tuturam. Nəticə etibarilə nə oldu? Ölkələr faktiki olaraq, öz müstəqilliyini itirdi. Böləndülər – biri üç yerə, biri dörd yerə, biri beş yerə. Bəzi yerlərdə, ümumiyyətlə, bilinmir ki, kim nəyi idarə edir. Yəni elə bil, necə deyərlər, ibtidai quruluşa doğru yuvarlanırlar. Kim bundan faydalanır? Yenə də pərdənin arxasında gizlənənlər. Çünki «böl və hökm sür» tezisi hələ də qüvvədədir. Bu, dərs olmalıdır? Əlbəttə, dərs olmalıdır. Yadımdadır, «ərəb baharı» olanda burada da bəziləri deyirdilər ki, Azərbaycan da bu «ərəb baharı»nın bir parçası olmalıdır. Halbuki bizə bunun heç bir aidiyyəti yoxdur və Azərbaycanda daxili təhlükə mənbəyi də yoxdur. İndi postsovet məkanına baxaq. Orada da, demək olar ki, ifaçılar eynidirlər. Postsovet məkanında neçə «rəngli inqilab» oldu? O ölkələrin xalqları daha yaxşı yaşamağa başladılar? Yox. Nə oldu? Xaos, anarxiya, idarəolunmaz vəziyyət. Bu günə qədər davam edən siyasi çəkişmələr, siyasi repressiyalar və iqtisadi cəhətdən də deyə bilmərəm ki, üstünlük oldu. Əksinə, sabitlik pozulan yerlərə investisiya qoyulmur, nə yerli, nə xarici.

Biz də bu təhlükə ilə üzləşmişdik. Mən yaxşı xatırlayıram, 2003-cü ildə Prezident vəzifəsinə seçildim və o vaxt mənim qələbəmi şübhə altına almaq istəyənlər oldu. Ancaq əsas gücü onlar 2005-ci ilə – parlament seçkilərinə saxlayırdılar. O vaxt bir çox postsovet ölkələrində «rəngli inqilab»lar olmuşdu və hətta növbəti istiqamət Azərbaycan hesab olunurdu. Amma alınmadı. Nə üçün? Çünki xalq dəstəkləmədi, bir. İkincisi, o oyunçuları düzgün seçməmişdilər. Yəni o marionet oyunçular o vəzifəni icra edə bilmədilər, özləri də biabır oldular. Amma bundan sonra o cəhdlərə ara verildi? Yox, yeni formalara keçdi. Yəni 2005-ci ildə keçmədi, çalışdılar, «ərəb baharı» 2012-də keçmədi, ondan sonraya saxladılar.

Bununla yanaşı, informasiya təxribatları davam edir, informasiya agentliklərindən istifadə olunur. Keçmiş Amerika Prezidenti Donald Tramp «Washington Post» və «New York Times» qəzetlərini «feyk-nyus» adlandırıb. Bunu mən demirəm, o deyir. O hər halda, bizdən yaxşı bilir, nə nədir. Bu feyk-nyus artıq siyasi mübarizənin bir üsuluna çevrilib. Yalan məlumat ötürülür, ondan sonra əldə olan əlaltılar vasitəsilə bu yalan məlumat ətrafında müzakirə aparılır, sanki bu, bir həqiqətdir. Ondan sonra təhlil aparılır və insanların şüuruna artıq bu yalan həqiqət kimi ötürülür. Bu çox bəsit bir texnologiyadır, amma əfsuslar olsun ki, bəzi yerlərdə bu işləyir. İdarə edənlər də eynidir, yəni dünyanın əsas qeyri-hökumət təşkilatları. Hamısı da Azərbaycana qarşı uzun illərdir mübarizə aparır, o cümlədən Qarabağ məsələsində. Hamısında da ermənilər aparıcı

rollardadır. Onların adları da məndə var, sadəcə olaraq, bunu siz də tapa bilərsiniz – «Freedom House», «Amnesty International», «Human Rights Watch», Soros və onun nəzarəti altında olan qurumlar, sərhədsiz reportyorlar. Hamısı anti-Azərbaycan mövqeyində dayanan, Azərbaycanı məhv etmək istəyən QHT-lərdir. Haradan maliyyə alırlar? Böyük dövlətlərin büdcələrindən. Kim musiqini sifariş edir, o da, necə deyərlər, söz sahibidir. Hədəf Azərbaycandır, Azərbaycan rəhbərliyidir. Çünki bütün başqa üsullardan istifadə etdilər, alınmadı. İnqilab alınmadı, çevriliş alınmadı, narazılıq yaratmaq alınmadı. Qarabağ məsələsindən istifadə edirdilər, o da alınmadı, biz tarixi Zəfər çaldıq. Ona görə yeni üsullar axtarılır və hədəf gənclərdir. Çünki gəncləri yoldan çıxarmaq hesab edirlər ki, daha asandır.

Bu səylər davam edəcək. Nə qədər ki, biz dövlətçiliyin keşiyində dayanmışıq, müstəqil siyasət aparırıq, bu, davam edəcək. Deməli, biz elə etməliyik ki, bu, daim davam etsin. Gələcəkdə bu ölkənin məsuliyyətini öz üzərinə götürən siz gənclər elə etməlisiniz ki, heç vaxt onlar bizə qalib gəlməsinlər. Biz onları bütün meydançalarda məğlub etmişik – həm siyasi, həm də bütün başqa meydançalarda. Onların axırıncı arqumenti işğal edilmiş torpaqlar idi, o da onların əlindən çıxdı. Ona görə indi onlar Ermənistanla birlikdə yeni planlar cızırlar. Məsələn, indi internetdə məşhur şəkil var – Soros və Nikol Paşinyan. Bilmirəm, görmüsünüz, yoxsa yox, amma axtarsanız taparsınız. Baxın, necə də səmimi, bir-birinə sarılıb durublar, yapışıblar bir-birilərinə, sanki

ikibaşlı əjdahadır. Ancaq əjdaha cılız çıxdı, bir şey alınmadı. Amma budur həqiqət, bütün «inqilablar» arxasında eyni qüvvələr dayanır və bu inqilablar, o cümlədən Ermənistanda nəyə gətirib çıxardı, indi hər kəs görür.

Azərbaycan gəncləri əminəm ki, bu fitnələrə heç vaxt uymayacaqlar. Azərbaycan gəncləri həm mülki həyatda, həm orduda, həm sərhəddə – hər yerdə öz böyüklüyünü dəfələrlə göstərmiş və əminəm ki, dövlətimizin ləyaqətinin qorunması işində bundan sonra da fəal və uğurlu olacaqlar.

**A p a r ı c ı:** Təşəkkür edirik. Növbəti sualı olan var? Buyurun.

**E l ç i n  H ü s e y n** (*rəssam*): **Salam, cənab Prezident. Mən rəssamam, eyni zamanda, Azərbaycan Dövlət Rəsm Qalereyasında Ekspozisiya şöbəsinin müdiriyəm. Rəssamlar, ümumiyyətlə, cəmiyyətin mənəvi cəhətdən ən həssas təbəqələrindən biri sayılır. Baş verən bütün proseslər – istər siyasi, istərsə də iqtisadi olsun – bizim yaradıcılığımızda öz əksini tez tapır. Böyük bir Qələbə qazandıq, böyük müharibə keçdik. Sizə təşəkkür etmək istəyirəm ki, artıq Qarabağla bağlı sərgilərə girəndə əvvəlki kimi, matəm ab-havası yox, toy-bayram ab-havası canlanır. Eyni zamanda, Qarabağ Azərbaycanın incəsənət məkanlarından biri olub, incəsənətin beşiyi olub və bir çox sənətkarlarımız məhz Qarabağdan çıxıblar. Soruşmaq istəyirəm ki, bu yenidən qurulma işlərindən sonra, ümumiyyətlə, kreativ sənayenin Azərbaycan iqtisadiyyatına öz təsirini göstərə biləcəyini planlayaraq, hansı addımlar atılacaq və Qarabağın incəsənətin beşiyi ol-**

**ması imicini yenidən bərpa etmək üçün hansı planlar düşünülür?**

**İlham Əliyev:** Əlbəttə, qaldırdığın məsələ çox vacibdir. Bilirsiniz, bu yeni vəziyyət, torpaqlarımızın işğaldan azad edilməsi qarşımızda geniş bir fəaliyyət meydanı açır. Onu da deməliyəm ki, bu gün bəri başdan bütün istiqamətlər üzrə dəqiqliklə addımları planlaşdırmaq bir qədər çətindir. Çünki biz hökumət, dövlət olaraq, əlbəttə ki, qarşımızda duran əsas vəzifələrin üzərində öz fəaliyyətimizi qururuq. Qeyd etdiyim kimi, ilk növbədə, bərpa işləri, orada minalardan təmizləmə işləri, ondan sonra infrastruktur, daha sonra yaşayış yerlərinin, iş yerlərinin tikintisi və ondan sonra vətəndaşların oraya qayıtması. Yəni bu bizim gündəliyimizi, əgər belə demək mümkündürsə, zəbt edən əsas məsələdir. Ancaq bununla yanaşı – artıq biz bunu həyatda görürük – Qarabağın və Zəngəzurun mədəni həyatının dirçəldilməsi istiqamətində də önəmli addımlar atılmalıdır. Biz artıq buna başlamışıq. Məsələn, «Xarıbülbül» festivalı, Vaqif Poeziya Günləri bunun gözəl nümunəsidir. Yəni bunlar artıq ənənəsi bərpa olunmuş tədbirlərdir.

Məsələn, bir təklif də var idi və hesab edirəm ki, bu sizin də sözünüzlə uzlaşır – azad edilmiş torpaqlarda rəssamlıq müsabiqələrini keçirmək. Mən hətta Operativ Qərargaha təklif etmişdim ki, bu il yaz-yay aylarında dünyanın müxtəlif yerlərindən gənc rəssamları dəvət edək, onları hava yolu ilə Füzuliyə gətirək. Füzulinin dağıntıları bizim təsviri sənətdə əks olunmalıdır. Çünki bu dağıntılar bir azdan ol-

mayacaq. Düzdür, biz hər bir şəhərdə müəyyən kvartal saxlayacağıq ki, xalqımız erməni vəhşiliyini heç vaxt unutmasın. Amma biz bütün bu mənzərəni görməyəcəyik, çünki dağıntılar aradan götürüləcək. Amma biz bunu indi foto, video sənədlərdə sənədləşdirmişik. Bunu təsviri sənətdə, rəngkarlıqda əks etdirmək, əlbəttə ki, böyük işdir. Yəni xarici ölkələrdən geniş bir qrup gənc rəssam gəlib orada öz gördüklərini özü istədiyi kimi təsvir etsin. Ondan sonra ikinci istiqamət Şuşa. Şuşanın gözəlliklərini biz göstərməliyik. Burada fəaliyyət üçün çox böyük meydan var və xahiş edərdim ki, siz və sizin kimi gənclər öz təkliflərinizi verəsiniz, bunu necə edək?

Tətbiqi sənətin inkişafı ilə bağlı bizim bir neçə layihəmiz vardır. ABAD xətti ilə bir layihə icra edilir. İçərişəhərdə bir layihə icra edilir. Ancaq hesab edirəm ki, bu azdır. Bu daha geniş vüsət almalıdır. Azad edilmiş torpaqların çox zəngin tarixi vardır. Bu torpaqlar 30 il işğal altında olduğu üçün indiki gənc nəsil orada olmayıb. Hətta mən o vaxt Şuşada olmuşam, amma Kəlbəcərdə, Laçında olmamışam, çünki oraya yol olmayıb və yolum da düşməyib. Ona görə biz bu bölgələri, bu yerləri yenidən özümüz üçün kəşf etməliyik. Oranın zəngin tarixi mirasını qorumalıyıq və əlbəttə ki, mədəniyyət, incəsənət sahəsində təşəbbüslərin ortaya qoyulması bizə kömək edəcək. Xahiş edərdim ki, siz özünüz belə bir təkliflər verəsiniz, biz də dövlət, hökumət olaraq, əlbəttə, mədəni sahəyə aid olan bütün bu məsələləri planlı şəkildə aparacağıq.

**A p a r ı c ı:** Təşəkkür edirik. Növbəti sualı olan var? Buyurun.

**D e n i s Q u z l a y e v: Cənab Prezident, mən İkinci Qarabağ müharibəsinin iştirakçısıyam. Siz məni «Füzulinin azad edilməsinə görə» medalı ilə təltif etmisiniz. Cənab Prezident, Sizə ayrıca təşəkkürümü bildirmək istərdim ki, Siz bizim Qarabağı geri qaytarmağımıza imkan yaratdınız. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və 30 il işğal altında olub. Sizi bu yaxınlarda qeyd etdiyiniz 60 illik yubileyiniz münasibətilə gənclərin adından təbrik edirəm. Allah Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik bəxş etsin. Sizə bir sual vermək istərdim. Siz həmişə deyirsiniz ki, gənclər idmanla məşğul olsunlar. Sizin turnikdə necə dartıldığınızı, xizək sürməyinizi də görmüşük. Bizim gənclər bəzən maraqlanır, soruşurlar, Sizin sevdiyiniz idman növü hansıdır?**

**İ l h a m Ə l i y e v:** Sən sağ ol – xidmətə görə, Vətənə sədaqətinə, borcuna sadiqliyinə görə. Dövlət təltifinə layiq görülməyin sənin müharibə zamanı göstərdiyin qəhrəmanlığa dəlalət edir. Səni irəli aparan da məhz Vətən sevgisi olub. İndicə danışdığımız mövzuya qayıdaraq demək istəyirəm ki, bu bir daha bizim cəmiyyətin vəhdətinə dəlalət edir. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bu faciəni, bu ədalətsizliyi öz ağrısı kimi qəbul edir və xidməti borcuna görə, qəlbinin çağırışı ilə ölümə gedir, necə deyərlər, candan keçir, şəhid, qazi olur, ən yüksək keyfiyyətlər nümayiş etdirirlər. Buna görə sən də sağ ol, Vətən uğrunda döyüşmüş bütün şanlı gənclərimiz də sağ olsunlar.

İdman məsələsinə gəldikdə, mən imkan daxilində hamıya, gənclərə isə, əlbəttə, maksimum dərəcədə idmanla məşğul olmağı məsləhət görürəm. Ona görə ki, bu, sağlamlıq üçün, ilk növbədə, cəmiyyət üçün faydalıdır. Məsələn, elə həmin Vətən müharibəsini götürək. Aşağıdan yuxarıya, özü də tam geyinmiş halda, avtomatlarla təchiz olunmuş şəkildə dırmaşmaq və yuxarıdan hər şeyə nəzarət edən düşmənə qalib gəlmək üçün çox böyük, inanılmaz fiziki qüvvə tələb olunurdu. Bundan ötrü ölümə getmək lazım idi. Məsələnin nədən ibarət olduğunu başa düşürsünüzmü? Bundan ötrü çox böyük fədakarlıq və üstəlik, bunu etməyə güc lazım idi. Şuşaya gedən Zəfər yolu ilə dəfələrlə getmişəm. Birinci dəfə yanvar ayında getmişdim. Əhmədbəylidən Şuşaya 4 və ya 5 saata gedib çatdım. Ona görə ki, yol yox idi, palçıq və buz, vəssalam. Maşın gedəndə sürüşürdü. Lakin mən hər dəfə gedəndə – artıq yol çəkiləndən sonra da – həmişə gözlərimin qabağında sizi və bu yol ilə gedənləri görürəm. Fikirləşirəm ki, bəli, mən gedirəm, bu yolu tikmişik, hamı razıdır. Lakin bu yol olmayanda, meşələrdən, dağlardan keçərək, özü də hava artıq sərin olanda bir neçə gün getmək, sonra da Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan atəş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu de-

məkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən. Bəzən mən eyni sözləri tez-tez təkrar edirəm, ona görə yox ki, mən dediklərimi unuduram, xeyr, sadəcə, ona görə ki, bilirəm, məqsədə nail olmaq lazımdır. Mən rayonlarda olanda tez-tez təkrar edirdim ki, hamı tibbi müayinədən keçməlidir. Deyirdim ki, hər bir insan ildə bir dəfə tibbi müayinədən keçməlidir. Mən bunu ona görə deyirdim ki, buna inanırdım, ona görə ki, bunun lazım olduğunu bilirdim. Nəhayət, biz pandemiyaya gəlib çatdıq, o dövrdə biz hər il yüz minlərlə, milyonlarla insanın dispanserizasiya keçməsinə, xəstəxanalarda tibbi müayinədən keçməsinə nail olduq. Deməli, dediklərimin təsiri olub, insanlar başa düşüblər ki, bu lazımdır. Mənə hər il statistika veriblər: nə qədər xəstəlik aşkar edilib, neçə xəstəlik aşkar edilib, neçə adam həmin xəstəliklərdən rayonlarda müalicə olunub, neçə adam Bakıya gətirilib və neçə insan xilas edilib. Amma onlar buna riayət etməsəydilər, Allah bilir nələr olardı. Eyni sözlər idmana da aiddir, inanın mənə. Mən turnikdə bu hərəkətləri öyünmək üçün göstərmirdim, bu mənə lazım deyil. Mən ondan ötrü göstərirdim ki, gənclər bilsinlər, 60 yaşında da bunu etmək olar. Əgər 60 yaşında 15 dəfə dartılmaq olarsa, 20 yaşda, 30 yaşda bunu hökmən etmək lazımdır. Buna çalışmaq lazımdır. Bu, təkcə fiziki sağlamlıq deyil, bu həm də özünəinamdır, iş qabiliyyətidir, mənəvi vəziyyətdir, sən özünə əminsən, təbii ki, onda sən daha cəsarətlə hərəkət edirsən. Müharibədən əvvəl bizim özümüzə inamımız yox idi, hərçənd onun nə ilə başa çatacağını kim bilirdi?

Desəm ki, biz hamımız bunu qabaqcadan bilirdik, düz olmayacaq. Kimin müdaxilə edəcəyini, kimin müdaxilə etməyəcəyini, necə müdaxilə edəcəyini, nələr baş verəcəyini kim bilirdi? Kimsə bunu bilə bilərdimi? Yox. Mən də bilə bilməzdim. Düzdür, mən bütün amilləri təhlil etmişdim, amma yenə də zəmanət yox idi. Yəni özünəinam təkcə mənəvi ruh yüksəkliyi deyil, həm də fiziki vəziyyətdir. Buna görə, əziz dostlar, əziz gənclər, məsləhət görürəm ki, idmanla məşğul olun, fiziki sağlamlığınızı qoruyun, gücləndirin. Bu mümkündür. Məşq etmək lazımdır və hədəfə çatmaq üçün, necə deyərlər, tər tökmək lazımdır. Bunsuz həyatda heç nə alınmır.

Sevimli idman növü məsələsinə gəldikdə isə deməliyəm, yəqin dəniz sahilində böyümüş insan üçün təbii ki, bu üzgüçülükdür. Mən şadam ki, indi Azərbaycanın, demək olar, hər bir şəhərində üzgüçülük hovuzu var. Fikrimcə, bu həm sağlamlıq üçün, həm də mənəvi vəziyyət üçün ən yaxşı idman növüdür. O, travmatik deyil və xoşagələndir. Buna görə mən dənizi sevirəm, hovuzda üzməyi xoşlamıram, bu darıxdırıcıdır. Amma hava yaxşı olanda, vaxtım olanda dənizdə üzməyi xoşlayıram, sizə də bunu məsləhət görürəm.

**Azelma Ağakişiyeva** (*tələbə*): **Cənab Prezident, mən Bakı Ali Neft Məktəbinin İnformasiya təhlükəsizliyi fakültəsində ikinci kursda oxuyuram və İnformasiya Olimpiadası üzrə respublika birincisi olmuşam. İKT-nin əsas vəzifələrindən biri də ekoloji sistemin qorunmasıdır. Ekoloji problemlər bir çoxları kimi, məni də çox narahat edir. Mən bilmək istərdim**

**ki, ermənilərin ziyan vurduğu azad olunmuş torpaqlardakı ekologiya və ətraf mühiti qorumaq, bərpa etmək üçün hansı tədbirlər görülür?**

**İlham Əliyev:** Ermənilər bizə çox böyük ziyan vurublar, bizim ekoloji vəziyyətimiz çox acınacaqlıdır. Əlbəttə, görüləsi işlər çoxdur, ancaq bizdə olan təcrübə deməyə əsas verir ki, biz bu işin öhdəsindən gələcəyik. Çünki Azərbaycanda, ümumiyyətlə, azad edilmiş torpaqları nəzərə almasaq, ən çətin vəziyyət Bakıda, Sumqayıtda və Abşeron yarımadasında idi. Bu da neft-qaz hasilatı ilə və Sumqayıtdakı kimya sənaye müəssisələri ilə bağlı idi. Biz çox böyük işlər gördük və illər keçdikcə, əlbəttə, unudulur və bəzilərinə elə gəlir ki, həmişə belə olub. Amma mən bu işin təşkilatçısı kimi, hər bir layihəni yaxşı xatırlayıram. Bakının ekoloji vəziyyəti çox ağır idi, havanın çirklənməsi çox yüksək idi. 20 il bundan əvvəl və bu gün böyük fərq vardır. Görün Bakıda biz hansı böyük işlərə, onların icrasına nail olmuşuq. Birinci, Bibiheybət buxtası. Bu bir ekoloji fəlakət zonası idi. Şəhərin mərkəzində bütün neft gölməçələri artıq buxarlanırdı. Bu zəhərli hava ekoloji vəziyyətimizə böyük ziyan vururdu və o mənzərə çox acınacaqlı idi. Hətta Ceyms Bond haqqında filmlərin biri də burada çəkilmişdi. O filmdə həmin o Bibiheybət buxtası göstərilir. Həqiqətən, ekoloji fəlakət zonası idi. Amma mən bu məsələni qaldıranda bəziləri deyirdilər ki, bu, mümkün deyil, bu, əbədi belə qalmalıdır, bunu saflaşdırmaq mümkün deyil. Amma göründü ki, mümkündür. Bu gün baxın, bu, şəhərin ən gözəl yerlərindən biridir, istirahət

zonasıdır, böyük parkdır. Bulvar salmışıq, Su İdman sarayı, muzeylər, ictimai obyektlər şəhər sakinləri üçün çox gözəl rekreasiya zonasına çevrilibdir. Ondan sonra «Ağ şəhər». İndi «Qara şəhər» nədir bəlkə də gənclər heç bilmir. Yəni sizdən sonrakı nəsil, ümumiyyətlə, bilməyəcək ki, Bakıda «Qara şəhər» adlı bir yer olub. Amma bunun adı «Qara şəhər» olub. Nəyə görə? Bu tüstüyə görə, mazuta görə. Biz o «Qara şəhər»i «Ağ şəhər»ə çevirməyə başlayanda da bir çoxları şübhə ilə yanaşırdılar ki, bu, mümkün deyil. Amma baxın, şəhərin bu tərəfində və o tərəfdə – iki yerdə şəhəri əhatə edən iki fəlakət zonası var idi. Biz o neft çöküntülərini oradan götürməyə başlayanda gördük ki, minimum bir metr dərinliyində neft çöküntüləri vardır. Onlar hamısı utilizasiya edildi, çıxarıldı və bu gün şəhərsalma nöqteyi-nəzərindən bəlkə də dünya miqyasında ən uğurlu layihələrdən biri «Ağ şəhər»dir. O çirklənmiş yerlərdən əsər-əlamət qalmayıb və keçən ilin son günlərində Nizami parkını da yenidən bərpa etdik və açdıq.

Üçüncü çox təhlükəli yer Balaxanı zibilxanası idi. Yəqin ki, sizin yadınızda deyil. Amma o zibilxana daim yanırdı, altdan tüstü çıxırdı və şəhəri böyük bir bulud bürüyürdü. Oradan keçəndə artıq bu, hiss olunurdu. Biz oranı da təmizlədik, böyük Zibilyandırma zavodu tikildi, poliqon tikildi. Ondan sonra orada Olimpiya stadionu inşa edildi, böyük bir park salındı. Onun böyründə Böyükşor gölü, hansı ki, İkinci dünya müharibəsi zamanı ondan açıq neft rezervuarı kimi istifadə edilirdi və oraya müxtəlif

yerlərdən, həm neft laylarındakı sular, həm də kanalizasiya suları yığılırdı. Onun böyük hissəsi təmizləndi. Yəni belə hallar çox olub. Məsələn, Bakıda Yod-Brom zavodu var idi – indi bəlkə də bir çoxları heç bilmir – nə dərəcədə zərərli bir müəssisə idi. Yəni Bakı şəhəri faktiki olaraq, təbii fəlakət zonası idi və bu, insanların sağlamlığına təsir göstərirdi. Ümumiyyətlə, havanın tərkibində çoxlu zərərli maddələr var idi. Yəni bunları biz bacarmışıq və bu proses davam edir. Hələ ki, təmizlənməyə ehtiyacı olan yerlər çoxdur.

Sovet vaxtında Sumqayıt şəhəri ekoloji cəhətdən ən çirklənmiş şəhər hesab olunurdu. Doğrudan da o vaxt Sumqayıtdan o tərəfə, şimal istiqamətinə gedən maşında oturanlar bu zəhərli iydən şüşələri bağlayırdılar. İndi Sumqayıt öz sənaye potensialını qoruyub, amma artıq ekoloji cəhətdən çox təmiz şəhərdir. Hətta deyərdim ki, Bakıdan da təmiz şəhərdir. Baxmayaraq ki, Sumqayıtda elə sənaye müəssisələri, texnoparklar və digər obyektlər yaradılıb ki, Sumqayıt bu gün də Cənubi Qafqazın Bakıdan sonra ikinci ən böyük sənaye şəhəridir. Demək istəyirəm ki, bu mümkündür.

O ki qaldı azad edilmiş torpaqlara, orada fəsadlar çox böyükdür və ermənilər şüurlu şəkildə bizim təbiətimizə də qəsd ediblər. Tərtər çayının suyunun kəsilməsi öz yerində, bununla paralel olaraq, digər transsərhəd çaylarını da çirkləndiriblər. Zəngəzurda yerləşən mis-molibden kombinatları öz axıntılarını düz Oxçuçaya, Bəsitçaya, Araz çayına tökərək, ekoloji fəlakət törədiblər. Əfsuslar olsun ki, onlarla

həmrəy olan, əlbir olan bəzi aparıcı Avropa şirkətləri də bu cinayəti törədiblər. Biz indi hüquqi prosedurlara başlamışıq. Qanunsuz istismar edilən bizim qızıl yataqlarımız təkcə sərvətimizin talanması deyil, o hasilatın nəticəsində yaranmış ziyanlı, zəhərli maddələrin düzgün utilizasiya olunmaması, hasilat üçün istifadə edilən reagentlər, o zəhərlər hamısı bizim təbiətimizə böyük ziyan vurubdur. Oxçuçayın o görüntüləri var, sapsarıdır. Kim bunu edib? Ermənilər! Bizim meşə fondumuz məhv edilib. Statistika var. 1988-ci ilin statistikasına görə, azad etdiyimiz ərazilərdə meşə fondu 230 min hektar idi, 230 min hektar! Müharibədən sonra mən tapşırıq verdim, bizim peykimiz «Azersky» – onlar görüntüləri mənə təqdim etdilər. Artıq o görüntülərdən görünür ki, 55 min hektar meşə fondu ermənilər tərəfindən qırılıb, yəni kəsilib, satılıb. Bu, böyük cinayətdir. İndi bu prosesləri biz artıq sürətləndiririk. Topxana meşəsini, onun böyük hissəsini qırıblar. Bəsitçay Təbii Qoruğu hansı ki, öz əhəmiyyətinə görə Avropada ikincidir. Biz bu bərpa işlərinə start vermişik. Bizim təbii sərvətlərimizi qanunsuz istismar edən xarici şirkətlərə qarşı hüquqi prosedurlara start vermişik. Onların bir çoxu əslən ermənilərdir. Onlara qarşı artıq vəkillər də tutulub və indi görəcəklər onları nələr gözləyir. Biz onların yaxasını buraxmayacağıq. Əlbəttə, bununla paralel olaraq, çox genişmiqyaslı ekoloji bərpa tədbirləri də görülür və görüləcək. Bilirəm ki, Azərbaycanda bu sahədə də gənclər, o cümlədən könüllülər çox fəaldırlar. İndi vaxtaşırı ağacəkmə aksiyaları, çimərlikləri o tullantılardan

təmizləmə aksiyaları televiziyada da göstərilir. Mən bunları alqışlayıram və əminəm ki, azad edilmiş torpaqlarda da gənclər ekoloji tarazlığı bərpa etmək üçün fəal olacaqlar.

**A p a r ı c ı:** Təşəkkür edirik. Buyurun, siz sualınızı səsləndirin.

**Ü l v i  O s m a n l ı: Mən İsmayıllı rayon Elbrus Həsənov adına Mücühəftəran kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, həmçinin karate üzrə Avropa çempionuyam. İlk öncə belə bir canlı mükalimə üçün Sizə təşəkkürümü bildirirəm. Bildiyimiz kimi, hazırda ölkəmizdə gənclik üçün fiziki və mənəvi cəhətdən sağlam bir mühit formalaşıb. Bir gənc müəllim və gənc idmançı kimi, bu fiziki və sağlam mühitin qorunması həmişə mənim diqqət mərkəzimdə olub. Bundan sonra gənclərin pis vərdişlərdən, narkotik vasitələrdən qorunması, ölkədə ictimaiyyətə açıq idman infrastrukturlarının yaradılması üçün hansı planlarınız, tədbirləriniz var? Zəhmət olmasa, bu barədə fikirlərinizi bilmək maraqlı olardı. Çox sağ olun.**

**İ l h a m  Ə l i y e v:** Ölkəmizdə idman qurğularının yaradılması geniş vüsət alıb və hələ mən Prezident olmadığım dövrdə bu təşəbbüsü irəli sürmüşdüm. O gündən bu günə qədər 50-dən çox şəhərdə müasir qurğular inşa edilib və demək olar ki, hər bir rayonda idmanla məşğul olmaq üçün şərait vardır. İndi bir neçə Olimpiya İdman Kompleksi inşa edilir, yaxın bir-iki ilə onlar da tamamlanacaqdır.

Eyni zamanda, bölgələrdə yaşayan gəncləri idmana cəlb etmək üçün daha fəal olmalıyıq. Çünki

idman həm ölkənin şöhrətini ucaldır, eyni zamanda, mənim üçün bu daha çox kütləvi məna daşıyır. Çünki idmanın kütləviliyi daha çox vacibdir. İdmanın kütləviliyi sağlam nəslin yetişməsi deməkdir. Bunun üçün açıq idman meydançalarının yaradılması da çox böyük əhəmiyyətə malikdir. Xüsusilə son vaxtlar biz görürük ki, indi idman avadanlıqları istehsal edən firmalar çox belə müasir avadanlıqlar təqdim edirlər. Hətta Bakıda, Bakının bütün yeni parklarında mənim göstərişimlə açıq idman meydançaları yaradılıb. Yaxşı olar ki, kənd yerlərində də bunlar yaradılsın, həm hazırlıq, həm də sağlamlıq üçün. Çünki hər bir gənc idman bölmələrinə gedə bilmir. Ancaq fiziki sağlamlığını gücləndirmək üçün, bədən tərbiyəsi ilə məşğul olmaq üçün bu çox vacibdir. Bu, istər-istəməz pis vərdişlərdən də çəkindirəcək. Əgər insan idmanla ciddi məşğul olursa, o, siqaret çəkməyəcək. Çünki siqaret çəkən idmançı idmanda uğur qazana bilməz, onun nəfəsinə, ağciyər imkanlarına təsir göstərir. Alkoqollu içkilər də, həmçinin. Gənclər bundan uzaq olmalıdırlar, buna ehtiyac yoxdur. Narkotik vasitələr insanı uçuruma aparır, özünü də, ailəsini də, yaxınlarını da bədbəxt edir, bir dərd olur. Ona görə bu zəhər, ümumiyyətlə, təmizlənməlidir. Yaxşı olar ki, siqaret də çəkməsinlər, alkoqollu içkilər də içməsinlər. Çünki buna ehtiyac yoxdur. Təmiz hava udmaq əvəzinə, insanlar öz içinə zəhər salırlar. Nəyə lazımdır? Yaxşı əhval-ruhiyyədə olmaq üçün idman çox yaxşı vasitədir. İdmanın kütləviliyini təmin etmək üçün hesab edirəm ki, yeni proqram tərtib edilməlidir və yeni yarışlar təşkil oluna

bilər. O yarışlar ki, bütün ölkəni əhatə edir. Hesab edirəm ki, Gənclər və İdman Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə bu məsələ ilə məşğul olacaqdır.

**A p a r ı c ı:** Cənab Prezident, gənclərin suallarını cavablandırdığınız üçün təşəkkür edirik. Cənab Prezident hər zaman gənclərlə belə görüşləri təşkil edir. Bir daha çox sağ olun, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Mən təşəkkür edirəm, Gənclər Günü münasibətilə sizi bir daha təbrik edirəm.

* * *

*Sonra 2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı oxundu.*

*Prezident İlham Əliyev təltif olunmuş gənclərə mükafatları təqdim etdi.*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VOLODİMİR ZELENSKİYƏ**

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Ukrayna arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi səmimiyyətlə təbrik edir, dost Ukrayna xalqına ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Diplomatik əlaqələrimiz otuzillik tarixə malik olsa da, xalqlarımızın əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələri mövcuddur. Məhz bu möhkəm təməllər üzərində qurulmuş münasibətlərimizin hazırkı səviyyəsi və gündən-günə genişlənməsi xüsusi məmnunluq doğurur.

Sevindirici haldır ki, bu illər ərzində qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz daha da inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, siyasi, iqtisadi, enerji və humanitar sahələrdə əməkdaşlığımızın əhatə dairəsi genişlənmişdir. Bu gün apardığımız yüksək səviyyəli siyasi dialoq, çoxsaylı qarşılıqlı səfərlər, imzalanmış sənədlər, həyata keçirilən birgə layihələr, o cümlədən hökumətlərarası birgə Komissiyanın uğurlu fəaliyyəti əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayır.

Əminəm ki, birgə səylərimizlə Azərbaycan–Ukrayna əlaqələrinin bundan sonra da möhkəmləndirilməsinə və genişlənməsinə nail olacağıq.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, dost Ukrayna xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 fevral 2022-ci il*

## «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISINDA İŞTİRAK EDƏN AVROPA İTTİFAQININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI KADRİ SİMSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakıda keçirilmiş «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirakına və dəyərli çıxışına görə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simsona təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığa dair birgə bəyanatın imzalanmasından 10 ildən artıq müddətin keçdiyini qeyd etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə həyata keçirilən əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu və bunun «Cənub Qaz Dəhlizi»*

*çərçivəsində də davam etdirildiyini bildirdi. Bu layihənin birgə əməkdaşlıq və əlaqələndirmə şəraitində uğurla başa çatdırıldığını söylədi.*

*Dövlət başçısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrin ikitərəfli və çoxtərəfli əsasda enerji sahəsində əməkdaşlıq üzrə yeni ideya və planların müzakirəsi baxımından əhəmiyyətini vurğuladı.*

*Bu toplantının «Cənub Qaz Dəhlizi» xətti ilə qazın Avropa İttifaqına çatdırılmasından bir il sonrakı dövrə, həm Avropa İttifaqı, həm də Azərbaycanın yeni «yaşıl enerji» strategiyasına keçidi mərhələsinə və hazırda dünya qaz bazarında baş verən qiymət dəyişmələri və digər tendensiyalar şəraitinə təsadüf etdiyini bildirən Prezident İlham Əliyev bu baxımdan tədbirdə aparılan müzakirələrin önəmini qeyd etdi.*

*Dövlət başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqların uğurla aparıldığını bildirdi və bu danışıqların da tezliklə başa çatdırılacağına ümidvar olduğunu ifadə etdi.*

*Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısının keçirilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.«Cənub Qaz Dəhlizi»nin Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında rolunu qeyd edən Kadri Simson Avropa İttifaqının enerji təminatının şaxələndirilməsinə böyük əhəmiyyət verdiyini dedi və bu xüsusda «Cənub Qaz Dəhlizi»nin önəmini vurğuladı.*

*Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji, o cümlədən «yaşıl enerji» sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlət başçısı qeyd etdi ki, Azərbaycan alternativ və bərpa olunan enerji konsepsiyasını inkişaf etdirir və ölkəmizdə bu sahə xarici sərmayədarları cəlb edir.*

## «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISINDA İŞTİRAK

*4 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakıda «Gülüstan» sarayında keçirilmiş «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak etmişdir.*

*XXI əsrin ən böyük layihələrindən biri olan «Cənub Qaz Dəhlizi» dörd seqmentdən – «Şahdəniz Mərhələ-2», «Cənubi Qafqaz», TANAP və TAP qaz boru kəmərlərindən ibarətdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir. Bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir.*

*Ötən il toplantı pandemiya səbəbindən videokonfrans formatında keçirilsə də, bu dəfə müvafiq şərtlərə əməl etməklə, Avropa İttifaqının komissarları, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksək səviyyəli nümayəndələri Bakıda bir araya gəldilər.*

**Pərviz Şahbazov** (*Azərbaycanın Energetika naziri*): Zati-aliləri cənab Prezident!

Hörmətli komissarlar!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında sizi salamlamaqdan məmnunluq hissi keçirirəm. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin giriş nitqi ilə çıxış etmək üçün bizimlə bir arada olması bizim üçün böyük şərəfdir. Cənab Prezident, söz Sizindir.

*Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Sabahınız xeyir, əziz dostlar!

Hörmətli komissar Simson!

Hörmətli komissar Varhelyi!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hamınızı Azərbaycanda salamlamaq istəyirəm və bizi ziyarət etdiyiniz üçün sizə təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, keçən il iclasımız videokonfrans vasitəsilə olmuşdu. Lakin pandemiya ilə bağlı bəzi narahatlıqlara baxmayaraq, çox şadam ki, siz iclasda şəxsən iştirak etmək qərarını verdiniz. Eyni zamanda, təəssüf hissi ilə demək istəyirəm ki, iclasın bəzi iştirakçılarının koronavirusa yoluxması aşkar olunub və buna görə də onlar bu gün fiziki olaraq burada iştirak edə bilmirlər. Mən onlara möhkəm cansağlığı, tezliklə sağalmalarını arzu-

layıram. Əminəm ki, Azərbaycan həkimləri onların mümkün olduğu qədər tez normal həyata qayıtması üçün hər şey edəcəklər.

Qeyd etdiyim kimi, keçən il iclas videokonfrans formatında keçirildi. Bu gün biz qarşılıqlı əlaqəmizin ənənəvi formatını bərpa edirik. Əlbəttə ki, belə format təkcə önümüzdə olan əhəmiyyətli məsələləri həll etmək üçün yox, eyni zamanda, ikitərəfli və çoxtərəfli təmaslar qurmaq üçün daha yaxşı imkanlar yaradır. Hər ilin fevral ayında biz ənənəvi olaraq əvvəlki ildə görülmüş işləri nəzərdən keçiririk və gələcək addımlarımızı planlaşdırırıq.

Qeyd etmək istəyirəm ki, Məşvərət Şurasının hər bir iclasında müəyyən nailiyyətlər əldə edilmişdir. Hər il biz müəyyən yeni nailiyyətlər haqqında məlumat verirdik. Biz çox şadıq və özümüzü təbrik edə bilərik ki, bu dəfə biz «Cənub Qaz Dəhlizi»nin uğurla tamamlanması haqqında məlumat verə bilərik. Biz çox şadıq ki, 2020-ci ilin sonuncu günü – dekabrın 31-də – yeri gəlmişkən, bu, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür – azərbaycanlılar üçün mühüm olan bu gündə biz «Cənub Qaz Dəhlizi»nin sonuncu hissəsi olan TAP layihəsinin tamamlanması haqqında məlumat verdik. Əlbəttə ki, mən layihədə iştirak edən bütün tərəflərə minnətdarlığımı bildirmək istəyirəm, ilk növbədə, Avropa Komissiyasına. Avropa Komissiyası və Azərbaycan həmtəşkilatçı olaraq və bütün ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutlarının Məşvərət Şurasının iclasında səylərinin koordinatorları olaraq il ərzində bu layihənin həyata keçirilməsində

çox mühüm rol oynamışdır. Bu gün iki komissarın burada olması faktı buna dəlalət edir. Həmçinin mən regionda enerji təhlükəsizliyi layihələrinə dəstək verdiyi üçün Prezident Şarl Mişelə minnətdarlığımı bildirmək istəyirəm və minnətdarlığımı ona çatdırmağınızı xahiş edirəm. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində şəxsən iştirak etdiyinə görə də ona minnətdarlığımı bildirirəm. Həmçinin «Cənub Qaz Dəhlizi» layihəsinin iştirakçıları olan ölkələrin hökumətlərinə də təşəkkürümü bildirmək istəyirəm – Türkiyəyə, Gürcüstana, Yunanıstana, Bolqarıstana, Albaniyaya və İtaliyaya. Biz həqiqətən də bir komanda olaraq çalışdıq.

Hesab edirəm ki, milli səviyyədə koordinasiya bizə bu nəhəng layihəni – XXI əsrin ən böyük layihələrindən biri olan «Cənub Qaz Dəhlizi»ni icra etməyə kömək etdi. Onun dəyəri 33 milyard ABŞ dollarıdır. Eyni zamanda, əlbəttə ki, biz enerji şirkətlərinin, tikinti şirkətlərinin, investorların fəal iştirakı olmadan uğur qazana bilməzdik. Bu gün onlar buradadırlar. Əlbəttə, onların, eləcə də beynəlxalq maliyyə institutlarının töhfəsi çox dəyərli idi. «Cənub Qaz Dəhlizi» layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları öz töhfəsini verib – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti

ayırdı. İndi biz bütün nöqteyi-nəzərlərdən mürəkkəb olan bu layihənın yüksək səmərəliliklə tamamlanmasına görə həqiqətən də fərəhlənə bilərik.

Əlbəttə, biz gələcəyə baxmalıyıq və mən əminəm ki, bugünkü iclasda iştirakçılar ənənəvi əməkdaşlıq sahələrini, gələcək planlarımızı müzakirə edəcəklər. Çünki hamımızın bildiyi kimi, əlavə qaz mənbəyinə tələbat artmaqdadır. Eyni zamanda, bərpa olunan enerji mənbələri ilə bağlı məsələlər də müzakirə olunacaq. Azərbaycan öz «yaşıl enerji» siyasətinə uyğun çox işlər görür. Dediyim kimi, yeni mənbələrdən qaz üçün tələbat artır. «Cənub Qaz Dəhlizi» layihəsinin tamamlanmasından sonra Azərbaycan beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixracı artıra bilib. Keçən il Azərbaycan 19 milyard kubmetr təbii qaz ixrac edib – Türkiyəyə 8,5 milyard, İtaliyaya, demək olar ki, 7 milyard kubmetr. Yerdə qalan həcm komandanın başqa üzv ölkələrinə – Gürcüstana, Yunanıstana və Bolqarıstana ixrac olunub. Əminəm ki, komandamızın üzvü olan Albaniya da öz qazpaylayıcı şəbəkəsini tamamlayan kimi, Azərbaycan qazını əldə edəcək.

Həmçinin o faktı vurğulaya bilərik ki, bugünkü iclasda keçən illə müqayisədə daha çox sayda ölkə və şirkətlər iştirak edir. Yeni iştirakçılarımız var və bu da onu göstərir ki, yeni bazarlarda Azərbaycan qazına ehtiyac vardır. Biz hazırıq, çünki Azərbaycan həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olubdur.

Biz neft ixracatına 2006-cı ildən başlamışıq, artıq uzun illərdir. Təchizatda heç bir fasilə olmamış-

dır, müqavilə şərtləri pozulmamışdır, enerji siyasəti arxasında heç bir siyasi gündəm yoxdur. Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıbdır. İndi isə mən qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlara baxanda görürəm ki, bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15–20 faizini Azərbaycandan alır və bu göstəricilər artır. Biz hasilatı artırmağı planlaşdırırıq. Bu il biz keçən illə müqayisədə daha çox ixrac edəcəyik – böyük potensial var, xüsusilə indi, qaz bazarındakı vəziyyətin sabit olmamasını nəzərə alaraq. Həmçinin qiymətlər də çox dəyişkəndir.

Hesab edirəm ki, yeni nəticələrin necə əldə olunması üçün biz gələcəyimizi koordinasiya və xoşməramlı şəkildə birlikdə planlaşdırmalıyıq. Azərbaycanın isbat edilmiş qaz ehtiyatı məlumdur – 2,6 trilyon kubmetr. Ən böyük yataq «Şahdəniz»dir – 1 trilyon kubmetr. Əminəm ki, daha çox olacaq. Çünki neft və qaz yataqlarının işlənilməsi ilə bağlı təcrübəmizə baxsanız görərsiniz ki, biz həmişə yolumuzun əvvəlində gözlənildiyindən daha böyük həcmdə ehtiyatları görürük. Bunlar yeni yataqların kəşfi və yeni texnologiyalar sayəsində mümkün olubdur. Bu gün bu sahədə texnologiyalar sürətlə inkişaf edir. Buna görə də mən əminəm ki, Azərbaycanın isbat edilmiş qaz ehtiyatları daha da çox olacaqdır. Dediyim kimi, «Şahdəniz» Azərbaycanda əsas qaz yatağıdır və bu vaxtadək «Cənub Qaz Dəhlizi»nə töhfə verən yeganə yataqdır. Lakin digər layihələr

üzərində də iş gedir. Ümid edirik ki, ən böyük qaz kondensatı yataqlarından biri olan «Abşeron»da tezliklə hasilata başlanılacaq. Ola bilsin, bir ildən də az müddətdə. İş mərhələlərlə aparılacaq. «Abşeron»da birinci mərhələdə 1,5 milyard kubmetr qaz hasil olunacaq. Bu, böyük bir həcm deyil. Lakin düşünürəm ki, bəzi ölkələr üçün əhəmiyyətli göstəricidir. Bu bizim də artan tələbatımızı qarşılaya bilər və həmçinin ixrac imkanlarını da təmin edə bilər.

Yaxşı nəticə verəcəyinə ümid bəslədiyimiz digər böyük bir yataq «Babək»dir. Onun təxmin olunan qaz ehtiyatı 400 milyard kubmetrdir. «Ümid» yatağının qaz ehtiyatı ən azından 200 milyard kubmetrdir. Əlbəttə ki, bizim çoxdan istismarda olan neft-qaz yataqlarımızdan – «Azəri», «Çıraq», «Günəşli»dən böyük gözləntilərimiz var. Onun tezliklə istismara veriləcəyinə ümid etdiyim dərin qaz hissəsində yüz milyardlarla kubmetr qaz olacaq və düşünürəm ki, qısa zamanda hasil edilə biləcək. Beləliklə, bu bizim bugünkü potensialımızdır. Bizi 4 ölkə, 4 qonşumuzla birləşdirən şaxələndirilmiş qaz nəqli şəbəkəsinə malik olmaqla, əsas ixrac marşrutu – «Cənub Qaz Dəhlizi» tamamlanandan sonra, düşünürəm ki, bizim planlarımız həyata keçiriləcək. Lakin, əlbəttə ki, biz bu komanda işini davam etdirməliyik. «Cənub Qaz Dəhlizi» layihəsi başa çatıb, bizim işimiz isə davam edir. Əminəm ki, biz yeni nəticələr əldə edəcəyik.

Həmçinin demək istərdim ki, ilk növbədə, əhalinin sayının artması ilə əlaqədar bizim daxili tələbatımız da artır. Azərbaycanın demoqrafik vəziy-

yəti çox müsbətdir. Eyni zamanda, sənaye artır. Ötən il bizdə qeyri-enerji əsaslı sənayedə rekord artım göstəricisi qeydə alınıb. Sənayemizin bu sektoru, demək olar ki, 20 faiz artıb. Əlbəttə, bizim öz tələbatımızı qarşılamaq üçün daha çox qaza ehtiyacımız vardır. Həmçinin ümidvaram ki, 2020-ci ildə Vətən müharibəsi ərzində işğaldan azad edilmiş ərazilərimizi qazlaşdırmaq üçün çox tezliklə bizim əlavə həcmdə qaza ehtiyacımız olacaq. Bu tamamilə dağıdılmış böyük bir ərazidir. Bütün infrastruktur dağıdılıb. Bu ərazi 10 min kvadratkilometrdən çoxdur. Siz bizim qarşımızda necə çağırış olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Biz artıq bu ildən etibarən keçmiş qaçqınlarımızı geri qaytarmağı planlaşdırırıq. Ona görə də bizim öz istehlakımız üçün əlavə qaza ehtiyacımız olacaq. Burada biz bərpa olunan enerji mənbələri ilə bağlı diqqətimizi cəmləşdirdiyimiz çox mühüm bir məqama gəlirik. Yeri gəlmişkən, Azərbaycan dünyanın xam neft, təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisi ixrac edən az sayda ölkələrindən biridir. Azərbaycanın elektrik enerjisi potensialı əsasən daxili istehlaka hesablanıb. Biz elektrik enerjisi infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq və deyə bilərəm ki, Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, enerjiyə əlçatanlıq reytinqində biz dünyada ikinci yerdəyik. Beləliklə, biz böyük həcmdə vəsait yatırmışıq və elektrik enerjisi xətlərini, demək olar ki, tamamilə müasirləşdirmişik, yeni elektrik stansiyaları tikmişik. Misal üçün, tezliklə biz Qobu qəsəbəsində,

deməli olar ki, 400 meqavat gücündə yeni elektrik stansiyasının açılışını edəcəyik. Ötən ay bu zalda biz tamamilə əcnəbi investor, enerji bazarında tanınmış, Səudiyyə Ərəbistanının «ACWA Power» şirkəti tərəfindən maliyyələşdiriləcək ilk böyük bərpa olunan enerji mənbəyi layihəsinin – 240 meqavat gücündə külək elektrik stansiyasının təməlqoyma mərasimini qeyd etdik.

Mən həmçinin demək istərdim ki, bizim elektrik enerjimizə regional bazarda da ehtiyac var, bəlkə də biz daha uzağa, Avropaya qədər gedə bilərik. Çünki bu gün biz dörd qonşu ölkəyə – Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edirik. Həcm artır. Bizim Azərbaycanda bərpa olunan enerji mənbəyimiz nə qədər çox olsa, biz ixrac üçün daha çox qaza qənaət edəcəyik. Məsələn, mənim indicə qeyd etdiyim elektrik stansiyası – külək elektrik stansiyası ilə biz 200 və ya 300 milyon kubmetr qaza qənaət edəcəyik. Bu, yaxşı göstəricidir və istehlakı böyük olmayan ölkələr üçün ciddi dəyişiklik ola bilər. Beləliklə, bizim «yaşıl enerji» strategiyamız hazırda təkcə qiymətləndirilmə deyil, həm də planlamanın yekun mərhələsindədir.

Bizim işğaldan azad edilmiş ərazilər üçün xüsusi proqramımız vardır. Energetika Nazirliyimiz aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda «yaşıl enerji» zonası üçün konseptual proqnoz hazırlayıb. Biz artıq Qarabağ və Şərqi Zəngəzurda bərpa olunan mənbələrin potensialının beynəlxalq qiymətləndirilməsini aparmışıq və ilkin rəqəmlər çox ümidvericidir. Külək enerji-

sində potensial təxminən 7200 meqavat, Günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. Yeri gəlmişkən, sizi məlumatlandırmaq istərdim ki, bizim neft-qaz sahəsində strateji tərəfdaşımız olan *bp* işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda işləməyə böyük maraq göstərir. Biz artıq orada 200 meqavatdan çox gücə malik bərpa olunan enerji mənbəyinin tikintisi ilə bağlı *bp* ilə danışıqlar mərhələsindəyik.

Mən həmçinin demək istərdim ki, hazırda bizim Energetika Nazirliyi bərpa olunan enerjiyə investisiyaların yatırılması ilə bağlı aparıcı beynəlxalq enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir. Bizdə bununla bağlı böyük ruh yüksəkliyi vardır. Düşünürəm ki, bu, Azərbaycanda «yaşıl enerji»nin inkişafına dair bizim daxili strategiyamızın bir hissəsi olmaqla yanaşı, ixracdan əldə olunan gəlirlər üçün əlavə mənbə ola bilər və enerji mənbələrini idxal edən ölkələr üçün də faydalı olacaqdır. Bizim həmçinin Xəzər dənizinin qiymətləndirilməsinə dair xüsusi proqramımız vardır. İlkin rəqəmlər göstərir ki, Xəzər dənizinin texniki potensialı 150 min meqavatdan çoxdur. Artıq biz bu potensialın inkişafı ilə bağlı aparıcı beynəlxalq enerji şirkətlərindən müəyyən ilkin təkliflər almışıq. Düşünürəm ki, bu çox təbii olacaqdır. Çünki Azərbaycan artıq uzun illərdir özünü etibarlı enerji mənbəyi kimi sübut edibdir.

Qeyd etdiyim kimi, biz hər növ enerji mənbələri ixrac edirik. Biz ölkə daxilində olan və bizi bütün qonşularımızla birləşdirən elektrik xətlərini şaxələndirmişik. Bizim yaxınlığımızda ixrac bazarları,

özü də artan ixrac bazarları vardır. Məsələn, iqtisadiyyatı artan, əhalisi artan Türkiyə kimi ölkə, düşünürəm ki, bizim üçün əsas bazardır, həmçinin əhalisi eynilə artan İran. Mən Qara dənizin dibi ilə Mərkəzi Avropanı bizim regionumuzla birləşdirən elektrik xətlərinin çəkilməsi ilə bağlı müəyyən planlardan xəbərdaram. Azərbaycan Gürcüstanın elektrik enerjisi təchizatçısı olaraq, burada iştirak edə bilər. Bizim burada həqiqətən də böyük potensialımız vardır.

Biz çox fəal işləyirik, üzərimizə düşəni edirik. Eyni zamanda, şadam ki, Avropa Komissiyası ilə bizim Energetika Nazirliyimiz arasında buna həsr olunmuş xüsusi sessiya keçirilməsi üçün razılıq əldə olunub. Bunu həqiqətən də təqdir etməyə dəyər. Başqa sözlə, «Cənub Qaz Dəhlizi» tamamlanıb, lakin bizim işimiz davam edir. Biz bir komanda kimi işləməyə davam etməliyik.

Mən bir daha məmnunluğumu ifadə etmək istərdim ki, bu dəfə daha çox iştirakçımız vardır. Enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi ilə bağlı məsələlərin nə dərəcədə mühüm olduğunu sübut etməyə ehtiyac yoxdur. Biz hamımız bunu başa düşürük. Əlbəttə, Azərbaycan nəhəng neft-qaz ehtiyatları və bərpa olunan enerji potensialına malik ölkə olduğundan, sözsüz ki, biz öz məsuliyyətimizi başa düşürük. Sizə deyə bilərəm ki, biz daha yaxşı imkanlar yaratmaq üçün gələcəkdə də məsuliyyətli şəkildə davranacağıq. Bundan əlavə, demək istərdim ki, bizim birgə yürütdüyümüz enerji siyasəti enerji şaxələndirilməsi və enerji təhlükəsizliyi məsələlərinin də hüdudlarını aşır. Çünki bu, ölkələr arasında

yeni bağlantılar yaradır və əlaqələrin inkişafına kömək edir, bu, prosesə cəlb olunmuş bütün ölkələr arasında qarşılıqlı etimad səviyyəsinin artırılmasına kömək edir.

Beləliklə, bizim gördüyümüz işlərin çox sayda müsbət nəticələri vardır. Bir daha qeyd edim ki, biz bu yola çıxanda işlərin necə olacağı çox aydın deyildi. Biz əməkdaşlığın yeni formatına qədəm qoymuşduq, bu ölkələrin bəziləri ilə bizim heç vaxt bu formatda əməkdaşlığımız olmamışdı. Lakin bu, uğurlu oldu. Çünki biz səmimi, açıq, vicdanlı idik və eyni məqsədimiz var idi. Məqsədimiz budur, layihələr müxtəlif ola bilər, lakin əməkdaşlığın ruhu bizə planlaşdırdığımız hər şeyə nail olmağa kömək edəcəkdir.

Bir daha bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Məşvərət Şurasının iclasına uğurlar arzulayıram. Sağ olun.

* * *

**Pərviz Şahbazov:** Cənab Prezident, dərin məzmunlu çıxışınıza görə Məşvərət Şurası iştirakçıları adından Sizə minnətdarlığımı bildirirəm. Sizin təşəbbüsünüzlə yaradılmış Məşvərət Şurası çoxtərəfli əməkdaşlığın uğurlu nümunəsi olaraq, Sizin rəhbərliyiniz və tövsiyələrinizlə «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasına mühüm töhfələr verdi. Məşvərət Şurasının budəfəki iclasında da səsləndirdiyiniz fikirlər, aktuallaşdırdığınız məsələlər «Cənub Qaz Dəhlizi» üzrə gələcək fəaliyyətimiz üçün aydın istiqamətlərdir. «Cənub Qaz Dəhlizi» layihə-

sinə davamlı dəstəyinizə görə Sizə bir daha dərin təşəkkürümüzü bildiririk.

İndi isə mən sözü Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simsona vermək istəyirəm. O həmçinin bizim Məşvərət Şurasının həmsədridir. Buyurun, söz sizindir.

## Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simsonun çıxışı

Hörmətli Prezident Əliyev!

Hörmətli nazir Şahbazov!

Zati-aliləri, xanımlar və cənablar!

Bu gün sizinlə Məşvərət Şurasının iclasını açıq elan etməkdən olduqca məmnunam. Çıxışıma təşəkkür bildirməklə başlamaq istərdim. İlk olaraq, bu gün tədbirə ev sahibliyi edən Prezident Əliyevə və nazir Şahbazova təşəkkürümü bildirirəm. Artıq ikinci dəfədir ki, mən bu tədbirdə iştirak edirəm. Birbaşa isə, ilk dəfədir.

Görürəm ki, bu gün Məşvərət Şurasında Qərbi Balkanlardan bir çox nazir və təmsilçilər iştirak edirlər. Sizin burada olmağınız «Cənub Qaz Dəhlizi»nin Avropa İttifaqı və region üçün nə dərəcədə əhəmiyyətli olmasının kifayət qədər sübutudur. İkincisi, mən «Cənub Qaz Dəhlizi» ilə Avropa İttifaqına nəql edilən qazın artırılmasında Azərbaycanın göstərdiyi səylərə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu bizim üçün qaz təchizatı təhlükəsizliyi baxımından çox vacib bir məqamdır və Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır.

İndi isə keçək bugünkü müzakirələrimizə.

Bu günün gündəliyi qarşımızdakı çağırışları və imkanları aydın şəkildə əks etdirir. Onlardan bəziləri «Cənub Qaz Dəhlizi»nin istismarına aiddir. Biz onları birinci sessiyada müzakirə edəcəyik. Digər məsələlər enerji sistemlərimizin uzunmüddətli planlarına aiddir. Buna ikinci sessiyada baxılacaq. İcazə verin, bu məsələlərin hər biri üzrə bəzi fikirləri bölüşüm.

İlk olaraq, bu gün keçirilən iclas «Cənub Qaz Dəhlizi»nin bir il ərzində tam istismarından sonra ümumi işləməsinə nəzər salmaq imkanıdır. Biz bunu hər dəfə görüşdüyümüz zaman etiraf etməliyik. Həmin dəhliz altı ölkədən keçərək, 3500 kilometr məsafə qət edərək, tərəfdaşlar arasında əməkdaşlığın nəticələrinin bariz nümunəsidir. Ötən ilin dekabrından Trans-Adriatik boru kəməri ilə Avropa bazarına təxminən 10 milyard kubmetr qaz nəql edilib.

Hamımız bu layihə zamanı dəf etdiyimiz çətinlikləri və maneələri yaxşı xatırlayırıq. Lakin bu gün hətta ən skeptik yanaşan insanlar onun baş tutmasına görə minnətdarlıq bildirirlər. Etibarlı, rəqabətəqabil və qəbul edilən qiyməti olan qaz Cənub-Şərqi Avropaya yol tapmaqdadır. Evlər qazla təchiz olunur, binalar isidilir və vətəndaşlar ehtiyac duyduğu enerjini alırlar. Artan enerji qiymətləri və sərt qaz təchizatı ilə dəhlizin rolu Avropa İttifaqı üçün heç vaxt görünməyən strateji əhəmiyyət kəsb edir. Fikrimizcə, «Cənub Qaz Dəhlizi» davamlı uğur hekayəsidir. Əlbəttə, bütün uğur hekayələri kimi, bu məsələ növbəti mərhələyə çıxır və biz bax-

malıyıq ki, dəhliz öz ötürücülük qabiliyyətini artıra, yaxud hətta coğrafi baxımdan genişləndirə bilərmi? Ötən il nazirlərin iclasında bu məsələlərin öyrənilməsinə başlanıldı.

Keçənilki iclasdan sonra dəhlizlə bağlı siyasi söhbətlər və qazla əlaqədar geniş müzakirələr aparıldı. Avropa İttifaqı qazın keçid dövründə rolu, onun tənzimləyici və infrastruktur təsiri ilə əlaqədar öz mövqeyini aydınlaşdırdı.

Biz ötən ilin dekabrında hidrogen və dekarbonlaşmış qaz bazarlarına aid paketi qəbul etməklə, qaz sektorunun dekarbonlaşmış gələcəyə doğru çərçivəsini müəyyən etdik, hidrogen və bioqaz sahəsində yeni imkanlar yaratdıq. Bu paketə gəldikdə, o həmçinin bugünkü qaz bazarının yaxşı formalaşdırılmasına xidmət edir. Onu daha müqavimətli, istehlakçıları nəzərə alan bazara çevirir. Biz həmçinin mühüm və tarazlaşdırılmış qaydaları qəbul etmişik ki, enerji sektorunda metan emissiyaları azaldaq. İki gün öncə komissiya taksonomiya ilə bağlı ümumi bir aktı qəbul edib. Orada qaz sektoruna aid olan fəaliyyətlər müəyyən edilir və onlar iqlim dəyişməsinin qarşısının alınmasına töhfə verməlidir. Bu əslində özəl sektoru həvəsləndirməlidir ki, onlar birbaşa bu kimi layihələrə sərmayələr yatırsınlar. Çünki Avropaya təmiz enerji keçidi lazımdır və biz hər bir üzv ölkə ilə bunu həyata keçirəcəyik. Hazırda biz Trans-Avropa şəbəkəsini yaratmışıq və o sahəyə maliyyə vəsaitlərini ayırırıq ki, Avropa İttifaqında hidrogen şəbəkələri daha da genişlənsin. Bununla bağlı biz Avropa

İttifaqının qonşuluğunda, həmçinin iqtisadi və sərmayə planı çərçivəsində qaz infrastrukturuna sərmayə yatırmağa açığıq.

Bizim tənzimləyici və infrastruktur çərçivəmiz əslində qarşıdakı illər ərzində qazın rolunu etiraf edir. Eyni zamanda, biz hidrogen və aşağı karbonlu qazlara keçidi də nəzərdə tuturuq. Biz hesab edirik ki, 2030-cu ilə qədər qaz Avropanın ümumi enerji istehlakının 22 faizini təşkil edəcək. Bu gün enerji qiymətləri artdıqca, geosiyasi gərginlik olduqca Avropada da həmin bu şaxələndirilmənin əhəmiyyətini daha yaxşı anlayırlar.

Təbii qaz təchizatı, o cümlədən maye qaz boru kəmərləri vasitəsilə nəql edilməlidir. Qazın öz marşrutumuzla nəqlinə və xalis sıfır karbona keçidə gəldikdə, biz bunu təşviq edirik. Biz istərdik ki, bu həm bizim qonşularımızda olsun, həm də Qərbi Balkanlarda. Bu region üçün aydın bir prioritet var ki, biz kömürdən daha çox dekarbonlaşdırılmış sistemə keçməliyik. Bizim bu gün kömürdən istifadə edən stansiyalarımızın istismar müddəti bitib, onlar artıq standartlara cavab vermir və bu da ətraf mühitə təhlükədir.

Biz çalışırıq ki, enerji biliyimizlə dekarbonlaşma planlarına dəstək verək, bütün region ölkələrinə kömək edək. Hər bir ölkənin enerji sistemində o ölkənin unikallığı nəzərə alınmalıdır. Bu o deməkdir ki, hər bir ölkənin öz gedəcəyi istiqamət var və qaz ənənəvi, yəni çirkləndirici enerji mənbələrini əvəz etməlidir.

Qərbi Balkan ölkələrinə gəldikdə, mən onların buradakı təmsilçilərini salamlayıram. Onlar da öz enerji keçidlərinin təmin edilməsi üçün gələcək qaz planlarını tərtib edirlər. Gələn aylar ərzində onların etdikləri seçim bu regionda yeni layihələrə imkan yaradacaqdır. Lakin həmçinin deməliyəm ki, biz regiona dəstək verdiyimiz zaman onların seçimləri müvafiq olmalıdır. Biz onlarla əhatəli strategiya çərçivəsində əməkdaşlıq edəcəyik ki, daha yaşıl və daha dayanıqlı enerji sistemləri qurulsun və region üçün investisiya planları tərtib edilsin. «Cənub Qaz Dəhlizi» daha aydın şəkildə bu tənzimləyici kontekstdə oturur və bu gün bazar imkanları əsas hesab olunur. Bu kontekstdə, biz hesab edirik ki, Trans-Enerji Konsorsium tərəfindən həyata keçirilən bu sınaq vacib bir addımdır. 2022-ci ilin iyulunda artıq nəticələr bilinəcək ki, bu da Avropa İttifaqı üçün əhəmiyyətlidir. Bu elə bir məsələdir ki, biz komissiya çərçivəsində buna diqqət yetiririk. Bütün bu elementlər bu gün müzakirə olunacaq. «Cənub Qaz Dəhlizi»nə gəldikdə, inanıram ki, biz bu gün bunu daha yaxşı anlayacağıq.

İndi isə icazə verin, təmiz enerjiyə keçidlə bağlı ikinci sessiyamız haqqında danışım. Bu sessiya çərçivəsində vacib məsələlər nəzərdən keçiriləcək. Təmiz enerjiyə keçid yeni imkanlar yarada bilər, yeni gəlir mənbələrini formalaşdıra bilər və bizim sistemlər adi ənənəvi enerji mənbələrindən azad olunar. Bu baxımdan bir neçə mövzu artıq müəyyən edilib. Lakin bizim qarşımızda vahid bir sual da-

yanır: biz sabit enerji təchizatının təmin edilməsi ilə iqlim neytrallığına necə nail olmalıyıq?

Mən metanın atmosferə atılmalarının azaldılmasının vacibliyini xüsusilə qeyd etmək istəyirəm. İstəyirəm ki, bu bizim debatlarımızda xüsusi yer tutsun. Çünki iqlimə gəldikdə metan potensial olaraq təhlükəli maddədir və onun ətraf mühitə təsiri sürətlə arta bilər. Bu baxımdan Avropa İttifaqı bu gün məhz innovativ texnologiyalara daha çox sərmayə yatırılmasını vacib hesab edir ki, karbon qazının təsiri azalsın.

Bərpa olunan enerji mənbələrinə gəldikdə, onlar Avropanın uzunmüddətli planlarının təməl daşını təşkil edir. Bu nəinki bizə dekarbonlaşmanı təmin etməyə, o cümlədən daha böyük bərpa olunan enerji mənbələrinin təmin edilməsinə yardım göstərəcək.

Bizim bilik və təcrübəmiz, bu sahədə atdığımız addımlar tərəfdaşlarımıza açıqdır. Məsələn, Azərbaycandan başlayaq. Hörmətli cənab Prezident, mən maraqla onu öyrəndim ki, hazırda Xəzər dənizindəki bu potensial qiymətləndirilir. Yəni aydındır ki, həmçinin «küləklər şəhəri» kimi tanınan Bakıda bu, Azərbaycan üçün çox böyük imkandır.

Avropa növbəti onillik ərzində tam genişmiqyaslı hidrogen bazarının formalaşdırılmasına diqqət yetirəcək. Biz istərdik ki, güclü hidrogen sənaye sektorumuz olsun. Avropa böyük hidrogen bazarıdır və biz üçüncü ölkələrdən idxala açığıq. Bərpa olunan enerji mənbələrinə, o cümlədən hidrogenə gəldikdə, hesab edirəm ki, regional strateji əməkdaşlıq üçün imkanlar çox genişdir.

Onu da bildirməliyəm ki, biz öz gələcəyimizi karbondan azad gələcək kimi formalaşdırırıq. Bunun üçün Azərbaycanla enerji sahəsində uzunmüddətli strateji əməkdaşlığa ehtiyac vardır. Biz bu gün fikir mübadiləsi aparmalıyıq ki, qısa və uzunmüddətli əməkdaşlığımız necə formalaşdırılmalıdır. Gələcəkdə bizim Məşvərət Şuramız həm də ümumi təmiz enerji məsələlərinin həllində fikir mübadiləsi aparmaq üçün faydalı platformaya çevriləcəkdir.

Xanımlar və cənablar, mən bununla öz çıxışımı bitirirəm və ümid edirəm ki, siz fikir mübadiləsi əsnasında bəzi ideyalarla çıxış edəcəksiniz. Ümid edirəm ki, bu gün bizim maraqlı müzakirələrimiz olacaqdır. Sağ olun.

**Pərviz Şahbazov:** Xanım komissar Simson, «Cənub Qaz Dəhlizi»nin enerji təhlükəsizliyində roluna dair fikirlərinizə və ətraflı çıxışınıza görə, eləcə də bizimlə bu layihə üzrə əməkdaşlıq istəyinizi bildirdiyinizə görə təşəkkürümü bildirirəm. Bununla da açılış sessiyamız başa çatır.

Cənab Prezident, çox sağ olun ki, bizimlə oldunuz.

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ EMMANUEL MAKRONUN, AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞELİN VƏ ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYANIN İŞTİRAKI İLƏ VİDEOFORMATDA KEÇİRİLMİŞ GÖRÜŞDƏ İŞTİRAK

*4 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun təşəbbüsü ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə videoformatda keçirilmiş görüşdə iştirak etmişdir.*

*Görüş zamanı əvvəlcə Prezident Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilmiş birgə görüşün əhəmiyyəti vurğulandı.*

*Sonra Brüssel sülh gündəliyinin davamı olaraq, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr keçirildi. Bu xüsusda, tədbirin əvvəlcədən müəyyən edilmiş gündəliyinə uyğun olaraq, iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar mə-*

*sələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev müzakirə olunan məsələlər barədə Azərbaycanın mövqeyini bir daha vurğuladı.*

*Müzakirələr zamanı Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq diqqət yetirdi.*

*Dövlət başçımız Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini qabartdı.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Vətən müharibəsinin başa çatmasından bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər isə yaralanıbdır.*

*Görüşdə, həmçinin UNESCO-nun Azərbaycana və Ermənistana missiyası məsələsi də müzakirə olundu və missiyanın hər iki ölkəyə göndərilməsinə dair razılıq əldə edildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*5 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etmişdir.*

*Dövlət başçımız koronavirus xəstəliyinə yoluxması ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və həyat yoldaşı Əminə xanıma öz adından və Mehriban xanımın adından cansağlığı arzuladı və şəfa diləklərini yetirdi.*

*Türkiyə Prezidenti göstərilən diqqətə görə dövlət başçısına və Mehriban xanıma öz adından və Əminə xanımın adından təşəkkürünü bildirdi.*

*Telefon söhbəti zamanı Azərbaycan–Türkiyə qardaşlığının və dostluğunun müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı.*

## YENİDƏN QURULMUŞ STRATEJİ ƏHƏMİYYƏTƏ MALİK «YAŞMA» QOVŞAQ YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*8 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də yenidən qurulmuş dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq «Yaşma» qovşaq yarımstansiyasının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına görülmüş işlər barədə məlumat verdi. Rusiya–Azərbaycan enerji sistemlərini əlaqələndirərək, dövlətlərarası qovşaq yarımstansiyası funksiyasını daşıyan «Yaşma» yarımstansiyası ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə tikilibdir. Yarımstansiya dənizə yaxın, nəmişlik ərazidə yerləşdiyi üçün dəmir-beton və metal konstruksiyaların aşınması, həmçinin uzunmüddətli istismar nəticəsində avadanlığın köhnəlməsi, izolyasiya parametrlərinin pisləşməsi tez-tez qısaqapanma hadisələrinin baş verməsinə səbəb olurdu. Bundan əlavə, sistem qəzalarının başvermə ehtimalı və sürətlə artan tələbatı ödəyə bilməməsi ilə əlaqədar yarımstansiya Prezident İlham Əliyevin tapşırığı ilə rəqəmsal qaydada tam yenidən qurulubdur. Spesifik sahə olduğundan*

*yenidən qurulma işləri yerli mütəxəssislər tərəfindən növbətçilik əsasında, elektrik gərginliyi saxlanılmaqla aparıldığı üçün yarımstansiyanın fəaliyyətində fasilə yaranmayıbdır.*

*«Sumqayıt», «Qobu», «Xaçmaz» elektrik stansiyaları ilə birbaşa, «Azərbaycan» İstilik Elektrik Stansiyası və «Cənub» Elektrik Stansiyası ilə isə «Abşeron» yarımstansiyası vasitəsilə əlaqələndirildiyindən çox mühüm strateji funksiyanı üzərinə götürən «Yaşma» qovşaq yarımstansiyasının «Qobu» Enerji Qovşağına, bu ilin yanvarında əsası qoyulmuş «Xızı–Abşeron» Külək Elektrik Stansiyası və tikintisinə başlanılacaq yeni «Yaşma» Elektrik Stansiyasının enerji sisteminə inteqrasiyasının həyata keçirilməsi üçün yeni yuvalar quraşdırılıb. Şimal-şərq rayonlarının və Abşeron yarımadasının enerji təchizatında müstəsna əhəmiyyət kəsb edən «Yaşma» yarımstansiyasında 330, 220 və 110 kilovoltluq açıq paylayıcı qurğular sökülərək, genişləndirilmiş formada yenidən qurulub. Burada hər birinin gücü 250 meqavat olan üç yeni avtotransformator quraşdırılıb. Nəticədə yarımstansiyanın ümumi gücü 110 meqavat artırılmaqla 750 meqavata çatdırılıb. «Qobu» Elektrik Stansiyasından «Yaşma» yarımstansiyasına 47 kilometr məsafədə 330 kilovoltluq ötürmə xətti çəkilibdir.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*Məlumat verildi ki, enerji sistemində ilk dəfə məhz bu yarımstansiyada respublikanın şimal-şərq rayonlarının və Abşeron yarımadasının reaktiv gücünü kompensasiya edə biləcək şuntlayıcı reaktor quraşdırılıb. 120 MVAr gücündə idarəolunan şuntla-*

*yıcı reaktor 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləyəcək, xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər, texniki itkiləri azaldacaq və yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etmiş olacaqdır. Yarımstansiyanın ərazisində yeni İdarəetmə Mərkəzi tikilib, yeni əks-qəza avtomatikası sistemi yaradılıb, yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub və enerjisistem mərkəzi SCADA sisteminə inteqrasiya olunubdur. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq, yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, açılıb-qoşulma əməliyyatları proqram vasitəsilə avtomatik həyata keçirilir.*

*Bakı–Quba magistral yolundan yarımstansiyaya qədər 4 kilometr məsafədə yol təmir edilib. Sistem əhəmiyyətli 330/220/110/10 kilovoltluq «Yaşma» yarımstansiyasının əsaslı yenidən qurulması ilə onun yükötürmə qabiliyyətinin artırılmasına, dövlətlərarası və ölkədaxili elektrik təchizatının etibarlılığının və dayanıqlılığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir texnologiyaların tətbiqinə nail olunub. Ən müasir idarəetmə, rele mühafizəsi və avtomatika dövrələrinin quraşdırılması avadanlıqların imtinası və zədələnməsinin qarşısının alınmasını, mühafizələrin cəld, selektiv, etibarlı işini və operativ əməliyyatların çevikliyini təmin edəcəkdir.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD İBRAHİM RƏİSİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlaqələr tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsindən qaynaqlanır. Biz belə möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizə xüsusi önəm veririk.

Bu gün ikitərəfli əlaqələrimizin yüksələn xətt üzrə inkişaf etməsi məmnunluq doğurur. Ali səviyyəli siyasi dialoq, qarşılıqlı səfərlər və müntəzəm görüşlər, imzalanan sənədlər əməkdaşlığımızın möhkəmləndirilməsinə güclü təkan verir. İqtisadi-ticari, enerji, nəqliyyat və digər sahələrdə qarşılıqlı fəaliyyət çərçivəsinin gündən-günə genişlənməsi bunun bariz nümunəsidir.

Aşqabadda Sizinlə qarşılıqlı anlaşma şəraitində keçən görüşümüzü məmnuniyyət hissi ilə xatırlayıram. Hesab edirəm ki, apardığımız ətraflı fikir mü-

badiləsi və müzakirələr münasibətlərimizin daha da inkişafına və keyfiyyətcə yeni mərhələyə daxil olmasına töhfə verəcəkdir.

İnanıram ki, Azərbaycan–İran münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2022-ci il*

## MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİR MÜAVİNİ, XARİCİ İŞLƏR VƏ AVROPAYA İNTEQRASİYA NAZİRİ NİKU POPESKU İLƏ GÖRÜŞ

*10 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş Nazir müavini, Xarici İşlər və Avropaya İnteqrasiya naziri Niku Popeskunu qəbul etmişdir.*

*Prezident İlham Əliyev ötən ilin dekabrında Moldova Prezidenti Maya Sandu ilə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlatdı və ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün böyük potensialın olduğunu vurğuladı.*

*Moldova Respublikasının Baş Nazir müavini, Xarici İşlər və Avropaya İnteqrasiya naziri Niku Popesku Moldova Prezidentinin salamlarını dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev Moldovanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş etdi.*

*Nazir Niku Popesku ölkələrimiz arasında diplomatik münasibətlərin olduğu 30 ilə yaxın müddətdə həmrəylik prinsipindən çıxış edərək, Azərbaycan*

*və Moldovanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırdı. Niku Popesku iqtisadi, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, enerji və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirdi, bu sahələrdə konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğuladı.*

## «QOBU» YARIMSTANSİYASI VƏ «QOBU» ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*11 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də «Qobu» Enerji Qovşağının – yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq «Qobu» yarımstansiyası və 385 meqavatlıq «Qobu» Elektrik Stansiyasının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Prezident İlham Əliyevin 2020-ci ilin avqustunda təməlini qoyduğu 385 meqavatlıq «Qobu» Elektrik Stansiyası və yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq «Qobu» yarımstansiyası rekord müddətdə tikilib. Azərbaycan energetikası tarixində ilk dəfə istilik elektrik stansiyasının layihələndirilməsini xarici institutlar deyil, «Azərenerji» ASC-nin Layihə-Axtarış Energetika İnstitutu layi-hələndirib və tikintini də yerli şirkət həyata keçiribdir. Ən əsası odur ki, burada tikilmiş yarımstansiya Bakıda inşa olunmuş ilk 330 kilovoltluq yarımstansiyadır.*

*Prezident İlham Əliyev «Qobu» Enerji Qovşağını işə saldı.*

*Məlumat verildi ki, istər elektrik stansiyasının, istərsə də yarımstansiyanın tikinti prosesi fasiləsiz rejimdə aparılıb. Elektrik stansiyasının maşın zalları, qazpaylayıcı stansiya, anbar, emalatxana binaları, yarımstansiyanın açıq paylayıcı qurğuları, idarəetmə mərkəzi, mühəndis korpusu və başqa yardımçı binalar paralel şəkildə tikilib. Aqreqatların, avadanlığın, texnika və materialların daşınması, quraşdırılması, tikintisi, yüksəkgərginlikli ötürücü xətlərin çəkilməsi kimi mürəkkəb proseslər də sinxron şəkildə aparılıb. Beləliklə, «Qobu» Enerji Qovşağının tikintisi nəzərdə tutulan müddətdə başa çatdırılıbdır.*

*«Qobu» Enerji Qovşağı ölkəmizdə, xüsusilə Bakıda və Abşeron yarımadasında elektrik enerjisinə sürətlə artan tələbatı ödəmək, paytaxtın və yarımadanın regionlardakı elektrik stansiyalarından asılılığını azaltmaq, elektrik enerjisi ilə təchizatın dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmaq, texniki itkiləri azaltmaq, sistem qəzası təhlükəsini minimuma endirmək, Bakıda və Abşeron yarımadasında tənzimləyici generasiya gücü funksiyasını üzərinə götürərək, 500 kilovoltluq «Abşeron» yarımstansiyasının əvəzedicisi funksiyasını daşımaq, paytaxtın 330 kilovoltluq dairəvi elektrik təchizat sistemini yaratmaq və digər amillər baxımından olduqca əhəmiyyətlidir.*

*Bildirildi ki, yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq «Qobu» yarımstansiyasında ən müasir avadanlıqlar quraşdırılmış 330 kilovoltluq açıq paylayıcı qurğu inşa edilibdir. Eyni zamanda, həmin qurğunun yanında 220 kilovoltluq açıq payla-*

*yıcı qurğu yaradılıb və yarımstansiyalar üçün hər birinin gücü 250 meqavolt-amper olan 4 avtotransformator quraşdırılıb. 110 kilovoltluq açıq paylayıcı qurğu isə «Qobu» Elektrik Stansiyasının qarşısında tikilib. Yarımstansiyanın ərazisində müasir mikroprosessor tipli rəqəmsal idarəetmə və mühafizə panelləri ilə təchiz olunmuş yeni nəsil avadanlıqdan ibarət idarəetmə binası tikilib. Yarımstansiyada məsafədən idarəolunan mikro-SCADA dispetçer idarəetmə sistemi, əks-qəza avtomatikası sistemi qurulub. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq istismara verilən yarımstansiyada aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, problemlərin tez həlli proqram təminatı vasitəsilə avtomatik həyata keçiriləcəkdir.*

*İdarəetmə Mərkəzi ilə yanaşı, mühəndislər üçün yataqxana korpusu inşa edilib, işçi heyət üçün xidməti otaqlar, fasiləsiz əmək fəaliyyətini təmin edən şərait yaradılıb. Yarımstansiyanın ərazisində abadlıq işləri görülüb, daxili yollar çəkilibdir.*

*Ən müasir üslubda inşa olunmuş 385 meqavatlıq «Qobu» Elektrik Stansiyasında isə 4 maşın zalı tikilib və ümumilikdə 21 aqreqat quraşdırılıb. Bu aqreqatların hər birinin gücü 18,3 meqavatdır. Burada 7 ədəd güc transformatoru quraşdırılaraq, yarımstansiya ilə əlaqələndirilibdir.*

*«Qobu» Enerji Qovşağının enerjisistemə inteqrasiyası üçün Şirvandakı «Cənub» Elektrik Stansiyasına 108 kilometr məsafədə 330 kilovoltluq ötürücü xətt inşa edilib. Eyni zamanda, «Qobu» yarımstan-*

*siyasını strateji əhəmiyyətli 330 kilovoltluq «Yaşma» yarımstansiyası ilə əlaqələndirmək üçün 47 kilometr məsafədə 330 kilovoltluq elektrik verilişi xətti çəkilib. Bundan əlavə, 220 kilovoltluq 5-ci «Abşeron», 5-ci «Cənub» və 110 kilovoltluq 3-cü, 4-cü «Puta» hava xətlərinin giriş-çıxış sxemi ilə yarımstansiyaya qoşulması işləri başa çatdırılıbdır.*

*Beləliklə, səhralığı xatırladan ərazidə cəmi bir il ərzində yüksəkgərginlikli ötürücü xətlərin, 385 meqavatlıq elektrik stansiyasının və 330/220/110 kilovoltluq yarımstansiyanın bir araya gətirildiyi böyük enerji şəhərciyi salınmaqla, son illərin ən böyük infrastruktur layihələrindən biri reallaşdırılıbdır.*

## AZƏRBAYCAN DÖVLƏT İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*11 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də «Qobu» Enerji Qovşağının açılışından sonra Azərbaycan Dövlət İnformasiya Agentliyinə müsahibə vermişdir.*

**S u a l: Salam, möhtərəm cənab Prezident, AZƏRTAC-a müsahibə üçün vaxt ayırdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, bu gün 330 kilovoltluq «Qobu» elektrik yarımstansiyası və 385 meqavatlıq elektrik stansiyası istifadəyə verilir. Bir neçə gün bundan əvvəl yenidən qurulmuş «Yaşma» qovşaq yarımstansiyasının açılışında iştirak etdiniz. Ölkəmizdə enerji potensialının gücləndirilməsi baxımından bu stansiyaların əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

**C a v a b:** «Qobu» Enerji Qovşağı son illər ərzində inşa edilmiş ən böyük enerji obyektlərindən biridir. Nəzərə alsaq ki, həftənin əvvəlində «Yaşma» yarımstansiyası işə salındı, hər kəs görə bilər, cəmi bir həftə ərzində Azərbaycanda enerji sahəsində nə qədər böyük işlər görülüb. Əlbəttə, bu nəhəng enerji obyektlərinin inşası zaman tələb edirdi. Ancaq ən qısa mümkün vaxt kəsiyində belə nəhəng enerji obyekt-

lərinin inşa edilməsi bizim güclü imkanlarımızdan xəbər verir.

Həftənin əvvəlində Yaşmada böyük yarımstansiyanın istifadəyə verilməsi enerji dayanıqlılığına xidmət göstərəcək. Gücü 750 meqavat olan yarımstansiya bizim enerji sistemimizdə önəmli yer tutacaq. Bu gün isə 385 meqavat gücündə «Qobu» Elektrik Stansiyasının açılması generasiya güclərimizi xeyli artıracaq. Bu stansiyanın yanında cəmi bir il ərzində 1000 meqavatlıq yarımstansiya inşa edilib. Onu da deməliyəm ki, bu genişmiqyaslı nəhəng layihələrin icrasında ancaq Azərbaycan şirkətləri, Azərbaycan mütəxəssisləri, fəhlələri iştirak ediblər. Yəni bu onu göstərir ki, bizim həm çox güclü texniki, həm də kadr potensialımız vardır.

Bu gün hər kəs görür ki, dünyada iqtisadi, maliyyə böhranı hələ də başa çatmayıb. Buna baxmayaraq, Azərbaycanda öz vəsaiti hesabına inşa edilmiş bu nəhəng obyektlərin istifadəyə verilməsi həm maliyyə imkanlarımızı göstərir, maliyyə müstəqilliyimizdən xəbər verir, həm də texniki imkanlarımızı göstərir. Göstərir ki, son illərdə elektrik enerjisi sahəsində çox böyük işlər görülüb, bu işlərin yenə də davamı vardır. Çünki artan tələbat – həm daxili, həm xarici tələbat, həmçinin artan ixracımız bunu diktə edir. Onu da bildirməliyəm ki, keçən il Azərbaycanda 27 milyard kilovat/saat elektrik enerjisi istehsal edilib və 1,6 milyard kilovat/saat ixrac olunubdur. Bu, rekord göstəricidir. Yəni biz artıq çox ciddi elektrik enerjisini ixrac edən ölkəyə çevrildik. Qeyd etdiyim kimi, həm

daxili, həm də xaricdə enerji gücümüzə olan tələbat bizi yeni addımların atılmasına sövq edir.

**S u a l: Cənab Prezident, məlumdur ki, Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir, əhalimiz hər il artır. Eyni zamanda, ölkəmizdə sənaye istehsalı da sürətlə inkişaf edir. Təbii ki, bütün bu amillər Azərbaycanda elektrik enerjisinə tələbatın artmasına səbəb olur. Elektrik enerjisinə artan bu tələbatın hansı mənbələrdən təmin olunması nəzərdə tutulur?**

**C a v a b:** Bəli, Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Müstəqillik dövründə əhalimiz 7 milyondan 10 milyona çatıbdır. Bu, ölkədə gedən müsbət meyillərin – sabitliyin, əmin-amanlığın, iqtisadi inkişafın, sosial rifahın təzahürüdür. Əlbəttə, bizdə bütün sahələrdə olan potensial bu demoqrafik artıma uyğun olmalıdır. Eyni zamanda, ölkə iqtisadiyyatı artır, sənaye potensialı artır. Keçən il biz xalqımızı gözəl göstəricilərlə sevindirə bildik. Keçən il iqtisadiyyatımız 5 faizdən çox artıb, qeyri-neft sektorunda sənaye istehsalı isə təxminən 20 faiz artıb. Yanvar ayının ilk yekunları bu günlərdə mənə məruzə edildi. Nəticələr daha da ümidvericidir. İqtisadi artım təxminən 6 faiz, qeyri-neft sektorunda ümumi daxili məhsul təxminən 9 faiz, qeyri-neft sənaye istehsalı sahəsində isə artım 24 faiz olubdur. Bu da rekord göstəricidir. Yəni bu onu göstərir ki, müsbət dinamika bu il də təmin ediləcək. Yanvar ayı ilin başlanğıcıdır. Dünyanın istənilən ölkəsində yanvar ayında iqtisadi artım templəri, adətən, o qədər də güclü olmur, o cümlədən Azərbaycanda da.

Amma qeyd etdiyim bu göstəricilər, necə deyərlər, özlüyündə bir nəticədir.

Əlbəttə, artan sənaye artan generasiya gücləri tələb edir. Biz məhz buna görə belə nəhəng obyektləri inşa edirik. Artan daxili tələbatı belə gözəl enerji stansiyaları ilə təmin edəcəyik. Eyni zamanda, qeyd etdiyim kimi, bizim enerji gücümüzə xaricdə tələbat artır. Bizim 4 qonşu ölkəyə elektrik enerji ixracatı artmaqdadır – Türkiyə, Rusiya, Gürcüstan və İran. Qeyd etdiyim kimi, 1,6 milyard kilovat/saat elektrik enerjisi ixrac etmişik. Bizim həm neft, həm qaz, həm elektrik enerjisi ixracatı bu gün həm Azərbaycanın, həm qonşu ölkələrin və hətta Avropa ölkələrinin enerji təhlükəsizliyinə töhfə verir. Azərbaycan nadir ölkələrdəndir ki, bütün qonşu ölkələrə xam neft, təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisini ixrac edir.

Bu, son illər ərzində əldə edilmiş nailiyyətlərdir. Biz hamımız xatırlayırıq ki, müstəqilliyimizin ilk illərində bizim özümüzə enerji gücü çatmırdı. Mövcud olan stansiyalar yararsız vəziyyətdə idi və yeni stansiyaların tikilməsinə pulumuz yox idi, Azərbaycan elektrik enerjisini Rusiyadan idxal edirdi. Təbii qazla bağlı qıtlıq var idi, bölgələrdə, ümumiyyətlə, qaz yox idi və neft hasilatı kəskin düşmüşdü. Bu gün isə Azərbaycan dünya miqyasında bütün bu enerji komponentlərinin inkişafına görə qabaqcıl ölkələrdəndir. Təsadüfi deyil ki, bu ay keçirilmiş VIII «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası məhz bu uğurlarımızı bir daha qeyd etdi. Orada çıxış edən, demək olar ki, bütün iştirakçılar Azərbaycanın potensialından, Azər-

baycanın imkanlarından danışdılar. Mən orada çıxış edərkən dedim ki, biz etibarlı tərəfdaşıq, öz öhdəliklərimizi yerinə yetiririk, buna gücümüz də çatır, iradəmiz də çatır, məsuliyyətimiz də çatır. Ona görə bugünkü mənzərə çox müsbətdir və ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı heç bir problem yoxdur, amma bu gün dünyanın bir çox ölkələrində bu problemlər var və kəskinləşir. Bəzi ölkələr, ümumiyyətlə, öz enerji balansını düzgün tərtib edə bilmir. Çünki xarici təchizatçılardan asılıdırlar və orada müəyyən problemlər yaranıbdır. Biz həm ölkə daxilində, həm bölgədə, həm geniş mənada qitədə çox etibarlı enerji təchizatçısı ölkəsinə çevrilmişik. Əlbəttə ki, növbəti planlarımız da vardır. Həm daxildə, həm xaricdə artan tələbatı ödəmək üçün bizim böyük planlarımız var, onlar reallaşır, o cümlədən bərpa olunan enerji növləri ilə bağlı. Əminəm ki, bu gün burada qeyd etdiyimiz açılış və buna bənzər açılışlar bundan sonra da çox olacaqdır.

**S u a l: Cənab Prezident, Siz bərpa olunan enerji növləri ilə bağlı məsələyə toxundunuz, növbəti sualımız da bununla bağlıdır. Son illər Azərbaycanda bu istiqamətdə genişmiqyaslı işlərə start verilib. Bərpa olunan enerji növlərinin inkişafı istiqamətində həyata keçirilən işlər nə vəziyyətdədir? Bu barədə məlumat verməyinizi xahiş edirik.**

**C a v a b:** Bu sahəni mən artıq bir neçə ildir ki, prioritet sahə kimi müəyyənləşdirmişəm. Onu da bildirməliyəm, adətən, bu sahəyə o ölkələr daha ciddi fikir verir ki, o ölkələrdə təbii enerji resursları ya yoxdur, ya da ki, azdır, çatmır. Ona görə qazı və

neft məhsullarını əvəzləmək üçün ölkələr məcburən bu sahəyə fikir verir, investisiyalar qoyur. Bizdə isə əksinə, biz özümüzü və tərəfdaşlarımızı bundan sonra ən azı 100 il ərzində təbii qazla təchiz edə bilərik. Buna baxmayaraq, bu gün bərpa olunan enerji növlərinə sərmayə qoyuruq. Nə üçün? İlk növbədə, ona görə ki, bu, ən təmiz enerji növüdür. Düzdür, təbii qaz da təmiz enerji növüdür və biz Azərbaycanda elektrik enerjisini istehsal etmək üçün hazırda ancaq təmiz enerji növlərindən istifadə edirik, mazutdan istifadə etmirik, kömürdən istifadə etmirik. Halbuki bir çox ölkələr bu məhsullardan istifadə edir. Biz təbii qazdan, sudan, Günəşdən, küləkdən istifadə edirik. Bunu nəzərə alaraq, gələcəkdə ətraf mühiti qorumaq üçün biz mütləq bərpa olunan enerji növlərini yaratmalıyıq. İkinci səbəb isə ondan ibarətdir ki, bizim buna imkanımız və potensialımız vardır. Ölkədə o qədər gözəl investisiya iqlimi yaradılıb ki, həm özümüz, həm də xarici firmalar buna böyük maraq göstərirlər. Bu marağı biz yaratmışıq. Əgər neft-qaz sahəsində uğurlu siyasətimiz aparılmasaydı və tərəfdaşlar bizə inanmasaydılar, o cümlədən Azərbaycanın gələcəyinə inanmasaydılar, bu qədər böyük xarici sərmayə qoymazdılar. Ona görə bu gün bərpa olunan enerji növlərinin tam işə salınması istiqamətində çox ciddi iş gedir və bu işin nəticələrini biz görürük. Nədə görürük? İlk növbədə onda ki, xarici firmalar, böyük şirkətlər bu sahəyə investisiya qoyurlar. Keçən ay bu sahədə ən böyük şirkətlərdən biri olan «ACWA Power» və Azərbaycan arasında imzalanmış kontrakt əsasında

təməlqoyma mərasimi keçirildi, 240 meqavatlıq külək elektrik stansiyası gələn il istifadəyə verilməlidir. Hazırda *bp* şirkəti ilə Cəbrayıl rayonunda 200 meqavatdan çox gücə malik olan Günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Günəş elektrik stansiyasının inşası ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin Mazdar şirkəti ilə danışıqlar gedir. Hər iki layihə təqribən 400–450 meqavat gücündədir. Üstəlik, qeyd etdiyim kimi, «ACWA Power» ilə 240 meqavat, «Xudafərin» və «Qız qalası» su anbarlarında İranla bərabər 280 meqavatlıq elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. O gücün yarısı bizə çatacaq, bu da əlavə 140 meqavat təşkil edəcək. «Azərenerji»nin özünün 50 meqavatlıq külək elektrik stansiyası vardır. Eləcə də azad edilmiş torpaqlarda keçən il «Güləbird», «Suqovuşan-1», «Suqovuşan-2», Kəlbəcərdə Lev çayı üzərində 4 su-elektrik stansiyası yenidən qurulub. Azad edilmiş torpaqlarda bu il 5 su-elektrik stansiyasının inşasının tamamlanması nəzərdə tutulur. Orada da təqribən 25–30 meqavat gücündə stansiyalar olacaqdır. Həmçinin azad edilmiş torpaqlarda ermənilər tərəfindən dağıdılmış 30-a yaxın su-elektrik stansiyasının tikintisi mümkündür və olacaqdır. Fürsətdən istifadə edərək, yerli və xarici investorları bu sahəyə dəvət etmək istəyirəm. Çünki dövlət onsuz da bu işləri görəcək və görür. Amma yaxşı olardı ki, özəl şirkətlər də bu sahəyə investisiya qoysun. Əlbəttə ki, bizim böyük potensialımız Kəlbəcər–Laçın zonasında və azad edilmiş digər torpaqlardadır. Mən bu rəqəmləri bildirmişdim, Günəş və külək stansiyalarını nəzərə alaraq,

9000 meqavatdan çox təsdiq edilmiş enerji potensialımız vardır. Bizim ən böyük potensialımız Xəzər dənizindədir və təsadüfi deyil ki, hazırda dünyanın aparıcı enerji şirkətləri Xəzər dənizinə çox böyük diqqət yetirir, bizə artıq təkliflər gəlməyə başlayıbdır. Xəzər dənizinin bərpa olunan enerji istehsalı ilə bağlı potensialı 150 min meqavatdan çoxdur. Ona görə bütün bu işləri biz düzgün planlaşdırmalıyıq. Daxili tələbatı təbii ki, ödəmişik, ödəyəcəyik, ixracla bağlı öz fəaliyyətimizi genişləndirməliyik, yeni ixrac bazarlarına çıxmalıyıq. Bizim dörd qonşu ölkə ilə dediyim kimi, enerji bağlantılarımız var, biz indi yeni bir layihə üzərində işləyirik. Zəngəzur dəhlizi ilə Azərbaycandan Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyə və İrana yeni xəttin çəkilişi artıq planlarımızdadır. Mən demişdim ki, Zəngəzur dəhlizi təkcə dəmir yolu, avtomobil yolu, hava nəqliyyatı üçün deyil. Eyni zamanda, Zəngəzur dəhlizi enerji növlərinin ixrac edilməsi ilə bağlı öz rolunu oynayacaqdır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təmin etmək, oradan xarici bazarlara çıxmaq və Türkiyədən sonra Avropaya çıxmaq üçün yeni bir xəttimiz olacaqdır. Bir xətt Gürcüstan–Türkiyə üzərindən keçir, ikinci xətt isə oradan keçməlidir. Biz bunun üzərində işləyirik. Artan ixracımız həm geosiyasi önəmimizi artıracaq, həm də bizə əlavə valyuta gətirəcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda, elektrik enerjisindən də valyuta qazanacağıq və ölkəmiz daha da firavan yaşayacaq. Beləliklə, bütün bu layihələr bizim planlarımızdadır.

Bugünkü açılış mərasimi bir daha gücümüzü, iradəmizi göstərir və  göstərir ki, biz qarşımızda duran bütün vəzifələri uğurla icra edirik.

**M ü x b i r:** Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınıza görə Sizə minnətdarıq. Sizə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayırıq. Çox sağ olun, təşəkkür edirik.

## AĞDAM RAYONUNA SƏFƏR

*13 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Ağdam rayonunda səfərdə olmuşlar.*

*Dövlət başçısı və xanımı əvvəlcə Ağdam şəhərində yeni inşa olunmuş «Ağdam-1» və «Ağdam-2» yarımstansiyalarının, o cümlədən «Qarabağ» Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı mərasimində iştirak etdilər.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, işğaldan azad edilmiş Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün «Azərenerji» ASC tərəfindən «Xındırıstan» yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib. Demək olar ki, xətt tam minalanmış ərazidən keçir. Bəzi yerlərdə minalar arasından bir neçə metr enində cığır açılaraq, bu çətin vəzifə icra edilib. Ən əsası isə Ağcabədidən Xındırıstana, oradan da «Ağdam-1» və «Ağdam-2» yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə*

*110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabel çəkilib. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilib.*

*Məlumat verildi ki, Ağdam rayon mərkəzində yaradılmış böyük və müasir enerji kompleksinin bir hissəsində 110 kilovoltluq açıq və 35, 10 kilovoltluq qapalı paylayıcı qurğuların yerləşdirildiyi inzibati bina da daxil olmaqla, yeni 110/35/10 kilovoltluq «Ağdam-1» yarımstansiyası tikilib. «Ağdam-1» yarımstansiyası tam rəqəmsallaşdırılaraq avtomatlaşdırılıb. Yarımstansiyada aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, sistemin monitorinq və analizinin, problemlərin tez həllinin proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin olunub. Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma İşçi qrupu tərəfindən təsdiq edilmiş müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub.*

*Dövlət başçısı Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzində «Ağdam-1» elektrik yarımstansiyasının açılışını etdi.*

*Bildirildi ki, Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin mo-*

*nitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimlənmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilir. Ölkə üzrə 2500 kilometr məsafədə çəkilmiş optik kabel şəbəkəsi üzərindən qurulmuş yeni sistem vasitəsilə nəinki Qarabağın, bütövlükdə Azərbaycanın enerji sistemi əhatə olunur. Rəqəmsal İdarəetmə Mərkəzindən obyektlərin monitorinqi aparılmaqla, parametrlərdə düzəlişlər edilməsi imkanı yaradılıb. Bu da serverlərin, o cümlədən digər şəbəkə aktivlərinin istismarı üzrə məlumat axınına nəzarəti və onun idarə olunmasını mümkün edir. Yeni tətbiq olunan elektron texniki pasportlaşma nəticəsində mərkəzdən «Azərenerji» ASC-nin struktur tərkibinə daxil olan istənilən müəssisənin nəzdindəki avadanlığın texniki göstəricilərinə və formullarına nəzarət etmək mümkündür.*

*Həmçinin Qarabağ üzrə Operativ Qərargaha təqdim edilmiş və ali rəhbərlik tərəfindən təsdiqlənmiş memarlıq layihələri, xətlərin keçdiyi yerlər, icazələr sənədləşdirilərək, elektron qaydada sistemləşdirilib. Satınalmalar prosesinin rəqəmsallaşdırılması balans və qalıq dəyərlərinin dəqiq uçotunun aparılmasına, materialların naviqasiyalı hərəkətinin izlənməsinə, israfçılığın aradan qaldırılmasına və səmərəliliyin artırılmasına imkan verib. Nəticədə avadanlığın təmiri, daşınması, qəzaların aradan qaldırılması xərcləri, ehtiyat hissələrinin alınması və başqa sahələrdə səmərəlilik orta hesabla 30 faiz yüksələrək, böyük həcmdə maliyyə vəsaitinə qənaət edilibdir.*

*Qarabağ Rəqəmsal İdarəetmə Mərkəzinin ərazisində elektrik avadanlığının təmiri sahəsi, xüsusi*

*təyinatlı maşın və mexanizmlər üçün qaraj, anbar binası və mühəndis yataqxanası da daxil olmaqla, digər xüsusi təyinatlı binalar tikilibdir.*

*«Ağdam-1» yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin ətrafındakı 2,5 hektarlıq ərazidə yaşıllıq zolağı və meyvə bağı salınıb, xüsusi suvarma sistemi qurulubdur.*

*Dövlət başçısına məlumat verildi ki, Ağdam rayonunun Əsgərana yaxın Şelli kəndi istiqamətində yeni 110/35/10 kilovoltluq «Ağdam-2» yarımstansiyası da inşa edilib. Bir neçə ay ərzində minalardan təmizlənmiş ərazidə dördüncü sənaye inqilabının yaratdığı texnoloji yeniliklərə uyğun olaraq, süni intellektə adaptasiya edilən enerjisistem şəbəkəsi konsepsiyası çərçivəsində müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya tikilib. Burada 110 kilovoltluq açıq paylayıcı qurğu yaradılıb, açarların, ayırıcıların və digər texniki avadanlığın açılıb-qoşulması, o cümlədən aktivlərin, proseslərin, resursların idarə edilməsi, qüsurların təcili aradan qaldırılması və başqa əməliyyatların proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin edilib. Yarımstansiyanın yeni tikilmiş idarəetmə mərkəzi isə 35 və 10 kilovoltluq rəqəmsal qapalı paylayıcı qurğular yerləşdirilməklə yanaşı, əks-qəza avtomatikası, mikroprosessor tipli rele mühafizəsi, avtomatika və idarəetmə panelləri, sabit və dəyişən cərəyan qurğuları ilə təmin edilib. Yarımstansiyada müasir tələblərə cavab verən micro-SCADA sistemi yaradılıb və «Azərenerji»nin mərkəzi SCADA sistemi ilə sinxronlaşdırılıbdır.*

*Prezident İlham Əliyev «Ağdam-2» yarımstansiyasını məsafədən idarəolunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə işə saldı.*

## Ağdam Sənaye Parkında iki müəssisənin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Ağdam Sənaye Parkında iki müəssisənin təməlqoyma mərasimində iştirak etmişlər.*

*İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri vəzifəsini icra edən Elşad Nuriyev dövlət başçısına və xanımına görüləcək işlər barədə məlumat verdi. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi – sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması xüsusi önəm kəsb edir. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabliyyətli məhsul istehsalında, neft-qaz amilindən asılılığın azaldılmasında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.*

*Qeyri-neft sektorunun inkişafına mühüm töhfə verən sənaye parklarında sahibkarlığın inkişafı üçün*

*əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Hazırda Azərbaycanda 5 sənaye parkı – Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir. Dövlət başçısının 2021-ci il 28 may tarixli Fərmanına əsasən, Ağdam, 4 oktyabr tarixli Fərmanı ilə Araz Vadisi İqtisadi Zonası sənaye parklarının yaradılması nəticəsində ölkəmizdə sənaye parklarının sayı 7-yə çatıb.*

*Regionların, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında sənaye məhəllələri də əhəmiyyətli rol oynayır. Hazırda ölkəmizdə 5 sənaye məhəlləsi – Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir.*

*Sənaye zonaları üzrə indiyədək 90 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunur. 2021-ci ildə 2,4 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 15,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə xüsusi çəkisi 30,8 faiz (959,3 milyon manatlıq ixrac) təşkil edib. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilir.*

*Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan po-*

*tensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investor marağını da artırır. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovşağında yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.*

*Məlumat verildi ki, Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi, tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.*

*Sənaye parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. İlk olaraq parkın ərazisinin minalardan və hərbi sursatlardan təmizlənməsi işlərinə başlanılıb və artıq 190 hektar ərazinin 74 hektardan çoxu mina və hərbi sursatlardan təmizlənib, qalan ərazilərdə isə hazırda təmizləmə işləri aparılır. Rezidentlər fəaliyyətə başlayanadək, sənaye parkında bütün lazımi şərait yaradılacaq. İşçilərin rahatlığının təmin edilməsi məqsədilə artıq sənaye parkında mobil tipli şəhərcik salınıb. Burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, ma-*

*ğaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb. Parkın ərazisində bankomat quraşdırılıb.*

*Sənaye parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kilovoltluq elektrik xətti çəkilib və 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Belə ki, işğaldan azad olunduqdan sonra Ağdam şəhərində ilk elektrik enerjisi və su təchizatı sistemi Ağdam Sənaye Parkının ərazisində quraşdırılıb. Sənaye parkının işıqlandırılmasında Günəş enerjisindən qidalanan panellərdən istifadə edilir.*

*Qeyd olundu ki, Ağdam Sənaye Parkının 74 hektar ərazisində topoqrafik planlama və mühəndis-geoloji tədqiqat işləri yekunlaşdırılıb. Topoqrafik planlama zamanı parkın ərazisində dağılmış tikililərin geometrik ölçüləri müəyyən edilib və ərazidən daşınması nəzərdə tutulan tullantıların həcmi dəqiqləşdirilib. Geoloji-tədqiqat işləri zamanı isə park ərazisində süxurların tərkibi və litoloji təsviri, fiziki və mexaniki xüsusiyyətləri müəyyənləşdirilib.*

*Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti bu parkın rezidenti kimi qeydiyyata alınıb. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyində sahibkarlar tərəfindən təqdim edilmiş daha 10-dan çox layihəyə baxılır. Havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı, beton istehsalı, ağır texnikaya texniki xidmətin göstərilməsi və bununla əlaqədar olaraq, bəzi metal ehtiyat hissələrinin*

*bərpası və istehsalı, ortopedik matras və yumşaq mebellərin, kanalizasiya və içməli su borularının istehsalı və s. təqdim olunmuş layihələr üzrə əsas fəaliyyət istiqamətləridir.*

*Ağdam Sənaye Parkının rezidenti «Smartpoint» MMC burada reallaşdıracağı layihə çərçivəsində alternativ və bərpa olunan enerji mənbələri ilə (əsasən Günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcək. Layihənin investisiya dəyəri 9,1 milyon manatdır. Layihə çərçivəsində yaradılacaq müəssisədə Türkiyə və İtaliya texnologiyalarından istifadə ediləcək. Müəssisədə ildə 21 min işıq dirəyi və 40 meqavat gücündə digər qurğuların istehsal olunması nəzərdə tutulur. «Smartpoint» MMC sənaye parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən (tam infrastruktur təminatı və vergidən azadolmalar) faydalanacaq. Sənaye parkının 1,3 hektar ərazisində inşa ediləcək müəssisədə 80 daimi iş yeri yaradılacaq. Yaxın vaxtlarda müəssisənin layihələndirmə işlərinə başlanılacaq. Müəssisənin tikintisinə başlanıldıqdan sonrakı 6 ay müddətində istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, Gürcüstan, Qazaxıstan və Özbəkistana da ixrac olunması planlaşdırılır.*

*Digər rezident –«Dadaş-N» MMC sənaye parkında həyata keçirəcəyi layihə çərçivəsində müxtəlif çeşidli sintetik xalçalar istehsal edəcək. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsal ediləcək. Məhsul istehsalında polipro-*

*pilen, polietilen və poliakril kimi yerli xammaldan istifadə olunacaq. İstehsal prosesində Belçika və Çin texnologiyaları tətbiq ediləcək. «Dadaş-N» MMC də sənaye parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən yararlanacaq. Sənaye parkının 2 hektar ərazisində inşa ediləcək müəssisədə 60 daimi iş yeri yaradılacaq. Müəssisənin tikintisinə başlanıldıqdan 24 ay müddətinə istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılmaqla yanaşı, MDB ölkələrinə də ixrac olunması planlaşdırılır.*

*Dövlət başçısı hər iki müəssisənin təməlini qoydu.*

*Beləliklə, yeni yaradılan sənaye zonaları, həmçinin Ağdam Sənaye Parkında yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcəkdir.*

## «Park Forest Hotel Ağdam» mehmanxanasının təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Ağdam şəhərində inşa olunacaq «Park Forest Hotel Ağdam» mehmanxanasının təməlqoyma mərasimində iştirak etmişlər.*

*«PMD Projects» MMC-nin İdarə Heyətinin sədri Nəriman Topçibaşev dövlət başçısına və xanımına layihə barədə məlumat verdi.*

*Bildirildi ki, 2,16 hektar ərazidə inşa ediləcək «Park Forest Hotel Ağdam» mehmanxanası 110 nömrədən ibarət olacaq. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.*

*Prezident İlham Əliyev hotelin təməlini qoydu. Son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ bölgəsi işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.*

*Strateji mövqeyinə görə Qarabağın giriş qapısı hesab edilən Ağdam rayonunda ən müasir standartlara cavab verən mehmanxananın inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin turizm potensialının inkişafına mühüm töhfə verəcək. Bu həm də işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən Ağdam ra-*

*yonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti göstəricisidir.*

**Ağdamda yeni yaşayış kompleksinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Ağdamda yeni yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və «PMD Projects» MMC-nin İdarə Heyətinin sədri Nəriman Topçibaşev dövlət başçısına və xanımına inşa olunacaq kompleks barədə məlumat verdilər. Qeyd olundu ki, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21921 kvadratmetr olacaq. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.*

*Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.*

*Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdırmaq üçün tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin söylədiyi «Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq» ifadəsi Ağdam rayonun-*

*da yeni yaşayış kompleksinin təməlinin qoyulması ilə bir daha təsdiqini tapır. 30 ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan ağdamlılar üçün bu yaşayış kompleksinin təməlinin qoyulması onları bu arzularına daha da yaxınlaşdırır. Bu mərasim, eləcə də növbəti mərhələdə 0,86 hektar ərazidə daha 4 yaşayış binasının inşası ilə bağlı layihələndirmə işlərinin aparılması ağdamlılarda bu arzularının da olduqca qısa müddətdə reallaşdırılacağına qəti inam yaradır.*

## HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN AĞDAM CÜMƏ MƏSCİDİNDƏ GÖRÜLƏN BƏRPA-RESTAVRASİYA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*13 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olmuşlar.*

*İşğaldan azad olunmuş ərazilərdə Heydər Əliyev Fondunun layihələrinin koordinatoru Sabiq Abdullayev dövlət başçısına və xanımına görülən işlər barədə məlumat verdi.*

*Ağdam Cümə məscidi XIX əsrin 68–70-ci illərində memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir.*

*Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın «Brugger&KO Restauratoren GmbH» şirkəti ilə müqavilə imzalanıb.*

*Bildirildi ki, ilk addımda örtük və sement birləşmələri tamamilə çıxarılacaq. Tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması*

*üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək.*

*Məscidin bişmiş kərpicdən hörülmüş iki minarəsinə spiralvarı pilləkənlə qalxmaq mümkündür. Birinci mərhələdə qırıq birləşmələr, kafel və mövcud rəng nümunələri çıxarılacaq, ikinci mərhələdə minarələrin kərpic hörgülərinin biogen artımının qarşısı alınacaq, üçüncü mərhələdə isə kərpic nümunələri bərpa olunacaq. Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək.*

*Tarixi görüntülərdən də göründüyü kimi, məscid əvvəlcə taxta dam örtüyü ilə örtülüb, kərpic günbəzlər damın altında havadan və küləkdən qorunub. İlkin mərhələdə damın bütün landşaftı son biogen artımından azad ediləcək, qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılacaq.*

*Konservasiya zamanı çatışmayan, zəifləmiş və ya qeyri-sabit hörgü və tonoz konstruksiyaları yenilənəcək və ya birləşdiriləcək.*

*Namaz zalında birinci mərhələdə əsas kərpicdən başqa, bütün gips çıxarılacaq və sonrakı iş mərhələləri üçün hazırlanacaq. Bütün otaqlarda əhəng əsasında yeni, üçqatlı suvaq sistemi tətbiq ediləcək, son qatda ilk versiyaya (ağ rəngli) uyğun mineral boya tətbiq olunacaq.*

*Məscidin mehrabı hazırda qəzalı vəziyyətdədir. Müvafiq olaraq, məscidin bərpası zamanı təxminən*

*2 metr hündürlüyə qədər torpaq sahəsində duzsuzlaşdırılma tədbirləri həyata keçiriləcək.*

*Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.*

*Görülmüş işlərlə tanışlıqdan sonra dövlət başçısı çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılıb, bir neçə təməlqoyma mərasimi keçirilibdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaqdır.

Bu gün Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyuldu. Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq 5 rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu çox önəmli hadisədir. Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılmasıdır. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə ad-

dımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaqdır. Azərbaycanın iş adamlarına da mən bu gün burada – Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir – həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir. Əlbəttə, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin baş planı hazırlanıb, onun əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar.

Bu gün iki yarımstansiyanın açılışı oldu. Beləliklə, azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. «Ağdam-1» və «Ağdam-2» yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Bu gün Ağdamda mehmanxananın təməli qoyuldu. Müasir mehmanxana təqribən 2 ildən sonra fəaliyyətə başlayacaq. Buraya böyük sayda gələcək qonaqlara indi şərait yaradılır. Bu gün qeyd etdiyimiz hadisələrdən biri də yaşayış kompleksinin təməl daşının qoyulmasıdır. Altı evdən ibarət yaşayış

kompleksi təqribən il yarıma – iki ilə inşa ediləcək, bəlkə də ondan da tez və beləliklə, Ağdamın hərtərəfli inkişafı təmin olunacaq.

Bu gün eyni zamanda, Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulur. 210 çarpayılıq xəstəxana ağdamlılara tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradacaq.

Keçən dəfə Ağdamda olarkən mən burada 1 saylı məktəbin təməlini qoydum. O məktəbdə təqribən 1000-ə yaxın şagird oxuyacaq. Yəni bir daha demək istəyirəm ki, kompleks tədbirlər görülür – elektrik enerjisi ilə təchizat, Ağdama qaz xətlərinin çəkilişi layihəsi işlənilir, içməli suyun gətirilməsi, o cümlədən Xaçınçay su anbarının təmiri layihəsi builki investisiya proqramında vardır, yaşayış binaları, mehmanxana, iş yerləri. Yəni bu, hərtərəfli inkişaf deməkdir. Elə bu gün açılışında və təməlqoyma mərasimində iştirak etdiyim obyektlərdə biz bu genişmiqyaslı işləri görə bilərik.

Bununla yanaşı, Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə–Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Hesab edirəm ki, avtomobil yolu təqribən bir ilə hazır olacaq. Mənim göstərişimlə Füzuli–Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlanıbdır. Bu yol Füzuli və Ağdam şəhərlərini birləşdirəcək. Eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq.

Bu işlər bir daha onu göstərir ki, biz tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik,

siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik. Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli, həm də xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atır, maraq göstərir və biz bunu alqışlayırıq. Qarşımızda böyük işlər vardır. Bu işləri maksimum səmərə və keyfiyyətlə aparmaq üçün, əlbəttə ki, düşünülmüş addımlar planı olmalıdır. Bütün şəhərlər baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin baş planları işlənilir. Onlar hazır olan kimi biz artıq praktiki işlərə başlayacağıq.

Görülmüş bütün bu işlərlə yanaşı, biz tarixi, dini abidələrimizi də bərpa edirik. Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq, məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək. Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Bütün bu istiqamətlər üzrə işlər gedir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni

məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlanıbdır.

Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu bizim borcumuzdur və biz bunu edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk. Necə ki, Vətən müharibəsində Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi, düşməni doğma torpaqlarımızdan qovdu. Beləliklə, Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur. Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa, bir dənə də bina qalmayıb. Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyini görəcəklər.

Artıq Ağdama və Şuşaya avtobus marşrutları təşkil edilib. Ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar gəlirlər, tanış olurlar və öz

gözləri ilə görürlər ki, bizim xalqımız hansı bəla ilə üz-üzə idi. Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb. İmarət ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İndi bəziləri gələcək barışıq haqqında danışırlar. Əlbəttə ki, Ermənistan–Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Amma Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır.

Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaqdır. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

## 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak etmişlər.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaq-*

*la) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görüləcək işlər barədə dövlət başçısına və xanımına məlumat verdi. Bildirildi ki, 6 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcəkdir.*

*Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaqdır.*

*Müalicə ocağı ən müasir tibbi avadanlıqlarla, həmçinin Regional Kardiocərrahiyyə Mərkəzi xidmətini təmin etmək üçün angioqrafiya cihazı ilə təchiz olunacaqdır. Binanın zirzəmi hissəsindən isə stasionar tibbi xidmət və sığınacaq kimi istifadə ediləcək, ehtiyac yaranarsa, dərhal hərbi hospital kimi fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyev xəstəxananın təməlini qoydu. Qeyd olundu ki, növbəti mərhələdə Ağdam rayonu üzrə daha bir neçə səhiyyə müəssisəsinin inşası nəzərdə tutulub. Belə ki, qarşıdakı dövrdə burada Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası, çoxprofilli modul tipli xəstəxana, onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəm əleyhinə xəstəxana-*

*lar, 20 çarpayılıq Narkoloji Dispanser, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, 20 həkim məntəqəsi və ya kiçik həcmli Ailə Sağlamlıq Mərkəzi, Regional Tibb Kolleci də inşa olunacaqdır.*

**Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılmış şəraitlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılmış şəraitlə tanış olmuşlar.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və xanımına qərargahda yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, Ağdam şəhərində yerləşən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı ən son innovativ texnologiyalar əsasında tikilib.*

*Bir hektar sahəni əhatə edən qərargahın ərazisi düşərgə və inzibati hissədən ibarət olmaqla, inşası əsasən 6 komponent üzrə həyata keçirilib. Bunlar yaşayış, inzibati, sağlamlıq, iaşə, müasir düşərgə idarəetmə sistemi və alternativ enerji sahələridir.*

*Qərargahda innovativ tikinti materiallarından istifadə olunmaqla, yüksəkkeyfiyyətli modul tipli isti və soyuğa davamlı, ekoloji fərdi yaşayış və inzibati binalar inşa olunub. Təhlükəsizliyin təmin edilməsi məqsədilə müasir kamera müşahidə məntəqəsi yaradılıb, açıq və qapalı idman zalları, futbol, basketbol və voleybol meydançaları, ilkin tibbi yardım məntəqəsi, müxtəlif tədbirlər üçün iclas zalı və avtomobil dayanacaqları tikilibdir.*

*Qərargahda Günəş və bioqaz enerjisindən istifadə sistemləri quraşdırılıb və daxili yollar müasir işıqlandırma sistemləri ilə təchiz edilib. Ümumilikdə 3300 kvadratmetr sahədə salınmış yaşıllıq zolağında ilin hər fəslinə uyğun 30-dan çox növdə ağac və bitki kolları əkilib. Yaşıllıqların suvarılması üçün 3500 metr avtomatlaşdırılmış damcılama və çiləmə sistemləri quraşdırılıb.*

*İnzibati ərazinin tam mərkəzində Bayraq Meydanı tikilib. Meydanın ətrafı abadlaşdırılıb, burada Günəş enerjisi ilə qidalanan işıq dirəkləri quraşdırılıb. Ümumiyyətlə, Günəş enerjisi düşərgə daxilində istifadə olunan əsas alternativ enerji mənbəyidir.*

## Qarabağ xanlarının türbələri və yaşayış evi – İmarət Kompleksini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi – İmarət Kompleksində olmuşlar.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və xanımına kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verdi.*

*XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək, dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti adlandırılıb. İşğal edilmiş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub.*

*Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin – Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhər ağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, «Məclisi-üns»ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.*

## AĞCABƏDİ RAYONUNA SƏFƏR

*13 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Ağcabədi rayonuna səfər etmişlər.*

*Dövlət başçısı və xanımı «Ağcabədi Taxıl Aqroparkı»nda yaradılmış şəraitlə tanış oldular.*

*Aqroparkın icraçı direktoru Elman Kərimov dövlət başçısına və xanımına burada görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, müasir əkinçilik və bağçılıq təsərrüfatının qurulması layihəsi olan aqroparkın ümumi sahəsi 3000 hektardır. Bu ərazinin 850 hektarı dövlət ehtiyat fonduna daxildir. Aqroparkın faktiki əkin sahəsi 1368 hektardır. Burada əsasən arpa, buğda, qarğıdalı, pambıq, günəbaxan və sair bitkilər becərilib. Aqroparkda, həmçinin 110 hektar sahədə intensiv badam bağı salınıb. Burada suvarma mənbəyi kimi, Yuxarı Qarabağ kanalından istifadə olunur. Əkin sahələrinin suvarılmasında ən müasir sistemlərdən istifadə edilir.*

*Məlumat verildi ki, aqroparkın emal sahəsi gündəlik gücü 150 ton olan Yem zavodundan və 100 ton olan yem paketləmə xəttindən ibarətdir. Burada, həmçinin 26 min kubmetr həcmində müasir taxıl və 12 min kubmetrlik silos anbarları yaradılıb. Gücü*

*saatda 50 ton olan qurutma sahəsində dənli bitkilərin qurudulması üçün müasir avadanlıqlar quraşdırılıb. Aqroparkın texnika parkı 20 traktor və kombayndan, eləcə də 86 aqreqatdan ibarətdir.*

*«Ağcabədi Taxıl Aqroparkı»nın təchizatı üçün 3 kilometr uzunluğunda su xətti, 150 min kubmetr həcmində su anbarı, 2 nasos stansiyası, 6 transformator mərkəzi, uzunluğu 4 kilometr olan 10 kilovoltluq birdövrəli elektrik verilişi hava xətti və 3 kilometr uzunluğunda qaz xətti çəkilibdir.*

*Ümumi dəyəri 35 milyon manat olan aqroparkın yaradılmasına 9,8 milyon manat məbləğində güzəştli kredit verilib. Burada 41-i daimi olmaqla 150 iş yeri yaradılıb. Diqqətə çatdırıldı ki, ötən il aqroparkda ümumilikdə 3094 hektar sahədən 20 721 ton məhsul – 2240 ton buğda, 1932 ton arpa, 7685 ton dən üçün qarğıdalı, 416 ton birillik ot, 87 ton pambıq, 14 ton soya, 1705 ton qarışıq senaj və 6642 ton digər məhsullar götürülüb. Cari ildə aqroparkda 466 hektar sahədə pambıq, 100 hektarda popkorn, 1177 hektarda qarğıdalı, 146,5 hektarda buğda, 1050,45 hektarda arpa, 10 hektarda isə yonca əkilməsi nəzərdə tutulur.*

## Yenidən qurulmuş 110/35/10 kilovoltluq «Ağcabədi» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də yenidən qurulmuş 110/35/10 kilovoltluq «Ağcabədi» yarımstansiyasının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 40 il əvvəl tikilən və istismar müddəti başa çatan, eləcə də artan tələbatı ödəyə bilməyən 110/35/10 kilovoltluq «Ağcabədi» yarımstansiyası genişləndirilərək, rəqəmsal qaydada tam yenidən qurulub. Yarımstansiyanın gücü 23 meqavolt-amper artırılaraq 126 meqavolt-amperə çatdırılıb. Burada 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək yenidən qurulub.*

*İşğaldan azad edilmiş ərazilərə qonşuluqda yerləşən sistem əhəmiyyətli «Ağcabədi» yarımstansiyasında yeni İdarəetmə Mərkəzi tikilib. Müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə, avtomatika sistemləri ilə təchiz olunmuş rəqəmsal İdarəetmə Mərkəzində yerli mikro-SCADA dispetçer idarəetmə sistemi yaradılıb. 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular İdarəetmə Mərkəzinin daxilində yerləşdirilib. İdarəetmə Mərkəzi ilə 110 kilovoltluq açıq paylayıcı qurğu arasında xüsusi hermetik kabel kanalları tikilib.*

*Dövlət başçısı yarımstansiyanı işə saldı.*

*Qeyd olundu ki, yenidən qurulmuş yarımstansiya Ağcabədi şəhərində və rayon ərazisində yerləşən yaşayış məntəqələrini, meliorasiya, sənaye, sosial infrastruktur, ictimai-iaşə və digər obyektləri elektrik enerjisi ilə təchiz edəcəkdir.*

## DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ AĞCABƏDİ RAYONUNDA YENİ İNŞA OLUNMUŞ HƏRBİ ŞƏHƏRCİYİNİN AÇILIŞI MƏRASİMİ

*13 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunmuş hərbi şəhərciyinin açılışında iştirak etmişlər.*

*Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov və Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdilər. Hərbi şəhərcikdə görülmüş işlər barədə məlumat verən nazir Vilayət Eyvazov bildirdi ki, ərazisi 6,2 hektar olan hərbi şəhərciyin inşasına 2019-cu ilin sentyabrında başlanılıb. Tikinti işləri ötən ilin noyabrında uğurla başa çatdırılıbdır.*

*Qeyd olundu ki, hərbi şəhərcikdə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi üçün qərargah, 3 əsgər kazarması, zabitlər üçün beşmərtəbəli və ikimərtəbəli 84 mənzilli 2 yataqxana, 2 yeməkxana, tibb, qarovul, texniki nə-*

*zarət-buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıbdır. Yeni binalar zəruri mühəndis-kommunikasiya, o cümlədən elektrik və su təchizatı, havalandırma, yanğın-siqnalizasiya, rabitə-informasiya və videomüşahidə sistemləri ilə təchiz edilibdir.*

*Binalar zəruri mebel və inventarla təmin edilib, ehtiyat elektrik təchizatı mənbəyi olaraq, generator və stabilizator qurğuları quraşdırılıbdır. Şəhərciyin daxilində və ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılıbdır.*

*Prezident, Ali Baş Komandan hərbi şəhərcikdə qərargah, əsgər yataqxanaları, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu. Diqqətə çatdırıldı ki, şəhərcikdə xidmətin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıbdır.*

*Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulmuş silah-sursata və hərbi texnikaya baxdı.*

*Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında, təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Daxili Qoşunların xüsusi təyinatlıları Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülübdür.*

*Daxili Qoşunlar Daxili İşlər Nazirliyinin ayrılmaz tərkib hissələrindən biri kimi, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusion hüquqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm və strateji əhəmiyyətli dövlət obyektlərinin mühafizəsini həyata keçirməyə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.*

## Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun yenidən qurulmadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 13-də Ağcabədi rayonunda Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun yenidən qurulmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına və xanımına görülmüş işlər barədə məlumat verdi.*

*Qeyd edildi ki, uzunluğu 41 kilometr olan və Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd marşrutu üzrə yaşayış məntəqələrinə gedən avtomobil yolu başlanğıcını respublika əhəmiyyətli Mingəçevir–Stansiya Mingəçevir–Bəhrəmtəpə avtomobil magistralından götürür.*

*Dövlət başçısının müvafiq sərəncamına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin*

*«Azəryolelmitədqiqatlayihə İnstitutu» MMC tərəfindən avtomobil yollarının 5-ci texniki dərəcədən 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilməsi məqsədilə yol layihəsi hazırlanıb. Layihəyə uyğun olaraq, yolun bir neçə marşrut üzrə yenidən qurulmasına start verilib. Bu, Avşar, Salmanbəyli, Aşağı Avşar və Xocavənd kəndlərinə gedən 27,4 kilometrlik, həmçinin Avşar kəndinin 5,6, Salmanbəyli kəndinin 2,9, Aşağı Avşar kəndinin 4,5 və Xocavənd kəndinin 0,6 kilometr uzunluğunda daxili yolları idi.*

*Layihə çərçivəsində yolda 4 avtobus dayanacağı inşa edilib, yol nişanları və məlumatverici lövhələr, təhlükəsizlik dirəkləri quraşdırılmaqla müasir yol infrastrukturu yaradılıb.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya respublika əhəmiyyətli Ucar–Zərdab–Ağcabədi avtomobil yolunda görülmüş işlər barədə də məlumat verildi.*

*Bildirildi ki, respublika əhəmiyyətli bu yolun yenidən qurulması işləri sürətlə və keyfiyyətlə başa çatdırılıb. Ucar şəhərinin girişindən başlayan bu yol Ağcabədi şəhərinin cənubunda Mingəçevir–Bəhrəmtəpə avtomobil yoluna birləşir. Layihəyə əsasən, hər birinin eni 3,75 metr olmaqla iki hərəkət zolağından ibarət yolun ümumi eni 15 metrdir. Yolboyu 9 yeraltı keçid, 26 su keçidi, 74 suötürücü boru və 30 avtobus dayanacağı inşa edilib. Həmçinin uzunluqları 20 metrdən 175 metrədək olan 7 avtomobil körpüsünün inşası da uğurla başa çatdırılıb.*

*Bu avtomobil yolu respublikamızın regionları, o cümlədən Ucar, Zərdab, Ağcabədi rayonları ara-*

*sında iqtisadi əlaqələrin, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərini əlaqələndirən yol tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında da mühüm rol oynayacaqdır.*

*Layihənin icrası həm də yolboyu yerləşən yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafına böyük töhfə verəcək. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, yolların müasirləşdirilməsi bölgələrimizin turizm, kənd təsərrüfatı potensialını da gücləndirir.*

## NATO-nun BAŞ KATİBİ YENS STOLTENBERQ İLƏ TELEFONLA GÖRÜŞ

*15 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 15-də NATO-nun baş katibi Yens Stoltenberq zəng etmişdir.*

*Söhbət zamanı NATO-nun baş katibi ötən ilin dekabrında NATO-ya səfəri və NATO-nun ali orqanı olan Şimali Atlantika Şurasında çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi.*

*Dövlət başçısı dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi.*

*Telefon danışığı əsnasında Azərbaycan–NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olundu, Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparıldı.*

*NATO-nun baş katibi Avropanın etibarlı qaz təchizatçısı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın enerji məhsulu növlərinin önəmli ixracatçısı kimi, etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcəyini diqqətə çatdırdı.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ TELEFONLA GÖRÜŞ

*16 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 16-da Polşa Respublikasının Prezidenti Andjey Duda zəng etmişdir.*

*Söhbət zamanı Polşa Prezidenti 2019-cu ildə Azərbaycana rəsmi səfərini məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev də bu səfərin uğurlu olduğunu, ikitərəfli əlaqələrimizin inkişafına töhfə verdiyini vurğuladı.*

*Telefon danışığı zamanı Azərbaycan ilə Polşa arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparıldı.*

*Polşa Prezidenti ATƏT-in fəaliyyətdə olan sədri kimi, Mərkəzi və Şərqi Avropa regionunda təhlükəsizlik məsələlərinə toxundu və ATƏT çərçivəsində atılan addımların gərginliyin azaldılmasına xidmət edəcəyini vurğuladı.*

*Söhbət əsnasında Ukrayna ətrafında cərəyan edən hadisələrə dair fikir mübadiləsi də aparıldı.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDJEY DUDAYA

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Sizi və dost Polşa xalqını səmimiyyətlə təbrik edirəm.

Azərbaycan–Polşa münasibətləri dərin tarixi köklərə və xoş ənənələrə malikdir. Tarixi əlaqələrimiz müasir dövrdə əməkdaşlığımız üçün möhkəm zəmin yaratmışdır. Xalqlarımız arasında dostluq ənənələrinə söykənən və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərimizin mövcud vəziyyəti məmnunluq doğurur.

Biz Azərbaycan ilə Polşa arasında əlaqələrə böyük əhəmiyyət veririk. Yüksək səviyyəli qarşılıqlı səfərlər, siyasi, iqtisadi-ticari, mədəni və digər sahələrdə genişlənən əməkdaşlıq diplomatik əlaqələrimizin 30 illik tarixini səciyyələndirən cəhətlərdir. Əlamətdar haldır ki, biz bu il həm də münasibətlərimizin xarakterini bariz şəkildə əks etdirən «Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair «Yol xəritəsi» haqqında Birgə Bəyannamə»nin imzalanmasının 5 illiyini qeyd edirik.

Hesab edirəm ki, Azərbaycan ilə Polşa arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı perspektivlər vardır. İqtisadiyyat, nəqliyyat və digər sahələrdəki mövcud potensialdan tam şəkildə istifadə etməklə əməkdaşlığımızı daha da möhkəmləndirə və genişləndirə bilərik.

Dövlətlərarası münasibətlərin inkişafında davamlı təmaslar və ali səviyyəli səfərlər xüsusi əhəmiyyət daşıyır. Mən Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlərimizi ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, Azərbaycan–Polşa əlaqələri dövlətlərimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq, birgə səylərimizlə bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Polşa xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 fevral 2022-ci il*

## BAKI ŞƏHƏRİ NİZAMİ RAYONU, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU VƏ KÜRDƏMİR RAYON İCRA HAKİMİYYƏTLƏRİNİN YENİ TƏYİN EDİLMİŞ BAŞÇILARI İLƏ GÖRÜŞ

*18 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Coşqun Cəbrayılovu Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı, Elgin Həbibullayevi Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı və Elxan İbrahimovu Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul etmişdir.*

*Dövlət başçısı videoqəbulda çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün siz icra başçıları vəzifəsinə təyin edilirsiniz. Bakı şəhərinin Nizami, Nərimanov və Kürdəmir rayonlarına rəhbərlik edəcəksiniz. Sizə böyük etimad göstərilir və əminəm ki, bu etimadı doğruldacaqsınız, öz işinizlə vətəndaşların rəğbətini qazanacaqsınız və ölkəmizdə gedən islahatları dərinləşdirmək üçün əməli səylər göstərəcəksiniz.

İlk növbədə, rayonlarda vəziyyət dərindən təhlil edilməli, mövcud problemlərə xüsusi diqqət göstə-

rilməlidir. Son illər ərzində ölkəmizin hər bir yerində genişmiqyaslı quruculuq-abadlıq işləri, geniş islahatlar aparılır. Bildirməliyəm ki, 2004-cü ildə qəbul edilmiş birinci Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramının və sonrakı dövrdə buna oxşar proqramların qəbul edilməsi bölgələrdə vəziyyəti böyük dərəcədə müsbətə doğru dəyişdirmişdir. Qarşıda duran əsas vəzifələr icra edilib, infrastrukturla bağlı olan məsələlər, sosial obyektlərin təmiri, tikintisi, ictimai yerlərin yaradılması, iş yerlərinin yaradılması, işsizliyin aradan qaldırılması, yəni bütün bu göstəricilər aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən qeyd edilir və Azərbaycan ümumi inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında qabaqcıl yerlərdədir, birinci üçlükdədir. Amma bu o demək deyil ki, biz əldə olunan nailiyyətlərlə kifayətlənək. Ölkə qarşısında hələ də problemlər var və bu problemlər həll olunmalıdır.

Bölgələrə gəldikdə, bölgələrdə canlanma və inkişaf imkan verdi ki, Azərbaycanın bütün bölgələrində genişmiqyaslı işlər aparılsın. Amma bu günə qədər mövcud olan problemlər də var, o cümlədən Bakı şəhərində, baxmayaraq ki, Bakı şəhəri gördüyümüz işlər nəticəsində dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bakıya gələn qonaqlar və əlbəttə ki, yerli sakinlər bunu məmnunluqla qeyd edirlər. Ancaq əgər biz desək ki, Bakının bütün problemləri həll edilib, səhv edərik. Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq Bakının bütün yerləri heç də bu meyarlara cavab

vermir. Ona görə xüsusilə inkişafa yönəlmiş addımlar Bakının hər bir guşəsində atılmalıdır. İnsanları narahat edən problemlərin həlli həm Bakıda, həm bölgələrdə ön planda olmalıdır.

Siz daim insanlarla təmasda olmalısınız, onların problemlərini onlardan eşitməlisiniz, laqeyd olmamalısınız. Yəni bütün məmurlar qarşısında mənim tərəfimdən qoyulan vəzifələr bundan ibarətdir. Çünki hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə, xalqın xidmətçisidir. Mən bunu dəfələrlə həm öz çıxışlarımda, həm də icra başçılarını vəzifəyə təyin edərkən demişəm. Ancaq əfsuslar olsun ki, bəzi hallarda mənim təyin etdiyim vəzifəli şəxslər öz vəzifə borclarını yerinə yetirmək əvəzinə qanunsuz işlərlə – korrupsiya ilə, rüşvətxorluqla məşğul idilər. Kasıb insanların malına göz dikirdilər, dövlət tərəfindən ictimai işlərə cəlb edilən insanların maaşını mənimsəyirdilər. Bu vicdansızlıq və əxlaqsızlıq nəticəsiz qalmadı. Bildiyiniz kimi, bir çox icra başçısı cinayət məsuliyyətinə cəlb olunub, artıq bir çoxu məhkum edilib, bəzilərinin isə cinayət işlərinin istintaqı davam edir.

Bu, təkcə icra hakimiyyəti başçılarına aid deyil, bütün məmurlara aiddir. Heç kim qanundan yuxarı ola bilməz. Qanun qarşısında hamı bərabərdir. Dövlət məmurunun üzərinə düşən vəzifə və məsuliyyət onları dediyim prinsiplərə riayət etməyə sövq etməlidir. Əks təqdirdə onlar cəzalandırılacaqlar və artıq gördüyümüz işlər bunu təsdiqləyir. Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir. Ona görə

bu məsuliyyəti dərk edərkən siz öz addımlarınızı da bu istiqamətdə atmalısınız.

Kadr sahəsində kadrların düzgün seçilməsi böyük dərəcədə işlərin uğurla getməsinə şərait yaradacaq. Ona görə də kadrların seçilməsində ilk növbədə, insanların iş qabiliyyəti nəzərə alınmalıdır, dövlətçiliyə, dövlətə sədaqət nəzərə alınmalıdır, vətənpərvərlik nəzərə alınmalıdır. Tanışlıq, qohumluq əlaqələri və hansısa başqa prinsiplər tamamilə aradan qaldırılmalıdır. Elə kadrlar seçilməlidir ki, bu kadrlar dövlət məmurları qarşısında duran vəzifələri şərəflə yerinə yetirsinlər. Eyni zamanda, qeyd etdiyim kimi, vətənpərvər insanlar, dövlətə, xalqa bağlı olan insanlar ön plana çıxmalıdırlar və kadr təyinatları aparılanda bu, nəzərə alınmalıdır.

Vətən müharibəsində qəhrəmanlıq göstərmiş övladlarımızın məşğulluq məsələləri də mənim göstərişimlə öz həllini tapır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu sahədə genişmiqyaslı işlər görür – məşğulluq marafonu keçirilir. Mənim tərəfimdən sahibkarlara tövsiyə edilib ki, işə qəbulda ilk növbədə, Vətən müharibəsində fərqlənmiş gənclərimizi nəzərə alsınlar. Dövlət qurumları qarşısında bu vəzifəni mən qoymuşam. Siz də bu amili nəzərə almalısınız ki, öz canını fəda etməyə hazır olan gənclərimiz işlə təmin edilsinlər. Onların peşə qabiliyyətinin təkmilləşdirilməsi üçün müxtəlif tədbirlər görülməlidir. Yəni biz onları gələcək fəaliyyətə hazırlamalıyıq. Bir daha qeyd etmək istəyirəm ki, kadr məsələlərinin düzgün təşkilində əsas prinsiplər

dediyim iş qabiliyyəti, vətənpərvərlik və dövlətçilik əsasları olmalıdır.

Son vaxtlar özəl sektorun inkişafı nəticəsində biz daha böyük uğurlara nail olmuşuq. Bu sahə deyə bilərəm ki, ilk günlərdən mənim Prezident kimi, fəaliyyətimdə önəmli yer tuturdu və məhz bunun nəticəsində indi biz ümumi daxili məhsulumuzun əsasını, əksər hissəsini özəl sektor tərəfindən, qeyri-neft sektoru tərəfindən təmin edirik. Ancaq indiki şəraitdə, xüsusilə postmüharibə dövründə özəl sektorun üzərinə daha böyük vəzifələr düşür. Əlbəttə ki, ilk növbədə, onlar azad edilmiş torpaqlara fikir verməlidirlər və orada öz işlərini qurmalıdırlar, eyni zamanda, fəaliyyət göstərdikləri bütün bölgələrdə fəal olmalıdırlar. Bu məsələ ilə bağlı mən artıq dəfələrlə öz fikirlərimi demişəm. Bu fəallığı dövlət təmin edir. Mən Prezident kimi, həmişə sahibkarlara dəstək olmuşam, həm mənəvi cəhətdən, həm də yaradılmış infrastruktur, güzəştli şərtlərlə verilmiş kreditlər və digər addımlar atılıbdır. Yerlərdə isə onlara elə şərait yaradılmalıdır ki, onlar həvəslə investisiya qoysunlar, iş yerləri yaratsınlar. Bir sözlə, onlara maneçilik törətmək yox, əksinə, kömək etmək lazımdır. Özəl sektorun inkişafı ümumi iqtisadi siyasətimizin istiqamətlərini nəzərə almalıdır.

Bir sözlə, baxmayaraq ki, biz böyük uğurlara nail olmuşuq, ölkə qarşısında problemlər kifayət qədər çoxdur və yerlərdəki bu problemlərin həlli böyük dərəcədə məmurlardan asılıdır. Çünki dövlət və hökumət öz üzərinə nə düşürsə, onu edir. Eyni zamanda, qanunvericilik orqanımız – Milli Məclis

qanunlar qəbul edir. Prezident sərəncamlar imzalayır, dövlət proqramları qəbul edilir. Hökumət gündəlik fəaliyyətdə islahatların dərinləşməsi ilə bağlı addımlar atır. Yəni bütün lazımi tədbirlər görülür. Bundan əlavə, bizim uğurlu siyasətimiz nəticəsində əldə edilmiş maliyyə resursları buna imkan verir. Biz indi dünyada nadir ölkələrdənik ki, heç kimdən asılı deyilik, iqtisadi cəhətdən tamamilə müstəqilik, heç bir kreditə ehtiyacımız yoxdur. Əksinə, mən göstəriş vermişəm ki, xarici dövlət borcumuz ildən-ilə azalsın və keçən ilin nəticələrinə görə, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Mən göstəriş vermişəm ki, onu 15, 12, 10 faizə endirək. Yəni bizim qarşımızda indi maliyyə problemlərimiz yoxdur desəm, səhv olar. Ancaq eyni zamanda, bütün bu işləri özümüz görürük. O cümlədən Qarabağı və Zəngəzuru dirçəltmək üçün heç kimdən bir manat yardım, yaxud da ki, kredit almamışıq. Yəni bu, deməyə əsas verir ki, sadəcə olaraq, yerlərdə işlər düzgün təşkil olunduqda problemlər də öz həllini tapacaqdır.

Kürdəmir rayonunun kəndlərində mövcud olan problemlər təhlil edilməlidir. İcra başçısı bütün kəndlərə getməlidir, insanlarla görüşməlidir. Əgər hər bir kəndin problemi həll olunarsa, onda, demək olar ki, bütün problemlər həll olunar. O cümlədən Nizami və Nərimanov rayonlarının bütün guşələrində işlər elə getməlidir ki, bu rayonlar nümunəvi olsun. Yerlərdə həlli mümkün olmayan problemlərin – elə problemlər təbii ki, var – həlli üçün siz mərkəzi icra orqanlarına müraciət etməlisiniz, həlli mümkün olan problemləri isə özünüz həll etməlisi-

niz ki, insanlar sizdən razı olsun. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam.

Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Bu təyinatı mən ictimaiyyət üçün açıq edirəm ki, hər kəs bir daha mənim tövsiyələrimi və sizin məsuliyyətinizi görsün. Sizə uğurlar diləyirəm.

**Coşqun Cəbrayılov** (*Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin yeni təyin edilmiş başçısı*): Möhtərəm cənab Prezident, mənə göstərdiyiniz bu böyük etimada görə Sizə öz dərin minnətdarlığımı bildirirəm. Söz verirəm ki, fəaliyyətim dövründə bu böyük etimadı doğrultmaq üçün var gücümlə çalışacağam.

**Elgin Həbibullayev** (*Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin yeni təyin edilmiş başçısı*): Möhtərəm cənab Prezident, mən də göstərdiyiniz bu böyük etimada görə dərin minnətdarlığımı bildirirəm. Sizin sərəncamınızla təyinat almaq həm böyük şərəf, həm də çox böyük məsuliyyətdir. Sizin qarşıya qoyduğunuz bütün vəzifələri icra etmək, böyük etimadınızı doğrultmaq üçün var qüvvəmlə çalışacağıma söz verirəm.

**Elxan İbrahimov** (*Kürdəmir Rayon İcra Hakimiyyətinin yeni təyin edilmiş başçısı*): Möhtərəm cənab Prezident, göstərdiyiniz bu böyük etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. İşimizi Sizin müəyyən etdiyiniz müasir idarəetmə prinsipləri üzərində qurmaqla bu etimadı doğrultmağa çalışacağam.

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dinamik inkişaf yolunda olan Azərbaycan–Serbiya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, müxtəlif sahələrdə səmərəli əməkdaşlığımız münasibətlərimizin məzmununu real şəkildə əks etdirir.

İnanıram ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin, strateji tərəfdaşlığımızın hərtərəfli inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Serbiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2022-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Biz bu il Azərbaycan ilə Almaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcəyik. Bu dövr ərzində ikitərəfli səviyyədə nail olduğumuz siyasi dialoq, bir sıra sahələrdə formalaşmış qarşılıqlı faydalı əməkdaşlıq ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edir.

İnanıram ki, dövlətlərarası münasibətlərimiz və səmərəli əməkdaşlığımız istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2022-ci il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS CONSONA

Hörmətli cənab Baş Nazir!

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi ürəkdən təbrik edir, dost xalqınıza ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan Birləşmiş Krallıq ilə dostluq və əməkdaşlığa xüsusi əhəmiyyət verir. Sevindirici haldır ki, son otuz ildə ölkələrimiz arasında qarşılıqlı inam və dəstəyə əsaslanan siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz dinamik şəkildə inkişaf etmişdir. Bu dövr ərzində iqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər məmnunluq doğurur. Birləşmiş Krallıq bu günədək Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayələr yatırıbdır. Azərbaycanın ən iri ticarət tərəfdaşlarından biri olan ölkənizi təmsil edən 600-ə yaxın şirkət Azərbaycanda bir sıra vacib layihələrə cəlb olunub və uğurla fəaliyyət göstərir.

Enerji sahəsində sınaqdan çıxmış çoxillik strateji tərəfdaşlıq münasibətlərimizi xüsusi qeyd etmək istəyirəm. 1994-cü ildə «Əsrin müqaviləsi» ilə əsası qoyulmuş enerji sahəsindəki əməkdaşlığımızın bu

gün də müvəffəqiyyətlə davam etməsi səmərəli işgüzar əlaqələrimizin və qarşılıqlı etimadın təzahürüdür. Neft-qaz hasilatında etibarlı tərəfdaşımız olan *bp* şirkəti ilə strateji əməkdaşlığımız məmnunluq doğurur. «Cənub Qaz Dəhlizi»nə Birləşmiş Krallığın verdiyi dəstəyi yüksək qiymətləndirir, layihənin inşasının uğurla başa çatması münasibətilə təbriklərimi yetirirəm.

Əlamətdar haldır ki, bu gün enerji sahəsində əməkdaşlığımız inkişaf edərək, yeni müstəviyə çıxıbdır. Azərbaycanın «yaşıl enerji»yə keçid istiqamətində ölkəniz ilə birgə fəaliyyəti qeyri-neft sektorunda əlaqələrimizin şaxələndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Eyni zamanda, biz Birləşmiş Krallığın şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsinə verdiyi töhfəni alqışlayır, bu ərazilərin yenidən qurulması və bərpası işlərində yaxından iştirakını təqdir edirik. İnanıram ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı əməkdaşlıq bundan sonra da birgə səylərimizlə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, Birləşmiş Krallığın dost xalqına daim firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2022-ci il*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət, əziz qardaşım!

Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Sizi və qardaş xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın maraqlarına xidmət edən dövlətlərarası əlaqələrimiz ötən 30 il ərzində dinamik inkişaf yolu keçmiş, əməkdaşlığımız həm ikitərəfli, həm də çoxtərəfli əsasda genişlənmişdir.

Səudiyyə Ərəbistanı bizim üçün vacib tərəfdaş və qardaş ölkədir. Mən qarşılıqlı etimad üzərində qurulmuş münasibətlərimizin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm. Eyni zamanda, ölkələrimizin beynəlxalq təşkilatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığını məmnunluqla qeyd edir, qarşılıqlı fəaliyyətimizi bundan sonra da davam etdirmək əzmində olduğumuzu bildirirəm.

Azərbaycan xalqı Səudiyyə Ərəbistanının ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi

dəstəyi və ədalətli mövqeyini yüksək qiymətləndirir və bunu qardaşlığımızın bariz ifadəsi kimi qəbul edir.

Bu gün bir sıra sahələrdə əldə etdiyimiz nailiyyətlər məmnunluq doğurur. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda, OPEC+ formatı çərçivəsində uğurlu işbirliyimiz təqdirəlayiqdir. Bərpa olunan enerji sahəsində əməkdaşlığımızı xüsusilə qeyd etmək istəyirəm. Azərbaycanın bu sektorda ən böyük elektrik stansiyası olacaq və ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək «Xızı–Abşeron» Külək Elektrik Stansiyası layihəsinin investoru və icraçısının məhz qardaş ölkənizin «ACWA Power» şirkətinin olması bizi sevindirir.

Əlahəzrət!

Səudiyyə Ərəbistanına etdiyim səfərlər zamanı mənə göstərilən yüksək diqqət və qonaqpərvərliyi, Sizinlə mehribanlıq və səmimiyyət şəraitində keçən görüşlərimizi həmişə ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ənənəvi dostluq əlaqələrini genişləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər, Səudiyyə Ərəbistanı Krallığının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2022-ci il*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ

Hörmətli cənab Federal Prezident!

Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar təbrik məktubunuza görə təşəkkür edirəm. Mən də öz növbəmdə, ikitərəfli əlaqələrimizdə bu əlamətdar tarix münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir və xoş arzularımı yetirirəm.

Ötən dövr ərzində ölkələrimiz arasında formalaşmış dostluq münasibətlərinin mövcud vəziyyəti məmnunluq doğurur. Siyasi, ticari, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığımız dövlətlərimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edir.

İnanıram ki, sağlam təməl üzərində qurulmuş ənənəvi dostluq əlaqələrimiz və qarşılıqlı maraq doğuran əməkdaşlığımız istər ikitərəfli qaydada, istərsə də beynəlxalq strukturlar çərçivəsində bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına daim rifah arzulayıram.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2022-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurla inkişaf etdiyini qeyd etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında konstruktiv dialoqun mövcud olduğunu söyləyən dövlət başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə müntəzəm dialoq apardığını xatırlatdı. Prezident İlham Əliyev Prezident Şarl Mişelin Azərbaycan–Avropa İttifaqı münasibətlərinə, həmçinin Ermənistan–Azərbaycan əlaqələrinin normallaşdırılmasına töhfəsini müsbət qiymətləndirdiyini vurğuladı.*

*Toivo Klaar Azərbaycan–Avropa İttifaqı münasibətlərinin inkişafından məmnunluğunu ifadə etdi. «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclasında iştirak etmək və Azərbaycan–Avropa İttifaqı əlaqələrinə dair müzakirələr aparmaq üçün Aİ-nin iki komissarının bu yaxınlarda Azərbaycana səfər etdiyini*

*xatırladan xüsusi nümayəndə səfər çərçivəsində çox səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırdı. Toivo Klaar da Prezident Şarl Mişelin Azərbaycan–Avropa İttifaqı münasibətlərinə, həmçinin Ermənistan–Azərbaycan əlaqələrinin normallaşdırılmasına önəmli dəstək verdiyini bildirdi. O həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa dair yeni saziş üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvar olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Aİ-nin iki komissarının «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclasında iştirakını müsbət qiymətləndirdiyini və bunun Avropa İttifaqının Azərbaycan ilə münasibətlərə verdiyi önəmin ifadəsi olduğunu bildirdi.*

*Dövlət başçısı Azərbaycan–Avropa İttifaqı əlaqələrinin şaxələndirilmiş xarakter aldığını və bir çox sahələri əhatə etdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyinin bəyan etdiyi kimi, Azərbaycana müxtəlif layihələrin dəstəklənməsi üçün 2 milyard avro dəyərində güzəştli kredit xəttinin ayrılmasının da əlaqələrimizin müsbət inkişafının göstəricisi olduğunu bildirdi.*

*Dövlət başçısı ötən ilin dekabrında Prezident Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə Ermənistanın baş nazirinin də iştirakı ilə keçirilmiş görüşün əhəmiyyətini vurğuladı. Brüssel gündəliyinin önəmini diqqətə çatdıran Prezident İlham Əliyev bu xüsusda müzakirələrin və praktiki işin aparılmasının vacibliyini qeyd etdi, həmçinin Azərbaycana minaların təmizlənməsi prosesində veriləcək dəstəyin təqdir olunduğunu söy-*

*lədi. Dövlət başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığa dair saziş üzrə danışıqların intensiv şəkildə aparılması və onun tez bir zamanda yekunlaşdırılması üçün müvafiq qurumlara tapşırıqların verildiyini diqqətə çatdırdı. Birinci Ermənistan–Azərbaycan müharibəsi zamanı 4000-dən artıq insanın itkin düşdüyünü xatırladan Prezident İlham Əliyev ötən il Brüsseldə və cari il fevralın 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə dördlü formatda keçirilmiş görüşlərin nəticəsi olaraq, itkin düşmüş şəxslərin taleyinin və onların basdırıldığı kütləvi məzarlıqların müəyyən edilməsi məsələsində Ermənistan tərəfinin konstruktiv formada davranmasının vacibliyini diqqətə çatdırdı.*

*Görüşdə, həmçinin Ermənistan–Azərbaycan arasında kommunikasiyaların bərpası, sərhədlərin delimitasiyası və digər prinsipial məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASINA RƏSMİ SƏFƏR

*21 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı «Vnukovo-2» Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rusiya Federasiyası Xarici İşlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlət başçımıza raport verdi, Azərbaycan və Rusiyanın Dövlət himnləri səsləndirildi.*

## ALEKSANDR BAĞINDA NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*Moskva*

*22 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət etmişdir.*

*Prezident İlham Əliyev Rusiya paytaxtında Kremlin yanındakı Aleksandr bağına gəldi.*

*Prezident İlham Əliyev naməlum əsgərin məzarını ziyarət edərək, əbədi məşəl önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Sonra Fəxri qarovul dəstəsinin keçidi oldu.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Moskva*

*22 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur.*

**V l a d i m i r  P u t i n**: Salam. Təəssüf ki, pandemiya bizim normal ünsiyyət saxlamağımıza və görüşməyimizə imkan vermir. Bu da müəyyən dərəcədə narahatlıq doğurur, lakin hər halda, Sizi görməyə çox şadam. Sağ olun ki, təklifimi qəbul etdiniz.

Sizin səfəriniz ikitərəfli münasibətlərimizdə əlamətdar hadisə – diplomatik münasibətlərimizin yaradılmasının 30 illiyi ərəfəsində keçir. Bu gün biz qarşılıqlı müttəfiqlik əlaqələri haqqında Bəyannamə imzalayacağıq. Tamamilə aşkardır ki, bu bizim münasibətlərimizin inkişafında yeni mərhələdir və şübhəsiz, bu o cümlədən bütövlükdə hələ sona qədər nizamlanmamış, lakin həllində irəliləyiş əldə edilmiş Qarabağ münaqişəsinin tənzimlənməsinə nail olduqdan sonra mümkün olubdur.

Fikrimcə, biz indiki həyatda qarşıya çıxan problemlərə baxmayaraq, hər halda, məmnun ola bilə-

rik ki, hazırda olduğumuz səviyyəyə çatmışıq. Əlbəttə, bu barədə biz bu gün ətraflı danışacağıq. Lakin istənilən halda, həm orada yaşayan bütün insanların təhlükəsizliyinin təmin edilməsi baxımından, həm də ticari-iqtisadi əlaqələrin inkişafı, nəqliyyat kommunikasiyalarının açılması baxımından artıq müəyyən razılaşmalar vardır.

Bilirəm ki, hələ mübahisələr, üzərində işlənilməsi məsələlər vardır. Lakin biz öz tərəfimizdən bu prosesin dinc vasitələrlə getməsi, sülh yolu ilə inkişaf etməsi və əlbəttə, bu prosesə cəlb edilmiş bütün tərəflərin razı qalmasına nail olmaq üçün əlimizdən gələni edəcəyik.

Yeri gəlmişkən, həm Rusiya Federasiyası, həm də sizin digər qonşularınız bu məsələlərin, o cümlədən nəqliyyat kommunikasiyaları məsələlərinin həll edilməsində maraqlıdırlar, ona görə ki, bunda təkcə Azərbaycan və Ermənistan maraqlı deyil – Rusiya da, təkrar edirəm, Sizin bütün başqa qonşular da maraqlıdırlar.

Ticari-iqtisadi əlaqələrə gəldikdə, onlar durmadan inkişaf edir. Pandemiyaya baxmayaraq, keçən il bizdə əmtəə dövriyyəsi 16 faizdən çox artıb və bu çox yaxşı göstəricidir. Sizə təşəkkür edirik ki, Siz bizim qarşılıqlı fəaliyyətimizi dəstəkləyirsiniz. Bu baxımdan bizim çox ciddi planlarımız vardır. Bizim iqtisadi əlaqələrimiz yetərincə yaxşı şaxələndirilib və bu, irəliyə hərəkətin davam etməsi üçün yaxşı ilkin şərait yaradır.

Bizim üçün həssas və fikrimcə, Azərbaycan üçün də çox vacib olan humanitar məsələlərin həllini, ilk

növbədə, rus dilinin inkişafını dəstəklədiyinizə görə Sizə təşəkkür edirik. Mən bilirəm ki, Azərbaycanın 300 məktəbində rus dili fəal öyrənilir, bu dil populyardır. Əlbəttə, biz bunu gələcəkdə də hər vasitə ilə dəstəkləyəcəyik.

Regional əlaqələr yetərincə səmərəli inkişaf edir.

Bir də fürsətdən, Sizin səfərinizdən istifadə edərək, Sizi Ukrayna istiqamətində nələr baş verməsi barədə məlumatlandıracağam. Bilirsiniz ki, dünən Rusiya Donbasın iki xalq respublikasının suverenliyinin tanınması haqda qərar qəbul edib.

Bəri başdan demək istəyirəm ki, biz bu mövzuda – Rusiyanın imperiya sərhədləri daxilində imperiyanı bərpa etməyə hazırlaşması mövzusunda spekulyasiyaları görürük və demək olar ki, əvvəldən görürdük. Bu, əsla həqiqətə uyğun deyil.

Sovet İttifaqı dağılandan sonra Rusiya bütün yeni geosiyasi reallıqları etiraf etdi və Sizin də bildiyiniz kimi, postsovet məkanında yaranmış bütün ölkələrlə, müstəqil dövlətlərlə bizim qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsi üzərində fəal iş aparır. Hətta məsələn, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi kimi kəskin, çox kəskin vəziyyətlərdə də biz həmişə çox səliqəli hərəkət etmişik, bu prosesə cəlb edilmiş bütün dövlətlərin maraqlarını nəzərə almışıq və həmişə qarşılıqlı məqbul həllərə nail olmağa çalışmışıq.

Təəssüf ki, Ukraynada dövlət çevrilişindən sonra biz Ukrayna ilə qarşılıqlı əlaqələrin bu səviyyəsini və keyfiyyətini görmürük, əvvəlki səviyyə yox olub. Vurğulamaq istəyirəm, məhz dövlət çevrilişindən

və bu çevrilişi edənlər tərəfindən hakimiyyətin qanunsuz ələ keçirilməsindən sonra.

İndicə, Sizinlə görüşdən əvvəl Qazaxıstan Prezidenti ilə söhbət edirdim. Fikrimcə, bu, Rusiyanın qonşularımızın suverenliyini yalnız dəstəklədiyini, onu hər vasitə ilə möhkəmləndirdiyini göstərən ikinci çox yaxşı nümunədir. Qazaxıstan nümunəsi də bizim məhz bu siyasətimizə dəlalət edir, onu təsdiq edir.

Bildiyiniz kimi, biz beynəlxalq terrorizmin xarici təcavüzü ilə əlaqədar Qazaxıstan rəhbərliyinin xahişi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Qazaxıstanı dəstəklədik. Bu problem aradan qalxan kimi, Qazaxıstan rəhbərliyinin xahişi ilə biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının kontingenti çərçivəsində özümüzün bütün silahlı qüvvələrimizi oradan çıxardıq və bütün istiqamətlər üzrə Qazaxıstan ilə əməkdaşlığı davam etdiririk. Şübhəsiz, bu iş həm Rusiyanın, həm də Qazaxıstanın xeyrinədir və Qazaxıstanın suverenliyini möhkəmlədir.

Biz bundan sonra da bütün qonşularımızla münasibətdə belə hərəkət etmək niyyətindəyik. Təkrar edirəm, Ukrayna ilə bağlı vəziyyət başqadır. Bu onunla bağlıdır ki, təəssüflər olsun, üçüncü ölkələr tərəfindən bu ölkənin ərazisindən Rusiya Federasiyasına qarşı təhdidlər yaratmaq üçün istifadə edilir. Məsələ yalnız bundadır.

İndi bizim hər şey barədə daha ətraflı söhbət etmək imkanımız olacaq. Mən təfərrüat barədə Sizi məlumatlandıracağam.

İstənilən halda demək istəyirəm ki, Sizi görməyə çox şadam. Xoş gəlmisiniz!

**İlham Əliyev**: Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Rusiyaya rəsmi səfərə dəvət etdiyinizə görə sağ olun. Şadam ki, bizim əlaqələrimiz müntəzəm xarakter daşıyır. Sizinlə noyabrın sonunda görüşmüşdük, o vaxtdan üç aydan az keçib. Bu gün də mən Rusiya Federasiyasındayam. Bütün bunlar ona dəlalət edir ki, bizim münasibətlərimiz çox dinamik şəkildə inkişaf edir. Biz daim əlaqə saxlayırıq, zəngləşirik. Əlbəttə, şəxsi görüşlərimiz həmişə xüsusi əhəmiyyət kəsb edir, xüsusən də, Siz qeyd etdiyiniz kimi, ölkələrimiz arasında ən mühüm sənədin imzalanması ərəfəsində. Rəmzi haldır ki, bu görüş ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində keçir. Fikrimcə, bu sənəd ölkələrimiz, qarşılıqlı əlaqələrimiz, həmçinin regional təhlükəsizlik üçün birmənalı olaraq çox müsbət əhəmiyyət kəsb edəcəkdir. Biz ölkələrimiz arasında yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini çox yüksək qiymətləndirir, onları möhkəmləndiririk. Qarşılıqlı müttəfiqlik haqqında Bəyannamənin imzalanması son illərdə bizim necə fəal işlədiyimizi və qarşılıqlı əməkdaşlığın potensialını artırmağımızı çox yaxşı illüstrasiya edir. Bu, sadəcə sözlər, sadəcə niyyətlər deyil, həm də konkret işlər olub. Bəyannamə yetərincə genişdir. Onun 40-dan çox bəndi vardır. Bizim qarşılıqlı fəaliyyətimizin ən mühüm sahələrini əhatə edir və artıq dediyim kimi,

bizim ikitərəfli münasibətlərin gələcəyi üçün çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Bütövlükdə ölkələrimiz arasında siyasi münasibətlər son illərdə həmişə çox müsbət inkişaf edir. Hazırda bu münasibətlər ən yüksək səviyyəyə çatır. Ticari-iqtisadi əlaqələrdə yaxşı dinamika olması barədə Sizin fikrinizə şərik olduğumu bildirmək istərdim. Bizim əmtəə dövriyyəsinin həcmi artıq 3 milyard dolları aşıb və qeyd etdiyiniz kimi, 16 faiz artıbdır. Bu ildə də artım perspektivi var, yanvar ayının göstəriciləri buna dəlalət edir. Biz çoxsaylı konkret layihələri həyata keçiririk. Bu gün bu barədə də danışacağıq, humanitar sahədə gördüyümüz işləri yüksək qiymətləndirdiyinizə görə sağ olun.

Təşəkkür edirəm ki, Siz bunu həmişə vurğulayırsınız, bizim səylərimizi qiymətləndirirsiniz və düzgün olaraq qeyd etdiyiniz kimi, bu həm Rusiya üçün, həm də Azərbaycan üçün vacibdir. Məktəblər məsələsinə gəldikdə, bir qədər dəqiqləşdirmək istərdim. Azərbaycanda təhsilin rus dilində olduğu 340-a yaxın məktəb var, bu məktəblərdə 140 mindən çox şagird təhsil alır. Azərbaycanda 15 mindən çox vətəndaş ali məktəblərdə rus dili bölmələrində oxuyur. Fikrimcə, bu bizim münasibətlərimizin və gələcək əlaqələrimizin çox mühüm əsasıdır, ona görə ki, rus dili keçmiş Sovet İttifaqı ölkələrini həmişə birləşdirib və əlbəttə, rus dilini bilmədən gələcək nəsillərin əlaqələrini nizamlamaq çox çətin olar. Buna görə də, dediyim kimi, bu, həyatımızda çox mühüm amildir.

Əlbəttə, Siz qeyd etdiyiniz kimi, bu gün bizim regionda münaqişədən sonrakı vəziyyət barədə da-

nışacağıq. Rusiya Federasiyası Azərbaycan ilə Ermənistan arasında müharibənin dayandırılmasında və münaqişənin nizamlanmasının qaynar mərhələdən siyasi-diplomatik sahəyə keçirilməsində çox mühüm rol oynayıb. 2020-ci ilin noyabrında Sizin fəal iştirakınızla imzalanmış üçtərəfli Bəyanat bu çoxillik münaqişəni nizamlamağımıza imkan verdi. Bu gün yeni vəziyyət yaranıb, regionda bugünkü geosiyasi reallıqlar dünya birliyi tərəfindən qəbul edilib. Rusiya Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, nəqliyyat kommunikasiyalarının açılması, normal qonşuluq münasibətlərinin qurulması üçün imkanlar yaradılması işində çox mühüm, mən deyərdim, əsas rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Ümidvarıq ki, erməni tərəfi də bizim kimi, öz tərəfindən 2020-ci ilin noyabrında imzalanmış Bəyanatın bütün bəndlərini yerinə yetirəcək.

Beləliklə, gündəliyimiz çox genişdir, bu səfər xüsusi səfərdir. Mən Prezident kimi, 48-ci dəfədir ki, Rusiyadayam. Lakin bu, xüsusi haldır. Bu gün biz tarixi xarakterli çox mühüm sənəd imzalayacağıq. Dəvətə görə bir daha təşəkkür edirəm.

## «AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA MÜTTƏFİQLİK QARŞILIQLI FƏALİYYƏTİ HAQQINDA BƏYANNAMƏ»NİN İMZALANMASI MƏRASİMİ

*Moskva*

*22 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən fevralın 22-də Moskvada «Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə» imzalanmışdır.*

### Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya–Azərbaycan münasibətlərinin vəziyyəti və inkişaf perspektivlərini hərtərəfli nəzərdən keçirərək,

Rusiya və Azərbaycan və iki ölkənin xalqları arasında dostluq və mehriban qonşuluq tarixi ənə-

nələrinə, dərin mədəni və humanitar əlaqələrə arxalanaraq,

Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqaviləyə, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında 3 iyul 2008-ci il tarixli Bəyannaməyə və Rusiya Federasiyasının Prezidenti V.V.Putin və Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin 1 sentyabr 2018-ci il tarixli Birgə Bəyanatına əsaslanaraq,

ikitərəfli münasibətləri Rusiya Federasiyasının və Azərbaycan Respublikasının xalqlarının maraqlarına tam şəkildə cavab verəcək, regional və beynəlxalq təhlükəsizliyin və sabitliyin təmin edilməsinə və möhkəmləndirilməsinə töhfə verəcək keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırmağa çalışaraq,

iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, təhsil, sosial sahələrdə, eləcə də səhiyyə, gənclər arasında əməkdaşlıq və idman sahəsində yaxınlaşmasının vacibliyini dərk edərək,

iki ölkənin qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan hərtərəfli və bərabərhüquqlu əməkdaşlığının genişləndirilməsinə dönməz sadiqliklərini ifadə edərək,

Rusiya Federasiyasının və Azərbaycan Respublikasının üzv olduqları beynəlxalq və regional təşkilatlarda qarşılıqlı maraq doğuran məsələlər üzrə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi niyyətindən çıxış edərək,

Tərəflərin Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında inteqrasiya proseslərinin inkişaf etdirilməsində maraqlı olduqlarını və müvafiq səylərdə Rusiya Federasiyasının əsas rolunu nəzərə alaraq,

Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin, Helsinki Yekun Aktının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) konsensusla qəbul edilmiş digər sənədlərinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn prinsip və normalarına riayət edərək,

beynəlxalq hüquq əsasında çoxqütblü dünyanın formalaşdırılmasının və beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılmasında BMT-nin mərkəzi rolunun vacibliyini qeyd edərək,

aşağıdakıları bəyan edirlər:

1. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar.

2. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz milli maraqlarının müdafiəsinə yönəlmiş müstəqil xarici siyasət yürüdürlər.

3. Rusiya Federasiyası və Azərbaycan Respublikası həm qlobal, həm də regional miqyasda sülhün möhkəmləndirilməsi, sabitliyin və təhlükəsizliyin artırılması məqsədilə qarşılıqlı fəaliyyət göstə-

rirlər. Tərəflər münaqişələrin qarşısının alınması və nizamlanmasında və regional və qlobal təhlükəsizlik və sabitlik problemlərinin həllində BMT-nin və BMT-nin Təhlükəsizlik Şurasının mərkəzi rolunun daha da gücləndirilməsinə, ATƏT-in konsensusla qəbul edilmiş sənədlərində təsbit edilmiş məqsəd və prinsiplərin reallaşdırılmasına xüsusi önəm verirlər.

4. Rusiya Federasiyası və Azərbaycan Respublikası aktual beynəlxalq problemlər üzrə eyni və ya yaxın mövqelər tutmaqla, o cümlədən ikitərəfli səviyyədə də daxil olmaqla, konstruktiv əməkdaşlığı dərinləşdirirlər, eləcə də qarşılıqlı maraq kəsb edən məsələlər üzrə BMT, ATƏT, MDB, digər beynəlxalq təşkilat və forumlar çərçivəsində qarşılıqlı fəaliyyət göstərirlər.

5. Tərəflər Qafqaz və Xəzər regionlarında sabitlik və təhlükəsizliyin təmin edilməsi məqsədilə xarici siyasət fəaliyyəti sahəsində qarşılıqlı fəaliyyət göstərirlər.

6. Rusiya Federasiyası və Azərbaycan Respublikası Tərəflərdən birinin fikrincə sülhə təhlükə yarada bilən, sülhü pozan və ya Tərəflərdən birinin təhlükəsizlik maraqlarına təsir edən vəziyyət yarandığı, eləcə də bu cür vəziyyətin yaranması təhdidi olduğu təqdirdə onun nizamlanması məqsədilə təxirəsalınmaz məsləhətləşmələrin aparılmasına hazırlıqlarını ifadə edirlər.

7. Rusiya Federasiyası və Azərbaycan Respublikası Tərəflərdən birinin fikrincə iki dövlətin strateji tərəfdaşlığına və müttəfiqlik münasibətlərinə xələl gətirən hər hansı hərəkətlərdən çəkinirlər. Bu

məqsədlə onlar iki ölkənin Xarici İşlər nazirlikləri xətti ilə daimi fəaliyyət göstərən məsləhətləşmələr mexanizmini yaradırlar.

8. Azərbaycan tərəfi 2020-ci ilin noyabr ayında regionda atəşin və bütün hərbi əməliyyatların tam dayandırılmasında Rusiya Federasiyasının vasitəçilik rolunu yüksək qiymətləndirir.

9. Rusiya Federasiyası və Azərbaycan Respublikası regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması üçün əsas kimi çıxış etmiş Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin 9/10 noyabr 2020-ci il tarixli, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli bəyanatlarının müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək verəcəklər.

10. Tərəflər yuxarıda qeyd olunan bəyanatların müddəalarından irəli gələn məsələlərin həllində qarşılıqlı fəaliyyət göstərəcək və region dövlətləri arasında uzunmüddətli sülhün yaradılması üzrə regional və beynəlxalq səviyyələrdə sıx əməkdaşlıq edəcəklər.

11. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz ərazilərində təşkilatların və şəxslərin digər Tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını qətiyyətli surətdə alırlar.

12. Tərəflər milli maraqlara cavab verən və üçüncü ölkələrə qarşı yönəlməyən ikitərəfli hərbi-siyasi əməkdaşlığı inkişaf etdirirlər.

13. Tərəflər Rusiya Federasiyasının və Azərbaycan Respublikasının silahlı qüvvələri arasında əməliyyat və döyüş hazırlığı üzrə birgə tədbirlərin keçirilməsi də daxil olmaqla, qarşılıqlı əməkdaşlığı dərinləşdirəcək, eləcə də ikitərəfli hərbi əməkdaşlığın digər istiqamətlərini inkişaf etdirəcəklər.

14. Tərəflər hərbi-texniki əməkdaşlığın yüksək səviyyəsini nəzərə almaqla, müasir silah və hərbi texnika ilə təchiz olunma məsələləri, eləcə də bu sahədə qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə qarşılıqlı fəaliyyət göstərirlər.

15. Tərəflər silahlar və hərbi texnika üçün texniki xidmət, təmir, müasirləşdirmə üzrə xidmət mərkəzlərinin yaradılması, eləcə də hərbi təyinatlı məhsulların müxtəlif növlərinin birgə istehsalının təşkili üzrə səylərini fəallaşdırırlar.

16. Təhlükəsizliyin təmin edilməsi, sülhün və sabitliyin qorunub saxlanılması məqsədilə Rusiya Federasiyası və Azərbaycan Respublikası bir-birinə BMT Nizamnaməsi, ayrı-ayrı beynəlxalq müqavilələr əsasında və Tərəflərdən hər birinin beynəlxalq-hüquqi öhdəliklərini nəzərə almaqla, hərbi yardım göstərilməsi imkanını nəzərdən keçirə bilərlər.

17. Tərəflər üçüncü dövlətlər vasitəsilə həyata keçirilənlər də daxil olmaqla, bir-birinə qarşı yönəlmiş hər hansı hərəkətlərdən çəkinirlər.

18. Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və sepa-

ratçılıq təhdidlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, silahların, narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, insan alveri və informasiya-kommunikasiya texnologiyaları sahəsində cinayətlərə, eləcə də digər yeni təhlükəsizlik çağırışlarına qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər. Bu kontekstdə Tərəflər məlumat mübadilə edir və qeyd edilən hüquqazidd fəaliyyətlərin maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsi və qarşısının alınmasında sıx qarşılıqlı fəaliyyət göstərirlər.

19. Rusiya Federasiyası və Azərbaycan Respublikası 12 avqust 2018-ci il tarixli Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı razılaşdırılmış etimad tədbirlərinin, mehriban qonşuluq və qarşılıqlı anlaşma mühitinin irəli aparılması da daxil olmaqla, Xəzər regionunda təhlükəsizliyin və sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsi, bütün Xəzəryanı dövlətlərin maraqlarına hörmət edilməsi üçün etibarlı hüquqi əsas kimi nəzərdən keçirirlər.

20. Tərəflər Xəzər regionunda əməkdaşlığın inkişafı, Xəzər dənizində sahilyanı dövlətlərin suverenliyinin, suveren və müstəsna hüquqlarının realizəsi, eləcə də onların yurisdiksiyalarının həyata keçirilməsi üçün Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada nəzərdə tutulmuş bütün fəaliyyət prinsiplərinin vacibliyini təsdiq edirlər.

21. Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq öhdəliklərinə və milli qanunvericiliklərinə uyğun olaraq, bir Tərəfin fiziki və hü-

quqi şəxslərinin qanuni haqq və maraqlarının digər Tərəfin ərazisində təmin edilməsi üzrə səmərəli tədbirlər həyata keçirirlər.

22. Tərəflər iki ölkənin ticarət-iqtisadi əlaqələrinin davamlı artımının təmin edilməsi üçün vacib əhəmiyyəti olan Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyanın işinə hərtərəfli yardım etməyə davam edəcəklər.

23. Tərəflər davamlı inkişafa və hər iki dövlətin iqtisadi potensialından səmərəli istifadəyə böyük əhəmiyyət verərək, iqtisadi islahatların həyata keçirilməsində qarşılıqlı fəaliyyət göstərəcək, iki ölkə arasında iqtisadi qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi məqsədilə 1 sentyabr 2018-ci ildə imzalanmış Rusiya–Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planının realizə edilməsinə, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə uyğun olaraq, əmtəə və xidmətlərin sərbəst hərəkəti üçün əlverişli şəraitin yaradılmasına, eləcə də regional iqtisadi əməkdaşlığın irəlilədilməsinə yardım göstərəcəklər.

24. Rusiya Federasiyası və Azərbaycan Respublikası qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətindədirlər.

25. Rusiya Federasiyası və Azərbaycan Respublikası digər Tərəfin maraqlarına birbaşa və ya dola-

yı zərər vuran hər hansı iqtisadi fəaliyyətlərin həyata keçirilməsindən çəkinəcəklər.

26. Tərəflər milli qanunvericilikləri çərçivəsində metallurgiya, neft-qaz və ağır maşınqayırma, aviasiya, avtomobil, kimya, əczaçılıq və yüngül sənaye, kənd təsərrüfatı, yol-tikinti və qida maşınqayırması müəssisələri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinə imkan yaradacaqlar.

27. Rusiya Federasiyası və Azərbaycan Respublikası milli qanunvericilikləri və kredit-pul siyasətləri çərçivəsində kredit-bank təşkilatlarının fəaliyyətinə, maliyyə institutlarının əməkdaşlığının inkişaf etdirilməsinə, maliyyə-sənaye qrupları, istehsal və digər təşkilati-təsərrüfat strukturları da daxil olmaqla, birgə müəssisələrin yaradılmasına yardım göstərməyə hazırlıqlarını ifadə edirlər.

28. Tərəflər qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadəyə, bank kartlarına birgə xidmət daxil olmaqla, ödəniş sistemlərinin qarşılıqlı uyğunluğuna, eləcə də iki ölkənin bankları arasında birbaşa müxbir münasibətlərin inkişaf etdirilməsinə imkan yaradacaqlar.

29. Tərəflər intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə, tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafını, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin davamlı və tammiqyaslı fəaliyyəti üçün texniki və iqtisadi şəraitin təmin edilməsini hədəfə almışlar.

30. Tərəflər onların ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təmin edilməsi məsələlərinin

həllində bir-birinin səylərini dəstəkləyəcək və bir-birinə milli qanunvericilik və ikitərəfli razılaşmalar çərçivəsində tranzit daşımaları üçün əlverişli şərait yaradacaqlar.

31. Rusiya Federasiyası və Azərbaycan Respublikası bərabərhüquqlu və qarşılıqlı faydalı əsasda beynəlxalq enerji əməkdaşlığının stimullaşdırılması və qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə sıx qarşılıqlı fəaliyyət həyata keçirərək, yanacaq-energetika sahəsində, o cümlədən səmərəli infrastruktur layihələrinin cəlb edilməsi də daxil olmaqla, neft-qaz yataqlarının kəşfiyyatı və emalı, enerji resurslarının nəqli sahəsində, eləcə də alternativ və bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində əməkdaşlığı dərinləşdirmək niyyətindədirlər.

32. Tərəflər atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçirəcəklər.

33. Rusiya Federasiyası və Azərbaycan Respublikası informasiya-kommunikasiya texnologiyaları sahəsində birgə layihələrin inkişafını, yüksəkkeyfiyyətli səs trafikinin mübadiləsi üçün səmərəli şəraitin yaradılması da daxil olmaqla, Rusiya və Azərbaycanın telekommunikasiya operatorları arasında birbaşa əlaqə kanallarının təşkilini təşviq edəcəklər.

34. Tərəflər beynəlxalq informasiya təhlükəsizliyi, kütləvi kommunikasiya vasitələri, publik və ictimai diplomatiya ilə əlaqədar məsələlərin geniş dairəsi üzrə iki ölkənin müvafiq strukturları və təşkilatları arasında sahəvi məsləhətləşmələrin keçiril-

məsi vasitəsilə də daxil olmaqla, əməkdaşlığın qurulmasına yardım edəcəklər.

35. Tərəflər aqrar-sənaye kompleksi sahəsində, o cümlədən kənd təsərrüfatı məhsulları ilə təchiz etmə, kənd təsərrüfatı məhsullarının istehsalının, emalının və saxlanılmasının aparıcı texnologiyalarından istifadə məsələləri, eləcə də fitosanitar normalara əməl etmə üzrə əlaqələrin inkişafına və təcrübə mübadiləsinə yardım edəcəklər.

36. Rusiya Federasiyası və Azərbaycan Respublikası müxtəlif beynəlxalq iqtisadi, maliyyə və digər təşkilat və institutlar çərçivəsində bir-birinə onlarda iştirakda və ya bir Tərəfin marağı olduğu təqdirdə onun digər Tərəfin üzvü olduğu beynəlxalq təşkilatlara üzv olmasında dəstək verməklə qarşılıqlı fəaliyyət göstərirlər.

37. Tərəflər səhiyyə sahəsində, infeksion xəstəliklərə qarşı mübarizə də daxil olmaqla, əhalinin sanitar-epidemioloji rifahının təmin edilməsi sahəsində birgə layihələrin həyata keçirilməsində əməkdaşlığı inkişaf etdirəcəklər, həmçinin bioloji təhlükəsizlik sahəsində əməkdaşlığın qurulması imkanlarını öyrənəcəklər.

38. Rusiya Federasiyası və Azərbaycan Respublikası parlamentlərarası əməkdaşlığı möhkəmləndirmək niyyətindədirlər.

39. Tərəflər səmərəli qarşılıqlı fəaliyyət, ticarət, təsərrüfat, mədəni və humanitar əlaqələrin möhkəmləndirilməsi üçün əlverişli şərait yaratmaq məqsədilə Rusiya Federasiyasının regionları və Azər-

baycan Respublikası arasında əməkdaşlığın inkişafına yardım edəcəklər.

40. Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq, iki ölkənin xalqlarının mənəvi və mədəni yaxınlığının saxlanılmasına hərtərəfli yardım etmək, Tərəflərin ərazilərində yaşayan milli azlıqların tarixi, mədəni və dini irsinin, eləcə də etnik, dil və mədəni özünəməxsusluqlarının qorunması, saxlanması və inkişafını təmin etmək, onların nümayəndələrinin ictimai-siyasi, mədəni və sosial-iqtisadi həyatda fəal iştirakına şərait yaratmaq niyyətindədirlər. Bununla əlaqədar olaraq, Tərəflər milli qanunvericilik çərçivəsində Rusiya Federasiyasının və Azərbaycan Respublikasının iqtisadi, mədəni və humanitar əlaqələrin genişləndirilməsinə töhfə verəcək diaspora təşkilatlarının fəaliyyətlərinin təşviqi üçün addımlar atacaqlar.

41. Rusiya Federasiyası və Azərbaycan Respublikası mədəniyyət və incəsənət, təhsil, elm, turizm və idman sahələrində qarşılıqlı əlaqələri dərinləşdirməyə, ictimai və gənclər təşkilatları, tədris təşkilatları və təhsil müəssisələri, innovasiya mərkəzləri, kütləvi informasiya vasitələri arasında həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əlaqələrin qurulmasına yardım etməyə davam edəcəklər.

42. Tərəflərdən hər biri öz ərazisində digər Tərəfin humanitar, elmi-texniki, mədəni və informasiya əlaqələrinin inkişafına yönəlmiş, o cümlədən də ikitərəfli sazişlər əsasında və milli qanunvericilik çərçivəsində informasiya-mədəniyyət mərkəzləri vasitəsilə fəaliyyətini dəstəkləyəcəklər.

43. Tərəflər konsert-qastrol fəaliyyəti, kitabxana və muzey işi, kinematoqrafiya və mədəniyyət üzrə təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsini, eləcə də irimiqyaslı mədəni maarifləndirmə tədbirlərinin keçirilməsini təşviq edəcəklər.

Bu Bəyannamə Moskva şəhərində 22 fevral 2022-ci ildə hər biri rus və Azərbaycan dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn bərabər autentikdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**VLADİMİR PUTİN**
**Rusiya Federasiyasının Prezidenti**

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Moskva*

*22 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 22-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Rusiya Prezidenti Vladimir Putinin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Xanımlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti ilə birgə indicə bizim tərəfimizdən imzalanmış Rusiya və Azərbaycanın müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə dövlətlərarası münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə keçidi ilə əlamətdardır. Bu strateji sənəd apardığımız danışıqların mərkəzi elementi və əsas yekunudur.

Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin Rusiya ilə Azərbaycan arasında rəsmi diplomatik əlaqələrin 30 illiyinin tamam olduğu

ildə imzalanması çox rəmzi xarakter daşıyır. Ötən onilliklər ərzində Rusiya–Azərbaycan əməkdaşlığı nəzərəçarpacaq dərəcədə möhkəmlənib və genişlənib, siyasi, iqtisadi və humanitar sahələrdə çoxsaylı konkret qarşılıqlı faydalı layihələrlə zənginləşibdir. Biz, sözsüz ki, möhkəm dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və bir-birinin maraqlarının nəzərə alınması ənənələrinə əsaslanmaqla əsl sıx qarşılıqlı müttəfiqlik münasibətlərini bundan sonra da hərtərəfli inkişaf etdirmək əzmindəyik.

Bu gün ikitərəfli gündəlikdə duran aktual məsələlərin bütün kompleksi ətraflı nəzərdən keçirildi. Biz hər şeydən əvvəl qarşılıqlı ticari-iqtisadi əlaqələrin artırılması imkanlarını və perspektivlərini müzakirə etdik. Qeyd edim ki, 2021-ci ilin yekunlarına görə, qarşılıqlı əmtəə dövriyyəsi 16 faiz artıb və təqribən 3,4 milyard dollara çatıb, qarşılıqlı kapital qoyuluşunun ümumi həcmi isə 6 milyard dollar təşkil edir.

Rusiya–Azərbaycan hökumətlərarası birgə Komissiya tezliklə növbəti iclasını keçirəcək. Həmçinin energetika, kənd təsərrüfatı və bir sıra sahələrdə kooperasiyanın inkişafı üzrə imkanların öyrənilməsi üçün Azərbaycana Rusiya işgüzar missiyalarını göndərməyi planlaşdırırıq.

Rusiyanın biznes strukturları elektroenergetika sahəsində Azərbaycan ilə əməkdaşlıqda maraqlıdırlar, Azərbaycan elektrik şəbəkələrinin modernləşdirilməsinə, həmçinin bərpa olunan enerji mənbələri sahəsində olan layihələrə qoşulmağa hazırdırlar.

Sənayedə də səmərəli tərəfdaşlıq qurulub. Ötən il kommersiya və xüsusi təyinatlı avtomobillərin istehsalı üzrə «QAZ qrupu» ilə «Azərmaş»ın müştərək zavodu açılıb. Rusiyanın iştirakı ilə Azərbaycan dəmir yollarının və Bakı Metropoliteninin qatarları texniki cəhətdən yenilənir. Azərbaycanda «KamAZ» birgə servis mərkəzi tikilir.

Ölkələrimizin maliyyə sahəsində qarşılıqlı fəaliyyətini bundan sonra da möhkəmləndirməyi vacib hesab edirik. Qarşılıqlı hesablaşmalarda milli valyutaların daha fəal istifadəsi və Azərbaycan banklarının Rusiya Bankının maliyyə məlumatlarının ötürülməsi sisteminə qoşulması şübhəsiz ki, buna kömək edə bilərdi.

Rusiya və Azərbaycan arasında tibb və əczaçılıq sahəsində əməkdaşlıq aktivləşib. Ölkələrimiz koronavirus infeksiyasının yayılmasına qarşı mübarizədə tərəfdaşlar kimi qarşılıqlı fəaliyyət göstərir. Pandemiyanın ən kəskin dövründə Rusiyanın aparıcı tibb müəssisələrinin mütəxəssis briqadaları azərbaycanlı həkimlərə köməyə göndərilib. Respublikaya «Sputnik V» vaksinlərinin tədarükü təşkil olunubdur.

Humanitar sahədə də əməkdaşlıq ənənəvi olaraq yüksək səviyyədədir. Bu günlərdə Moskvada Azərbaycan Günlərinə start verilib. Bu tədbir çərçivəsində sərgilər, konsertlər, ədəbi qiraət və digər parlaq mədəni tədbirlər təşkil olunacaq. Öz növbəsində, martın əvvəlində Azərbaycanda iki ölkə gənclərinin növbəti forumu keçiriləcək.

Biz respublikada rus dili və mədəniyyətinin dəstəklənməsi və təşviqinə görə Azərbaycan rəhbərliyinə minnətdarıq. Xatırladım ki, ölkədə rus dilinin tədris olunduğu 300-dən çox məktəb, ali məktəblərin əksəriyyətində rusdilli fakültələr fəaliyyət göstərir. Cənab Prezident danışıqların gedişində xatırlatdı ki, məktəblərin sayı 300 deyil, 340-dır. Biz bunu izləməyə və saymağa macal tapmırıq, buna görə biz çox təşəkkür edirik və buna böyük əhəmiyyət veririk. Xatırladım ki, Rusiyada hazırda 11 mindən artıq azərbaycanlı tələbə təhsil alır, o cümlədən 1000-dən çoxu federal büdcə vəsaitləri hesabına.

Təbii ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması məsələlərinə xüsusi diqqət yetirdik. Bildiyiniz kimi, dünən Ermənistanın baş naziri ilə mənim telefon danışığım olub. Azərbaycan, Ermənistan və Rusiyanın Dağlıq Qarabağ üzrə ali səviyyədə nail olunmuş bütün üçtərəfli razılaşmalarının tam həcmdə icrasının vacibliyi təsdiq edilibdir.

Fikrimizcə, vacib olan odur ki, indi regionda həyat qaydaya düşür, dinc məcraya daxil olur. Artıq 50 mindən çox qaçqın öz evinə qayıdıb. Təsərrüfat infrastrukturunun yenidən qurulması, tarixi, dini və mədəni obyektlərin mühafizəsi üzrə praktik məsələlər həll olunur.

Rusiya sülhməramlı kontingentinin fəaliyyətinə və bütövlükdə Dağlıq Qarabağ ətrafındakı vəziyyətin sabitləşməsinə Rusiyanın töhfəsinə Azərbaycan tərəfindən yüksək qiymət verilib. Bizim sülhməramlılar vəziyyətin gecə-gündüz monitorinqini

aparır və atəşkəs rejiminin dəstəklənməsini təmin edir, minalardan təmizlənmə işləri aparır, humanitar aksiyalarda iştirak edir və yerli əhaliyə kömək göstərirlər. Rusiyalı hərbi həkimlər koronavirus əleyhinə profilaktik tədbirlər, o cümlədən Rusiya preparatları ilə vaksinləmə həyata keçirirlər.

Regionda bütün iqtisadi, nəqliyyat əlaqələrinin tezliklə açılmasına bundan sonra da kömək göstərmək barədə razılaşdıq. Söhbət Azərbaycan və Ermənistan arasında və regionun digər ölkələri ilə sərnişin və yükdaşımaların tam həcmdə bərpasından, ticarət, sənaye, kənd təsərrüfatı, infrastruktur kimi sahələrdə konkret birgə layihələrin icraya hazırlanmasından gedir. Bu prosesin bütün iştirakçıları – bilavasitə Azərbaycan və Ermənistan, əlbəttə ki, Ermənistanın və Azərbaycanın bütün qonşuları bunda maraqlıdırlar.

Daha bir prioritet məsələ Azərbaycan–Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası prosesinin işə salınmasıdır. Rusiya öz tərəfindən, yuxarıda adları çəkilən bütün hədəf və məsələlərə nail olmaq üçün çox iş görüb və görəcək. Əlbəttə ki, hər hansı mübahisəli məsələlərə, o cümlədən sərhəd məsələlərinin nizamlanmasına hər cür yardım göstərməyə davam edəcək, mövcud olan kəskin problemlərin həllinə kömək göstərəcəyik.

Ümumiyyətlə, bugünkü danışıqlar aydın göstərdi ki, Qafqaz və Xəzər regionlarında sabitlik və təhlükəsizliyin təminatında, bütün Avrasiya məkanında inteqrasiya proseslərinin inkişafında Rusiya və Azərbaycanın ümumi maraqları vardır.

Sonda İlham Heydər oğluna bu gün məhsuldar birgə işə görə minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, bu gün əldə olunmuş razılaşmalar iki ölkə naminə Rusiya–Azərbaycan münasibətlərinin bütün kompleksinin bundan sonra da möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Vladimir Vladimiroviç!

İlk növbədə, Rusiyaya rəsmi səfərə dəvətə görə Sizə təşəkkürümü bildirmək istərdim. Mən yenidən Moskvada olmağıma çox şadam. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Təxminən üç ay bundan əvvəl də görüşdük və ikitərəfli gündəliyə, regional problemlərə aid mühüm məsələləri müzakirə etdik. Bizim görüşlərimizin intensivliyi əlaqələrimizin inkişafının dinamik xarakter daşımasına parlaq sübutdur. Rusiya ilə Azərbaycanı çoxəsrlik dostluq, mehriban qonşuluq telləri bağlayır. Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, bu əlaqələr bu gün keyfiyyətcə yeni səviyyəyə çatıb.

Ölkələrimiz arasında çox geniş müqavilə-hüquq bazası vardır, 245 sənəd imzalanıb. Lakin onların arasında bu gün imzalanmış Bəyannamə xüsusi əhəmiyyət kəsb edir. Bu Bəyannamə bizim münasibətlərimizi müttəfiqlik səviyyəsinə çıxarır. Bu həm böyük imtiyaz, həm də böyük məsuliyyətdir. Biz bu günə təkidlə, uzun müddət əməkdaşlıq potensialını

artırmaqla, səmimiyyətə, mehriban qonşuluğa, praqmatizmə, qarşılıqlı maraqların nəzərə alınmasına əsaslanan münasibətlər qurmaqla gəlib çatmışıq. Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə üzərində praktiki iş bir ildən bir qədər artıq müddət bundan əvvəl başlanılıb. Bu müddətdə ölkələrimizin müvafiq ekspert qrupları tərəfindən 43 bənddən ibarət olan və praktiki olaraq, fəaliyyətimizin bütün əsas sahələrini əhatə edən çox geniş sənəd razılaşdırılıbdır. Bəyannamənin birinci bəndində deyilir ki, tərəflər öz münasibətlərini müstəqilliyə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq əsasında quracaqlar. Bu bənd ona dəlalət edir ki, bizim münasibətlərimiz zamanın sınağından çıxıb və artıq dediyim kimi, dostluq hisslərinə, qarşılıqlı maraqlara və gələcəyə yönəlməyə əsaslanır. Ona görə ki, bu sənəd təkcə çoxillik birgə işə yekun vurmaqla kifayətlənmir, həm də gələcək üçün böyük perspektivlər açır. Biz qarşılıqlı siyasi fəaliyyəti artıracaq, əvvəl olduğu kimi, yenə bir-birimizi beynəlxalq qurumlarda dəstəkləyəcək, qarşılıqlı ticarətin həcmini artıracaq və gündəlikdəki bütün məsələləri həll edəcəyik.

Bu gün biz 5 saatdan çox Vladimir Vladimiroviçlə birlikdə olduq. Vaxt hiss olunmadan keçdi. Beş saat intensiv ünsiyyət özlüyündə bizim əlaqələrimizin nə qədər sıx və səmimi olmasının göstəricisidir. Biz əminik ki, ticari-iqtisadi sahədə yeni imkanlar açılır. Vladimir Vladimiroviç əmtəə dövriyyə-

sinin əhəmiyyətli dərəcədə artmasını qeyd etdi. Əminəm ki, bu müsbət meyillər bu il daha da artacaq.

Sizə məlum olduğu kimi, bu il ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyidir. Aprel ayında bu tarixi qeyd edəcəyik. Biz həmin hadisəyə yaxşı bünövrə ilə yaxınlaşırıq.

Qarşılıqlı investisiyaların artırılması işində çox ümidverici imkanlar vardır. Bu gün biz nəqliyyat sahəsində, özü də təkcə ikitərəfli formatda deyil, regionda yeni vəziyyət, yeni geosiyasi reallıqlar nəzərə alınmaqla çoxtərəfli, regional formatda əməkdaşlığın dərinləşdirilməsi imkanlarını da ətraflı müzakirə etdik. Artıq «3+3» deyilən əməkdaşlıq platforması mövcuddur. Əminəm ki, bu platformanın iştirakçıları olan tərəflər ilk addımı atandan sonra, o cümlədən bu sahədə də əməkdaşlıq edəcəklər. Bu gün regionda kommunikasiyaların açılması məsələsi də müzakirə edildi və düşünürəm ki, bu məsələnin çox yaxşı perspektivi vardır. Bizim humanitar əməkdaşlıq üzrə birgə fəaliyyətimizi qiymətləndirdiyinə görə Vladimir Vladimiroviçə təşəkkür edirəm. Bu sahə həmişə prezidentlərin diqqət mərkəzindədir. Biz, demək olar ki, bu sahənin inkişafına müvafiq impuls veririk və Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayı və təhsilin rus dilində olduğu məktəblərin barədə Vladimir Vladimiroviçin gətirdiyi rəqəmlər əlamətdardır, onlar özləri çox şeyi deyir. Buna onu əlavə etmək istərdim ki, Azərbaycanda ali məktəblərin rus bölməsində 15 mindən çox tələbə təhsil alır və rus dilində təhsilə maraq artır. Ölkəmizdə Moskva Dövlət Universitetinin, Seçenov adı-

na Tibb Akademiyasının filialları fəaliyyət göstərir və biz əməkdaşlıq potensialını artırmaq niyyətindəyik.

Biz bu il Bakı Humanitar Forumunun müntəzəm keçirilməsini də bərpa etməyi planlaşdırırıq. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında keçirilən və keçiriləcək forumda pandemiya səbəbindən fasilə yaranmışdı. Bu gün biz işğaldan azad edilmiş ərazilərdə aparılan işlərdə Rusiya şirkətlərinin iştirakı ilə bağlı məsələləri də müzakirə etdik, bu işə böyük maraq vardır. Bu günə qədər Rusiya şirkətlərindən 14 sifariş alınıb və biz həmin sifarişləri diqqətlə nəzərdən keçiririk. Hesab edirəm ki, bu sahə bizim əməkdaşlığımızın yeni sahəsidir. O həm praktiki baxımdan faydalı olacaq, həm də bizim qarşılıqlı fəaliyyətimizin səviyyəsini artıracaq.

Əlbəttə, bu gün biz regionda münaqişədən sonrakı vəziyyəti də ətraflı müzakirə etdik. Azərbaycan ilə Ermənistan arasında müharibənin başa çatmasında və münaqişədən sonrakı dövrdə nizamlama səylərində roluna görə Rusiyaya və şəxsən Prezident Vladimir Vladimiroviç Putinə təşəkkür edirik. Hesab edirəm ki, belə çoxillik – otuz ilə yaxın – qarşıdurma, Azərbaycanın üzləşdiyi böyük itkilər şəraitində bir ildən bir qədər çox vaxt keçəndən sonra Azərbaycan və Ermənistan ən azı iki beynəlxalq formatda, məhz Rusiya, Azərbaycan və Ermənistanın Baş Nazir müavinləri səviyyəsində İşçi qrup, habelə Rusiya, Türkiyə, İran, Azərbaycan və Ermənistanın daxil olduğu «3+3» platformasında fəaliyyət göstərirsə, bu, artıq bizim niyyətlərimizin göstəricisidir.

Əlbəttə, biz gözləyirik ki, Ermənistan tərəfi 9-10 noyabr 2020-ci il tarixli Bəyanatın bütün erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması, habelə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların açılması barədə bütün bəndlərini tamamilə yerinə yetirəcək. Bu, erməni tərəfin hüquqi öhdəliyidir, lakin təəssüf ki, bu istiqamətdə iş çox ləng gedir. Artıq qeyd etdiyim kimi, Prezident Vladimir Vladimiroviç Putin müharibənin başa çatmasında, nizamlamanın qaynar fazadan siyasi nizamlama fazasına keçməsində mühüm rol oynayıb. Bu gün Rusiya Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması üçün yollar axtarışında bizim əsas tərəfdaşımızdır. Bunun üçün imkanlar vardır. Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağa hazır olduğunu dəfələrlə bəyan edib. Bu müqavilə öz aralarında münasibətləri tənzimləmək istəyən hər hansı ölkələr üçün zəruri olan sərhədlərin dəqiqləşdirilməsi, delimitasiyası və digər məsələləri də əhatə edəcəkdir.

Mən əminəm, regionda yeni reallıqlar yeni imkanlar yaradacaq. Azərbaycan dinc gələcək əzmindədir. Bizə müharibə lazım deyil. O bizə heç vaxt lazım olmayıb. Azərbaycan ərazilərinin azad edilməsi, ərazi bütövlüyünün hərbi yolla bərpa olunması məcburi tədbir idi və müharibədən sonrakı mərhələdə bu məsələni siyasi metodlarla həll etməyə hazır olmağımız bizim niyyətlərimizin daha bir təsdiqidir. Əminəm ki, Rusiya və Azərbaycan birgə səyləri ilə Qafqazda sülhün, Xəzər regionunda və Avrasiya məkanında

əməkdaşlığın möhkəmləndirilməsi işinə bundan sonra da sanballı, mən deyərdim, həlledici töhfə verəcəklər.

Hörmətli Vladimir Vladimiroviç, dəvətə, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edib Rusiyanın dost, müttəfiq xalqına yeni uğurlar və yeni nailiyyətlər arzu edirəm.

## RUSİYA NAZİRLƏR KABİNETİNİN ƏLAQƏLƏNDİRMƏ MƏRKƏZİ İLƏ TANIŞLIQ

*Moskva*

*22 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olmuşdur.*

*Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin Prezident İlham Əliyevi qarşıladı.*

*Sonra Prezident İlham Əliyev ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında görüş oldu.*

**M i x a i l M i ş u s t i n**: Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizi bir daha salamlayım. Bu gün Vladimir Vladimiroviç Putin ilə Sizin imzaladığınız Rusiya ilə Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə ilə əlaqədar ən mühüm, strateji məsələləri müzakirə etməyi təklif edirəm. Bu mühüm qərar bizim dostluq və mehriban qonşuluq münasibətlərimizi daha yüksək səviyyəyə qaldırır. Sizi əmin etmək istərdim ki, Rusiya Federasiyasının Hökuməti liderlərimizin qərarlarını həyata keçirmək üçün nə lazımdırsa edəcək.

Biz azərbaycanlı tərəfdaşlarla dostluğumuzu yüksək qiymətləndiririk. Bu dostluq bizim qardaş xalqlarımızın sıx əlaqələrinə əsaslanır. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunur və bizim mehriban qonşuluğumuzun tarixi kökləri əsrlərin dərinliyinə gedib çatır. Əsas odur ki, pandemiyaya baxmayaraq, bizim ticari-iqtisadi əlaqələrimiz möhkəmlənir, əmtəə dövriyyəsi – Siz yəqin bu barədə ətraflı danışdınız – 2020-ci ildəkinə nisbətən 16 faiz artaraq, 3 milyard 300 milyon dollara çatıb. Azərbaycanda Rusiya kapitalı ilə 1000-dən artıq şirkət fəaliyyət göstərir, energetika, maşınqayırma, nəqliyyat sahələrində böyük sayda birgə layihələr icra olunur, kənd təsərrüfatı, infrastruktur, bərpa olunan enerji, rəqəmsal iqtisadiyyat sferalarında belə əməliyyatlar üçün böyük potensial mövcuddur. Bizim hökumətlərarası birgə Komissiya bu məsələni fəal həll edir. Rusiya Federasiyası tərəfindən Komissiyaya Baş Nazirin müavini Aleksey Loqvinoviç Overçuk kuratorluq edir. Rusiya şirkətlərinin Azərbaycana müntəzəm işgüzar missiyaları da müsbət nəticələr verir. Biz bu əlaqələri, Rusiya İxrac Mərkəzi tərəfindən təşkil olunan səfərləri davam etdirmək istərdik. Biz həmçinin regionlararası əlaqələrimizə də böyük diqqət yetiririk. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycan ilə əməkdaşlıq edir.

Biz koronavirus infeksiyasına qarşı birgə mübarizə aparır, bir-birimizə qarşılıqlı kömək edirik. Bizim tərəfimizdən Azərbaycana xüsusi test-sistemlər verilib, ən yaxşı həkimlərimizdən ibarət briqa-

dalar göndərilib. Bu günədək təqribən 220 min doza «Sputnik V» vaksini tədarük edilib. Mən əminəm ki, kütləvi immunlaşdırma bizə, həmçinin pandemiyanın öhdəsindən gəlməyə və insanlarımızın sağlamlığını qorumağa kömək edəcəkdir.

Bir daha Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Cənubi Qafqazın inkişafına imkan verən mühüm Bəyanatını xüsusi qeyd etmək istəyirəm. Əminəm ki, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, yeni infrastruktur marşrutlarının yaradılması Cənubi Qafqazın bütün dövlətlərinin maraqlarına cavab verir. Bizim zəngin gündəliyimiz var. Şadıq ki, Siz bizim Rusiya Federasiyası Hökumətinin Əlaqələndirmə Mərkəzinə gəlmisiniz. Əlbəttə, bizim qarşılıqlı fəaliyyətimizin bütün aktual məsələlərini müzakirə etməyə hazırıq. Buyurun, söz Sizindir, hörmətli İlham Heydər oğlu.

**İlham Əliyev**: Çox sağ olun, hörmətli Mixail Vladimiroviç. Siz tamamilə düzgün olaraq qeyd etdiniz ki, bu gün müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalanıb. Bu bizim münasibətlərimizin inkişafında yeni mərhələdir. Bu gün Vladimir Vladimiroviç ilə biz çox söhbət etdik, həm ikitərəfli qarşılıqlı fəaliyyətə, həm də regional problemlərə dair çox mühüm mövzuları müzakirə etdik.

Əlbəttə, mətbuat qarşısına çıxanda ölkələrimizin dövlətlərarası münasibətləri tarixində qalacaq bu günün vacibliyini qeyd etdik. Rəmzi haldır ki, bu hadisə ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində baş verir. Başqa məsələlərdən əlavə, biz ticari-iqtisadi əmək-

daşlıq məsələlərini də ətraflı nəzərdən keçirdik, əlaqələrimizin necə inkişaf etməsindən məmnun olduğumuzu bildirdik. Ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrimizin inkişafına şəxsən ayırdığınız diqqətə görə sizə təşəkkürümü bildirmək istərdim. Pandemiya şəraitinə baxmayaraq, əmtəə dövriyyəsi xeyli artıb. Bu, əlbəttə, bizim nə dərəcədə səmərəli işləməyimizin göstəricisidir.

Ölkələrimizin Baş Nazir müavinlərinin rəhbərlik etdiyi hökümətlərarası birgə Komissiyanın səmərəli işini də qeyd etmək istərdim. Bu Komissiya gömrük məntəqələrində, nəzarət-buraxılış məntəqələrində yaranan məsələləri operativ surətdə həll edir və ticari-iqtisadi əlaqələrimizin strateji planlaşdırılması ilə məşğul olur. Çox xoşdur ki, qarşılıqlı ticarətin həcmi artır. Fikrimcə, daha çox potensial vardır. Ümid edirik ki, biz bu il də əmtəə dövriyyəsinin artmasını məmnuniyyətlə qeyd edəcəyik.

Şübhəsiz, regionda yeni reallıqlar nəzərə alınmaqla, regional problemlərlə bağlı məsələlər həm regionda etimad, sülh və təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi, həm də ikitərəfli və çoxtərəfli formatda qarşılıqlı faydalı iqtisadi tərəfdaşlıq üçün yaxşı ilkin şərait yaradır. Bu gün Rusiya Federasiyasının Prezidenti ilə görüşdə biz «3+3» yeni əməkdaşlıq formatının perspektivlərini də müzakirə etdik. Bu format indiki mərhələdə ilk növbədə, nəqliyyat-kommunikasiya, logistika problemlərinə dair fəal iş aparılmasını nəzərdə tutur. Əminəm, bugünkü diskussiyalar, aparacağımız fikir mübadiləsi Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri-

nin 2020-ci il 9-10 noyabr tarixli üçtərəfli Bəyanatın bütün bəndlərinin həyata keçirilməsinə xidmət edəcək ki, biz də öz planlarımızı tamamilə reallaşdıra biləк.

Rusiya–Azərbaycan münasibətləri zamanın sınağından çıxıb. Əlbəttə, biz diplomatik münasibətlərin yaradılmasından bəri əlaqələri inkişaf etdiririk, lakin, əlbəttə, əvvəlki nəsillər tərəfindən qoyulmuş təməl olmasaydı, yəqin ki, biz bu uğurları qazana bilməzdik. Bu gün imzalanmış Bəyannamə bizim hüquq-müqavilə baza portfelində xüsusi sənəddir. Əminəm ki, bu sənəd ölkələrimiz arasında dostluq, mehriban qonşuluq və bu gündən etibarən müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

Koronavirusa qarşı mübarizədə köməyə görə Rusiya tərəfinə ayrıca təşəkkür etmək istərdim. Çox minnətdarıq ki, bizə mütəxəssis briqadaları göndərilib, PZR-testlər almışıq və bildiyiniz kimi, biz «Sputnik V» vaksinini sertifikatlaşdırmışıq. Vətəndaşlarımızın sağlamlığını qorumaq üçün biz gələcəkdə də bu istiqamətdə işləmək niyyətindəyik.

Fikir mübadiləsi aparmaq üçün yaratdığınız bu imkana görə bir daha sağ olun. Əlaqələndirmə Mərkəzinin çox maraqlı təqdimatına görə təşəkkür edirəm və artıq indidən ümumi mülahizələrdən irəli gələn praktiki məsələləri müzakirə edəcəyik. Sağ olun.

## TASS AGENTLİYİNİN MƏNZİL-QƏRARGAHINDA «RUSİYA VƏ AZƏRBAYCANIN DİPLOMATİK MÜNASİBƏTLƏRİNİN 30 İLİ TASS VƏ AZƏRTAC-ın FOTOLARINDA» ADLI EKSPOZİSİYA İLƏ TANIŞLIQ

*Moskva*

*23 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 23-də Moskvada TASS agentliyinin mənzil-qərargahında «Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında» adlı ekspozisiya ilə tanış olmuşlar.*

*Bu ekspozisiya TASS və AZƏRTAC-ın birgə layihəsidir. İyirmi fotoşəkildən ibarət olan ekspozisiyada Rusiya və Azərbaycan xalqlarının siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə dostluğunun və əməkdaşlığının tarixinin ən yeni dövrü barədə söhbət açılır.*

*TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman ekspozisiyada təqdim edilmiş şəkillər barədə qonaqlara məlumat verdi. TASS-ın fotoqrafları 1997-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Boris Yeltsin tərəfindən*

*«Dostluq, Əməkdaşlıq və Təhlükəsizlik haqqında Müqavilə»nin, 2001-ci ildə Heydər Əliyev və Vladimir Putin tərəfindən «Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyanat»ın və «Qafqazda təhlükəsizliyin təmin edilməsi və əməkdaşlığın inkişafı prinsipləri haqqında Bakı Bəyannaməsi»nin imzalanması anlarını əbədiləşdiriblər.*

*Ekspozisiyada Rusiya Prezidenti Vladimir Putinin, RF Xarici İşlər naziri Sergey Lavrovun, Moskva və Bütün Rusiyanın patriarxı Kirillin Azərbaycana rəsmi səfərlərindən çəkilmiş fotoşəkillər nümayiş etdirilir.*

*Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində «Azərbaycan» pavilyonunun açılışı və Rusiya Prezidenti Vladimir Putin tərəfindən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Rusiya–Azərbaycan münasibətlərinin inkişafında və möhkəmləndirilməsində xidmətlərinə görə «Dostluq» ordeninin təqdim edilməsi mərasimlərindən çəkilmiş kadrlar Mehriban Əliyevanın Rusiyaya səfərlərini əks etdirir.*

*2021-ci ildə Cəbrayılda «KamAZ» Açıq Səhmdar Cəmiyyətinin servis mərkəzinin və «Gəncə Avtomobil Mərkəzi» İstehsalat Birliyinin təməlinin qoyulmasını əks etdirən, AZƏRTAC-ın fotomüxbirinin çəkdiyi fotoşəkil iqtisadiyyat sahəsində əməkdaşlıq nümunəsidir. Azərbaycanın Xəzər Gəmiçiliyi üçün tikilmiş «Prezident Heydər Əliyev» neftdaşıyan tankerinin «Krasnoye Sormovo» zavodunun stapellərindən suya buraxılması mərasimindən çəkilmiş fotoşəkli TASS agentliyi təqdim edib.*

*Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışından, Rusiya və Azərbaycanın Xalq artisti Lyudmila Zıkinanın konsertindən sonra Heydər Əliyevin onunla söhbəti zamanı AZƏRTAC-ın fotomüxbirinin çəkdiyi kadrlar mədəniyyət sahəsində qarşılıqlı münasibətlərdən bəhs edir.*

*Ekspozisiyada Rusiya Prezidenti Vladimir Putin ilə Azərbaycan Prezidenti İlham Əliyevin görüşləri həm rəsmi fotoşəkillərlə, həm də onların Bakı sakinləri ilə qeyri-formal görüşündən çəkilmiş kadrlarla nümayiş etdirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgi ilə tanışlıqdan sonra TASS agentliyinin mənzil-qərargahında Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdülər.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ad gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram. Sizin müdrik və uzaqgörən rəhbərliyiniz ilə qardaş Türkiyə Respublikası bu gün bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə söz sahibi olmuş və böyük nüfuz qazanmış güclü və qüdrətli dövlətdir. Qətiyyətli liderliyiniz və çoxşaxəli fəaliyyətiniz sayəsində ölkənizin keçdiyi hərtərəfli inkişaf yolu, imza atdığı uğurları bizi səmimi-qəlbdən sevindirir və ruhlandırır.

Xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və «Bir millət – iki dövlət» prinsipinə əsaslanan Azərbaycan–Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz vardır. Birliyimizin və müttəfiqliyimizin möhkəmləndirilməsi yolunda davamlı səyləriniz, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və torpaqlarımızın işğaldan azad edilməsi işinə verdiyiniz daimi dəstək ölkəmizdə Sizə dərin hörmət və ehtiram qazandırmışdır.

Fürsətdən istifadə edərək, tarixi əhəmiyyət daşıyan Şuşa Bəyannaməsinin təsdiq edilməsi münasibətilə

məmnunluğumu ifadə edirəm. Bu sənəd Azərbaycan–Türkiyə strateji müttəfiqlik münasibətlərində yeni səhifə açır, regionda sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verir. Biz qardaş Türkiyə ilə gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımızı və səmərəli fəaliyyətimizi bundan sonra da birgə səylərimizlə genişləndirmək və şaxələndirmək əzmindəyik.

Əziz qardaşım!

Sizə Allahdan möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, qardaş Türkiyə xalqının əmin-amanlığı və firavanlığı naminə məsul fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2022-ci il*

## QEYDLƏR

**1. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 83 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 5–7, 56, 57, 74, 92, 181, 184, 185, 189, 191, 202, 217, 221, 231, 307, 318, 319.

**2. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 202, 318.

**3. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədə-

biyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 6, 47, 106, 119, 122–128, 130, 164, 242, 243, 247.

**4. İsrail Dövləti –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail Dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzi-

bati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 8.

**5. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 34,2 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 9, 11–14, 18, 19, 20, 271, 272.

**6. Salman bin Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanı Kralıdır. – 9, 11, 18, 21, 271.

**7. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də

qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 10, 76, 80, 288, 289, 291.

**8. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 10, 81, 271.

**9. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir Yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş

Komandanın birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 10, 47, 98, 102, 106, 124, 133, 134, 155, 156.

**10. OPEC+** (Neft ixrac edən ölkələr təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 10, 14, 18, 272.

**11. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 15, 113, 269.

**12. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 16, 126.

**13. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respubli-

kası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində

atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 19, 52–55, 74, 87, 110, 111, 113, 114, 126, 149, 154, 203, 299, 304, 310, 315–317.

**14. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 22–34, 36, 50, 65, 176, 177, 181, 256, 257, 281, 282.

**15. Volodimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi, siyasətçi, rejissor, bədii direktor, aktyor. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 22–24, 27, 29, 32, 36, 65, 176.

**16. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 24, 30, 73, 79, 80.

**17. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının

təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 26, 33, 34.

**18. Pərviz Şahbazov,** P ə r v i z O q t a y o ğ l u (d. 1969) – mühəndis, diplomat. 2005–2016-cı illərdə Azərbaycanın Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Energetika naziridir. – 27, 182, 192, 193, 199.

**19. Mikayıl Cabbarov,** M i k a y ı l Ç i n g i z o ğ l u (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 23 oktyabr 2019-cu ildən İqtisadiyyat naziridir. – 27, 28.

**20. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il) və 2005-ci ildə qurumu tərk etdi. – 31.

**21. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 31, 46, 74, 96, 181, 184, 185, 189, 191, 217, 221, 231.

**22. Moldova,** Moldova Respublikası– Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 31, 181, 208, 209.

**23. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 37, 50, 92, 160, 181.

**24. Monteneqro** – Cənub-şərqi Avropada dövlət. Monteneqro Balkan yarımadasında yerləşir. Ümumi sahəsi 13,8 km$^2$, əhalisinin ümumi sayı 630 min nəfərdir. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Podqoritsa şəhəridir. – 39, 181.

**25. Hacı Zeynalabdin Tağıyev,** H a c ı Z e y n a l a b d i n T a ğ ı o ğ l u (1838–1924) – məşhur mesenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, Toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət Bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Hacı savadsızlıqla mübarizə aparmış, Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün Toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir, qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir, 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edirdi. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı. Bakıya «Şollar» su kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qə-

səbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 41, 43–45, 48.

**26. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESCO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 41, 46, 47, 68–70, 119, 128, 236, 242.

**27. Xanlar Əhmədov,** Xanlar Əhməd oğlu (d.1946) – rəssam-heykəltəraş, Azərbaycan Respublikasının Xalq rəssamı. Xanlar Əhmədov Xocalı faciəsini əks etdirən silsilə əsərlərini yaradıb. Bu cür heykəltəraşlıq və qrafika əsərlərinə nümunə olaraq «Nalə», «Ana körpəsi ilə», «Yanmış qadın», «Ata fəryadı», «Fikir», «Ana», «Tomris ana», «Leyli və Məcnun», «Əzmkarlıq» əsərlərini göstərmək olar. – 41–43.

**28. Anar Ələkbərov,** Anar Sahib oğlu – diplomat. 2008-ci ildə Heydər Əliyev Fondunun icraçı direktoru, 2012-ci ildə isə Heydər Əliyev Mərkəzinin direktoru, 2019-cu il 29 noyabr tarixli Sərəncamla isə Azərbaycan Respublikası Prezidentinin köməkçisi təyin edilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 43.

**29. Əziz Əliyev,** Əziz Məmmədkərim oğlu (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 45.

**30. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il

sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 45, 58, 66, 105, 154, 170.

**31. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 45, 50, 74, 81–85, 92, 105, 106, 149, 189, 203, 217, 277–304, 306–308, 310–317.

**32. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 45, 50, 71, 231, 282.

**33. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 km$^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 46.

**34. Gəncə** – Azərbaycan Respublikasında əhalisinə görə Bakıdan sonra ikinci böyük şəhər. Gəncə şəhəri Kiçik Qafqazın şimal-şərqində, Gəncə–Qazax düzənliyində yerləşir. Sahəsi 173 $km^2$, əhalisi 360,4 min nəfərdir. – 46, 87–104, 146, 147.

**35. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azər-

baycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 46, 153.

**36. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 $km^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 47, 103, 126, 223–236, 238– 243, 245, 246.

**37. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 47, 61, 126, 130, 242.

**38. Ağoğlan** (*Hadrut*) – Azərbaycan Respublikasının Xocavənd rayonu inzibati ərazi dairəsində qəsə-

bə. Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğal edilmişdir.

9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir. – 47, 127, 242.

**39. Qarabağ Dirçəliş Fondu** – Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılmış qurum. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il Fərmanı əsasında publik şəxs kimi yaradılmışdır. – 48.

**40. YAŞAT Fondu** – Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu. Fond Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinin və  işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinin sosial mü-

dafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə yaradılıb. – 48.

**41. Vladimir Putin** (d.1952) –2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 50, 81, 82, 83, 84, 277, 279, 283, 286, 287, 298, 299, 304–308, 309, 312, 316.

**42. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı

Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 51–55.

**43. «Facebook»** – dünyanın ən böyük sosial şəbəkəsi. Sosial əlaqə və informasiya mübadiləsinin möhkəmləndirilməsi məqsədilə 2004-cü ildə Mark Zukerberq tərəfindən yaradılmışdır. – 51.

**44. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 52, 68, 69, 202, 223, 227, 232, 236, 243, 245, 246, 248, 251, 253, 254, 277, 315, 317.

**45. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan  Muxtar Sovet Sosialist Respublika-

sı, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 54, 221.

**46. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 56, 57, 92, 200, 276.

**47. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Av-

ropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 56, 57, 178–180, 193–195, 197, 200, 268, 274–276.

**48. Şarl Mişel** (d.1975) – belçikalı siyasətçi. 2014–2019-cu illərdə Belçikanın Baş Naziri olmuşdur. 2019-cu ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 56, 184, 200, 274, 275.

**49. Emmanuel Makron** (d.1977) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransa Respublikasının Prezidentidir. «İrəli, Respublika» siyasi partiyasının yaradıcısı və lideridir. – 56, 200, 276.

**50. «Şərq Tərəfdaşlığı» Proqramı** – Avropa İttifaqının üzv ölkələri Polşa və İsveçin MDB-yə daxil olan Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukrayna ilə qonşuluq siyasəti çərçivəsində münasibətlərin yaxşılaşdırılmasına aid layihə. – 57.

**51. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin

Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 60, 92, 232.

**52. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 60.

**53. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 61–64, 74, 189, 307.

**54. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildən ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 61,103, 126, 163, 240, 241.

**55. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən, yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 62, 99, 130, 154, 163, 171, 189, 221, 224, 265.

**56. Şahin Mustafayev,** Ş a h i n A b d u l l a o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri, 2016–2019-cu illərdə isə İqtisadiyyat naziri olmuşdur. 22 oktyabr 2019-cu ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir. – 62.

**57. İbrahim Rəisi** (d.1960) – siyasətçi və dövlət xadimi. 2021-ci ildən İran İslam Respublikasının Prezidentidir. – 63, 206.

**58. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 71.

**59. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilkin partiya təşkilatı vardır. Parti-

yada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 71.

**60. TASS İnformasiya Agentliyi** – Rusiyanın informasiya agentliyi. Dünyanın ən böyük 4 informasiya agentliyindən biri. – 74, 315, 317.

**61. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya, Baş Assambleyanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 75, 79.

**62. Trans-Anadolu qaz boru kəməri** (TANAP) – Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 mil-

yard kubmetr qaz ötürülməsi nəzərdə tutulur. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql edilir. – 76, 181.

**63. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 76, 178, 179, 181–187, 191–194, 197, 199, 217, 270, 274, 275.

**64. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 77.

**65. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məq-

sədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 77.

**66. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 78, 79.

**67. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkatda sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 79, 142.

**68. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstə-

rən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 80, 289.

**69. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla

mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 80, 105, 232, 288, 289.

**70. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 80, 81, 257, 288, 289.

**71. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 $km^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. – 88, 98, 129, 220.

**72. Ülvi Mehdiyev,** Ülvi Ramiz oğlu (d.1985) – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri. – 88–91.

**73. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 92, 155, 268.

**74. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin ya-

rımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min $km^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 92, 108, 181, 184, 231.

**75. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min $km^2$, əhalisi 51,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 92.

**76. Gəncə terroru** – İkinci Qarabağ müharibəsi zamanı Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən bombalanması ilə törədilən terror aktları. Mülki şəxsləri hədəf alan hücumlar nəticəsində 26 nəfər ölmüş, 142 nəfər yaralanmışdır. Hücumlardan həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. Terror aktları nəticəsində şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ciddi ziyan dəymişdir. Bununla da Ermənistan yenə beynəlxalq hüququn norma və prinsiplərini, insan haqlarını kobudcasına pozmuş, qeyri-insani əməllərinin arealını genişləndirmişdir. – 93.

**77. Cenevrə Konvensiyası –** 1949-cu ildə İsveçrənin Cenevrə şəhərində keçirilən konfransda dörd Cenevrə Konvensiyası qəbul edilmişdir. Cenevrə konvensiya-

ları və onlara əlavə edilmiş protokollar siahlı münaqişələr zamanı yaralı, xəstə və gəmi qəzasına uğramış hərbçilərin vəziyyətini yaxşılaşdırmaq, hərbi əsirlərə baş çəkmək, mülki əhaliyə köməklik göstərmək və ümumilikdə, humanitar hüquq ilə mühafizə edilən şəxslərə qarşı müvafiq rəftarı təmin etmək hüququnu müəyyən edir. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi bütün beynəlxalq norma və prinsiplərə əməl etməyərək Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozub – dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə alıb, mülki vətəndaşlara qarşı cinayətlər törədib. Hədəf kimi seçilən ərazilər əhalinin kompakt olduğu məntəqələr – rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektlər – xəstəxanalar, tibb məntəqələri, məktəb binaları, uşaq bağçalarıdır. – 93.

**78. AZƏRTAC,** Azərbaycan Dövlət İnformasiya Agentliyi – Azərbaycanın milli informasiya agentliyi, yerli və xarici KİV-lər üçün rəsmi informasiya mənbəyi. 1920-ci il martın 1-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılıb. Agentlik sovet hakimiyyəti illərində müxtəlif adlarla fəaliyyət göstərib. Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən sonra agentlik özünün tarixi adını bərpa edib. – 95, 107, 214, 222, 315, 317.

**79. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xan-

kəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 103, 104.

**80. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq, ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII– IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şah (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 105, 153.

**81. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 108.

**82. Birinci Qarabağ müharibəsi** – 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər əsasən 1992-ci ildə başlanmışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 113, 133, 201, 252.

**83. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur. 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 17 fakültəsi, 121 kafedrası, 37 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6 muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi vardır. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 65 ixtisas, magistr pilləsində 43 ixtisas və 210 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 115.

**84. Vaqif Poeziya Günləri** – ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Şuşa şəhərində Molla Pənah Vaqifin məqbərəsinin açılışı ilə hər il keçirilən milli mədəniyyət və sənət günləri. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilənədək Şuşa şəhərində hər il keçirilən Vaqif Poeziya Günləri Ali Baş Komandanın rəhbərli-

yi ilə Şuşa azad olunandan sonra yenidən bərpa edilmişdir. – 123, 163.

**85. Molla Pənah Vaqif,** Pənah Mehdi ağa oğlu (1717) – XVIII əsr Azərbaycan şairi, məşhur ictimai və siyasi xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri. Vaqif lirikasının əsas xüsusiyyətləri millilik, xəlqilik, realizm, sadəlik və nikbinlikdir. Vaqif yaradıcılığında «Badi-səba, bir xəbər ver könlümə», «Namə gedər olsan yarın kuyinə», «Bayram oldu», «Gözlərin cəlladdır, baxışın yağı», «Durnalar», «Heyran olmuşam» və s. şeirləri xüsusi yer tutur. 12 yanvar 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. – 123.

**86. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Əhalisi 40,2 min nəfər, sahəsi 802 $km^2$-dir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 126.

**87. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min

nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 126, 129, 220.

**88. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u (DİF) – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. 1971-ci ildə yaradılmışdır. Ötən əsrin 70-ci illərinin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlandı. 1987-ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos forumu üçün ənənəvi şəkildə illik keçirilən görüşlər xarakterikdir. DİF-in hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 27–31 yanvar 1995-ci ildə Heydər Əliyev ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib. – 139, 140, 188.

**89. Azərbaycan Diplomatik Akademiyası** (ADA Universiteti) – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit kimi sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 142.

**90. Polad Həşimov,** Polad İsrayıl oğlu (1975–2020) – general-mayor, Azərbaycanın Milli Qəhrəmanı. 2020-ci il iyulun 14-də Tovuz istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. – 145–147.

**91. Donald Tramp** (d.1946) – ABŞ-ın siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü. 2017–2021-ci illərdə ABŞ-ın Prezidenti olmuşdur. – 160.

**92. «Washington Post»** – Amerika Birləşmiş Ştatlarının ən qədim qəzetidir. Qəzet çapa 1877-ci ildə başlamışdır. – 160.

**93. «New York Post»** – Amerika Birləşmiş Ştatlarının ən tanınmış qəzetlərindən biri. Qəzet çapa 1801-ci ildə başlamışdır. – 160.

**94. «Xarıbülbül» festivalı** – 1989-cu ildən Şuşa şəhərində keçirilən beynəlxalq musiqi festivalı. «Xarıbülbül» beynəlxalq musiqi festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Dağlıq Qarabağ münaqişəsinin başlaması və Şuşa şəhərinin işğal olunması ilə festivalın keçirilməsi mümkün olmamışdır. Şuşa şəhəri Ermənistan işğalından azad olunduqdan sonra festivalın keçirilməsi bərpa edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və «Xarıbülbül» festivalı da bərpa olunmuşdur. 2021-ci il mayın 12-si və 13-ündə Şuşa şəhərində yenidən «Xarıbülbül» festivalı keçirilmişdir. – 163.

**95. İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uza-

naraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və digər abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsr və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir. Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. 2000-ci ildə UNESCO Ümumdünya irs siyahısına salınmışdır. – 164.

**96. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 181.

**97. Trans-Adriatik boru xətti** (TAP) – Xəzərin Azərbaycan sektorundan təbii qazı Yunanıstandan Albaniya və Adriatik dənizindən keçərək İtaliyaya və daha sonra qərbi Avropaya nəql edəcək boru xətti layihəsidir. «Cənub Qaz Dəhlizi» layihəsinin bir hissəsi olan TAP kəməri ilə «Şahdəniz-2» layihəsi çərçivəsində hasil olunan qazın ilkin olaraq ildə 10 mlrd. kubmetrinin Avropaya nəqli nəzərdə tutulur, bununla da Avropada təxminən 7 milyon ailə enerji ilə təmin ediləcəkdir. – 181, 183.

**98. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 181, 184, 185.

**99. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 181.

**100. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, başnak, serb və xorvat) milli və dini zəmində yaranmış qarşıdur-

ma qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında Saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yaradıldı. Sahəsi 51,2 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 181.

**101. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 181.

**102. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 183, 191, 193.

**103. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 184.

**104. Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 184.

**105. «Azəri–Çıraq–Günəşli»** – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti adından *bp* şirkəti tərəfindən işlənilir. – 187.

**106. UNESCO** – BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır.

Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESCO-nun üzvüdür. – 201.

**107. Maya Sandu** (d.1972) – Moldovanın dövlət və siyasi xadimi. 2012–2015-ci illərdə Moldovanın Təhsil naziri, 2014–2019-cu illərdə Moldova Parlamentinin üzvü, 2019–2020-ci illərdə isə Baş Naziri olmuşdur. 2020-ci ildən Moldova Respublikasının Prezidentidir. – 208.

**108. Özbəkistan,** Özbəkistan Respublikası– Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 34 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 231.

**109. Ağdam Cümə məscidi** – Azərbaycanın Ağdam rayonunun inzibati mərkəzində yerləşən tarixi-memarlıq abidəsi. Ağdam şəhərindəki Cümə məscidi Kərbəlayi Səfixan Qarabağı adlı memar tərəfindən 1868–1870-ci illərdə tikilmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən 1992–1994-cü illərdə Azərbaycan ərazisinin 20%-i işğal edildikdən sonra Ağdam Cümə məscidi də dağıdılmışdır. Müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdikdən sonra məsciddə bərpa işlərinə başlanılmışdır. – 236, 239, 241.

**110. Pənah xan,** P ə n a h ə l i x a n (1693–1763) Qarabağ xanlığının yaradıcısı və birinci hakimi. Cavanşir xanları sülaləsinin əsasını qoymuşdur. – 247.

**111. Natəvan,** X u r ş i d b a n u x a n q ı z ı (1832–1897) – tanınmış Azərbaycan şairəsi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 247.

**112. İbrahim xan,** İ b r a h i m x ə l i l x a n (1732–1806) – Qarabağ xanı. İbrahimxəlil xan dövründə Qarabağ xanlığı inkişaf etmiş, Şuşada elm, mədəniyyət və incəsənət işçilərindən ibarət ziyalı sinfi yarandı. 1806-cı ildə İbrahim xan Şuşa yaxınlığında ailəsi ilə birlikdə rus mayoru Lisaneviçin dəstəsi tərəfindən qətlə yetirilmişdir. – 247.

**113. Vilayət Eyvazov,** V i l a y ə t S ü l e y m a n o ğ l u (d.1968) – Azərbaycan hərbi və siyasi xadimi, general-polkovnik. Vilayət Eyvazov 20 iyun 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Daxili işlər naziri təyin edilmişdir. Azərbaycan Respublikasının «Azərbaycan bayrağı» və «Zəfər» ordenləri ilə təltif edilmişdir. – 251.

**114. Saleh Məmmədov,** S a l e h Ə r ş a d o ğ l u (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı və «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 253.

**115. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 256.

**116. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,3 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 257–259.

**117. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 257, 258.

**118. Aleksandr Vuçiç** (d.1970) – Serbiyanın dövlət və siyasi xadimi. 2017-ci ildən Serbiya Respublikasının Prezidentidir. – 267.

**119. Frank-Valter Ştaynmayer** (d.1956) – Almaniya dövlət və siyasi xadimi. 2005–2009 və 2013–2017-ci illərdə Almaniyanın Xarici İşlər naziri, 2007–2009-cu illərdə isə vitse-kansler olmuşdur. Ştaynmayer Sosial-Demokrat Partiyasının üzvü və hüquq elmləri doktorudur. 2017-ci ildən Almaniya Federativ Respublikasının Prezidentidir. – 268.

**120. Boris Conson** (d.1964) – Britaniya siyasətçisi. 2019-cu ildən Mühafizəkarlar Partiyasının lideri və Böyük Britaniyanın Baş Naziridir. – 269.

**121. *bp*** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 270.

**122. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının  müşavirəsi olmuşdur. Onlar Avropada təh-

lükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzalamışlar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 288.

**123. Aleksey Overçuk** (d.1964) – Rusiyanın dövlət və siyasi xadimi. Rusiya Federasiyası Hökumət sədrinin müavini. – 311.

**124. Sergey Lavrov** (d.1950) – Rusiyanın dövlət və siyasi xadimi. 2004-cü ildən Rusiya Federasiyasının Xarici İşlər naziridir. – 316.

**125. Patriarx Kirill** (d.1946) – Rusiyanın din xadimi. 2009-cu ildən Moskva və bütün Rusiyanın Patriarxıdır. – 316.

## Şəxsi adlar göstəricisi


**Abbaszadə Orucəli** – 119
**Abdullayev Sabiq** – 236
**Ağakişiyeva Azelma** – 168
**Axundova Ülviyyə** – 135
**Al Səud Əbdül Əziz bin Salman** – 9, 11, 18, 21, 271
**Al Səud Məhəmməd bin Salman** – 18
**Aleksander Van Der Bellen** – 273
**Alızadə Ramtiq** – 148
**Babazadə Toğrul** – 122
**Bayramov Niyazi** – 90, 91
**Beçiç Aleksa** – 39
**Cabbarov Mikayıl** – 27, 28
**Caparova Emine** – 22
**Cavadov Ağahüseyn** – 87
**Cəbrayılov Coşqun** – 260, 266
**Cəfərqulu xan Cavanşir** – 247
**Conson Boris** – 269
**Dadaşlı Əmir** – 87
**Duda Andjey** – 257, 258
**Dümon İzabel** – 56, 57
**Eyvazov Vilayət** – 251
**Əhmədov Xanlar** – 41–43
**Ələkbərov Anar** – 43
**Ələkbərov Ələsgər** – 87
**Əliyev Əziz** – 45

**Əliyev Heydər** – 19, 52–55, 74, 87, 110, 111, 113, 114, 126, 149, 154, 203, 299, 304, 310, 315–317
**Əliyeva Mehriban** – 52, 68, 69, 202, 223, 227, 232, 236, 243, 245, 246, 248, 251, 253, 254, 277, 315, 317
**Ərdoğan Əminə** – 202
**Ərdoğan Rəcəb Tayyib** – 5, 202, 318
**Gəraybəyli Ağasadıq** – 87
**Harris Devid** – 37, 38
**Hersoq Aura** – 8
**Hersoq İsxak** – 8
**Həbibullayev Elgin** – 260, 266
**Həsənli Jalə** – 115
**Həsənov Elbrus** – 173
**Həşimov Polad** – 145–147
**Həşimova Aybəniz** – 145
**Hüseyn Elçin** – 162
**Hüseynli Güllü** – 139
**Hüseynov Emin** – 234, 244, 245, 247
**Xurşidbanu Natəvan** – 247
**İbrahimxəlil xan** – 247
**İbrahimov Elxan** – 260, 266
**Kərbəlayi Səfixan Qarabaği** – 236
**Kərimov Elman** – 248
**Kirill** (*patriarx*) – 316
**Klaar Toivo** – 56, 57, 274, 275

**Qasımov Ruslan** – 157
**Qasimi Rüstəm** – 61, 63
**Qədri Fatma** – 87
**Qəhrəmanzadə Orduxan** – 142
**Qusman Mixail** – 74–76, 78, 80–85, 315
**Quzlayev Denis** – 165
**Lavrov Sergey** – 316
**Leşçenko Roman** – 28
**Makron Emmanuel** – 56, 200, 276
**Mattarella Sercio** – 108
**Mehdiqulu xan Cavanşir** – 247
**Mehdiyev Ülvi** – 88–91
**Məmmədli Cəmilə** – 132
**Məmmədov Mehdi** – 87
**Məmmədov Saleh** – 253
**Məmmədov Şahin** – 251
**Mikuriya Kunio** – 72, 73
**Mişel Şarl** – 56, 184, 200, 274, 275
**Mişustin Mixail** – 310, 312
**Mustafayev Şahin** – 62
**Molla Pənah Vaqif** – 123
**Nuriyev Elşad** – 227
**Osmanlı Ülvi** – 173
**Overçuk Aleksey** – 311
**Pənahəli xan** – 247
**Popesku Niku** – 208, 209
**Putin Vladimir** – 50, 81–84, 277, 279, 283, 286, 287, 298, 299, 304–309, 312, 316

**Rəisi İbrahim** – 63, 206
**Rudenko Andrey** – 277
**Rzayev Baba** – 203, 210, 223, 250
**Sandu Maya** – 208
**Simson Kadri** – 178, 179, 182, 193
**Səttarova Fatma** – 58, 59, 66, 67
**Stoltenberq Yens** – 256
**Şahbazov Pərviz** – 27, 182, 192, 193, 199
**Şevçenko Taras** – 33
**Ştaynmayer Frank-Valter** – 268
**Tağıyev Hacı Zeynalabdin** – 41, 43–45, 48
**Talıblı İsmayıl** – 87
**Talıbzadə Şəhla** – 128
**Tokayev Kasım-Jomart** – 71
**Topçibaşev Nəriman** – 232, 234
**Tramp Donald** – 160
**Vereşçuk İrina** – 27
**Veysəlova Rəmziyyə** – 87
**Vitrenko Yuri** – 28
**Vuçiç Aleksandr** – 267
**Yusupov Rolan** – 152
**Zavadski Sergiy** – 28
**Zelenski Volodimir** – 22–24, 27, 29, 32, 36, 65, 176
**Zıkina Lyudmila** – 317
**Ziya Kazım** – 87

## Coğrafi adlar göstəricisi


**Abşeron** – 204, 211
**Ağalı** – 130
**Ağcabədi** – 223,248, 250, 251, 254
**Ağdam** – 47, 103, 126, 223–236, 238–243, 245, 246
**Ağoğlan** (*Hadrut*) – 47, 127, 242
**Albaniya** – 181, 184, 185
**Almaniya** – 92, 155, 268
**Amerika Birləşmiş Ştatları** – 37, 50, 92, 160, 181
**Astaraçay** – 62
**Aşağı Avşar** – 253, 254
**Avrasiya** – 308
**Avropa** – 16, 45, 56, 57, 140, 141, 154, 172, 173, 189, 198, 221, 256
**Avstriya** – 236, 273
**Avşar** – 253, 254
**Balaxanı** – 170, 228
**Belçika** – 232
**Bəhrəmtəpə** – 253, 254
**Bərdə** – 103, 147, 240
**Bəsitçay** – 171, 172
**Bolqarıstan** – 181, 184, 185
**Bosniya və Herseqovina** – 181
**Böyük Britaniya** – 181, 269

**Brüssel** – 56, 57, 200, 208, 275, 276
**Cəbrayıl** – 16, 126
**Çin** – 60, 92, 232
**Dağıstan** – 45
**Daşaltı** – 47, 127, 242
**Daşkəsən** – 96, 98
**Ələt** – 77
**Ər-Riyad** – 19
**Fransa** – 56, 57, 92, 200, 276
**Füzuli** – 61, 103, 126, 163, 240, 241
**Gədəbəy** – 88
**Gəncə** – 46, 87–104, 146–147
**Goranboy** – 88, 103
**Göygöl** – 88, 96, 98
**Gürcüstan** – 31, 46, 74, 96, 181, 184, 185, 189, 191, 217, 221, 231
**Hacıqabul** – 228
**Hollandiya** – 92
**Xaçınçay** – 240
**Xankəndi** – 106
**Xındırıstan** – 223
**Xızı** – 15
**Xocalı** – 88
**Xocavənd** – 253, 254
**Xorvatiya** – 181
**İngiltərə** – 92

**İran** – 61–64, 74, 189, 307
**İrəvan** – 105, 153
**İsmayıllı** – 173
**İsrail** – 8
**İsveçrə** – 96
**İtaliya** – 92, 108, 181, 184, 231
**Kəlbəcər** – 88, 98, 129, 220
**Kiyev** – 22–24, 27, 29, 36
**Koreya** – 92
**Kürdəmir** – 260, 265, 266
**Qafqaz** – 46, 56, 57, 73, 74, 107, 171, 289, 303, 308, 312
**Qarabağ** – 42, 66, 67, 81, 82, 99, 112, 120, 121, 122, 126, 154, 155, 157, 162, 163, 165, 189, 224, 225, 229, 233, 234, 243, 245–247, 265, 279, 281, 302
**Qaradağ** – 77, 228
**Qazax** – 96
**Qazaxıstan** – 45, 50, 71, 231, 282
**Qobu** – 47, 188
**Quba** – 91, 152, 205
**Qubadlı** – 126
**Laçın** – 126, 129, 220
**Macarıstan** – 181
**Mahaçqala** – 45
**Masallı** – 228
**Mingəçevir** – 103, 228, 253, 254

**Moldova** – 31, 181, 208, 209
**Monteneqro** – 39, 181
**Moskva** – 53, 278, 279, 286, 298, 301, 310, 315, 316
**Murov** – 98
**Naftalan** – 88, 103
**Naxçıvan** – 46
**Naxçıvan Muxtar Respublikası** – 54, 221
**Neftçala** – 228
**Oxçuçay** – 171, 172
**Özbəkistan** – 231
**Pirallahı** – 228
**Pekin** – 60
**Polşa** – 257–259
**Rumıniya** – 181
**Rusiya** – 45, 50, 74, 81–85, 92, 105, 106, 149, 189, 203, 217, 277–304, 306–308, 310–317
**Sabirabad** – 228
**Salmanbəyli** – 253, 254
**Samux** – 88
**Sankt-Peterburq** – 45
**Serbiya** – 181, 267
**Səudiyyə Ərəbistanı** – 9, 11–14, 18–20, 271– 272
**Sumqayıt** – 171, 228

**Şamaxı** – 46
**Şəmkir** – 88
**Şərur** – 228
**Şimali Makedoniya** – 181
**Şuşa** – 6, 47, 106, 119, 122–128, 130, 164, 242, 243, 247
**Tərtər** – 103, 147
**Türkiyə** – 5–7, 56, 57, 74, 92, 181, 184, 185, 189, 191, 202, 217, 221, 231, 307, 318, 319
**Türkmənistan** – 181
**Ucar** – 254
**Ukrayna** – 22–34, 36, 50, 65, 176, 177, 181, 256, 257, 281, 282
**Yunanıstan** – 181, 184, 185
**Zəngəzur** – 62, 99, 130, 154, 163, 171, 189, 221, 224, 265
**Zəngilan** – 47, 61, 126, 130, 242
**Zərdab** – 254

# MÜNDƏRİCAT

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*11 yanvar 2022-ci il................................................................ 5*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSXAK HERSOQA

*11 yanvar 2022-ci il................................................................ 8*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ENERGETİKA NAZİRİ ŞAHZADƏ ƏBDÜL ƏZİZ BİN SALMAN AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 yanvar 2022-ci il .............................................................. 9*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ «ACWA POWER» ŞİRKƏTİNİN ÖLKƏMİZDƏ İNŞA EDƏCƏYİ «XIZI–ABŞERON» KÜLƏK ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*13 yanvar 2022-ci il ............................................................ 12*

UKRAYNAYA İŞGÜZAR SƏFƏR

*14 yanvar 2022-ci il.............................................................. 22*

UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*14 yanvar 2022-ci il*............................................................ *23*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 yanvar 2022-ci il*............................................................ *24*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 yanvar 2022-ci il*............................................................ *27*

UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 yanvar 2022-ci il*............................................................ *29*

UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİNİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ LANÇDA İŞTİRAK

*14 yanvar 2022-ci il*............................................................ *36*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 yanvar 2022-ci il*............................................................ *37*

MONTENEQRO PARLAMENTİNİN SƏDRİ ALEKSA BEÇİÇ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*17 yanvar 2022-ci il*............................................................ *39*

XEYRİYYƏÇİ HACI ZEYNALABDİN TAĞIYEVİN BAKIDA UCALDILMIŞ ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*18 yanvar 2022-ci il* ............................................................. *41*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*18 yanvar 2022-ci il*.............................................................. *50*

AZƏRBAYCAN PREZİDENTİNİN RƏSMİ «FACEBOOK» SƏHİFƏSİNDƏN

*19 yanvar 2022-ci il* ............................................................ *51*

ÜMUMXALQ HÜZN GÜNÜNDƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2022-ci il* ............................................................. *52*

FRANSA PREZİDENTİ KABİNETİNİN KONTİNENTAL AVROPA VƏ TÜRKİYƏ ÜZRƏ MÜŞAVİRİ İZABEL DÜMON VƏ AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAAR İLƏ GÖRÜŞ

*20 yanvar 2022-ci il* ............................................................. *56*

AZƏRBAYCAN RESPUBLİKASI MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI QÜVVƏLƏR VETERAN-LARI TƏŞKİLATININ SƏDRİ, İKİNCİ DÜNYA MÜHARİBƏSİ VETERANI FATMA SƏTTAROVAYA

*24 yanvar 2022-ci il*.............................................................. *58*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*24 yanvar 2022-ci il*.............................................................. *60*

İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ
ŞƏHƏRSALMA NAZİRİ RÜSTƏM QASİMİ-
NİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*25 yanvar 2022-ci il*.............................................................. *61*

UKRAYNA PREZİDENTİ VOLODİMİR
ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*25 yanvar 2022-ci il*.............................................................. *65*

İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN İŞTİ-
RAKÇISI, AZƏRBAYCAN RESPUBLİKASI
MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI
QÜVVƏLƏR VETERANLARI TƏŞKİLA-
TININ SƏDRİ FATMA SƏTTAROVA İLƏ
GÖRÜŞ

*25 yanvar 2022-ci il*.............................................................. *66*

XƏZƏR RAYONUNUN BİNƏ QƏSƏBƏSİNDƏ
YENİ İNŞA EDİLMİŞ TƏDRİS VƏ XİDMƏT
KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*27 yanvar 2022-ci il* ........................................................... *68*

QAZAXISTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
KASIM-JOMART TOKAYEVƏ

*28 yanvar 2022-ci il*.............................................................. *71*

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ VİDEO-FORMATDA GÖRÜŞ

*28 yanvar 2022-ci il* ........................................................... *72*

«ROSSİYA-24» KANALINA MÜSAHİBƏ

*30 yanvar 2022-ci il* ........................................................... *74*

GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*30 yanvar 2022-ci il* ........................................................... *87*

AZƏRBAYCAN DÖVLƏT İNFORMASİYA AGENTLİYİNƏ – AZƏRTAC-a MÜSAHİBƏ

*30 yanvar 2022-ci il*............................................................. *95*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*31 yanvar 2022-ci il*.......................................................... *108*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏLƏRDƏKİ HESABINDAN

*2 fevral 2022-ci il* ........................................................... *109*

AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜNÜN 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ GƏNCLƏR FORUMUNDA İŞTİRAK

*2 fevral 2022-ci il* ............................................................. *110*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VOLODİMİR ZELENSKİYƏ

*3 fevral 2022-ci il* .......................................................... *176*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISINDA İŞTİRAK EDƏN AVROPA İTTİFAQININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI KADRİ SİMSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 fevral 2022-ci il* .......................................................... *178*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VIII TOPLANTISINDA İŞTİRAK

*4 fevral 2022-ci il* .......................................................... *181*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ EMMANUEL MAKRONUN, AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞELİN VƏ ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYANIN İŞTİRAKI İLƏ VİDEOFORMATDA KEÇİRİLMİŞ GÖRÜŞDƏ İŞTİRAK

*4 fevral 2022-ci il* .......................................................... *200*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*5 fevral 2022-ci il* .......................................................... *202*

YENİDƏN QURULMUŞ STRATEJİ ƏHƏMİYYƏTƏ MALİK «YAŞMA» QOVŞAQ YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*8 fevral 2022-ci il* ............................................................ *203*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD İBRAHİM RƏİSİYƏ

*8 fevral 2022-ci il* ............................................................ *206*

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİR MÜAVİNİ, XARİCİ İŞLƏR VƏ AVROPAYA İNTEQRASİYA NAZİRİ NİKU POPESKU İLƏ GÖRÜŞ

*10 fevral 2022-ci il* .......................................................... *208*

«QOBU» YARIMSTANSİYASININ VƏ «QOBU» ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*11 fevral 2022-ci il* .......................................................... *210*

AZƏRBAYCAN DÖVLƏT İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*11 fevral 2022-ci il* .......................................................... *214*

AĞDAM RAYONUNA SƏFƏR

*13 fevral 2022-ci il* .......................................................... *223*

HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN AĞDAM CÜMƏ MƏSCİDİNDƏ GÖRÜLƏN

BƏRPA-RESTAVRASİYA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*13 fevral 2022-ci il* ........................................................ *236*

AĞCABƏDİ RAYONUNA SƏFƏR

*13 fevral 2022-ci il* ........................................................ *248*

DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ AĞCABƏDİ RAYONUNDA YENİ İNŞA OLUNMUŞ HƏRBİ ŞƏHƏRCİYİNİN AÇILIŞI MƏRASİMİ

*13 fevral 2022-ci il* ........................................................ *251*

NATO-nun BAŞ KATİBİ YENS STOLTENBERQ İLƏ TELEFONLA GÖRÜŞ

*15 fevral 2022-ci il* ........................................................ *256*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ TELEFONLA GÖRÜŞ

*16 fevral 2022-ci il* ........................................................ *257*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDJEY DUDAYA

*17 fevral 2022-ci il* ........................................................ *258*

BAKI ŞƏHƏRİ NİZAMİ RAYONU, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU VƏ KÜRDƏMİR RAYON İCRA HAKİMİYYƏTLƏRİNİN YENİ TƏYİN EDİLMİŞ BAŞÇILARI İLƏ GÖRÜŞ

*18 fevral 2022-ci il* ........................................................ *260*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ

*21 fevral 2022-ci il* ........................................................ *267*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ

*21 fevral 2022-ci il* ........................................................ *268*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS CONSONA

*21 fevral 2022-ci il* ........................................................ *269*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*21 fevral 2022-ci il* ........................................................ *271*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ

*21 fevral 2022-ci il* ........................................................ *273*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 fevral 2022-ci il* ........................................................ *274*

RUSİYA FEDERASİYASINA RƏSMİ
SƏFƏR

*21 fevral 2022-ci il* ........................................................ *277*

ALEKSANDR BAĞINDA NAMƏLUM
ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*22 fevral 2022-ci il* ........................................................ *278*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*22 fevral 2022-ci il* ........................................................ *279*

«AZƏRBAYCAN RESPUBLİKASI İLƏ
RUSİYA FEDERASİYASI ARASINDA
MÜTTƏFİQLİK QARŞILIQLI FƏALİYYƏTİ
HAQQINDA BƏYANNAMƏ»NİN
İMZALANMASI MƏPASİMİ

*22 fevral 2022-ci il* ........................................................ *286*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİN İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*22 fevral 2022-ci il* ........................................................ *299*

RUSİYA NAZİRLƏR KABİNETİNİN
ƏLAQƏLƏNDİRMƏ MƏRKƏZİ
İLƏ TANIŞLIQ

*22 fevral 2022-ci il* ........................................................ *310*

TASS AGENTLİYİNİN MƏNZİL-QƏRAR-
GAHINDA «RUSİYA VƏ AZƏRBAYCANIN
DİPLOMATİK MÜNASİBƏTLƏRİNİN 30 İLİ
TASS VƏ AZƏRTAC-ın FOTOLARINDA»
ADLI EKSPOZİSİYA İLƏ TANIŞLIQ

*23 fevral 2022-ci il* ......................................................... *315*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB
ƏRDOĞANA

*23 fevral 2022-ci il* ........................................................... *318*

QEYDLƏR............................................................................*320*

*Şəxsi adlar göstəricisi*................................................. *371*

*Coğrafi adlar göstəricisi*............................................. *375*

**Texniki redaktor** *Zoya Nəcəfova*

**Yığım üzrə operator** *İlhamə Kərimova*

**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.